**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi**

**Azərbaycan Dövlət Aqrar Universiteti**

# *POLİTOLOGİYA*

***(Dərslik)***

**Azərbaycan Dövlət Aqrar Universitetinin Aqrar iqtisadiyyat fakültəsinin 28.05.2017 tarixli, 09 nömrəli iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.**

**Bakı - 2018**

***Elmi***
***redaktor*:** fəlsəfə elmləri doktoru, professor Əhmədov Ə.İ.

***Müəllif* :** Azərbaycan Dövlət Aqrar Universiteti İctimai elmlər və multikulturalizm kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru ***Hüseynov C.N.***

***Rəy***
***verənlər*:** fəlsəfə elmləri doktoru, professor **Q.İ.Hüseynli**
siyasi elmər doktoru, professor **E.X.Nəsirov**

Hüseynov Ceyhun Nadir oğlu
***Politologiya*** *(dərslik)*
*Bakı,Elm və təhsil,2018,332s.*

*Kitab Azərbaycanda politologiya sahəsində Bolonya prosesinin tələbləri əsasında yazılmış ilk iri həcmli dərslikdir. Kitabda fəal dərsin üstünlükləri, keçirilmə mexanizmi və mərhələləri ətraflı şəkildə açıqlanır, politologiya fənninin tədrisində fəal təlimin debatlar, "əqli hücüm", situativ praktikum, rollar üzrə oyun və sairə bu kimi metodik üsullarından istifadənin yolları göstərilir.*

*Dərslik ali məktəb müəllimləri və tələbələri, habelə sosial-humanitar fənlərlə maraqlananlar üçün nəzərdə tutulmuşdur.*

© *Hüseynov Ceyhun Nadir oğlu*
© *Bakı,Elm və təhsil,2018*

## *Mündəricat*

***Giriş***.............................................................*5*

***Mövzu 1.***

Politologiyanın predmeti, strukturu və funksiyaları...... 13

***Mövzu 2***

Siyasi fikrin əsas inkişaf mərhələləri.............................40

***Mövzu 3***

Azərbaycanda siyasi fikir tarixi....................................79

***Mövzu 4***

Siyasi hakimiyyət və onun subyektləri..........................95

***Mövzu 5***

Siyasi elita və siyasi liderlik.......................................106

***Mövzu 6***

Siyasi sistemlər nəzəriyyəsi.........................................121

***Mövzu 7***

Dövlət və mülki cəmiyyət...........................................135

***Mövzu8***

Siyasi rejimlər və onların təsnifatı...............................158

***Mövzu 9***

Təzyiq qrupları və siyasi partiyalar...............................176

***Mövzu 10***

Parlament ali qanunvericilik təsisatı kimi...................192

***Mövzu 11***

Seçkilər, seçki sistemləri və seçki texnologiyaları.......204

***Mövzu 12***

Siyasi şüur və siyasi ideologiya...................................228

***Mövzu 13***

Siyasi sosiallaşma və onun əsas mərhələləri................238

***Mövzu 14***

Siyasətin və hakimiyyətin sosial əsasları.....................246

**Mövzu 15**

Xarici siyasət və beynəlxalq münasibətlər. Müasir dövrün başlıca qlobal problemləri....................................................267

***Sərbəst mövzular***.......................................................281

***İmtahan sualları***.........................................................284

***Terminlər lüğəti***.........................................................292

***Ədəbiyyat***..................................................................316

# *GİRİŞ*

Bu gün qloballaşmaqda olan dünyada təhsil də universallaşmaqda, bəşəriyyətin ali idealları sırasında öz qabaqcıl yerini qoruyub saxlamaqdadır.

Müasir dünyada özünün inkişaf strategiyasını insan kapitalının və intellektual resursların inkişaf etdirilməsi üzərində quraraq, elmin və təhsilin tərəqqisini demokratik dövlət quruculuğunun başlıca meyarı hesab edən ölkələr yüksəlişə daha asan və etibarlı surətdə nail olurlar.

Hazırki dövrdə cəmiyyət üzvlərinin siyasi biliyinin artırılmasında, onların intellektual səviyyəsinin inkişafında, dövlət və cəmiyyət haqqında təsəvvürlərinin artırılmasında ən etibarlı vasitə təhsil müəssisələrində politologiyanın tədris edilməsidir.

Politologiya fənni üzrə kursun məzmunu özündə üç əsas kateqoriyanı birləşdirir: biliklər, bacarıqlar və dəyərlər.

***Biliklər:***

-siyasət, demokratiya, siyasi təsisatlar, siyasi proseslər, siyasi hakimiyyət, siyasi sistem, siyasi rejim, seçki sistemi, azadlıq və s. kimi siyasi anlayışların tələbələr tərəfindən mənimsənilməsinə və onlarda siyasi dünyagörüşünün formalaşmasına nail olmaq;

-dünyanın qabaqcıl ölkələrinin demokratik təcrübəsinin öyrənilməsi;

-beynəlxalq münasibətlərin və eləcə də Azərbaycandakı siyasi proseslərin mahiyyəti haqqında biliklərə sahib olmaq və s.

***Bacarıqlar:***

-nəzəri və tətbiqi bilikləri bir-birindən ayırmağı bacarmaq, onların siyasi qərarların qəbul edilməsindəki rolunu əsaslandırmaq;

-siyasi tədqiqatlar aparmaq, eləcə də tənqidi və müqayisəli təhlildən istifadə etmək bacarığının formalaşdırılması;

-qərarların qəbul edilməsində iştirak etmək bacarığı;

-kommunikasiya, yəni siyasi informasiyanı dərk etmək və ötürmək bacarığı;

-siyasi prosesləri modelləşdirmək və proqnozlaşdırmaq bacarığı;

-insan və vətəndaş hüquq və azadlıqlarını dərk etmək və onları ictimai həyatın müxtəlif sahələrində istifadə etmək bacarığı;

-dinləmək, öz rəyini müdafiə etmək və diskussiya aparmaq bacarığı;

-müxtəlif siyasi problemlərin müstəqil həll edilməsi təcrübəsi;

-başqaları ilə əməli münasibətlər qurmaq bacarığı;

-nümayəndəli siyasi təsisatlar vasitəsilə fərdi və qrup maraqlarını reallaşdırmaq;

-münaqişələri qeyri-zorakı yolla həll etmək bacarığı və s.

***Dəyərlər:***

-demokratik dəyərlərin və yüksək siyasi mədəniyyətə sahib olmanın insanın təhlükəsiz yaşamasının təminatçısı olmasının dərk edilməsi;

-insanlara qarşı ədalətli münasibət;

-tolerantlığın–başqa fikirlərə və mədəniyyətlərə qarşı hörmətin və dözümlülüyün bir dəyər olaraq tələbələr tərəfindən mənimsənilməsinə nail olmaq və s.

Uzun müddət tərkibində yaşadığımız sovet rejimində siyasi proseslər və hadisələr obyektiv və hərtərəfli təhlil edilmirdi. Çünki belə siyasi konyunkturanın mövcud olduğu, insanların dünyagörüşü, təfəkkür tərzi və siyasi mədəniyyətinin hakim ideologiyaya tabe olduğu cəmiyyətlərdə siyasət daha çox bürokratik aparatın mənafelərinin təmin edilməsinə xidmət edirdi. Ona görə də sovet totalitarizminin siyasi gerçəkliyindən çıxaraq öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan üçün politologiyanın yeni metodologiya əsasında tədrisi mühüm elmi-nəzəri və praktik əhəmiyyət kəsb edir.

Bu bir həqiqətdir ki, demokratiya, azadlıq və insan hüquqları anlayışları hələ də bir qisim insanlar üçün mü- cərrəd qalmaqda davam edir. Bunun əsas səbəblərindən biri köh- nə sovet totalitar cəmiyyətinin ideologiyasına uyğunlaşmış insanlarda azadlıq və demokratiya haqqındakı mənfi rəylərin stereotipləşməsidir. Digər səbəb isə əhalinin siyasi sosiallaşmasının aşağı səviyyədə olmasıdır. Bəzi insanlar Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası ilə elan edilmiş geniş spektrli insan və vətəndaş hüquq və azadlıqlarının mahiyyətini aydın surətdə dərk edə bilmədikləri üçün bu hüquqların reallaşdırılması sahəsində ciddi tərəqqiyə nail ola bilmirlər. Ona görə də müstəqil dövlət quruculuğuna qədəm qoyan, demokratik siyasi mədəniyyəti və vətəndaş cəmiyyətini inkişaf etdirməyə çalışan Azərbaycan Respublikasında əhalinin maarif-

ləndirilməsinə, siyasi gerçəkliyin kütləvi şüurda düzgün qavrayışına və hərtərəfli şərhinə çox böyük ehtiyac var.

Məlum olduğu kimi, Azərbaycanda politologiyanın müstəqil elm və tədris fənni kimi tarixi XX əsrin 90-cı illərindən başlayır. Mövcud olduğu müddətdə politologiya müstəqil tədris fənni kimi böyük təkamül yolu keçmişdir. Politologiyaya aid müxtəlif dərsliklər, dərs vəsaitləri və proqramlar tərtib edilmiş, siyasi həyatın müxtəlif sahələrinə həsr olunmuş xeyli sayda monoqrafiyalar yazılmışdır. Bunlardan H.Şirəliyevin və Ə.Əhmədovun "Politologiya" dərsliyini, Ə.Tağıyevin, X.İbrahimlinin, Q.Əliyevin, M.Əfəndiyevin, R.Musabəyovun, A.Şirinovun, N.Ələkbərovanın, Q.Hüseynlinin və b. müəlliflərin müxtəlif dərs vəsaitlərini və monoqrafiyalarını misal göstərmək olar.

Lakin Avropa məkanına inteqrasiya, ölkəmizin Bolonya prosesinə qoşulması, davamlı inkişafa və təhsilə nail olmaq, interaktiv tədrisin rolunun artırılması, eyni zamanda ölkənin siyasi həyatında baş verən mütərəqqi yeniliklər, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, yeni "Seçki Məcəlləsi"nin, "Siyasi partiyalar haqqında Qanun"un qəbul olunması, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi, ölkə Konstitusiyasına edilən dəyişikliklər, demokratik inkişafın Azərbaycan modelinin təhlil edilməsinin zəruriliyi, yaxın perspektiv üçün elmi cəhətdən əsaslandırılmış proqnozların verilməsi və nəhayət, keçid dövrünün başa çatması ilə modernləşmə mərhələsinə qədəm qoyulması elmlərin də təkmilləşməsini, ali məktəblər üçün yeni dərsliklərin və metodik-dərs vəsaitlərinin nəşrini zəruri tələbata çevirir. Çünki yeni innovasion cəmiyyət yüksək siyasi mədəniyyətə və bilik-

lərə yiyələnməyi, fəal vətəndaş mövqeyi ortaya qoymağı tələb edir. Bütün bunlar isə hərtərəfli və rasional maariflənmə sayəsində gerçəkliyə çevrilir. Bu keyfiyyətlərə sahib ola bilməyən cəmiyyət üzvləri ictimai tərəqqinin artan tempi ilə ayaqlaşa bilmir və ondan kənarda qalırlar.

Müasir informasiya-kommunikasiya texnologiyaları dövründə trendə çevrilən təhsilin ən aktual problemi belə bir cəhətlə şərtlənir: elmin ayrı-ayrı sahələrində əldə edilmiş biliklər elə sürətlə artır ki, təlimin əvvəlki sxem və metodları əsa-sında həmin nailiyyətləri mənimsəmək kifayət qədər çətin olur.

Yalnız təlim üsullarının keyfiyyətcə dəyişdirilməsi, dərsin tədrisi zamanı yaradıcı düşüncədən fəal istifadə edilməsi şəraitində tədrisdə davamlı inkişafa və uğurlara nail olmaq mümkündür.

Bolonya təhsil prosesi tələbələrə fərdi şəkildə yanaşmanı tələb edirsə, deməli, hamıya eyni şeyi eyni üsulla öyrətməyə çalışmaq yanlışdır.

Hazırki dərsliklərdə mövcud olan digər problemlər onlardan əksəriyyətinin sosial-siyasi prosesləri və bəzi elmi-konseptual müddəaları hələ də sovet ideoloji sistemi kontekstindən şərh etməsi və Azərbaycan mütəfəkkirlərinin bəşəri elmi nailiyyətlərin əldə edilməsindəki xidmətlərini işıqlandıra bilməməsidir. Məsələn, siyasi ədəbiyyatda ingilis alimləri T.Hobbs və C.Lokk ictimai müqavilə nəzəriyyəsinin yaradıcısı sayılırlar. Lakin bu bir həqiqətdir ki, həmin mütəfəkkirlərdən hələ xeyli əvvəl N.Tusi dövlətin insanların könüllü ittifaqı əsasında yaranması haqqında nəzəriyyə irəli sürmüşdür.

Və yaxud elmi ədəbiyyatda irqlərin bərabərliyi haqqında ideyanın ilk dəfə fransız alimi Volter tərəfindən irəli sürüldüyü göstərilir. Ancaq Nizami Gəncəvinin şeirindən sitat gətirməklə bu fikirlərin tamamilə absurd olması qənaətinə gəlmək olar.

Zəncinin zahiri qaradır, ancaq,
Sən ağzından çıxan saf sözlərə bax.
Zənci dəmir kimi qara, parlaqdır,
Üzü qaradırsa, ürəyi ağdır.

Deyilənlər onu göstərir ki, politologiya fənni üzrə mövcud olan dərsliklərin yenilənməsi, obyektiv gerçəkliyi əks etdirən, mücərrəd baxışlara deyil, praktikanın özündən irəli gələn real nəticələrə əsaslanan, cəmiyyətin siyasi həyatında baş verən dəyişiklikləri adekvat şəkildə əks etdirən kitabların yazılması və fundamental təhlillərin aparılması tarixi zərurətdir.

Təqdim olunan bu dərslik əvvəlkilərdən bir sıra cəhətləri ilə fərqlənir: Əvvəla, dərslikdə son dövrün yerli və xarici ədəbiyyatlarına üstünlük verilib. İkincisi, kitabda müasir siyasi konsepsiyaların təhlilinə üstünlük verilb. Ücüncüsü, dərslikdə Azərbaycanın siyasi sistemində baş verən dəyişikliklərin adekvat şərhinə cəhd göstərilib. Dördüncüsü, kitabda müxtəlif mövzularla bağlı kifayət qədər yeni müddəalar əks olunub. Nəhayət, bu dərslikdə Azərbaycanın da qoşulduğu Bolonya Konvensiyası bəyannaməsində ali məktəb proqramları ilə bağlı müəyyənləşdirilən konseptual müddəalar nəzərə alınıb.

Etiraf etmək lazımdır ki, Azərbaycanın Bolonya prosesinə qoşulmasına baxmayaraq, ali məktəblərdə mühazirələrin təşkili zamanı hələ də köhnə təlim üsullarından istifadəyə geniş yer verilir. Belə ki, ali təhsil ocaqlarında müəllimlər əsasən icmallaşdırılmış və tezis əsasında oxunan mühazirələrdən istifadə edirlər. Bu cür dərslər isə adətən passiv informasiyaötürücü və məlumatverici xarakter kəsb edir.

Lakin Azərbaycan Respublikasının müstəqil dövlət olaraq fəaliyyəti, tədrisdə yeni didaktik metodlar, informasiya texnologiyaları və s. istər mühazirənin elmi-metodik cəhətdən təşkilində, istərsə də təqdimatında yeni üsullardan fəal istifadəni zəruri edir. Təqdim etdiymiz dərslikdə mühazirələrin təşkilində istifadə olunan əsas didaktik üsullar aşağıdakılardır:

–mühazirələrin əvvəlində problemın yaradılması və sualların qoyulması;

–məlumat və informasiyaların əsas anlayışlar üzərində qurulması;

–problem-situasiyanın həlli prosesində tələbələrdə fəal tədqiqatçı mövqeyi ortaya qoymaq üçün həvəsin yaradılması;

–tələbələrin onlar üçün zəruri olan bilik, bacarıq və vərdişləri müstəqil şəkildə əldə etməsi və mənimsəməsi;

–mühazirə zamanı məntiqi sxemlərdən, qrafiklərdən, slaydlardan və s. texniki vasitələrdən istifadə edilməsi;

–mövzunun şərhi zamanı tələbələrin idraki fəallığını artırmaq üçün debat, akvarium, söz assosiasiyaları, əqli hücum, qruplarla iş, rollar üzrə oyun, situativ praktikum və s. bu kimi metodlardan istifadə olunması və s.

Politologiya fənninin qırx beş saatlıq proqramına uyğun olaraq hazırlanmış bu dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədris proqramına və Bolonya Konvensiyası bəyannaməsində ali məktəb proqramları ilə bağlı müəyyənləşdirilən konseptual müddəalara tam cavab verir.

Dərslik müəllimlərə mühazirə və seminarların təşkilində, politologiya fənninin tədrisi zamanı fəal təlimin müxtəlif üsullarından istifadə etməkdə, tələbələr üçün isə seminar məşğələlərinə və imtahanlara hazırlaşmaqda, eləcə də sərbəst işləri yazmaqda yardımçı ola bilər.

## *Mövzu 1. Politologiyanın predmeti, strukturu və funksiyaları*

***Əsas ideya*:** Tələbələrin siyasi dünyagörüşünün formalaşması, siyasi elmin əsas kateqoriyalarını mənimsəməsi, siyasi sistemin fəaliyyət mexanizmi haqqında təsəvvürlərinin dərinləşməsi və siyasi sahədə elmi tədqiqat aparmaq bacarığının formalaşması üçün politologiya fənninin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

***Məqsədlər:*** tələbələrə politologiyanın bir elm kimi meydana gəlməsi və keçdiyi tarixi inkişaf yolunu, eləcə də aktuallığını izah etmək;

-politologiya fənninin tədrisi zaman hansı metodlardan istifadə ediləcəyinin və hansı prinsiplərin rəhbər tutulacağının izahı;

-tələbələrdə siyasi biliklərin nəzəri və tətbiqi komponentlərini bir-birindən ayırmaq bacarığını formalaşdırmaq;

-siyasətin cəmiyyətdəki və dövlətdəki yeri və rolunun müəyyən edilməsi;

-müzakirə etmək,başqasını dinləyə bilmək mədəniyyətinin, eləcə də öz fikrini müdafiə edə bilmək bacarığının formalaşmasına nail olmaq;

***Əsas anlayışlar:*** siyasətin subyekti və obyekti, metod, kateqoriya, siyasi məkan, siyasi təsvir və s.

## *Mühazirənin gedişi*

### *I mərhələ–Motivasiya*

*Problemin qoyulması*

**Müəllim:** Politologiya nəyi öyrənir?

Tələbələr öz mülahizələrini söylədikdən sonra müəllim tədqiqat sualını qoyur və onu lövhədə yazır:

-Politologiyanı siyasət haqqında yeganə elm hesab etmək olarmı?

Tələbələrin söylədikləri fərziyyələri müəllim lövhədə yazaraq, onların düzgünlüyünü yoxlamağı təklif edir.

### *II mərhələ*

### *Tədqiqatın aparılması*

*Kiçik qruplarda iş*

Müəllim tələbələrə tapşırıq verir. Məqsəd politologiyanın tədqiqat obyekti və predmeti haqqında bilik mübadiləsi keçirməkdir. Bunun üçün müəllim tələbələri qruplara bölərək, onların hər birinə müəyyən mövzu və ya "mənbələr paketi" verir. (Bax: Mövzuya aid əlavə) Qrup öz mövzusunu öyrəndikdən sonra onu auditoriyaya təqdim etməlidir. Bu zaman aşağıdakı suallara cavab verilməlidir:

-Nəzəri və tətbiqi politologiya bir-birindən nə ilə fərqlənir?

-Politologiyanın tədqiqat obyektinin dairəsi genişdir, yoxsa predmetinin?

-Politologiya elm kimi tədris fənnindən nə ilə fərqlənir?

### *III mərhələ*
### *İnformasiya mübadiləsi*

*Qrupların təqdimatı*

Hər bir qrupun nümayəndəsi çıxış edərək, əldə etdiyi nəticə haqqında məlumat verir ki, bu da informasiya mübadiləsinə səbəb olur. Məsələn, qruplardan biri belə nəticəyə gəlir ki, politologiya hakimiyyətdə olan və ya onun həyata keçirilməsində iştirak etmək iddiasında olan müxtəlif fərdlərin, qrupların, partiyaların, dövlətin və digər institutların tədqiqi ilə məşğul olan elm sahəsidir. Bu mənada politologiya siyasi sosiologiya, siyasi fəlsəfə, siyasi psixologiya ilə yanaşı, siyasət haqqında elmlərdən biridir. Qruplardan digəri hesab edir ki, politologiya siyasət haqqında yeganə elmdir. Politologiya siyasət haqqında elm olsa da, siyasətlə bağlı bütün bilikləri deyil, elmi və empirik metoda əsaslanan bilikləri özündə əks etdirir. Üçüncü qrup isə belə bir qənaətə gəlir ki, politologiya bütün siyasi subfənləri – siyasi fəlsəfə, siyasi psixologiya, siyasi sosiologiya və s. birləşdirən meqaelm, yaxud inteqrativ elmi bilik sahəsidir. Politologiya siyasi təsisatları və prosesləri, siyasi hakimiyyətin meydana gəlməsi, fəaliyyət göstərməsi və inkişafı qanunauyğunluqlarını öyrənir.

### *IV mərhələ*
### *İnformasiyanın müzakirəsi və təşkili*

Tələbələr keçirilmiş tədqiqat nəticəsində politologiyanın obyekti və predmeti ilə bağlı fikirləri bir-biri ilə müqayisə edir, onların məziyyətləri və qüsurlarını xüsusi vurğulayırlar.

Bütün deyilənləri yekunlaşdıraraq, belə qənaətə gəlmək olar ki, siyasətin ümumi nəzəriyyəsii rolunda çıxış edən və

inteqral elm olan politologiyanın predmetini siyasət və onun təsisatları vasitəsilə cəmiyyət və şəxsiyyətlə qarşılıqlı münasibətlərinin öyrənilməsi təşkil edir. Siyasətin öyrənilməsi elm statusuna iddia etsə də, digər elmlərdən fərqli olaraq onun nəticələri ehtimal xarakterlidir. Siaysi elmin iki–nəzəri və empirik səviyyəsi mövcuddur. Ümumi politologiya siyasi elmin nəzəri, tətbiqi politologiya isə onun empirik səviyyəsidir. Tələbələrin nöqteyi-nəzəri nəticəsində qruplardan hansının fikrinin daha mükəmməl olması haqqında qısa diskussiya keçirilir.

***V mərhələ***
***Ümumiləşdirmə və nəticə***

Müəllim əvvəlki mərhələlərdə ifadə olunan fikirləri və qazanılan bilikləri ümumiləşdirərək, auditoriyanın diqqətini bu kimi nəticələrə yönəldir:

- Siyasət cəmiyyətin bütün fəaliyyət sahələrində özünü büruzə verir. Lakin politologiya siyasi həyatın ayrı-ayrı aspektlərini (fəlsəfə, dövlətşünaslıq və s.) deyil, onu məhz bütöv halda və yeganə obyekt kimi tədqiq edir.
- Politologiya elm kimi siyasi həyatın inkişaf qanunauyğunluqlarını, siyasi şüur və mədəniyyəti, siyasi prosesləri, siyasi sistemi, siyasi təlimlər tarixini, qlobal problemləri tədqiq edir, tədris fənni kimi siyasi təsisatlar, insan və vətəndaş hüquq və azadlıqları, siyasi konsepsiyalar, dünyada cərəyan edən siyasi proseslər haqqında bilik verir.

***Mövzuya aid əlavə***

Politologiyanın tədqiqat obyekti siyasi reallıqdır. Cəmiyyətin siyasi həyatı, orada baş verən hadisə və proseslər

onun obyektinə aiddir. Lakin bu cür izah politologiyanın predmetini tam aydınlaşdırmır, cunki siyasi reallıq ən muxtəlif elmlər tərəfindən öyrənilir. Ona gorə də digər elmlərdə olduğu kimi, politologiyada da onun obyektini və predmetini fərqləndirmək lazımdır, çünki bu iki anlayışın qarışdırılması və ya eyniləşdirilməsi ciddi metodoloji qüsurdur. Adətən tədqiqatçının fəaliyyətinin istiqamətləndiyi hər şeyi idrak obyekti kimi qəbul edirlər. Bu o deməkdir ki, muxtəlif elmlərin predmetindən söhbət getdikdə, yalnız obyektin həmin elmin spesifikası ilə muəyyən edilən tərəfi əsas götürülür. Obyektin digər xassə və munasibətləri isə ikinci dərəcəli məsələlər kimi, yaxud obyektin mövcudluq şəraiti kimi nəzərdən kecirilir. Deməli, hər bir elm digər elmdən ilk növbədə öz predmeti ilə fərqlənir. Hər bir elm obyektiv reallığın özü üçün spesifik olan qanunauyğunluqlarını, həmin qanunauyğunluqların xususi təzahur formalarını və fəaliyyət mexanizmlərini öyrənir. Bu o deməkdir ki, hər hansı elmin predmetini tədqiqat obyektinə gorə müəyyənləşdirmək kifayət deyildir. Məsələn: siyasi reallıq ictimai və humanitar elmlərin tədqiqat obyektidir. Lakin hər bir elm məhz öz predmeti vasitəsilə müstəqillik qazanır. Dövlət siyasi elmin əsas predmeti olsa da, onu həm də dövlətşünaslıq, hüquq və s. fənlər də öyrənir. Lakin hüquq dövlətin hüquqi fəaliyyətini öyrənir, politologiya isə dövləti və hakimiyyət münasibətlərini cəmiyyətin siyasi təşkili təsisatları olaraq təhlil edir. Poltologiyadan fərqli olaraq, hüququ real proseslər deyil, heç də həmişə gerçək həyata uyğun gəlməyən hüquq normaları maraqlandırır. Politologiyanın predmetinin daha aydın şəkildə müəyyən edilməsi üçün “nəzəri” və “tətbiqi” politologiya anlayışlarının mahiyyətini açıqlamaq lazımdır (sxemə bax).


Siyasi elmin nəzəri səviyyəsi
Ümumi politologiya
Siyasi hadisələrin idraki nöqteyi-nəzərdən öyrənilməsi
Siyasi fəaliyyət haqqında biliyin formalaşması
Siyasi inkişaf proseslərinin təsviri və izahı
Siyasətin kateqoriyalarının tədqiqi
Siyasi elmin empirik səviyyəsi
Tətbiqi politologiya
Biliyin artımının deyil, praktik fay-dalılığın əsas götürülməsi
Siyasi gerçəkliyin dəyişdirilməsi problemlərinin öy-rənilməsi
Konkret siyasi hadisələrin öyrənilməsi
Siyasi subyekt-lərin və proqramların təhlili

### *Nəzəri material*

Politologiya (yunanca politika – siyasət, dovləti idarə etmak sənəti, loqos - soz, anlayış, təlim) adından da göründüyü kimi, siyasi proseslər və təsisatlar, siyasi hakimiyyət və siyasət haqqında elmdir. Siyasət haqqında biliklərin tarixi çox qədim olsa da, erkən dövrlərdə onlar müstəqil elm sahəsi olmayıb, mifoloji dunyagörüşunün tərkib hissəsi kimi çıxış edirdi.

E.ə. I minilliyin ortalarından başlayaraq siyasi fikirlər tədricən rasional xarakter almağa başlayır, fəlsəfi-etik xarakter daşıyan ilk siyasi kateqoriya və konsepsiyalar yaranır. Bu proses hər şeydən əvvəl Konfutsinin, Platonun və Aristotelin adı ilə bağlı idi. Aristotel yazırdı: "Siyasi elm bütün elmlərdən yüksəkdə durur. Çünki o, insanlara ədalətli qanunlar əsasında yaşamağı öyrədir. Aristotelin siyasi fikrin inkişafındakı xidmətlərini nəzərə alan müasirləri onu "siyasətin atası" adlandırmışlar.

Siyasi fikir tarixində ilk dəfə olaraq italyan alimi Nikollo Makiavelli siyasəti sinkretik elmi biliklərin tərkib hissəsi kimi deyil, insan fəaliyyətinin müstəqil sferası kimi nəzərdən keçirmişdir.

Siyasət haqqında rasional baxışlar öz əksini sonralar T.Hobbs, C.Lokk, Ş.L.Monteskye, J.J.Russo, C.Medison, C.S. Mill, T.Peyn, A.Tokvil və b. mutəfəkkirlərin əsərlərində tapmışdır.

Ancaq çoxsaylı siyasi tədqiqatların mövcud olmasına baxmayaraq, XIX əsrin II yarısınadək politologiya müstəqil

fənn kimi deyil, əsas etibarilə dövlət haqqında təlim və siyasi-fəlsəfi nəzəriyyə formasında mövcud olmuşdur.

Bəzi alimlər politologiyanın bir tədris fənni kimi meydana gəlməsini XIX əsrin I yarısında Almaniyada hüquqi məktəbin meydana gəlməsi, digəriləri isə–xususilə amerikalı mütəfəkkirlər onun yaranma tarixini XIX asrin II yarısı ilə bağlayırlar. Sonunculara görə, politologiyanın yaranması Frensis Leyberin adı ilə bağlıdır. Onun 1857-ci ildən ABŞ-ın Kolumbiya Universitetində oxuduğu muhazirələr burada 1880-ci ildə onun həmkarı–siyasətşünas Con Bercess tərəfindən ali siyasi məktəb yaradılması üçün zəmin hazırlamışdır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində "siyasi elm" anlayışı Avropada da geniş yayılmağa başlayır. İtalyan mutəfəkkiri Q. Moska özünün 1896-cı ildə yazdığı "Siyasi elmin elementləri" adlı fundamental əsərinə görə Avropada məşhurlaşır.

XX əsrin əvvəllərində politologiyanın müstəqil akademik fənnə çevrilməsi prosesi başa çatır. 1903-cü ildə Amerika siyasi elmlər Assosiyasiyasının (ASEA), 1949-cu ildə isə YUNESKO-nun nəzdində Beynəlxalq siyasi elmlər assosiasiyasının yaradılması politologiyanın bir elm kimi inkişafına xüsusilə güclü təkan vermişdir.

Siyasi elmin inkişafi yolunda növbəti təşəbbüs 1970-ci ildə Ford fondunun vasaiti hesabına "Siyasi tadqiqatların Avropa konsorsiumu" adlı birliyin yaradılması oldu. Konsorsiumun müxtəlif birgə layihələrin həyata keçirilməsi üçün

vəsait ayırması istər dünya miqyasında, istarsə də ayrı-ayrı ölkələrdə politologiya sahəsində tədqiqat aparan mütəxəssislər şəbəkəsinin qarşılıqlı elmi və təcrübə mübadiləsinin zənginləşməsinə mühüm töhfə verdi.

Zəngin ənənələrə malik olan Azarbaycanda siyasi elm məktəbinin rüşeymlərinin yaranmasında XIX əsrin I yarısında formalaşan və 100 il ərzində üç mərhələdən keçən maarifçilik hərakatı xüsusilə böyük rol oynamışdır. Maarifçilik dövrünün görkəmli nümayəndələri olan A.Bakıxanov, M.F. Axundov, M.Kazımbəy, H.Zərdabi, Ə.Hüseynzadə və b. özlərinin mütərəqqi siyasi ideyaları ilə təkcə Vətən siyasi elm məktəbinin rüşeymlərinin formalaşmasına deyil, həm də dünyada siyasi fikrin inkisafına xüsusi töhfə vermişlər.

Sovet imperiyasının zülmündən xilas olaraq öz dövlət müstəqilliyini bərpa etmiş Azarbaycanın demokratik cəmiyyət quruculuğuna qədəm qoyması bir çox sahələrdə olduğu kimi, siyasi elmin də yaranması və inkişafı istiqamatində geniş imkanların yaranmasma səbəb oldu. Artıq 1991-ci ildən, yəni milli müstəqillik bərpa olunduqdan sonra politologiya Azərbaycanda müstəqil elm kimi tədris olunmağa başladı. Elə həmin ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda (1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasi) ilk politologiya fakultəsi va politologiya kafedrası fəaliyyətə başladı.

Hazırda ölkəmizdə siyasi problemlərin təhlil edilməsi ilə bağlı müxtəlif tədqiqat mərkəzləri, DİA-da Siyasi Tədqiqatlar

İnstitutu, müxtəlif QHT-lər və özəl qurumlar fəaliyyət göstərir. Burada milli təhlükəsizlik, suverenlik və siyasi strategiya məsələləri, gender bərabərliyi, ölkənin xarici siyasəti, multikulturalizm, neft strategiyası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasi təhlillər və tədqiqatlar aparılır.

Siyasi elmin başlıca tədqiqat obyektini siyasi sistemin və təsisatların başlıca ünsürü olan dövlət və siyasi hakimiyyət təşkil edir. Lakin siyasi hakimiyyət və dövlət məsələsini fəlsəfə, siyasi iqtisad, dövlətşünaslıq, hüquq və s. fənlər də öyrənir. Politologiya bu fənlərdən fərqli olaraq, dövlət və siyasi hakimiyyətin aşağıdakı cəhətlərini öyrənir:

-politologiya dövləti və hakimiyyət problemlərini cəmiyyətin siyasi təşkili təsisatları kimi öyrənir. Yəni politologiya müxtəlif cəmiyyətlərin fəaliyyətinin və inkişafının siyasi qanunauyğunluqlarını öyrənir;

-politologiya təkcə siyasi hakimiyyətin ələ keçirilməsi və əldə saxlanması haqqında deyil, habelə onun idarə olunmasında praktik şəkildə istifadə edilən forma və metodlar haqqında elmdir;

-siyasi elm dövləti təkcə siyasətin subyekti, bir ölkə çərçivəsində hakimiyyət münasibətlərinin aparıcısı kimi yox, həmçinin beynəlxalq aləmdə hər hansı ölkənin suverenliyinin daşıyıcısı kimi öyrənir. Beynəlxalq münasibətləri tənzimləyən siaysi-hüquqi normaların, mənəvi dəyərlərin və siyasi tələblərin müəyyən edilməsi, dövlətlərarası əlaqələrin fəaliyyət

prinsiplərinin öyrənilməsi və s. politologiyanın tədqiqat obyektini təşkil edən problemlərdəndir.

Dövlət və hakimiyyətlə yanaşı, politologiyanın tədqiqat obyektinə daxil olan problemlər arasında müxtəlif partiyalar və partiya sistemləri, təzyiq qrupları və ictimai-siyasi təşkilatlar, parlament idarəçiliyi, seçki sistemi, KİV-lər və s. mühüm yer tutur.

Yuxarıda qeyd etdiyimiz kimi, siyasət haqqında yeganə elmi və inteqrativ bilik sahəsi olan politologiyanın strukturuna müxtəlif fənlər daxildir. Alman alimi P.Noak politologiyanın strukturuna dörd əsas fənni daxil edir: siyasi fəlsəfə və ya siyasi nəzəriyyə; siyasi təsisaslar haqqında elm; siyasi sosiologiya; beynəlxalq siyasət nəzəriyyəsi.

Əlbəttə ki, alan aliminin təqdim etdiyi bu şərti bölgü tədqiqatçılar tərəfindən müxtəlif fənlərlə tamamlanır. Bütövlükdə siyasi elmlər iki qrupa ayrılır:

–Siyasətin birbaşa özünün tədqiqi ilə məşğul olan fənlər: siyasi fəlsəfə, siyasi təsisatlar haqqında təlim, beynəlxalq siyasət nəzəriyyəsi, siyasi tarix, müqayisəli politologiya;

–siyasətin ictimai həyatın başqa sahələri ilə qarşılıqlı əlaqələrini öyrənən fənlər: siyasi psixologiya, siyasi antropologiya, siyasi coğrafiya, siyasi astrologiya, siyasi kurturologiya və s.

Siyasi fəlsəfə əsas etibarilə siyasətin mahiyyətini, onun şəxsiyyət, cəmiyyət və dövlətlə qarşılıqlı əlaqəsini öyrənir. Siyasi fəlsəfə siyasi sistemin optimal fəaliyyəti üçün normativ

dəyərlər işləyib hazırlayır. Bu fənn siyasi tədqiqatlar üçün bir növ metodoloji bazadır. Siyasi fəlsəfəni siyasi elmin ilkin mövcudluq forması hesab edilir.

Siyasi təsisatlar haqqında təlim cəmiyyətin siyasi təşkili, dövlət, siyasi partiya və digər institutlar haqqında nəzəriyyə kimi çıxış edir. Bu fənn cəmiyyətin sosial-siyasi mənzərəsini, təsisatları və hakimiyyətin təşkili prinsiplərini hərtərəfli açıqlamağa imkan verir.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin predmetini dövlətlərin, transilli korporasiyaların, ictimai hərəkatların xarici siyasi fəaliyyətinin, beynəlxalq təşkilatların (BMT, ATƏT və b.) işinin öyrənilməsi təşkil edir. O həmçinin qloballaşma, müharibə və sülh, beynəlxalq münaqişələrin qarşısının alınması, yeni dünya qaydalarının formalaşdırılması problemlərini tədqiq edir.

Siyasi tarix siyasi fikirləri, baxışları və hadisələri xronoloji ardıcıllıqla və bir-biri ilə qarşılıqlı əlaqədə öyrənir. Cəmiyyət həyatının bütün tərəflərini öyrənən tarixdən fərqli olaraq siyasi tarix siyasi həyatı öyrənir.

Siyasi psixologiyanın tədqiqat obyektini isə insanların siyasi fəaliyyətində özünü göstərən oriyentasiya, inam, iradə və emosiyanın öyrənilməsi təşkil edir. Siyasi psixologiyadan ictimai rəyin öyrənilməsində, müxtəlif siyasi münaqişələrin və siyasi davranışın tədqiqində geniş istifadə olunur.

Siyasi antropologiya siyasətin əsas insani-bioloji tələblərdən – intellektual, sosial, mədəni, dini və s. asılılığını

öyrənir. Siyasi antropologiyaya dair biliklər siyasi fəaliyyətdə milli-etnik amillərin üzə çıxarılmasına şərait yaradır.

Politologiyanın aktuallığını şərtləndirən amillər aşağıdakılardır:

-cəmiyyət və konkret olaraq hər bir insan həyatının siyasətlə qarşılıqlı əlaqə və asılılıqda olmasının dərk edilməsinə təsir göstərir;

-bəşər sivilizasiyasının siyasət və demokratiya sahəsində əldə etdiyi nailiyyətlərdən yararlanmağa imkan verir;

-vətəndaşların siyasi şüur və mədəniyyətinin formalaşmasına yardım göstərir;

-dövlət orqanları ilə vətəndaş cəmiyyəti arasındakı münasibətlərdə humanist dəyərlərin inkişafına səbəb olur;

-siyasi fəaliyyətin düzgün məcraya yönəldilməsinə kömək edir və s.

Siyasi hadisə və prosesərin öyrənilməsi zamanı siyasi elm müxtəlif tədqiqat metodlarından istifadə edir. "Metod" sözünün hərfi mənası yunan dilindən tərcümədə tədqiqat üsulu və ya dərketmə deməkdir. Metod gerçəklik hadisələrinin qanunauyğunluqlarının dərki ilə bağlı olub, real proseslərin öyrənilmə üsulunu və ona yanaşmağı səciyyələndirir. Fəlsəfəyə dair ensiklopedik lüğətdə metod "gersəkliyin praktik və nəzəri cəhətdən mənimsənilməsi üsullarının və əməliyyatlarının məcmusu" kimi xarakterizə edilir.

Politologiyanın metodları da onun özünəməxsus tərəfinin, yəni siyasi gerçəkliyin hərtərəfli və dərindən öyrənilməsinə imkan yaradır.

Politologiyanın tədqiqat metodları bütövlükdə üç başlıca qrupa ayrılır:

–Ümummәntiqi metodlar (analiz və sintez, abstraktlaşdırma, dialektik metod, induksiya və deduksiya, statistik təhlil və s. ;

–Sosial-humanitar metodlar: anket sorğusu, sənədlərin və mənbələrin təhlili, müsahibə, müşahidə və s.

–Politologiyanın xüsusi–elmi metodları: müqayisəli təhlil, tarixi yanaşma, sistemli metod, struktur–funksional, analiz, siyasi modelləşdirmə, siyasi monitorinq, biheviorizm metodu, siyasi kommunikasiya metodu, kontent-təhlil (oyunlar nəzəriyyəsi və qərar qəbul etmə mctodu və s.

Analiz (yun. analizis – parçalanma) predmetlərin, xassələrin, əlaqə və münasibətlərin tərkib hissələrinə ayrılması, sintez (yun. sintezis – birbşmə) isə analizdə ayrılan ünsürlərin yenidən tam halında birləşməsi əməliyyatıdır.

Abstraktlaşdırma (lat. abstractia–ayırma) elmi-tədqiqat metodu kimi predmet və hadisələrin əhəmiyyətsiz xassə və əlamətlərinin fikrən ayrılması, əsas əlamətlərin isə ümumiləşdirilməsini nəzərdə tutur.

Dialektik metod hadisələri inkişafda götürməyə, onun daxili hərəkətverici güvvələrini aşkara çıxartmağa, bütün hadisələri qarşılıqlı əlaqədə öyrənməyə çalışır.

İnduksiya (lat - yönəltmə, sövqetmə) ayrı-ayrı faktlardan ümumi müddəalara doğru keçidi nəzərdə tutur.

Deduksiya isə əksinə, ümumidə təkcəni, konkreti axtarmaq metodudur.

Statistik materialların təhlili tədqiqatçıya əldə olunmuş məlumatlardan texniki təhlil zamanı ən əhəmiyyətlisini qəbul etməyə, qanunauyğunluqları işləməyə və müvafiq meylləri üzə çıxarmağa imkan yaradır.

XIX əsrin 30-cu illərində tətbiq olunmağa başlayan anket yolu ilə tədqiqat və əhali arasında sorğu aparılması metodu maüsir dövrdə geniş tətbiq olunur. Bu metodlardan ilk dəfə ABŞ sosioloqu Corc Hellan seçkiqabağı siyasi mühiti öyrənmək üçün istifadə etmişdir. Tarixi təcrübə göstərir ki, doğrudan da, seçki ərəfəsində anket üsulu ilə sorğu aparılması seçicilərin rəyinin müəyyənləşdirilməsində və buna əsasən də, düzgün proqnozun verilməsində mühüm rol oynayır.

Sənədlərin və mənbələrin təhlili metoduna dövlət idarəçiliyinin strukturunu müəyyən edən qanunların, konstitusiyaların, partiyaların proqram və nizamnamələrinin öyrənilməsi daxildir.

Müşahidə bir metod kimi tədqiq olunan prosesin və hadisənin məqsədyönlü və sistemli şəkildə mənimsənilməsini

nəzərdə tutur. Müşahidə metodu hər hansı ictimai-siyasi tədbir iştirakçılarının davranışını, siyasi münaqişənin törənməsi və inkişafı prosesini, siyasi partiyaların fəaliyyəti və sairəni öyrənməyə imkan verir. Müşahidənin 3 növü var: qısa, orta və uzunmüddətli.

Söhbət bir metod kimi müsahibədən onunla fərqlənir ki, o, ikitərəfli xarakter daşıyır. Söhbəti aparan şəxs hansı siyasi informasiyanı və faktları əldə edəcəyini əvvəlcədən müəyyənləşdirir. Söhbətdən əvvəl müsahibə aparanla müsahibə verən arasında heç bir ünsiyyət olmadığı üçün, fərdi xarakter daşıyan informasiya əldə etmək qeyri-mümkün olur.

Politologiya fənninin tədrisi zamanı bir sıra ümumməntiqi metodlarla yanaşı, siyasi elmin müqayisəli təhlil, tarixi təsvir, sistemli yanaşma kimi xüsusi metodlarından da istifadə edilir.

Müqayisəli təhlil metodu eyni tipli siyasi hadisə və proseslərin müqayisəli təhlilini aparmağa və müvafiq nəticələr çıxarmağa, müxtəlif xalqların, ölkələrin siyasi həyatında, siyasi təsisatların fəaliyyətində oxşar və fərqli cəhətləri müəyyənləşdirməyə, siyasi proseslərin inkişafındakı ümumi cəhətləri aşkar etməyə, siyasi sistemlərin spesifik xüsusiyyətlərini dəyərləndirməyə kömək edir.

Tarixi metod adətən müxtəlif siyasi hadisə və proseslərin xronoloji ardıcıllıqla öyrənilməsinə istiqamətlənir. Siyasətdə isə tarixilik müxtəlif siyasi hadisələrin dialektikasının açılıb öyrənilməsi, ayrı-ayrı siyasi sistem və normalara tarixi baxım-

dan yanaşılması, siyasi proseslərin inkişaf qanunauyğunluqlarının müəyyənləşdirilməsi deməkdir. Siyasi baxışlar hər bir tarixi dövrün xüsusiyyətlərini əks etdirməklə yanaşı, dərin varislik xarakteri daşıyır, keçmişdən bir sıra səciyyəvi cəhətləri özündə ehtiva edir. Ona görə də, ayrı-ayrı dövrlərdəki siyasi hadisələri ondan əvvəlki tarixi inkişaf prosesindən təcrid etməklə öyrənmək mümkün deyildir. Siyasi təhlildə tarixi yanaşma metodundan istifadə edilməsi siaysətdə subyektivizmdən qaçmağa imkan yaradır.

Sistemli yanaşma metodu siyasi reallığa tam şəkildə yanaşmanı və onun bütün cəhətlərinin hərtərəfli öyrənilməsini nəzərdə tutur. Bu metodun köməyi ilə tədqiqat obyekti bütöv bir tam kimi götürülür və onun ayrı-ayrı struktur hissələri arasındakı qarşılıqlı əlaqə müəyyən edilir. Burada əsas diqqət siyasətin ətraf aləmlə qarşılıqlı əlaqələrinin öyrənilməsinə yönəlir.

Hər bir elm kimi politologiyanın da cəmiyyət həyatında oynadığı rol onun yerinə yetirdiyi funksiyalarda öz əksini tapır. Cəmiyyətin siyasi həyatının müxtəlifliyini və rəngarəngliyini əks etdirən politologiyanın əsas ***funksiyaları*** bunlardır:

-təsvir funksiyası: siyasi reallıqda mövcud olan problemləri qeydə alır;

-qnoseoloji funksiya: siyasət subyektlərinin təsəvvürlərini zənginləşdirir;

-proqnostik funksiya: siyasi hadisələrin gedişatını əvvəlcədən müəyyənləşdirir;

-tərbiyəvi funksiya: siyasi sosiallaşmaya köməklik göstərməklə mühüm nəzəri və praktik baza yaradır;

-analitik funksiya: dövlət və siyasi təşkilatların fəaliyyətini təhlil edərək onlara qiymət verir;

-izahetmə funksiyası: siyasi problemlərin mənasını açır və onların həlli yollarını göstərir;

-inteqrativ funksiya: politologiyanın başqa elmlərlə qarşılıqlı əlaqəsinə xidmət edir.

-dünyagörüşü funksiyası: siyasət subyektlərinin öz maraqlarını düzgün qiymətləndirmələrinə və siyasi həyatda layiqli yer tutmalarına köməklik edir;

-metodoloji funksiya: siyasətin ümumi qanunauyğunluqlarını aşkar etməklə xüsusi siyasi nəzəriyyələr yaradır;

-qiymətləndirmə funksiyası: siyasi prosesin və siyasət subyektlərinin davranışının dəyərləndirilməsinə xidmət edir;

-idarəedici funksiya: siyasət subyektlərinə sosial prosesləri idarə etmək və siyasi şəraitə təsir etmək üçün biliklər verir.

-ideoloji funksiya cəmiyyətdə, dövlətdə və siyasi sistemdə mövcud olan prinsip və normaların əsaslandırılmasından və onlara alternativ əsaslar işlənib hazırlanmasından ibarətdir.

-tərbiyəvi funksiya siyasi mədəniyyətin formalaşmasına və inkişafına, siyasi sosiallaşmaya köməklik göstərməklə mühüm nəzəri və praktik baza yaradır.

Politologiyanm əsas ***qanunauyğunluqları*** bunlardır:

-siyasi maraqların meydana gəlməsi, təsisatlanması və inkişafı;

-siyasətin iqtisadiyyat və ictinmai həyatın digər sahələri ilə qarşılıqlı əlaqə və təsirdə olması;

-siyasi proseslərin yaranması və inkişafı;

-nəzəriyyə və  praktikanın vəhdəti;

-daxili və xarici siyasətin qarşılıqlı əlaqədə olması;

-siyasətdə şəxsiyyətin yeri və rolunun artması;

-şəxsiyyətin və siyasi təsisatların qarşılıqlı məsuliyyəti;

-siyasi münasibətlərin beynəlmiləşməsi və qloballaşması.

Politologiyanın başlıca prinsipləri isə aşağıdakılardır:

-humanist dəyərlərin üstün tutulması;

-siyasi reallığa əsaslanmaq;

-digər elmlərin nailiyyətlərindən istifadə etmək.

Hər bir elm kimi politologiyanın da öz kateqoriyaları var. Elmin predmetinin ən ümumi, fundamental anlayışları kateqoriyalara (dərketmə pillələri) aiddir. Kateqoriya sözü yunan dilindən tərcümədə mülahizə, ittiham mənasını verir. Kateqoriya sözünü ilk dəfə işlədən Aristotel onu obyektiv gerçəkliyin ən yüksək şəkildə ümumiləşdirilməsi və əksi hesab edirdi. Həqiqətən də, insan onu əhatə edən aləmi kateqoriya vasitəsilə dərk edir. Hər bir elmin müstəqilliyi öz əksini ilk növbədə onda tapır ki, onun kateqoriyalarında gerçəkliyin inkişafının müxtəlif cəhətləri əks olunur.  Politologiyanın kateqoriyalarında siyasi reallığın, siyasi sistem və prosesin mühüm cəhətləri öz əksini tapır. Bütövlükdə, politologiyanın ***kateqoriyalarının*** təsnifatını aşağıdakı kimi  vermək olar:

a) politologiya elminin öz mənşəyi ilə bağlı olan kateqoriyalar: “siyasət”, “siyasilik”, “siyasi məkan”, “hakimiyyətlik”, “cəmiyyətin siyasi təşkili” və s.

b) törəmə xarakterli kateqoriyalar: “siyasi təsisatlar”, “siyasi sistem”, “siyasi lider” və s.

c) fəlsəfə, sosiologiya və digər ictimai elm sahələrinin anlayışlarının siyasi fəaliyyət sahəsinə tətbiqi nətisəsində formalaşan kateqoriyalar: “idrak” – “siyasi idrak”, “təfəkkür” – “siyasi təfəkkür”, “ziddiyyət”- “siyasi ziddiyyət” və s.

d) siyasətin subyekti ilə bağlı olan kateqoriyalar: “fərd”, “sosial qrup”; “xalq”, “millət” və s.

e) siyasətin obyekti ilə bağlı olan kateqoriyalar: “siyasi sfera”, “siyasi problem”, “siyasi hadisə”, “siyasi proqnoz” və s.

f) siyasətin funksiyaları ilə bağlı olan kateqoriyalar: siyasi proqnoz, siyasi təsvir, siyasi idarəetmə, siyasi sosiallaşma və s.

g) siyasi prosesin tədqiqinə xidmət edən kateqoriyalar: “siyasi modernləşmə”,“seçki kampaniyası”,“siyasi situasiya” və s.

Politologiya elmində öyrənilməsi mühüm əhəmiyyət kəsb edən başlıca kateqoriyalardan biri siyasətdir. “Siyasət” – XXI əsrdə dünya xalqlarının leksikonunda ən çox işlədilən sözə çevrilib desək, yəqin ki, yanılmarıq. Gündəlik həyatda hər bir məqsədyönlü fəaliyyəti, yəni dövlət başçısının hərəkətlərindən tutmuş ailə üzvləri arasında olan münasibətlərədək, hər bir şeyi siyasət adlandırırlar. Kobud dildə desək, siyasət qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün istifadə olunan bütün üsul

və vasitələrin məcmusu hesab edilir. Bəziləri siyasəti hər bir mümkün şeyə nail olmaq incəsənəti kimi izah edirlər, digərləri isə onu “çirkin iş” kimi xarakterizə edirlər.

Siyasəti sənət sayanlar da var. Onların fikrincə, əgər siyasət qarşıya qoyulmuş məqsədə çatmaq üçün yönəlmiş fəaliyyətdirsə, deməli, o hakimiyyəti idarə etmək sənətidir.

Sistemli baxışa görə isə, siyasət kifayət qədər müstəqil sistem olub, ictimai mənafelərin təmin olunmasına və cəmiyyətin inteqrasiyasına xidmət edir.

Yuxarıda qeyd etdiyimiz bütün tərifləri yekunlaşdıraraq, siyasəti fərdlərin və sosial qrupların öz kollektiv maraqlarının dərk edilməsi və ifadə edilməsi, bütün cəmiyyət üçün dövlət hakimiyyəti vasitəsilə həyata keçirilən mühüm qərarların işlənib hazırlanması kimi müəyyən etmək olar. Başqa sözlə desək, siyasət onun sübyektlərinin daxili və xarici məsələlərdə əsas maraqlarının təmin edilməsinə yönəlmiş fəaliyyətinin məcmusudur.

Siyasət ictimai həyatın bir hissəsi olsa da, cəmiyyət həyatının bütün sahələrinə fəal təsir göstərərək ictimai münasibətlərdə tənzimləyici rol oynayır. Siyasət dövlət hakimiyyəti və siyasi normalar şəklində təzahür etməklə cəmiyyətdə gedən proseslərə məqsədyönlü təsir göstərmək və sosial tənzimləmə funksiyasına xidmət edir. N.Makiavelli hələ 1515-ci ildə “siyasəti hakimiyyətə gəlmək və onu əldə saxlamaq üçün istifadə olunan vasitələrin məcmusu” adlandırmışdır.

“Siyasət” termininin elmi şərhi təbii olaraq gündəlik həyatda mövcud olan ciddi məntiqi arqumentlərdən köklu surətdə fərqlənir. Siyasətin rəngarəngliyi onun haqqında elmi

ədəbiyyatda mövcud olan baxışların rəngarəngliyini şərtləndirir.

İqtisadi aspekt siyasəti iqtisadi bazisin üstqurumu hesab edir.

Hüquqi konsepsiyaya görə, siyasət dedikdə insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısı rolunda çıxış edən dövlət başa düşülür.

Sosioloji nəzəriyyə siyasəti müxtəlif sosial qrupların hakimiyyət vasitəsilə öz maraqlarını reallaşdırması kimi nəzərdən keçirir.

Siyasətin normativ şərhi onu insanın həyat fəaliyyətinin ən yüksək forması kimi izah etməyə çalışır. Bu nəzəriyyəyə əsasən, məhz siyasət vasitəsilə insanlar arasında ədalətli birgəyaşayışa nail olmaq mümkündür.

Təsisatlı nəzəriyyəyə görə, siyasət dövlət adlandırılan xüsusi bir institut meydana gətirir və onda reallaşır. Əlbəttə ki, siyasətin dövlətlə eyniləşdirilməsi onun mahiyyətinə uyğun gəlmir. Əvvəla, siyasətin subyekti təkcə dövlət deyil, müxtəlif fərdlər və təzyiq qruplarıdır. İkincisi, dövlət özü də ancaq siyasi fəaliyyətlə məşğul olmur.

Antropoloji yanaşmaya görə, siyasət insanlar arasında sivil ünsiyyət forması, insanların kollektiv mövcudluq üsuludur.

Münaqişə-konsepsus nəzəriyyəsinə əsasən, siyasət münaqişələrin sülh və ya güc yolu ilə həll edilməsinə yönəlmiş fəaliyyətdir.

Totalitar konsepsiyalara görə, siyasət nəinki siyasi həyatın idarə edilməsi, həm də cəmiyyətin sosial-iqtisadi, mədəni-əxlaqi və elmi həyatı üzərində nəzarət deməkdir.

Teleoloji (yun.telos – nəticə) nəzəriyyə isə siyasəti kollektiv məqsədlərə çatmaq üçün yönəlmiş fəaliyyətin məcmusu kimi nəzərdən keçirir.

Bütün deyilənləri yekunlaşdıraraq qeyd etmək olar ki, siyasət onun subyektlərinin daxili və xarici məsələlərdə əsas maraqlarının təmin edilməsinə yönəlmiş fəaliyyətdir. Başqa sözlə desək, siyasəti fərdlərin və sosial qrupların öz maraqlarının dərk edilməsi və ifadə edilməsi, bütün cəmiyyət üçün dövlət hakimiyyəti vasitəsilə həyata keçirilən mühüm qərarların işlənib hazırlanması kimi müəyyən etmək olar.

Siyasətin strukturunda forma, məzmun və prosesi bir-birindən fərqləndirmək lazımdır. Siyasətin **forması** dedikdə onun təşkilati strukturu, insanların siyasi davranışını tənzimləməyə və siyasi-hüquqi normalar işləyib hazırlamağa xidmət edən təsisatların məcmusu başa düşülür. Yəni siyasətin forması dövlət, siyasi partiya və maraq qruplarında, eləcə də qanunlarda və siyasi-hüquqi normalarda təcəssüm olunur.

Siyasətin **məzmunu** dedikdə onun qarşısına qoyduğu məqsəd və dəyərlər, siyasi qərarların qəbul olunması üsulu və mexanizmi başa düşülür.

Siyasi **prosesdə** müxtəlif sosial qruplar, təşkilat və fərdlər arasındakı siyasi fəaliyyətin mürəkkəb, çoxşaxəli və münaqişəli xarakteri əks olunur.

Onu da qeyd edək ki, forma, məzmun və proses siyasətin quruluşunu tam əks etdirmir. Politologiyada siyasətin əsas elementləri aşağıdakılar hesab olunur:

-siyasi şüur, baxış və nəzəriyyələr, stereotiplər;

-siyasi normalar: siyasi partiyaların proqramları və seçki platforması, siyasi-hüquqi normalar, insan və vətəndaş hüquq və azadlıqları və s.

Siyasətin mahiyyətinin aydınlaşdırılmasında önəmli faktorlardan biri də onun subyektlərinin müəyyən edilməsidir. Siyasətin subyektləri dedikdə sərbəst və müstəqil şəkildə fəaliyyət göstərən siyasi proses iştirakçıları başa düşülür. Yəni siyasətin subyektləri o şəxslər hesab olunur ki, onlar öz maraqlarına uyğun olaraq məqsədyönlü şəkildə siyasi proseslərdə iştirak edir və müvafiq dəyişikliyə nail olurlar. Siyasətin subyektlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

–fərdlər (adi vətəndaşlar, siyasi liderlər);

–sosial qruplar (istehsalçılar, dini icmalar, təzyiq qrupları, diaspor, etnik birliklər, xalqlar və millətlər);

–siyasi təsisatlar (dövlət, siyasi partiyalar, siyasi təşkilatlar və hərəkatlar);

–beynəlxalq siyasət subyektləri (beynəlxalq təşkilatlar, transmilli korporasiyalar, qlobal xarakterli milli dövlət assosiasiyaları (GUAM, MDB və s.)

Siyasətdə ümumbəşəri dəyərlərin üstünlüyünü şərtləndirən amillər aşağıdakılardır:

–Bəşəri maraqlara toxunan qlobal problemlərin meydana gəlməsi və onun həllinin bütün xalqların səylərinin birləşdirilməsi ilə mümkün olması;

–elmi-texniki tərəqqinin şəxsiyyət,dövlət və xalq- ların maraqlarına xidmət etməsinə yönəldilməsi;

–planetin müxtəlif regionlarında praktik olaraq, müharibələrin getməsi və yeni müharibələrin yaranması təhlükəsinin mövcudluğu;

–təbii ehtiyatlardan səmərəli istifadə olunmaması nəticəsində bəşəriyyətin qida və xammal ehtiyatlarının itirilməsi;

–dünya birliyinin qarşılıqlı əlaqə və asılılığı tendensiyasının inkişafı və s.

Politologiya ictimai və humanitar elmlər kompleksi sistemində xüsusi yer tutur. Bu onunla bağlıdır ki, birincisi, o, cəmiyyətin siyasi həyatı və prosesləri haqqında elmdir. İkincisi, cəmiyyət və ictimai həyatın müxtəlif sahələrini öyrənən bütün sosial elmlər siyasi aspekti də özündə ehtiva edir.

Tədqiqat obyektinə və metoduna görə politologiyaya daha yaxın olan elmlərdən biri hüquqdur. Təsadüfi deyil ki, hüquq və normaların tətbiq edilməsində siyasi hakimiyyət mühüm rol oynayır. Digər tərəfdən siyasi sistemin normal fəaliyyətini hüquqi normaların tətbiq edilməsi ilə təmin etmək mümkündür. Ensiklopedik lüğətdə hüquq elminə bu cür tərif verilir: "Hüquq elmi sosial normalardan ibarət olan hüququ, dövlətin və cəmiyyətin siyasi sisteminin təşkilini və fəaliyyətinin hüquqi formalarını öyrənən ictimai elmdir". Politologiya isə siyasi hakimiyyətin meydana gəlməsi, fəaliyyət göstərməsi və inkişaf qanunauyğunluqları haqqında elmdir. Siyasətşünası hüquqşünasdan fərqləndirən cəhət odur ki, onu qanunlardan çox, real siyasi proseslər maraqlandırır.

Politologiya ilə qarşılıqlı əlaqədə olan elmlərdən biri də tarixdir. Politologiya kimi tarix də keçmişi cəmiyyətin hazırki

vəziyyətini və gələcək perspektivini dərk etmək məqsədilə öyrənir. Lakin tarixçi artıq baş vermiş hadisə haqqında, politoloq isə gələcəkə baş verməsi güman olunan hadisə haqqında məlumat verir. Başqa sözlə desək, tarix elmi sosial prosesi postfaktum (hadisələr olub qurtarandan sonra izahetmə), siyasi elm isə infaktum (hadisələri mövcud vəziyyətində öyrənmə) öyrənir. Ona görə də tarixçidən fərqli olaraq, politoloqun təhlili özündə subyektiv dünyagörüşünü əks etdirir.

Politologiya fəlsəfə ilə də sıx bağlılıq kəsb edir. Təsadüfi deyil ki, antik dövldə siyasi biliklər fəlsəfənin tərkibinə daxil idi. Sonralar cəmiyyətin inkişafı və fəlsəfənin differensiasiyası nəticəsində siyasi elm ondan ayrıldı və müstəqil inkişaf etməyə başladı. Dünyanı və insanın ona münasibətini öyrənən fəlsəfə siyasi hadisə və prosesləri dünyagörüşü prizmasından təhlil etməklə, siyasi elmin metodoloji bazasına çevrilir. Başqa sözlə desək, politologiya siyasi problemlərin təhlilində fəlsəfənin dünyanın dərk edilməsi təlimindən istifadə edir. Onlar arasında başlıca fərq ondadar ki, politologiya siyasi reallığın empirik yolla öyrənilməsi ilə məşğul olur. Fəlsəfə isə insanın dünyaya münasibətini əks etdirən fikir və təsəvvürlərin məcmusu olduğuna görə dünyagörüşüdür. Politologiya real siyasi gerçəkliyin, fəlsəfə isə daha böyük dövrlərin tədqiq edilməsi ilə məşğuldur. Politologiyadan fərqli olaraq, fəlsəfə siyasi həyatın bu və ya digər tərəfini deyil, onu sistemli halda və ətraf aləmlə qarşılıqlı əlaqədə öyrənir.

Siyasi elmin iqtisadi nəzəriyyə ilə də əlaqələri vardır. İqtisadi nəzəriyyə ictimai-siyasi proseslərin əsaslandırılmasına, siyasi həyatda müxtəlif sosial qrupların mənafeyinin dərk

edilməsinə kömək edir. Politologiya isə iqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi prinsiplərinin elmi cəhətdən əsaslandırılmasında, iqtisadi proseslərin dövlət tərəfindən tənzimlənməsində mühüm rol oynayır.

Sosiologiya ilə qarşılıqlı əlaqələr də politologiya üçün mühüm əhəmiyyət kəsb edir. Politologiya cəmiyyətin sosial həyatı və onu təşkil edən müxtəlif qruplar haqqında təcrübi biliklər verən sosiologiyanın məlumatlarından geniş istifadə edir. Lakin siyasi elmin tədqiqat obyektinə siyasi prosesin birbaşa özü daxil olduğu halda, sosiologiyanın əsas tədqiqat sahəsi bu prosesdə iştirak edən fərdlər və sosial qruplardır. Sosiologiya cəmiyyətin dövlətə, politologiya isə siyasi hakimiyyətin sosial həyata təsirini öyrənir.

## *Mövzu 2*
## *Siyasi fikrin əsas inkişaf mərhələləri*

***Əsas ideya:*** Nə siyasi fəlsəfəni empirik materialsız, nə də politologiyanı siyasi nəzəriyyədən kənar təsəvvür etmək olmaz.

***Məqsədlər:*** tələbələrin siyasi fikrin inkişaf tarixi haqqında təsəvvürlərini formalaşdırmaq;
siyasi fikrin tarixi inkişaf şəraitndə təkamül meyllərini aydınlaşdırmaq;
tələbələrin əvvəlki dövrlərin mütəfəkkirlərinin nəzəriyyə və baxışlarından istifadə etməklə müasir dövrün siyasi nəzəriyyələrini və problemlərini dərk etməsinə nail olmaq;
müasir politologiyanın əsas paradiqmaları haqqında təsəvvürlər formalaşdırmaq.

***Əsas anlayışlar:*** konsepsiya, siyasi nəzəriyyə, intibah, maarifçilik...

### *I mərhələ-Özündə söhbət elementləri daşıyan mühazirə*

Siyasi təlimlərin nə vaxt və harada təşəkkül tapması problemi ətrafında siyasi ədəbiyyatda daim bir-birinə zidd fikirlər mövcud olmuşdur. Bütövlükdə bu problem ətrafındakı yanaşmaları iki qrupa ayırmaq olar. Avropasentrizm ideologiyası mövqeyindən çıxış edənlər iddia edirlər ki, siyasi fikir, bütövlükdə elmi-nəzəri təfəkkür Qədim Yunanıstanda və Romada yaranmış, buradan da Şərqə yayılmışdır. Onlar mənasız abstraksiyalara söykənərək siyasət, hakimiyyət və s. anlayışları

sırf xristian sivilizasiyası və Avropa təfəkkürünün məhsulu hesab edirlər. Eyni zamanda iddia edirlər ki, bütün demokratik dəyərlər öz ideya köklərini Avropa sivilizasiyasından götürür. İkincisi, daha obyektiv ideoloji istiqamətin nümayəndələri haqlı olaraq göstərirlər ki, siyasi terminlər və azadlıq, ləyaqət, bərabərlik, insan hüquqlarına hörmət kimi anlayışlar ilk dəfə Şərqdə meydana gəlmişdir.

Doğrudan da, Qədim Şərqdəki ədəbi abidələrə və dini-siyasi təlimlərə nəzər salsaq, birinci ideoloji istiqamətin nümayəndələrinin fikirlərinin tamamilə absurd olması qənaətinə gələ bilərik:

-özünüzə qarşı ediləndə ağrı verə biləcək bir şeyi digərinə etməyin (Brahmanizm);

-insan həyatı bütün xəzinələrdən qiymətlidir. Hətta bütün dünya xəzinəsi belə insan həyatı ilə bərabər səviyyədə tutula bilməz (Buddizm);

-qoy bizim cəmiyyət üzvlərinin arzuları bir - birinə uyğun olsun. Qoy bizim ürəklərimiz bir-birinə qarşı sevgi hiss etsin. Qoy ayrı-ayrı mənafelər ümumi mənafe naminə birləşsin (İnduizm);

-yaxın adamının evini, torpağını, özünü… heç nəyini arzulama. Sizin üçün mənfur olanı öz yaxınınıza etməyin. Bir nəfərin həyatının qorunması bütün dünyanın qorunmasına, istənilən adamın həyatının məhv edilməsi isə bütöv bir dünyanın məhvinə bərabərdir. Öz çörəyini asla bölüşdür, evsizə öz evində yer ver. (İudaizm);

-qoy qonşunuzun uğuru sizin üçün uğur, itkisi sizin üçün itki olsun. (Daosizm);

-başqaları sənin barəndə necə hərəkət edirlərsə, sən də onların barəsində o cür hərəkət et. (Konfutsiançılıq);

-o kəs təbiətsə yaxşıdır ki, özü üçün yaxşı olmayan şeyi başqasına etmir. (Atəşpərəstlik);

Tarixi diqqətlə izlədikdə görmək olar ki, insan hüquq- larının və demokratiyanın müdafiəsinə həsr olunmuş ilk yazı da Şərqə məxsusdur. Bunu 1879-su ildə qədim Babilistan ərazisində britaniyalı arxeoloq Ormuzd Rəssam (əslən İraq xristianı) tərəfindən tapılan "Kirin silindri" əyani şəkildə sübut edir. Elə həmin ildəcə məhşur assirioloq Henri Roulinsun oxuya bildiyi bu sənəd tarixə "ən qədim insan hüquqları bəyannaməsi" kimi düşmüşdür. Sənəd silindr formasında olan gil parçasında yazıldığı üçün ona "Kirin silindri" deyilir. Bu sənəd 539-su ildə qədim Babilistan İran şahı II Kir tərəfindən zəbt edildikdən sonra babil kahinləri tərəfindən qədim Akkad dilində tərtib olunmuşdur. Mixi yazıları ilə tərtib olunmuş bu silindrdə II Kirin qanunları əks olunmuşdur. Həmin qanunda Babilli əsirlərin köləlikdən azad olunması və müstəqilliyə qovuşmasının zəruriliyi əsaslandırılır.

Siyasi biliklərin və təsəvvürlərin ilk vətəni qədim Misir olmuşdur. Qədim Misirdə siyasi fikir mifik formada təzahür edirdi. Hakim siyasi ideologiyada müxtəlif təbəqələrin siyasi bərabərsizliyi, "yuxarıların" "aşağılar" üzərində üstünlüyü, hakimiyyətin ilahi mənşəyə malik olması və s. təsəvvürlər üstün yer tuturdu. Dövlətin ilahi mənşəyə malik olması fironlara sitayişdə ifadə olunurdu. Qədim Misirdə bütün siyasi hadisələr Allah iradəsinin təzahürü kimi təsvir olunurdu.

Bütün bunlarla yanaşı, Misirdə ədalət, ləyaqət və bərabərlik kimi anlayışlarla zəngin olan siyasi ideyalara və ədəbi abidələrə də rast gəlmək mümkündür. Məsələn, Qədim Misirdə ilk ədəbi abidələndən hesab edilən "Misirli Sinuxetin hekayəsi"ndə insana xas olan müsbət keyfiyyətlər, yəni vətənpərvərlik, humanizm, ədalət təriflənir, qeyri-insani xüsusiyyətlər – hərislik, başqa xalqlara nifrət pislənir. Əsərin müəllifi insanları doğruluğa və bir-birinin ləyaqətinə hörmət etməyə çağırırdı.

Qədim Şərqdə siyasi fikrin digər mərkəzi Balilistan olmuşdur. Balilistanda e.ə. II minillikdə qədim Misirdə olduğu kimi Şərq istibdadı ilə səciyyələnən quldarlıq dövləti mövcud olmuşdur. Balilistan dövlətinin inkişaf dövrü e.ə. XVIII əsrdə çar Hammurapinin (e.ə. 1792-1750) vaxtına düşür. Misirdə olduğu kimi Balilistanda da çar hakimiyyətinin ilahi mənşəyə malik olduğu, qanunların ilahi xarakter daşıdığı iddia olunurdu. Hammurapi öz hakimiyyəti dövründə giriş, 282 maddə və sonluqdan ibarət qanunlar külliyatı yaratmışdı. Qədim Balilistanda mövcud quldarlıq ideologiyasını əks etdirən ədəbi abidələrdən biri də "Ağanın qul ilə söhbəti" adlanan fəlsəfi dialoqdur. Burada quldarın yer üzərindəki həddindən artıq sevinci və ümidsizliyi, eləcə də qulun mövcud qaydalardan istehzalı şəkildə narazılığı ifadə olunmuşdur.

Qədim Hindistanda siyasi ideologiyanın başlıca xüsusiyyətləri brahmanizm və buddizm ideologiyasında əks olunmuşdur. Adı qeyd olunan təlimlər e.ə. I minilliyin ortalarında ari tayfalarının Hindistanı işğal etdikləri zaman yaranmışdır. Brahmanizm təlimi "Mahabharata", "Brahmana", "Manu qanunları", "Upanişada", "Vedlər" və s. dini kitablarda öz əksini

tapmışdır. Məlum olduğu kimi Qədim Hindistanda əhali dörd başlıca təbəqəyə – varnaya (hərfi mənada sanskritcə keyfiyyət deməkdir) bölünürdü: 1. brahmanlar – kahinlər; 2. kşatrilər – döyüşçülər; 3. vayşillər – sıravi tayfa üzvləri; 4. şudralar – icma xidmətçiləri. Brahmanlar hesab edirdilər ki, dini qanunlar dünyəvi qanunlarından üstündür. Bu isə onu göstərir ki, Balilistanda və Misirdə olduğu kimi, Hindistanda da siyasi təlimlər üçün dini dünyagörüşünün saxlanılması və inkişaf etdirilməsi səciyyəvi idi.

E.e.. VI-V əsrlərdə brahmanizm ideologiyasına qarşı mübarizədə yeni dini-siyasi cərəyan – buddizm yaranır. Buddizmin banisi Budda ("nurlu" deməkdir) adı ilə məşhur olan Siddhartha Qautama hesab edilir. Buddanın qanun külliyatından zamanəmizə gəlib çıxanı "Tipitaka" ("Üç səbət") adlanır. Buddizmin mərkəzi ideyası insanı əzab-əziyyətlərdən xilas etməkdən ibarət idi. Buddizm kastalara, təbəqələrə mənsubiyyətindən asılı olmayaraq hamının bərabərliyi ideyasını irəli sürürdü. Buddizm ictimai passivliyinə, zülmə qarşı hər hansı müqaviməti inkar etdiyinə görə hakim sinif üçün də münasib idi.

Çində də siyasi fikrin meydana gəlməsi və inkişafı Misir, Balilistan, Hindistan və başqa Şərq ölkələrinə uyğun olmuşdur. Belə ki, quldarlıgın yaranması, istehsal münasibətlərinin inkişafı, zehni əməklə məşğul olan xüsusi insanların–müdriklərin meydana gəlməsi yeni siyasi təlimlərin də yaranmasına təkan vermişdir.

Qədim Çində quldarların sərt münasibətlərinə qarşı kütlələrin etirazını ifadə edən siyasi fikirlər e.ə. VI əsrdə yaranmış daosizm (dao – hərbi mənada yol deməkdir) təlimində

geniş əks olunmuşdur. Daosizmin başlıca prinsipləri həmin cərəyanın banisi Lao-Tszının “Dao de tszin” adlı kitabında şərh edilmişdir. Bu təlimin əsasını “dao” anlayışı təşkil edir. O, insanın və xalqın düzgün həyati yol seçməsi ideyasından bəhrələnmişdir. Lao-tszının ardıcılları daonu dünyanın və bütün şeylərin mütləq başlanğıcı hesab edirlər. Daosizm cəmiyyətdəki çatışmazlıqların başlıca səbəbini insanların ilk başlanğıcda onlara xas olan sadəlikdən uzaqlaşması ilə əlaqələndirirdi. Daosizm hökmranlığa və zülmə qarşı çıxır, ibtidai icma həyatına qayıtmağı təbliğ edirdi.

Qədim Çinin və eləcə də bütün Şərqin siyasi fikir tarixində ən məşhur təlimlərdən biri konfutsiançılıqdır. Bu cərəyanın banisi yoxsullaşmış aristokrat ailəsində anadan olmuş Konfutsi Kun-tszı (e.ə.551-479) hesab olunur. O, gəncliyində məmur olmuş, sonra isə Çində ilk xüsusi məktəb açmışdır. Bu cərəyanın başlıca ideyaları Konfutsinin öz tərəfdarları və şagirdləri ilə müsahibələrinin yazılı qeydləri olan “Müsahibələr və mülahizələr” (“Lun Yuy”) adlı kitabda öz əksini tapmışdır. Konfutsinin etik-siyasi təlimində ən mühüm anlayış “jen”dir (insanpərvərlikdir). Jen yaş və rütbəcə böyüklərə ehtiram, hökmdara sədaqət və s. əsasında insanların ictimai münasibətlərinin məcmusudur. Konfutsiyə görə, jeni ancaq imtiyazlı adam, cəmiyyətin yüksək təbəqələrinin nümayəndələri (əqli əməklə məşğul olanlar) dərk edə bilərlər. O, “alicənab ərləri” “miskin adamlara” qarşı qoyurdu. Konfutsiyə görə, birincilər inkinciləri idarə etməli, onlara nümunə olmalıdırlar. Konfutsiançılıq dövlət doktrinası olduqda (e.ə. 136) Konfutsi “…min nəslin müəllimi” elan olunmuşdur. Konfutsiançılıq yarandığı

vaxtdan etibarən hakim sinfin – irsi aristokratiyanın mənafeyini ifadə edirdi. Partiarxal xarakter daşıyan konfunsiançılığa görə, dövlət böyük bir ailəni xatırladır və onun idarə olunması aristokratik prinsiplərə əsaslanır. Konfutsinin sözlərinə görə “hökmdar – hökmdar, təbəə – təbəə, ata – ata, oğul – oğul” olmalıdır. Kiçik – böyüyə, aşağı – yuxarıya itaətlə tabe olmalıdır.

Konfutsiançılıq təliminə nəzər saldıqda, onunla Hammurapinin qanunları arasında bəzi oxşar cəhətləri görmək olar. Belə ki, konfutsiançılıq da hakimiyyətin müqəddəsliyini və allah tərəfindən bəxş edildiyini iddia edirdi. Hammurapi kimi Konfutsi də istəyirdi ki, allah tərəfindən müəyyənləşdirilən “səma” qaydaları dəyişməz qalsın. Lakin Hammurapidən fərqli olaraq, Konfutsi cəmiyyətin qanunlar əsasında deyil, ənənəvi dini-əxlaqi metodlarla idarə olunması ideyası ilə çıxış edirdi. Yəni konfutsiançılıq eyni zamanda paternalist (əxlaqi əsasda qəbilə–tayfa prinsiri üzrə idarəetmə) təlim idi.

Qədim Çində siyasi fikrin məşhur nümayəndələrindən biri də Mo-tszı (e.ə. 479-400) olmuşdur. Mo-tsznn təlimi onun ardıcılları tərəfindən 51 fəsildən ibarət olan “Moizmin traktatı” adlı əsərdə öz əksini tapmışdır. Konfutsidən fərqli olaraq, Mo-tszı irsi aristokratiya idarəçiliyini tənqid edirdi. Moizm təlimi yoxsulların, xırda millətlərin, sənətkarların, tacirlərin və aşağı rütbəli dövlət qulluqçularının mənafeyini ifadə edirdi. Mo-tszı bütün insanların bərabərliyi, dövlət idarəçiliyində eyni hüquqla iştirak etməsi ideyasını irəli sürürdü. O hesab edirdi ki, dövlətin idarə edilməsinin meyarı insanların hansı təbəqəyə malik olması deyil, onların qabiliyyəti və xalqa xidmət göstərmək əzmi olmalıdır. Mövcud üsul idarəni, quldarlıq quruluşunu,

ağalıq-tabelik münasibətlərini qoruyub saxlamağa çalışan konfutsiançılıqdan fərqli olaraq, moizm təlimi xalqı öz mənafeyi və hüquqları uğrunda fəal mübarizəyə çağırırdı. Konfutsiançılıq hakimiyyətin müqəddəsliyini və dəyişilməzliyini əsaslandırmağa çalışdığı halda, moizm dövlət idarəçiliyinin sadə xalq nümayəndələri tərəfindən həyata keçirilməsini mühüm amil hesab edirdi.

Qədim Çində mövcud olmuş təlimlərdən biri də legizmdir (latınca "leqis" - qanun deməkdir). Daosizm, konfutsiançılıq və moizmdən fərqli olaraq, legizmə görə cəmiyyət və dövlət idarəçiliyi mənəvi-əxlaqi təkmilləşməyə deyil, qanunçuluğa və siyasətə əsaslanmalıdır. Əvvəlki siyasi cərəynlardan fərqli olaraq, legizmin nümayəndələri keçmiş qaydaların bərpa edilməsinin deyil, cəmiyyətin yeni əsaslarla idarə edilməsinin tərfdarı kimi çıxış edirdilər.

Beləliklə də, Qədim Şərqdə mövcud olan siyasi ideya və təlimlərin qısaca da olsa təhlili onu deməyə əsas verir ki, məhz bu region siyasi təsəvvürlərin ilk vətəni olmaqla qədim Yunanıstanda və Romada siyasi biliklərin inkişafına təkan vermişdir.

Lakin onu da qeyd etmək lazımdır ki, siyasi fikir Qədim Şərqdə meydana gəlsə də, özünün klassik inkişaf mərhələsinə Yunanıstan və Roma quldar dövlətlərində çatmışdır.

Qədim Yunanıstanda siyasi fikrin inkişafı əsas etibarilə üç böyük dövrə bölünür. Birinci dövr (e.ə. VIII-VI əsrlər) Yunanıstanda dövlətçiliyin formalaşması prosesi ilə eyni vaxtda təşəkkül tapan dövlət və siyasət haqqında təsəvvürlər dövrünü əhatə edir. İkinci dövr (e.ə. V-IV əsrlər) quldarlıq

demokratiyasının yüksəliş dövrünə uyğun gələn siyasi fikrin çiçəklənməsi dövrünü ehtiva edir. Üçüncü dövr (e.ə.IV-II əsrlər) isə ellinzm dövründə dövlət quruluşunun tənəzzülünü əks etdirən siyasi təlimlərin böhranını səsiyyələndirir.

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Homer "İliada" və "Odisseya" əsərlərində ədalət prinsipinə yüksək qiymət verərək, onu dövlət idarəçiliyinin zəruri şərti hesab edirdi.

"Yeddi böyük müdrik" - Fales, Pittak, Periandr, Biant, Solan, Kleobül və Xilon – polisin həyatında ədalətli qanunların əhəmiyyətini yüksək qiymətləndirirdilər.

Solonun (e.ə. 635-509) e.ə. 594-cü ildə arxont seçildikdən sonra həyata keçirdiyi sosial-siyasi islahatlar qəbilə quruluşu qalıqlarının ləğvini sürətləndirmiş, Afina quldarlıq demokratiyasının yaranmasını təmin etmişdi. Afina demokratiyasının və qanunlarının məhdud xarakterini Solon özü də etiraf edirdi. O deyirdi: "Qanunlar hörümçək toruna bənzəyir: zəiflər bu torda ilişib qalır, güclülər isə toru yırtıb çıxırlar".

Qədim Yunanıstanda dövlətçiliyin və siyasi fikrin təşəkkül tapması dövrünün görkəmli mütəfəkkirlərindən biri də Pifaqor (e.ə. 580-500) olmuşdur. Pifaqor Hindistanı, Misiri, Balilistanı gəzmiş və Şərqin müdrik fikir mənbələri ilə yaxından tanış olmuş, vətənə qayıdaraq, gənc aristokratiya nümayəndələrindən ibarət məktəb yaratmış, bütün əmlakından məktəbinə xeyrinə əl çəkən, müəlliminin sözlərini gizli saxlayan, qan tökmək meyli olmayan, ət yeməyən şəxsləri buraya götürmüşdür. Pifaqor və onun davamçıları (Arxit, Lizis, Filolay) de-

mokratiyanı tənqid edərək, aristokratiyanı ideal dövlət quruluşu forması hesab edirdilər.

Qədim yunan filosofu Heraklit (e.ə. 544-483) də Pifaqor kimi sosial-siyasi bərabərsizliyə haqq qazandırır və demokratiyanı tənqid edirdi. Heraklitə görə, dünya ziddiyyətlərin məcmusudur. Hər şey ziddiyyətlərin mübarizəsindən və müharibəsindən yaranır. Çətin başa düşülən atoristik ifadə tərzinə görə müasirləri onu "Qəliz" adlandırmışdılar.

Qədim Yunan filosofu Falesin (e.ə. 625-547) də Şərq ölkələrini gəzməsi, Misir və Balilistanın müdrik adamlarından dərs alması və Miletə qayıdıraq, burada özünün məktəbini yaratması siyasi fikrin Şərqdə yaranaraq buradan da antik Yunanıstana və Romaya yayılması ilə bağlı dediklərimizi bir daha təsdiq edir. Fales və onun davamçıları (Ananksimandr, Anaksimen) hesab edirdilər ki, dövlətin idarə edilməsi üçün başlıca meyar orada ədalətli qanunların olmasıdır.

Antik Yunanıstanın siyasi fikir tarixində ensiklopedist alim olan Demokritin (e.ə.480-370) görüşləri xüsusi yer tutur. Şərq üçün xarakterik olan dövlətin allah tərəfindən idarəsinin təzahuru olması ideyasından fərqli olaraq, Demokrit hesab edirdi ki, dövlət kənar bir qüvvə tərəfindən yaradılmayıb. O məhz adamların uzun sürən mübarizəsinin məhsuludur. Dövlətin başlıca vəzifəsi isə vətəndaşların mənafeyinə xidmət etmək olmalıdır. Demokrit siyasəti insan səylərinin məhsulu kimi qiymətləndirir və onu böyük sənət adlandırırdı.

Demokratlar və aristokratlar arasında e.ə. VII əsrdə başlanan mübarizə e.ə. 460-cı ildə demokratların qələbəsi ilə nəticələndi. Özünün demokratik ideyalarına sadiq qalan Perikl

qullar istisna olmaqla Afinanın bütün vətəndaşlarına ümumi bərabərlik və şəxsi azadlıq hüququ verdi. Düzdür, əhalinin böyük əksəriyyətini təşkil edən qulların bu geniş imtiyazlardan məhrum edilməsi Afina demokratiyasının məhdud diapazona malik olduğunu göstərsə də, hər halda Periklin tədbirləri irəliyə doğru mühüm bir addım olub, öz zəmanəsi üçün mütərəqqi xarakter daşıyırdı. Təsadüyi deyil ki, tarixi ədəbiyyatda bu əsr Afina demokratiyasının "qızıl əsri" və ya onun rəhbərlərindən birinin adı ilə, yəni Periklin şərəfinə "Perikl əsri" adlandırılır.

Quldarlıq demokratiyasının siyasi ideyaları sofistlərin(yunanca müdrik deməkdir) əsərlərində xüsusilə geniş yer almışdır. Antik Yunanıstanda mübahisə etmək, sübuta yetirmək sənətini öyrədən, məhkəmədə və xalq yığıncaqlarında çıxış edən müdrik fikir sahiblərini sofistlər adlandırırdılar. Sofistlər iki yerə ayrılır: böyük və kiçik sofistlər. Böyük sofistlər nəslinin nümayəndələri Protoqor, Qorqi, Hippi və Antifont hesab olunur. Böyük sofistlər hesab edirdilər ki, qanun müəyyən qrup insanlara deyil, bütöv cəmiyyət üzvlərinə aid olmalıdır. Antifont yazırdı: "Ədalət o deməkdir ki, vətəndaşı olduğun dövlətin qanunlarını pozmayasan".

Kiçik sofistlər (Alkidamant, Likofron və b.) isə insanların təbiət və qanun qarşısında bərabərliyi məsələlərinə xüsusi yer verirdilər. Alkidamantın belə bir məşhur kəlamı indiyədək qalmaqdadır: "Allah bütün insanları azad yaradıb, təbiət isə heç kəsi qul etməyib".

Antik Yunanıstanda siyasi fikir tarixinin görkəmli simalarından biri də Sokratdır (e.ə.469-399). O sofistlərlə mübarizə aparmaq və gəncləri tərbiyələndirmək məqsədi ilə küçə və

meydanlarda moizə edirdi. Sokrat yeni allahlar uydurmaqda və gəncləri pozmaqda təqsirləndirilərək ölümə məhkum edilmişdir (zəhər içmişdir). Sokratın heç bir əsəri dövrümüzə gəlib çatmadığından, onun həyatı və təlimi haqqında mühüm məlumat mənbəyi şagirdləri Ksenofont və Platonun əsərləri sayılır. Müasirləri Sokratı demokratiyanı tənqid etməkdə günahlandırırdılar. Əslində isə, o nəinki demokratiyanı, ədaləti və qanunu pozan butun dövlət quruluşu formalarını tənqid edirdi. Yəni qanunçuluğun prinsipial tərəfdarı olan müəllifdə Afina demokratiyasının məhdudluğu, dövlət idarəçiliyində xalq kütlələrinin əksəriyyətinin kortəbii iştirakı təəssüf doğururdu.

Sokratın tələbəsi Platon (e.ə. 417-347) müəlliminin haqsız yerə cəzalandırılmasına etiraz olaraq Afinanı tərk edərək, Misirə və Cənubi İtaliyaya səfərə cıxmışdır. E.ə. 387-ci ildə Platon Afinada əfsanəvi qəhrəman Akademin adını daşıyan parkda özünün fəlsəfi məktəbini – Platon Akademiyasını (müasir universitetlərin prototipi) yaratmışdır. Platon hesab edirdi ki, insan qəlbi (ruhu) üç əsas xüsusiyyətə malikdir: idraki, iradi və hissi. Buna uyğun olaraq əxlaqda üç mühüm məziyyət mövcud olur – müdriklik, mərdlik və həyəcan.

Özünün triadik təliminə uyğun olaraq Platon cəmiyyəti də üç hissəyə ayırırdı:

1. Filosoflar – hökmdarlar (onların fəaliyyətində ruhun idraki hissəsi üstünlük təşkil edir və funksiyaları dövləti idarə etməkdir);

2. Hərbçilər (onların fəaliyyətində ruhun iradi hissəsi təzahür edir və başlıca vəzifələri dövləti daxili və xarici düşmənlərdən qorumaqdır);

3. İstehsalçılar – sənətkarlar və əkinçilər (onların fəaliyyəti ruhun hissi cəhətlərinə əsaslanır və funksiyaları dövlətin maddi tələbatını ödəməkdir).

Platon dövlət quruluşu formalarını da üç yerə bölürdü: monarxiya, aristokratiya və demokratiya. Bu dövlət quruluşu formaları özü də iki yerə ayrılırdı: monarxiya qanuna (çar) və gücə əsaslanın (tiraniya) olur; aristokratiya yaxşıların (timokratiya) və pislərin (oliqarxiya) hakimiyyəti ola bilər; demokratiya ədalətli və ədalətsiz (plutokratiya) ola bilər. Platon bütün bu dövlət quruluşu formalarını kəskin tənqid edərək, özünün ideal dövlət layihəsini irəli sürürdü ki, onun da iki əsas şərti var idi:

1. Dövlət filosoflar tərəfindən idarə olunur;
2. Burada ədalətli qanunlar vardır.

Klassik siyasi fikrin ən görkəmli nümayəndəsi yunan mütəfəkkiri Aristotel (e.ə.384-322) hesab edilir. Aristotelin ikinci adı olan Stagirit anadan olduğu (Stagire) yerin adı ilə bağlıdır. E.ə. 367-ci ildə Afınaya gəlib Platonun şagirdi olmuş və 20 il Platon Akademiyasında iştirak etmişdir. E.ə. 335-ci ildə Aristotel Afınaya qayıdaraq özünün peripatetik (yunanca gəzişirəım deməkdir) məktəbini yaratmışdır. Aristotel mühazirələrini Likey xiyabanlarında gəzişərək oxuduğu üçün ıməktəb bu cür adlanmışdır. Aristotelin siyasi təlimi "Siyasət", "Afina siyasəti" "Ritorika" "Nikomaxın etikası" və s. əsərlərdə öz əksini tapmışdır. Aristotelin "Siyasət" əsəri Qərbin siyasi fəlsəfəsində başlanğıc nöqtəsi hesab edilir. Çünki, bu əsər siyasi rejimlərm təsnifatını, vətəndaşlıq anlayışının mahiyyətini və

siyasi həyatda təhsilin əhəmiyyətini sistemli şəkildə araşdıran ilk elmi tədqiqat işi idi.

Aristotelin "Nikomaxın etikası" adlı əsəriində isə elmlərin təsnifatı verilir. Bu zaman siyasi elmə üstünlük verən müəllif onu etika ilə əlaqələndirirdi. Aristotel hesab edirdi ki, siyasi elmlərin əsas məqsədi yüksək mənəvi təsəvvürləri və əxlaqı dərk etməkdir. Siyasətin başlıca funksiyası isə cəmiyyət üzvlərinin mənafeyini təmin etməkdir. O yazırdı: "Dövlət, ümumiyyətlə yaşamaq üçün deyil, xoşbəxt yaşamaq üçün qurulur. Əks halda, kölələrdən yaranan və heyvanlardan təşkil olunan birliyi də dövlət saymaq lazım gələrdi, bu isə düzgün olmazdı, çünki onlar öz iradələri ilə birlik yaratmırlar.

Aristotelin fikrincə, cəmiyyət daxilində yaşayan insan siyasi varlıqdır. Dövlət təbii şəkildə ailədən törəyir və hakimiyyət–tabeçilik rnünasibətbrini (ağa və kölə, ər və arvad, ata və övladlar) yeni səviyyədə həyata keçirir.

Sələfi Platon kimi Aristotel də quldarlıq quruluşıınun ideoloqu idi. Platon kimi o da belə hesab edirdi ki, insan siyasi azadlıq şəraitində yaşamaq iqtidarında deyil. Lakin Platondan fərqli olaraq, Aristotelin ideal dövləti fərdi hüquqlara, müxtəlif mülkiyyət formalarına və iqtisadi özünütənzimləmə mexanizminə malik, vətəndaşların mənafeyi olan bir cəmiyyətdir. Platondan fərqli olaraq, Aristotel hesab edirdi ki, pozitiv hüquq hakimiyyətin fəaliyyəti nəticəsində yarandığı üçün dəyişkən xarakterə malikdir. Ona görə də hüquq pozitiv qanunlar üçün baza rolunu oynamalıdır. Məhz bununla, Aristotel insanın təbii hüquqlarının dövlət qanunlarından üstünlüyü haqqında müasir

insan hüquqları konsepsiyasının əsasını təşkil edən ideyanı irəli sürmüş olurdu.

Aristotel üçün hakimiyyət Platonda olduğu kimi hamıdan yüksəkdə duran iradə deyil, insanların birgəyaşayışını təmin etmək vasitəsidir.

Əgər Platon insan qəlbini üç əsasa (idraki, iradl və hissi) bölür və hökmdarların fəaliyyətində ruhun idarki hissəsinin üstünlük təşkil etdiyini iddia edirdisə, Aristotelin qənaətinə görə, hökmdarlar da hissələrə malikdirlər.

Aristotel dövlətin altı formasını göstərirdi. Aristotele görə onlardan üçü – monarxiya, aristokratiya və politiya (orta sinfin hakimiyyəti) normal, üçü isə tiraniya, oliqarxiya və demokratiya qeyri-normaldır. Aristotel demokratiyanı idarəetmənin ən pis formalarından ən yaxşısı kimi tövsiyə edirdi. O ən yaxşı dövlət forması kimi isə "politiya"nı qəbul edirdi. Çünki burada ümumi mənafə naminə əksəriyyət idarə edir.

E.ə. IV əsrin ortalarında qədim Yunan dövləti Makedoniyadan asılı vəziyyətə düşür. Makedoniyalı İsgəndərin Şərq ölkələrinə yürüşü ilə (e.ə. 334-323) ellinizm dövrü, yəni siyasi təsisatlar və mədəni inkişaf mərhələsində yunan və yerli (əsasən, şərq) ünsürlərin qarşılıqlı əlaqəsi ilə xarakterizə edilən konkret tarixi bir dövr başlanır. Artıq bu dövrdən etibarən işğalçı dövlətlərin böyük imperiya yaratmaq məqsədilə hərbi təcavüzkarlıq siyasəti aparması ön plana keçir. E.e. 146-cı ildə Yunanıstan yeni güclü quldarlıq dövləti – Romanın tərkibinə daxil edildi. Bütün bu deyilənlər Yunanıstanda siyasi fikrin inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi. Bütövlükdə yunan siyasi fikrinin dövlət quruluşunun tədricən dağılması

dövrünə təsadüf edən üçüncü mərhələsi üçün əsas xarakterik xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

1.Dövlət müstəqilliyinin itirilməsi vətəndaşlar arasında inamsızlıq və siyasi laqeydlik yaradırdı ki, bu da yeni ideya və təlimlərin yaranmasına mane olurdu.

2. Şərq mədənlyyətinin təsiri ilə siyasi nəzəriyyələrdə əxlaqi nəsihətlər və dini mistika ön plana çəkilir, monarxın səlahiyyəti ilahiləşdirilirdi.

3.Böyük dövlətlərin işgalçılıq siyasətləri həmin dövrün siyasi təlimlərinə də öz təsirini göstərirdi. Belə ki, bu mərhələ üçün siyasi ideya və baxışlarda yeni cəhət kosmopolitizm və dünyada hökmranlıq tendensiyasının güclənməsi idi.

Ellinizm dövrünün görkəmli siyasi fikir nümayəndələrindən biri Epikürdür (e.ə. 341-270). Epikür hesab edirdi ki, qanunlar və dövlət Allah tərəfindən deyil, cəmiyyət tərəfindən təşkil olunmuşdur. Xalqın etiqad etdiyi allahlar uydurma varlıqdır. Epikürün fıkrincə, müxtəlif dövlətlərin qanunlarında təcəssüm olunan ədalət nisbi və şərti xarakter daşıyır.

Epikürün siyasi görüşlərinə qarşı mübarizədə Yunanıstanda stoisizm (yunanca aynabənd, eyvan) təlimi meydana gəlir. Afinada Zenon Kitiyskinin (e.ə. 336-264) əsasını qoyduğu məktəbin görünüşü eyvanı xatırlatdığı üçün onun təliml bu cür adlanırdı. Aristotel və Platon kimi stoiklər də hesab edirdilər ki, qanun və dövlət cəmiyyət tərəfındən deyil, təbiətə əsasən yaradılır. Stoiklərin baxışlarında bu mərhələ üçün səciyyəvi olan kosmopolitizm özünü onda büruzə verirdi ki, onlar təbii hüququ ümumdünya qanunları, dövləti isə dünya birliyi hesab edirdilər.

Yunanıstanda nnövcud olan siyasi mühit Qədim Romada siyasi fikrin formalaşmasına həlledici təsir göstərmişdir. Qədim Roma siyasi fıkrinin ən görkəmli simalarından biri görkəmli mütəfəkkir, antik dünyanın məşhur oratoru Mark Tulli Siseron (e.ə. 106-43) olmuşdur.Onun siyasi görüşləri "Respublika", "Dövlət haqqında", "Qanunlar haqqında", "Allahın təbiəti" adlı əsərlərdə öz əksini tapmışdır. Platon və Aristotel kimi Siseron da hesab edirdi ki, dövlət xalqın rifahı üçün yaradılır. O, yazırdı: "Dövlət xalqın sərvətidir, ümumi maraqlar və insanların birgəyaşayış tələbatı əsasında meydana gəlir". Lakin Platon və Aristoteldən fərqli olaraq, Siseron dövlət quruluşu formalarından heç birinə üstünlük vermir, əksinə, onların hər birinin mənfi və müsbət cəhətlərə malik olduğunu vurğulayırdı. Siserona görə, dövlətlərin başlıca vəzifəsi xüsusi mülkiyyəti dafiə etməkdir. Siseron dövlətin üç başlıca formasını fərqləndirirdi: demokratiya, aristokratiya və monarxiya.

Siseronun siyasi fikir tarixində ən böyük xidmətlərindən biri də odur ki, məhz o, ilk dəfə olaraq dövlətin hüquqi təsisat olması ideyasını əsaslandırmışdır.

Qədim Romanın siyasi fikir tarixində stoiklərin (Zenon, Seneka, Epiktet və b.) siyasi görüşləri xüsusi yer tutur. Stoiklər fəal siyasi mübarizədən imtina etməyə çağırır, adamların əxlaqi cəhətdən kamilləşməsi və hakim sinfin zülmünə qarşı əxlaqi etirazına üstünlük verirdilər. Zenona görə dövlətin yaranması təsadüfün məhsuludur. Epiktet quldarları qullara qarşı münasibətdə vicdanlı olmağa səsləyirdi.

Qədim Romada siyasi fikrin inkişafında e.ə. I əsrdə yoxsul kütlələrin mənafeyinin ifadəsi kimi meydana gələn

xristian (yunanca xristos - padşah deməkdir) dini böyük rol oynamışdır. Xristianlıq mövcud qaydalara, quldarlıq dövlətinə qarşı məzlumların etirazının ifadəsi idi. Xristianlıq İsa peyğəmbərin ikinci dəfə zühur etməsi ideyasına əsaslanırdı.

Məhz xristianlıq iudaizm və antik fikirdən qaynaqlanaraq insanlar üçün ədalətli davranış qaydasını –"Qızıl qanunu"u kəşf etdi: "Adamların sizinlə necə rəftar etmələrini istəyirsinizsə, onlarla da elə rəftar edin". "Qızıl qanun"un başlıca məgzini təşkil edən bu bərabərlik prinsipi insanların qarşılıqlı fəaliyyətinin bütün sahələrinə aid edilməklə bir növ normativ tənzimləmə funksiyasını həyata keçirirdi. İncildə (yunanca yevangeliya - xoşxəbər, müjdə) bütün insanların qanun qarşısında bərabərliyi çox sərrast şəkildə belə ifadə olunurdu: "Mühakimə etməyin ki, mühakimə olunmayasınız. Çünki nə hökmlə mühakimə etsəniz, onunla da mühakimə olunacaqsınız".

Beləliklə, qədim Yunanıstan və Romadakı siyasi təlimlər üçün aşagıdakı xüsusiyyətlər xarakterik olmuşdur:

-siyasi fikir getdikcə mifoloji dünyagörüşündən azad olmağa başlayır;

-siyasət elm və sənət kimi əsaslandırılmağa çalışılır;

-siyasi rejimlərin müxtəlif və fərqli təsnifatı verilir, idarəetmənin səmərəli üsul və metodlan axtarılır;

-siyasi təlimlərdə xüsusi mülkiyyət və quldarlıq münasibətlərini əsaslandırmaq cəhdləri başlıca yer tutur.

Məlum olduğu kimi, 476-cı ildə Qərbi Roma imperiyasının süqutu ilə qədim dünya tarixi sona yetdi və orta əşrlər tarixinin başlanğıcı qoyuldu. Orta əsrlərdə feodal istehsal münasibətlərinin bərqərar olması istər Şərqdə, istərsə də Qərbi

Avropa ölkəbrində yeni siyasi ideya və təsəvvürlərin formalaşmasına gətirib çıxardı. Orta əsrlərdə siyasi fikrin əsas xarakterik xüsnsiyyətləri aşağıdakılar olmuşdur:

-siyasi fikir müxtəlif dinlərin, xüsusilə islam və xristian dinlərinin təsiri altında formalaşmışdı;

-müxtəlif elm sahələri kim siyasət də teologiyaya tabe etdirilmişdi;

-xristian və islam dinlərinin təblig etdiyi teokratik ictimai quruluş ideyası əsaslandırılmağa çalışılırdı;

-dini hakimiyyətin dünyəvi hakimiyyətdən üstünlüyü iddia edilirdi;

-dünyadakı qayda-qanunun Allah tərəfindən yaradıldığı qeyd olunurdu;

-insanın Allah iradəsinə tabe olması ideyası təblig olunurdu;

Orta əsrlərdə Şərqdə siyasi fikrin inkişafında islam dini xüsusilə böyük rol oynamışdır. İslam dininin başlıca mənbəbri olan Quran və sünnənin (Məhəmmədpeyğəmbərin kəlamları və gördüyü işlər) təhlili göstərir ki, burada xalqın suverenliyi, qanunun aliliyi, sosial və ədalətli dövlət,şəxsi  təhlükəsizlik (liberalizm),seçki hüququ, vicdan azadlığı, bərabərlik, gender bərabərliyi ilə bağlı kifayət qədər sanballı və elmi əsaslara söykənən müddəalar vardır. Məsələn, elmi ədəbiyyatda T. Hobbs, C. Lokk və J.J.Russonun ictimai müqavilə nəzəriyyəsinin yaradıcıları olması haqqında müddəa hələ də öz təsirini saxlamaqdadır. Lakin bu bir həqiqətdir ki, adını çəkdiyimiz mütəfəkkirlərdən min il qabaq, Məhəmməd peyğəmbər öz üsul-idarəsinə başlamazdan öncə şəhər əhalisi, o cümlədən milli və dini az-

lıqlar ilə qarşılıqlı öhdəliklər haqqında ictimai saziş imzalamışdır.

Orta əsrlərdə Şərqdə siyasi fikrin görkəmli nümayəndələrindən biri Əbu Nəsr Məhəmməd Əl-Fərabi (870-950) olmuşdur. Ona "Ərəb fəlsəfəsinin atası", "Şərqin Aristoteli" – "Ə1-Müəllim əs-sani" ("ikinci müəllim") fəxri adları verilmişdir. "Mərhəmətli şəhər sakinlərinin görüşləri haqqında" adlı siyasi traktatda Əl-Fərabi özünün ideal dövlət layihəsini əsaslandırmağa çalışır. Fərabiyə görə, dövlət insanlar tərəfindən onların tələbatlarını ödəmək məqsədilə yaranır. Platon kimi, Fərabi də hesab edirdi ki, ideal dövlətə filosof – hökmdar başçılıq etməlidir.

Şərq siyasi fikrinin digər görkəmli nümayəndəsi ibn Xaldun (1332-1406) olmuşdur. Onun siyasi görüşləri "Müqəddimə" və "Nəsihətlər kitabı" əsərlərində əks olunmuşdur. İbn Xaldun Avropa alimləri–Monteskye, Çellen və başqalarından xeyli qabaq göstərirdi ki, ictimai həyat coğrafi mühit və iqlimlərlə şərtlənir. O Platon və İbn Rüşddən fərqli olaraq, ideal deyil, real mövcud olan dövləti tədqiqat obyektinə daxil etmişdir. O hesab edirdi ki, hər bir cəmiyyət insanın təbiəti ucbatından dövlət adlı ictimai orqanizmə ehtiyac hiss edir. Onun fikrincə, dövlət hakimiyyətinin digər hakimiyyət növlərindən fərqi odur ki, o, məcburetmə funksiyasına malikdir. Məhz bu funksiya daxildə cəmiyyət üzvlərini vahid hakimiyyət altında birləşdirir, xaricdə isə başqa hakimiyyətin təsiri altına düşməkdən özünü qoruyur. O, üç dövlət quruluşu formasını ayırırdı: gücə əsaslanan "təbii monarxiya"; rasional meyarlaıra söykənən "siyasi monarxiya"; siyasi sərvətlərə, ümumbəşəri dəyərlə-

rə əsaslanan, müsəlman icmasının etiqadını müdafiə edən “xilafət”.

Orta əsrlərdə Qərb siyasi fikrində sxolastika (yunan dilində məktəb deməkdir) hakim mövqe tutmağa başlayır. Sxolastiklər teologiyaya üstünlük verir, xristian təlimini əsaslandırmağa cəhd edirdilər. Bu təlimin görkəmli nümayəndələrindən biri ingilis alimi Rocer Bekon (1214-1292) idi. Bekonun irəli sürdüyü ideal dövlət layihəsində Roma papasının simasında ruhani və dünyəvi hakimiyyət birləşir və teokratiya yaranır.

Sxolastikanı sistem halına salan şəxs katolik təliminin ideoloqu Foma Akvinski (1225-1274) olmuşdur. F. Akvinski Aristotelin “Siyasət” əsəri əsasında ilk dəfə olaraq, xristian dövləti təlimini inklşaf etdirməyə cəhd göstərmişdir. O bütövlükdə Aristotelin fikirlərini katolik təliminin ehkamları ilə uyğunlaşdırmağa çalışırdı. Aristotelin – “insan siyasi nıünasibətlərə girən heyvandır” kəlamına arxalanaraq, o belə hesab edirdi ki, dövlətdə birləşmək və yaşamaq meyli insanların təbiətindən irəli gəlir. Belə ki, insan ayrı-ayrılıqda öz tələbatını ödəyə bilmir. Dövlətin yaradılması prosesi Allah tərəfindən dünyanın yaradılması prosesinə uyğun olan analoji haldır. Dövlətdə monarxiya fəaliyyəti allahın fəallığı ilə oxşardır. Dövlətə rəhbərlik etməyə başlamazdan əvvəl, Allah ona təşkilatçılıq və idarəetmə qabiliyyəti verir. Dövlətin məqsədi “ümumi firəvanlığı” təşkil etməkdir. Akvinskiyə görə, bu məqsədin reallaşması feodal iyerarxiyasını saxlamağa, güzəştə malik olan şəxslərin və varlıların vəziyyətini qorumağa, siyasi sferadan əkinçilərin və sənətkarların sıxışdırılıb çıxarılmasına yö-

nəldilmişdir. Konfutsi kimi Foma Akvinski də hesab edirdi ki, hakimiyyətin mahiyyəti ağalıq və tabelik münasibətlərindən ibarətdir. Əgər dövlət başçısının fəaliyyəti Allah iradəsindən кənara çıxarsa, ona qarşı müqavimət göstərilməlidir. İdarəçiliyin respublika formasını qəbul etməyən Foma Akvinalı monarxiyanı ən düzgün dövlət quruluşu forması hesab edirdi.

Orta əsrlər dövründə feodalizmə və xristian təlimini təhrif edən kilsəyə qarşı mübarizə aparan yeganə siyasi ideologiya bidətçilər hərəkatı idi. Bidətçilər hərəkatının ən görkəmli nümayəndəbrindən biri fransız alimi Marsili Paduanski (1280-1343) idi. O hər şeydən əvvəl kilsənin dünyəvi hakimiyyətə iddiasına qarşı etiraz edir, qanunları bəşəri və ilahi olmaqla iki yerə ayırırdı. Onun fikrincə, birincilərin məqsədi ümumi rifaha, ikincilərin  məqsədi isə daimi xoşbəxtliyə nail olmaqdır.

XIV əsrdən etibarən Qərbi və Mərkəzi Avropa ölkələrində feodalizm zəifləməyə, əvəzində burjua münasibətləri qərarlaşmağa başladı. İqtisadi mövqeyini getdikcə möhkəmləndirən burjuaziya siyasi hakimiyyətə də can atır, feodal münasibətlərinə və kilsənin hakim mövqeyinə qarşı mübarizə aparırdı. Burjua münasibətlərinin formalaşması ilə sənətkarlıq və ticarət genişlənir, sadə əl əməyindən manufaktura istehsalına keçilir, mərkəzləşmiş dövlətlər yaranırdı. Bütün bu dəyişikliklər fonunda elm və mədəniyyət də dinin təsirindən çıxaraq, müstəqil inkişafa can atırdı. Bu yeni ictimai münasibətlər, əsasən, antik elm və mədəniyyətə müraciət edilməsi və onun dlrçəldilməsi ideyaları ilə inkişaf etdiyindən bu dövrə “İntibah” (“Renessans” - fransızca dirçəltmək deməkdir) dövrü deyilirdi. İntibah dövrünün əsas səciyyəvi xüsusiyyətləri aşağıdakılar olmuşdur:

-siyasi elmin teologlyadan azad olması;

-dövlətin ilahi deyil, təbii mənşəyə malik olması ideyasının əsaslandırılması;

-burjua siyasi-hüquqi fikrinin meydana gəlməsi;

-humanizm (latınca insani, bəşəri deməkdir) ideyalarının, insanın şərəf və ləyaqətinin yüksək qiymətləndirilməsinin, insan hüquqlarının təmin edilməsinin ön plana çəkilməsi;

-utopik sosializm ideyalarının meydana gəlməsi;

-siyasi idarəetmə formalarının bir-birini əvəz etməsi qanunauyğunluğunun əsalandırılması;

-antik dünyagörüşünün qayəsini kosmosentrizm, insana təbiətin bir hissəsi kimi baxmaq ideyası təşkil edirdisə, orta əsrlərin dünyagörüşü teosentrik səciyyə daşıyırdısa, intibah dövrü üçün antroposentrizm, yəni insanın bütün mövcudatın mərkəzinə qoyulması xasdır.

İntibah dövrü siyasi fıkrinin görkəmli nümayəndəsi italyan mütəfəkkiri Nikolo Makiavelli (1469-1527) olmuşdur. Onun siyasi fikirləri “Tit Livinin birinci ongünlüyü haqqında mühakimələr”, “Florensiya tarixi”, “Hökmdar” və s. kimi əsərlərində öz əksini tapmışdır. Siyasi fikir tarixində ilk dəfə məhz Makiavelli siyasəti insan fəaliyyətinin müstəqil sferası kimi nəzərdən keçirirdi. Makiavelli dini dünyagörüşü ilə əlaqəni kəsərək, siyasət haqqında orta əsr teoloji baxışlarına son qoymuşdur. O, siyasi hadisələrdə obyektiv qanunauyğunluğu və tarixi zərurəti əsas götürür və bunu tale adlandırırdı. İntibah dövrünün humanist prinslərinə uyğun olaraq, Makiavelli insanın yaradıcı qüvvəsinə inanaraq, tarixi prosesdə fərdin azad iradəsinə mühüm yer verir və insanları siyasətdə fəal ol-

mağa çağırırdı. Makiavelli dinin doqmatik müddəalanı kənara atmaqla, siyasəti təcrübi elm kimi əsaslandırırdı. O hesab edirdi ki, həqiqətin başlıca meyarı təcrübədir. Özü də siyasi elm fərziyyələrdən deyil, faktlardan çıxış etməlidir.

Makiavelli dövləti cəmiyyətin siyasi həyatı kimi görürdü. Makiavelliyə görə, dövlət dinə deyil, din dövlətə və xalqın birliyinə xidmət etməli idi.

İtaliyanın fəlakətini onun siyasi pərakəndəliyi ilə bağlayan Makiavelli bu pərakəndəliyi aradan qaldırmaq iqtidarında olan güclü milli dövlət konsepsiyası yaratmışdır. O, respublikanı ən yaxşı dövlət quruluşu forması hesab edlrdi. Makiavelli dövlətin möhkəmləndirilməsi üçün hər bir vasitəni – güc tətbiq etməyi, yalanı, satqınlığı, adam öldürməyi və s. məqbul hesab edirdi.

Makiavellinin geniş yayılmış əsas siyasi tövsiyyələri bunlardır:

1.Məqsəd vasitəyə haqq qazandırır.

2.Təbiət insanı yaradıb ki, o hər şeyi arzu edə bilər, lakin bunların hamısını əldə etməyə qadir deyildir.

3.Güclü ordu kimin tərəfindədirsə, tale də həmişə onunladır.

4.Boğa bilmirsənsə, bağrına bas.

5.Hakimiyyəti qazanmaq üçün xeyirxah, onu saxlamaq üçün qəddar olmalısan.

6.Pis işləri tez, yaxşı işləri isə mümkün qədər gec görmək lazımdır.

7.Tələni görmək üçün tülkü, canavarı məhv etmək üçün aslan olmalısan.

8.Vəziyyət tələb edərsə əxlaqa zidd hərəkət etmək olar, ancaq bunun xeyirxah iş olduğunu sübut etmək lazımdır.

İntibah dövrünün digər görkəmli ideoloqu fransız mütəfəkkiri Etyen-de La Boesidir (1530-1563). O özünün “Könüllü köləlik haqqında mühakimə” adlı əsərində azadlıq və bərabərlik ideyalarını monarxiyaya qarşı qoyurdu. Boesi insanın elmə və zəkaya yiyələnməsini onun azadlığa çıxmasının mühüm şərti hesab edirdi.

Digər fransız mütəfəkkiri Jan Bodenin (1530-1596) politologiyaya töhfəsi bu elmə “dövlət suverenliyi” anlayışını gətirməkdən ibarət olmuşdur. Bodenə görə, suverenlik dövlətin ən əsas əlamətidir. Dövlət haklmiyyətinin suverenliyi onun ölkə daxilində digər hakimiyyətlərdən üstünlüyünü, eləcə də xarici dövlətlərə münasibətdə müstəqil olmasını ifadə edir. O, dövləti ailələlərin məcmusundan ibarət olan idaraetmə sistemi kimi nəzərdən keçirirdi.

XV-XVI əsrlərdə Avropada ictimai münasibətlərin köklü surətdə dəyişdirilməsini və sosializm cəmiyyətinin yaradılmasını tələb edən utopik ideyalar da mövcud olmuşdur. Utopik sosializm ideyasının ən görkəmli nümayəndəsi ingilis alimi Tomas Mor (1478-1535) olmuşdur. Mor “Utopiya” (1516) adlı əsərində sosial və siyasi bərabərsizliyi, istismarı ifşa etmiş, xüsusi mülkiyyətin, zehni və fiziki əmək arasındakı ziddiyyətin ləğvi ideyasını irəli sürmüşdür. Tomas Mor başda olmaqla utopik sosialistlər iddia edirdilər ki, fərdi mənafe cəmiyyətin ümumi maraqları içərisində ərimәlidir. Onlar öz idealının inqilabi yolla həyata keçirilməsini qeyri-mümkün saymış, xalq hakimiyyətini anarxiya mənbəyi hesab etdiklərindən onun

əleyhinə olmuşlar. Bir sözlə, utopik sosialistlər ictimai inkişaf və onun qanunlarını öyrənmədən, cəmiyyətin sosial əsaslarla kökündən dəyişdirilməsinə can atırdılar.

XVI əsr Niderland və XVII əsr İngiltərə burjua inqilabları nəticəsində feodalizm quruluşu dağılmağa başladı. Bu inqilabların hazırlanması təbii olaraq, yeni burjua siyasi dünyagörüşünün təşəkkül tapımasını tələb edirdi. Yəni mütləqiyyətə və kilsəyə qarşı mübarizədə burjua ideoloqları dövlətə, haklmiyyətə və hüquqa dair yeni siyasi nəzəriyyə işləyib hazırlamalı idilər. Mövcud quruluşa qarşı mübarizə XVII əsrdə təbii hüquq nəzəriyyəsində öz ifadəsini tapdı. Bu nəzəriyyəyə görə, dövlət və hüquq Allah tərəfindən deyil, insanların əsrlər boyu əldə etdiyi təcrübə prosesində ictimai müqavilə əsasında yaranmışdır. Adamların təbiəti ilə şərtlənən insan zəkasının tələbləri "təbii hüquq"un yaranmasını zəruri edir. Təbii hüquq isə öz növbəsində dövlətin yaratdığı qanunlara uyğunlaşdırılmalıdır. Təbii hüquqlara bərabərlik, toxunulmazlıq hüququ, mülkiyyət hüququ, yaşamaq hüququ aid edilirdi. Tarixi inkişaf şəraitində "təbii hüquq" ideyası "ictimai müqavilə" konsepsiyası ilə tamamlanır. Bu konsepsiyaya görə, təbii hüquqlara malik olan fərdlər təhlükədən və münaqişələrdən azad olmaq məqsədi ilə "təbii vəziyyətdən" çıxmaq və vətəndaş kimi yaşamaq qərarına gəlirlər. Bunun üçün onlar öz aralarında ictimai müqavilə imzalayaraq dövləti yaradırlar.

Təbii hüquq nəzəriyyəsinin klassik nümayəndəsi holland alimi Hüqo Qrotsi (1583-1645) olmuşdur. Qrotsinin fikrincə, dövlətin məqsədi xüsusi mülkiyyəti qorumaqdan ibarətdir. Dövlətin başlıca əlaməti isə ali hakimiyyətdir. Qrotsi həm də

beynəlxalq münasibətlər nəzəriyyəsinin yaradıcılarından biri olmuşdur. O, işğalçı müharibələri qətiyyətlə pisləyir və onun səbəbkarlarını məsuliyyətə tabe etməyə çağırırdı.

İngilis filosofu Tomas Hobbsun (1588-1679) başlıca siyasi görüşləri isə "Vətəndaş haqqında", "Leviafan, yaxud kilsə və vətəndaş dövlətinin materiyası, forması və hakimiyyəti" adlı əsərlərində öz əksini tapmışdır. İngiltərədə vətəndaş müharibəsindən sonra (1640-1660) yaranan xaos Hobbsu belə qənaətə gətirmişdi ki, vətəndaşlar müqavilə ilə öz hüquqlarının müəyyən hissəsini mərkəzi hakimiyyətə verməlidirlər. Hobbsa görə, dövlət mütləq hakimiyyətə malik olduğu üçün ölkənin bütün vətəndaşları qeyd-şərtsiz ona tabe olmalıdır. Dövlət də öz növbəsində vətəndaşlar üçün əlverişli şərait yaratmalı, onların daxili və xarici təhlükəsizliyini təmin etməlidir. Hobbs hesab edirdi ki, bu vəzifələrin öhdəsindən mütləq monarxiya daha yaxşı gələ bilər.

XVII-XVIII əsrlərdə Qərbi Avropada yaranmaqda olan burjuaziyanın və xalq kütlələrinin feodalizmə qarşı mübarizəsi ilə bağlı yeni ideya cərəyanı olan maarifçilik geniş yayılmağa başlayır. Maarifçiliyin əsas xüsusiyyətləri aşağıdakılar olmuşdur:

-ictimai inkişafda elm və idrakın rolunun əsaslandırılması;

-vətəndaş cəmiyyəti və hakimiyyət bölgüsü prinsipi haqqında təlimin formalaşması;

-xüsusi mülkiyyətin feodal özbaşınalığından qorunmasının tələb edilməsi;

-burjua dövlət formasının əsaslandırılması;

-konstitusiyanın ölkədəki digər qanunlardan üstünlüyünün əsaslandırılması və s.

XVIII əsrdə Fransada maarifçiliyin ən görkəmli idoloqu Mari Fransua Arue Volter (1694-1778) olmuşdur. Volterin "Fəlsəfi məktublar"ı (1733) fransız maarifçiliyinin ilk proqram layihəsi hesab edilir. Volterin siyasi baxışlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

-cəmiyyətin yuxarıdan islahat yolu ilə dəyişdirilməsinə çalışan burjuaziyanın mənafeyini ifadə edirdi;

-bütün sosial-siyasi çatışmazlıqların başlıca mənbəyini maarifçiliyin olmamasında görürdü;

-mütləqiyyəti tənqid edən mütəfəkkir əvvəllər maarifçi monarxiyanın, sonralar isə respublikanın tərəfdarı kimi çıxış edirdi;

- deizmin (Allahı dünyanın yaradıcısı hesab edən, lakin onun təbiətə və cəmiyyətə təsirini inkar edən dini-fəlsəfi cərəyan) tərəfdarı idi. O, Allahı və dini əxlaq baxımından qəbul etməyin tərəfdarı olmuş və göstərmişdir ki, Allah olmasaydı, onu uydurmaq lazım gələrdi;

XVIII əsr fransız maarifçiliyinin məşhur numayəndələrindən biri də Monteskye Şarl Lui de sekonda baron de La Berd (1689-1775) olmuşdur. Monteskye dövlətin yaranmasının müqavilə nəzəriyyəsini qəbul etmirdi. Onun fikrincə, dövlətin və hüququn yaranması obyektiv qanunauyğunluğun, tarixi prosesin və müharibələrin nəticəsidir. O, dünyada ilk dəfə olaraq, siyasi proseslərin inkişaf qanunauyğunluqları haqqında ümumiləşdirilmiş nəticələr almaq üçün müxtəlif ölkələrin siyasi sistemlərini və dövlət formalarını müqayisəli şəkildə təhlil

etmişdir. Maarifçilik ideologiyasına dair ilk geniş siyasi doktrinanı da məhz o hazırlamışdır. Monteskye həm də "coğrafi siyasət" və "hakimiyyət bölgüsü" haqqındakı konsepsianın banilərindəndir. Onun fikrincə, hər bir ölkənin qanunları və hətta əxlaq kodeksi onun böyüklüyü, iqlimi və s. kimi coğrafi amillərdən asılıdır. Hakimiyyət tərəfindən özbaşınalığın qarşısının alınmasının ən əlverişli yolu onun qanunverici, icraedici və məhkəmə orqanları arasında bölünməsidir.

Digər fransız filosofu Klod Adrian Helvetsi (1715-1771) isə coğrafi siyasət haqqında Monteskyenin fikirlərini qəbul etmirdi. O göstərirdi ki, insanların xarakteri və əxlaqi siması onu əhatə edən ictimai mühitlə, siyasi sistemlə müəyyən olunur. Dövlət quruluşu formalarına münasibətdə də onun fikirləri Monteskyedən fərqlənirdi. Helvetsiyə görə, hakimiyyətin mahiyyəti onun forması ilə yox, məzmunu ilə müəyyən olunur. Hakimiyyəti yaxşı və pis olmaqla iki yerə ayıran mütəfəkkir, monarxiya və aristokratiyanı pisləyir, demokratiyaya xüsusi rəğbət bəsləyirdi.

Böyük Fransa inqilabının ideoloji banilərindən biri olan Jan Jak Russonun (1712-1778) siyasi baxışları isə ictimai fikrin yeni istiqamətinin – siyasi radikalizmin əsasını qoydu. Russo hesab edirdi ki, müasir dövlət gücə arxalandığı üçün yalnız güc də onu devirə bilər. Onun "İctimai muqavilə haqqında" (1762) adlı əsərində siyasi elm tarixində dəfələrlə irəli sürülən təbii hüquq və ictimai müqavilə ideyaları öz klassik ifadəsini tapmışdır. İctimai quruluşun köklü surətdə yenidən dəyişdirilməsinə dair onun irəli sürdüyü proqram geniş xalq kütlələrinin

–kəndlilərin, radikal əhval-ruhiyyəli yoxsulların və xırda burjuaziyanın maraqlarına uyğun gəlirdi.

Russo kimi amerikan mütəfəkkiri Tomas Peyn (1737-1809) də hesab edirdi ki, dövlətin yaranmasının yeganə mümkün vasitəsi insanlar arasında bağlanan ictimai müqavilədir. Ona görə də, dövlətdə ali hakimiyyət xalqa məxsus olmalıdır. Xalq hər cür dövlət quruluşu formasını təsis etmək və ya aradan qaldırmaq hüququna sahibdir. O, demokratik respublikanı ən yaxşı dövlət quruluşu forması hesab edirdi. Peyn özünün “İnsan hüququ” (1771) adlı əsərində insanın təbii və vətəndaş hüquqlarını bir-birindən ayırırdı.

Klassik alman fəlsəfəsinin banisi İmmanuel Kantın (1724-1804) siyasi fikir tarixində xidmətləri xüsusilə böyük olmuşdur. Şəxsiyyətin muxtariyyatı ideyasını təlqin edən mütəfəkkir liberalist ideyaların inkişafında böyük rol oynamışdır. Dövlət hakimiyyətinin hüquqi cəhətdən məhdudlaşdırılmasının tərəfdarı olan Kant oz sosial-siyasi təlimində “hüquqi dövlət” və “vətəndaş cəmiyyəti” konsepsiyasını əsaslandırırmağa çalışırdış O, istibdadın bütün formalarını kəskin şəkildə tənqid edir və bunun qarşısının alınması üçün hakimiyyətin bölünməsini zəruri hesab edirdi. Kanta görə, ölkəni insanlar deyil, qanunlar idarə etməlidir. O özünün “Hüquq haqqında təlimin metafizik əsasları” adlı əsərində yazırdı: “Dövlət hüquqi qanunlara tabe olan insanlar birliyidir. Dövlətin rifahı dedikdə, vətəndaşların rifahı deyil, konstitusiyanın hüquq normaları ilə daha çox əlaqələndirilməsi başa düşülür”. Kantın hüquq və dövlət haqqındakı təlimi siyasi fikir tarixində ilk böyük siyasi doktrina hesab olunur.

Kantın ideyalarının təsiri altında hüquqi dövlət anlayışı terminoloji müəyyənlik kəsb etmişdir. Belə ki, onun siyasi-hüquqi ideyalarından istifadə edən Robert fon Mol (1792-1875) “hüquqi dövlət” anlayışını elmə daxil etmişdir.

Kant işğalçı və qarətçi müharibələrin əleyhinə olmaqla əbədi sülh arzulayır, xalqların bərabərliyi və dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinə əsaslanan beynəlxalq hüquq qaydalarının yaradılmasını təbliğ edirdi.

Kantın həmkarı Georgi Vilhelm Fridrix Hegelin (1770-1819) “Hüquq fəlsəfəsi” əsərində şərh olunan siyasi baxışlarını isə aşağıdakı kimi cəmləşdirmək olar:

1.Vətəndaş cəmiyyəti xüsusi tələbatların və mənafelərin gerçəkləşdirlməsi sferasıdır. Xüsusi mülkiyyət vətəndaş cəmiyyətinin mövcudluğunun zəruri şərtidir, ondan kənarda şəxsiyyətin azadlığı yoxdur. Vətəndaş cəmiyyəti onun əsası kimi dövlətin olmasını nəzərdə tutur.

2. Dövlət zəkanın inikası və gerçəklikdə əxlaqi ideyanın təcəssümüdür.

3.Demokratiyanı tənqid edən mütəfəkkir konstitusiyalı monarxiya rejimini müdafiə edirdi;

4. Kantın əbədi sülh ideyasından fərqli olaraq, Hegel göstərirdi ki, dövlətlər arasında meydana çıxan ziddiyyətləri ancaq müharibə həll edə bilər.

XIX əsrdə sənaye cəmiyyətinin və burjua dövlətçiliyinin inkişafı siyasi fikrə də novatorçu baxışlar gətirdi. Siyasi nəzəriyyənin və praktikanın ən vacib cərəyanlarından olan liberalizm, mühafizəkarlıq və sosializm özlərinin çiçəklənmə dövrünü yaşayırlar. Fransa inqilabının gedişində irəli sürülmüş şüar

“millətlərin öz müqəddəratını təyinetmə hüququ” şüarı dünyanın siyasi xəritəsini dəyişdirərək, yeni milli dövlətlərin yaranmasına və bu dövlətlərin arasında milli münasibətlərin meydana çıxmasına təkan verdi.

XIX əsrin I yarısında Benjamen Konstan (1767-1830) Fransada, İyeremiya Bentam (1748-1832) isə İngiltərədə liberalizmin görkəmli nümayəndələri olmuşlar. Onların əsərlərində əsas diqqət fərdi hüquq və azadlıqlara, feodalizmin tənqid edilməsinə, hakimiyyətin bölünməsi probleminə yönəlmişdir.

Konstan azadlığın iki növünü – şəxsi və siyasi azadlığı bir-birindən ayırırdı. Onun fikrincə, qədim xalqlar yalnız hakimiyyətin həyata keçirilməsində iştirak etmək hüququna aid olan siyasi azadlıq haqqında təsəvvürlərə malik olmuşlar. Lakin hazırki dövrdə yeni xalqlarda şəxsi azadlıq problemi ön plana çıxır. Onun mahiyyəti isə şəxsi həyatın siyasi hakimiyyətdən azad olmasındadır.

Konstan dövlətin ideal formasını demokratik respublikada deyil, ingilis tipli konstitusiyalı monarxiyada görürdü. Bentam isə hesab edirdi ki, ən yaxşı siyasi sistem vətəndaşların şəxsi, utilitar (latınca fayda, mənfəət) maraqlarını təmin edən demokratiyadır. Utilitarizm nəzəriyəsinin banisi kimi Bentam “faydalılıq” prinsipini və şəxsi maraqları hər şeydən üstün tuturdu.

XIX əsrin I yarısında fransız alimi Aleksis Tokvil (1805-1859) liberal demokratiya təlimini sistem şəklinə salaraq siyasi fikri bir qədər də zənginləşdirdi. 1831-ci ildə Fransa hökuməti tərəfindən ABŞ-ın həbsxana sistemini öyrənmək məqsədi ilə göndərilmiş Tokvil doqquz ay bu ölkəni qarış-qarış gəzərək,

onun uğurunun sirrini açmağa çalışır. Tezliklə, Tokvil ABŞ siyasi sisteminin tədqiqinə həsr olunmuş “Amerikada demokratiya” (1835) adlı kitabının nəşrinə nail olur. O özünün bu əsərində demokratiyanın müsbət (məsələn, vətəndaşların azadlığı və hüquq bərabərliyi, onların siyasi həyatda fəal iştirakı və s.), və mənfi (məsələn, çoxluğun siyasi müstəbidliyi, optimal siyasi hakimiyyətin yaranmasına zəmanətin olmaması və s.) tərəflərini açıq-aydın göstərirdi. Tokvil haqlı olaraq hesab edirdi ki, çoxluğun hakimiyyəti azlığın hüquqları ilə məhdudlaşdırılmalıdır. Çoxluğun hakimiyyətinin mənfi nəticələrini aradan qaldırmaq üçün mütəfəkkir yerli özünüidarəetmə hakimiyyətini inkişaf etdirməyi, dövlətçiliyin federativ formasının genişləndirilməsini zəruri hesab edirdi.

İngilis filosofu və istimai-siyasi xadimi Con Stuart Mill (1806-1873) müasir liberalizmin banilərindən biri olmuşdur. O hesab edirdi ki, insan hüquqlarının təmin edilməsi cəmiyyətin sabit inkişafi, təhlükəsizliyi və ümumi xoşbəxtliyin əldə edilməsi üçün zəruridir. Mill özünün “Azadlıq haqqında” (1859) adlı essesində şəxsiyyətin muxtariyyatını çoxluğun müstəbidliyindən müdafiə etməyə çalışır, azadlığın ən ali dəyər olduğunu bəyan edirdi.

XIX əsrin I yarısında Sen-Simon (1760-1825), Ş. Furye (1772-1837) və R.Ouenin (1771-1858) yaradıcılığında sosialist ideyalar geniş yer tuturdu. Onların kapitalizmdə gördüyü qüsurları aşağıdakı kimi qruplaşdırmaq olar:

-xüsusi mülkiyyət istehsalın deyil, siyasi bərabərsizliyinin mənbəyidir;

-kapitalizm siyasi sistemi xalqın maraqlarına cavab vermir. Burada fərdin və cəmiyyətin maraqları arasında böyük ziddiyyət mövcuddur;

-əməyin məcburi xarakter kəsb etməsi, zəhmətkeşlərin istismar olunması və s.

Əvəzində utopik sosialistlər yeni ictimai quruluşu aşağıdakı kimi proqnozlaşdırırdılar:

-cəmiyyətin sosialist sistemi əsasında yenidən qurulmasının qaçılmazlığı;

-istehsal vasitələri üzərində ümumi mülkiyyətin bərqərar olması;

-təsərrüfatın planlı və kollektiv şəkildə idarə edilməsi;

-sosial bərabərlik və ədalətin təmin olunması;

-torpağın mülkədarlardan kəndlilərə verilməsi.

XIX əsrin I yarısında mövcud olan siyasi təlimlərdən biri də anarxizmdir (yunanca hakimiyyətsizlik deməkdir). Anarxizmin əsas ideyası hər cür dövlət hakimiyyətini inkar etməkdən və hər bir şəxsiyyətin qeyri-məhdud azadlığının təbliğindən ibarət olmuşdur. Elmə "anarxizm" istilahını gətirən P. J. Prudon (1809-1856) hesab edirdi ki, dövlət sosial bəlaların və xalqın istismar edilməsinin mənbəyidir, ona görə də o, dinc sosial inqilab nəticəsində məhv edilməlidir.

Maks Ştirner (əsl adı Kaspar Smidt, 1806-1856) isə öz əsərlərində fərdiyyətçilik nəzəriyyəsini son həddə çatdıraraq, eqoizm və anarxizmi dövlətə qarşı qoyurdu. O hər kəsi dövlət və cəmiyyət qarşısındakı sosial və siyasi vəzifələrdən imtina etməyə çağırırdı.

XIX əsrin II yarısında sosial demokratların və marksizmin ideyaları siyasi fikir tarixinə mühüm təsir göstərir. Karl Marks (1818-1883) və Fridrix Engelslə (1820-1895) təmsil edilmiş marksizmdəki sosial doktrina siyasi elm tarixində ilk dəfə olaraq dialektik-materialist mövqedən işıqlandırılırdı. Marksizmin əsas müddəaləri bunlardır: dövlətin meydana gəlməsi istehsal vasitələri üzərində xüsusi mülkiyyətin və antoqonist siniflərin yaranması ilə bağlıdır; cəmiyyətin siyasi həyatının, yəni üstqurumunun iqtisadi həyatdan – bazisdən və sinfi qüvvələrin nisbətindən asılılığı və s.

XIX əsrdə geniş yayılmış sosial-demokratiya nəzəriyyəsinin ən görkəmli nümayəndəsi Ferdinand Lassal (1825-1864) olmuşdur. Marksın və Hegelin ideyalarının tərəfdarı olan Lassal hesab edirdi ki, dövlət fərdiyyətçiliyə qarşı durmaqla ümumi mənafenin təcəssümüdür. Bütövlükdə sosial-demokratlarla marksizmin ideyaları arasındakı oxşar və ümumi cəhətlər aşağıdakılardır:

–ictimai həyatın dialektik-materialistcəsinə şərh edilməsi;

–ictimai hadisələrə sosial-siyasi yanaşmanın mövcud olması;

–zəhmətkeşlərin həyatının yaxşılaşdırılması, daha ədalətli və həmrəy cəmiyyətin qurulması və s.

Sosial-demokratiya ilə marksizm arasındakı fərqli cəhətlər isə bunlardır:

–sosial-demokratlar öz məqsədlərinə islahatlar, marksistlər isə inqilab yolu ilə çatmağa çalışırdılar;

–sosial-demokratlar kapitalizmə transformasiya, marksistlər isə kapitalizmi bütünlüklə məhv etmək yolunu seçmişdilər;

-sosial-demokratlar yeni ictimai qaydalara burjua demokratiyası və qanunçuluğu çərçivəsində, marksistlər isə kommunizm ideyaları əsasında keçməyə çalışırdılar;

–sosial-demokratlar partiyaya azad siyasi təşkilat kimi, marksizm isə dövlət funksiyalarını həyata keçirən, ciddi intizamı olan, öz fəaliyyətində ideoloji amilə böyük əhəmiyyət verən, orada fəhlə sinfinin avanqardlığını təmin edən təsisat kimi baxırdılar və s.

XIX əsrin II yarısında Avropada kapitalizmin inkişafının siyasi fikrin daha da liberallaşması ilə müşayiət olunmasına baxmayaraq, antidemokratik və mühafizəkar meyllər də özünü göstərməkdə idi. İngilis sosioloqu Herbert Spenser (1820-1903) burjua ictimai münasibətlərinin bioloji qanunlarla bağlılığını əsaslandırmağa çalışırdı. Spenserə görə, dövlət elə bir orqanizmdir ki, onun ayrı-ayrı hissələri arasındakı münasibətlər bir növ canlı orqanizmləri xatırladır. O, dövlətin yaranma səbəbini digər cəmiyyətlərlə mübarizədə və müharibələrdə görürdü.

Avstriyalı alim Lüdviq Qumploviç (1808-1909) isə siyasi fikir tarixinə "zorakılıq nəzəriyyəsinin banisi" kimi daxil olmuşdur. O, dövlətin yaranma səbəbini işğalçılıqda, zorakılıqda, xalqların bir-birini əsarət altına almasında və istismarında görürdü.

Müasir siyasi təlimləri isə tədqiqatçılar xarakterinə görə üç mərhələyə bölürlər:

–XIX əsrin sonu – XX əsrin I yarısı. Bu mərhələdə siyasi hakimiyyət və onun sosial əsaslarının tədqiq edilməsinə diqqət yetirilir. (M. Veber, R. Mixels, Q. Moska və b.) M. Veber hakimiyyətin üç başlıca tipini ayırırdı: ənənəvi, harizmatik və rasional-leqal.

–XX əsrin ortalarından 70-ci illərə qədər olan dövrdə demokratiya haqqında yeni siyasi nəzəriyyələr meydana gəlir, siyasi həyatın liberallaşmasına maraq xeyli artır. (İ. Şumpeter, H. Morgentau, P. Sorokin və b.)

–70-ci illərdən bu günə qədərki mərhələdə informasiyalı cəmiyyət, qloballaşma, milli maraq, "yumşaq güc" konsepsiyaları hazırlanır. (Z. Bzejinski, F.Fukuyama, S.Hantinqton və b.)

Bütövlükdə XX–XXI əsrlərdə məşhur olan siyasi təlimlər aşağıdakılardır:

***Normativizm.*** Bu təlimin tərəfdarları konstitusiyanı hüquq sahəsində başlıca norma kimi götürür, siyasi sistemin normal modelinin isə ABŞ demokratiyası olduğunu iddia edirdilər.

***Plüralist demokratiya.*** Müxtəlif maraq qruplarının mövcudluğunu demokratiyanın zəruri şərti hesab edirdilər.

***Konvergensiya.*** Kapitalizm və sosializm vahid postindusturial cəmiyyətdə birləşirlər. Belə cəmiyyətlərdə siniflər tamamilə öz mahiyyətini itirir, yəni konversiya–qaynayıb qarışma, bir nöqtədə birləşmə baş verir.

***Solidarizm.*** Cəmiyyətdə sosial ədalət, bərabərlik və həmrəylik haqqında nəzəriyyədir.

***Feminizm.*** Azadlıq uğrunda qadın hərəkatının əsasını təşkil edən cinslərin hüquq və sosial bərabərliyi, yəni gender bərabərliyi haqqında nəzəriyyədir.

### *II mərhələ -Müzakirə*

Mühazirədən sonra müəllim mövzunun müzakirəsini keçirə və tələbələrə mövzunu və müvafiq terminləri nə dərəcədə mənimsəmələrini müəyyən edən suallar verə bilər.

### *Özünüyoxlama üçün suallar:*

-Nə üçün siyasi təlimlərin təşəkkülü insan idrakının erkən dini-mifoloji formalardan rasional-məntiqi formaya keçməsi ilə bağlı olmuşdur?

-İlk dəfə hansı mütəfəkkir siyasəti təcrübi elm kimi əsaslandırmışdır?

-Dövlət suvernliyi anlayışını elmə ilk dəfə kim gətirmişdir?

-Orta əsrlərdə siyasi fikrin başlıca xüsusiyyətləri nədən ibarət olmuşdur?

-İntibah düvrü ilə antik dövrün siyasi təlimləri arasında oxşar və fərqli cəhətlər nədən ibarət olmuşdur?

-T.Hobbs və C.Lokkun ictimai müqavilə haqqında nəzəriyyələri bir-birindən nə ilə fərqlənirdi?

-Yeni dövrdə Şərqdə siyasi fikrin inkişafının Qərbdən geridə qalmasını nə ilə izah edə bilərsiniz?

-Sosial-demokratiya ilə kommunizm arasında oxşar və fərqli cəhətlər nədən ibarət olmuşdur?

-Müasir dövrün başlıca siyasi nəzəriyyələrini sadalayın.

## *Mövzu 3*
## *Azərbaycanda siyasi fikir tarixi*

***Əsas ideya*:** Azərbaycan mütəfəkkirləri Şərqin və Qərbin görkəmli mütəfəkkirlərinin fikirlərindən təkan almaqla kifayətlənməmiş, əksinə, özlərinin mütərəqqi əhəmiyyətli ideyaları ilə siyasi fikrin inkişafına xüsusi töhfə vermişlər.

***Məqsədlər:*** Azərbaycanda siyasi fikrin inkişaf xüsusiyyətlərini aydınlaşdırmaq;
tələbələrdə siyasət, siyasi təsisatlar və siyasi proseslərlə bağlı Azərbaycan mütəfəkkirlərinin dünya siyasi elminə verdiyi töhvənin nədən ibarət olması haqqında təsəvvür yaratmaq və s.

***Əsas anlayışlar:*** siyasi ideya, utopiya, türkçülük, millətçilik, ideal, maarifçilik, işraqilik,hürufilik,istibdad, publisistika və s.

## *Ənənəvi mühazirə*

Mühazirə müəllimin fənnin tədrisi zamanı istifadə etdiyi ənənəvi üsullardan biridir. Mühazirə dərsliyin məzmununu təkrar etmək və ya yekunlaşdırmaqla kifayətlənməməli, həm də müəllimin ona fəal, novatorçu və yaradıcı münasibəti ilə zənginləşdirilməlidir.

Mühazirənin surəti orta və rəngarəng olmalıdır. Bu rəngarənglik yerində edilmiş pauzalarla, əyani misallarla, obrazlı ifadələrlə, qavrayışın verbal (suallar verilməsi) və vizual (tə-

ləbələrin jestlərinin müşahidə edilməsi) yoxlanılması vasitəsi ilə əldə edilir.

### *Nəzəri material*

Azərbaycanda da dünyanın bir çox başqa ölkələrində olduğu kimi siyasi fikir erkən dövrlərdə dini-mifoloji xarakter daşıyırdı. Siyasət, dövlət və hakimiyyətlə bağlı sistemli yanaşmalar özünü hələ büruzə vermirdi. Lakin ədalətli cəmiyyət axtarışı, bütün insanlar üçün azadlıq və bərabərlik ideyası Azərbaycanda hələ qədim dövrdə insan əqlini düşünməyə vadar edən ən vacib problemlərdən biri olmuşdur.

Azərbaycanda siyasi biliklərin sistemli şəkildə əks olunduğu ilk böyük yazılı abidə e.ə VII əsrə aid olduğu güman edilən "Avesta"dır. Xeyir və Şərin mübarizəsində son nəticədə birincinin qələbəsi, doğruluğun, xeyirxahlığın və ədalətin tərənnümü Zərdüşt etikasının əsasını təşkil edirdi. "Avesta"da dövlət insanların birgə ünsiyyət forması, cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinin mühüm vasitəsi hesab olunurdu. "Avesta"ya görə, monarxiya ən yaxşı dövlət qululuşu forması hesab olunurdu.

Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında böyüyə hörmət, təvazökarlıq, haqq-ədalətin müdafiə edilməsi və xüsusilə qadına yüksək münasibət göstərilməsi diqqəti cəlb etməyə bilməz. Belə ki,dastanda qadına hörmətsizliyin bağışlanmaz günah sayılması, ana haqqının tanrı haqqına bərabər tutulması Qərb alimlərinin Şərqdə qadına ədalətsiz münasibət göstərilməsi və kişilərin

ləyaqətcə qadınlardan üstün tutulması ilə bağlı iddialarını puça çıxarır.

Siyasi fikir tarixində görkəmli mütəfəkkir Əfzələddin Xaqaninin (1126 - 1199) xüsusilə böyük rolu olmuşdur. Xaqani hesab edirdi ki, dövlət cəmiyyətin hər hansı təbəqəsinin deyil, bütün xalqın mənafeyini müdafiə etməlidir. Hökmdar öz ölkəsinin vətəndaşlarına eyni münasibət bəsləməli,ayrı-seçkiliyə yol verməməli və fəaliyyətində humanist prinsiplərə riayət etməlidir.

Xaqani dövlətin qüdrətli olmasına dair qiymətli fikirlər irəli sürmüşdür. O hesab edirdi ki, güclü dövlətə zor vasitəsilə deyil, azadlıq və sosial ədalət yolu ilə nail olmaq mümkündür. Cəmiyyətdə ədalətin qərarlaşmasının mühüm şərt olduğunu vurğulayan ədib deyirdi: "Ədalət yaratmaqdır, qurmaqdr, səma məhz, ədalət sayəsində mövcuddur". Xaqani ədalət dedikdə, cəmiyyətdəki mövqeyindən və ictimai mənsubiyyətindən asılı olmayaraq bütün insanların bərabər hüquqa malik olmasını nəzərdə tuturdu.

Nizami Gəncəvi (1141-1209) Azərbaycanda demokratik dəyərlərin inkişafına xüsusilə böyük töhfə vermişdir. Nizami özünün "İsgəndərnamə" əsərində ideal, xoşbəxt bir dövlət quruluşu, milli və dini fərqlərə qısqanclıq göstərməyən, bəşəriyyəti səadətə qovuşduracaq adil bir hökmdar obrazı yaratmışdır. Şairin sosial-siyasi utopiyasını səciyyələndirən bu əsərdə demokratiyanın başlıca dəyərləri olan azadlıq və bərabərlik ideyaları xüsusilə geniş vəsf olunurdu. Nizami irqindən asılı olmayaraq bütün insanların bərabərliyi fikrini irəli sürürdü.

Gəncəvi (1141-1209) öz əsərlərində qadını yüksək insani dəyərlərə malik varlıq kimi təsvir edir, onun kişilərlə bərabər hüquqlara malik olması ideyasını təbliğ edirdi. Mütəfəkkir öz əsərlərində idarəçiliyi heç də kişilərdən pis həyata keçirməyən Nüşabə, Məhin Banu, Sultan Səncərin qüsurlarını cəsarətlə üzünə deyən qoca qarı, öz məharəti ilə Bəhramı üzr istəməyə vadar edən Fitnə, öz məhəbbətlərinə sadiq Şirin və Leyla kimi obrazlar yaratmışdır. Nizami üçün şəxsiyyətin ən ali dyəri insanlıq idi. Milli və dini ayrıseçkiliyi qəbul etməyən şairin əsərlərində müxtəlif millətlərin nümayəndələri olan qəhrəman obrazlara rast gəlmək mümkündür.

Nizami insanların bərabərliyə və azadlığa nail olmasının beş əsas şərtini irəli sürürdü:

-Heç kəs başqasını istismar etmək hüququna malik olmamalıdır;

-heç kəs başqasının əməyini mənimsəməməlidir;

-heç kəs başqasının taleyinə mənfi təsir göstərməməlidir;

-hamının və eləcə də hər bir adamın şərəfi toxunulmazdır;

-heç kəs başqasının hüququna toxunmamalıdır.

XII əsrin görkəmli Azərbaycan filosofu Şihabəddin Sührəverdi (1154-1191) isə idarə edənin–başçının bəzi sosial göstəricilərə, məsələn, milli mənsubiyyətə, qəbilə təəssübkeşliyinə görə yox, intellektual keyfiyyətlərə görə fərqləndirilməsini məsləhət bilirdi. O, hesab edirdi ki, ölkəyə, xalqa ləyaqətli və müdrik insanlar başçılıq etməlidir, çünki siyasət və hakimiyyət belə şəxslərin əlində olarsa, zaman işıqlı olar.

Azərbaycanın XIII əsrdə yaşayıb yaratmış digər görkəmli mütəfəkkiri Siracəddin Urməvinin(1198-1283) sosial-siyasi və

hüquqi görüşləri daha maraqlı və əhəmiyyətlidir. O, insanın mövcudluğu üçün maddi və mənəvi tələbatın ədalətlə, bərabər şəkildə ödənilməsi ideyasını müdafiə edirdi. Onun fikrincə, cəmiyyətdə qayda-qanun yaratmaq, sosial ədaləti bərqərar etmək üçün elə bir qüvvə olmalıdır ki, onun vasitəsilə zülm aradan qaldırıla bilsin. O deyirdi: "Başçılar ilə rəiyyət vəhdət halında olmazsa, cəmiyyət yaşaya bilməz. Onların nisbəti başın bədənə nisbəti kimidir". Urməvi bütün bu deyilənlərə nail olmaq üçün cəmiyyətdə ədalətli qayda-qanunun bərqərar edilməsini əsas zəruri şərt hesab edirdi.

Nəsirəddin Tusi (1201-1274) də hesab edirdi ki, dövlət yalnız ədalət əsasında uzun müddət yaşaya bilər. Ədalətin şərtləri isə dövləti təşkil edən dörd "sinif": "qələm əhli" (ziyalılar), "qılınc əhli" (hərbçilər), "müamilə əhli" (tacirlər və sənətkarlar), "ziraət əhli" (əkinçilər və maldarlar) arasında uyğunluğun yaradılması, eləcə də, insanların ləyaqətinə və istedadına görə vəzifəyə təyin edilməsi, hərənin öz payına düşənin ədalətlə ona verilməsindən ibarətdir.

Tusinin əsas siyasi tövsiyələri və idarəçiliyə dair fikirləri aşağıdakılardır:

- Hökmdar olmaq istəyənin yeddi vacib xisləti olmalıdır: atalıq, alicənablıq, mətinlik, tam əzm, səbirli olmaq, var-dövlət, sadiq və əməlisaleh köməkçilər. Tusi yazırdı: "Həqiqətdə hökmdarlıq o adama yaraşar ki, dünya xəstələndikdə onu müalicə edə bilsin, sağlam olduqda səhhətini qoruya bilsin, çünki hökmdar dünyanın həkimi yerində olar. Xəstəlik isə iki şeydən törəyir: biri ölkədə qəddar şahlıq olanda, digəri ölkə özbaşına buraxılanda".

Tusi Avropa maarifçilərindən hələ xeyli əvvəl belə bir fikrə gəlmişdir ki, insanlar öz tələbat və mənafelərini təmin etmək məqsədilə könüllü surətdə birləşmək arzusunda olduqları zaman dövlət meydana gəlir.

Tusi Aristotelə əsaslanaraq siyasətin dörd formasını göstərirdi:

-ölkə siyasəti - camaatı ilə dolandırmağa deyərlər ki, bundan onların fəziləti artsın;

-qələbə siyasəti - nakəs adamlar haqqında görülən tədbirlərə deyərlər;

-kəramət siyasəti - elə bir idarəetmədir ki, bunun nəticəsində onların peşə və sənətləri inkişaf edib artmalıdır;

-camaat siyasəti - ədalətli qayda-qanunlara əsaslanan idarəçilikdir.

Ölüm hökmünün icra edilməsinə qarşı çıxan Tusi yazırdı: "Əlbəttə, edam etməyə can atmaq lazım deyildir. Çünki, o calal və haqq sahibi böyük Yaradanın min hikmətlə tikdiyi binanı uçurtmaq və onun təmir edilib tərbiyə ediləcəyinə inanmamaq ağlabatan şey deyildir". Zənnimizcə, Tusinin bu fikirləri ölüm hökmündən yaxa qurtarmaga çalışan ölkələr üçün mühüm nəzəri zəmin ola bilər.

XIV-XV əsrlərdə Azərbaycanda geniş yayılmış hürufilik təliminin dünya siyasi fikrinə böyük töhfəsi olmuşdur. Fəzlullah Nəimi (1340-1401) və İmadəddin Nəsimi (1368-1417) hürufilik təliminin ən görkəmli nümayəndələri olmuşlar. Hürufilər cəmiyyətin "ədalət prinsipi" ilə qurulması ideyasını təbliğ edirdilər. Bu təlim insanı müqəddəs varlıq hesab edirdi. Hürufiliyə görə ideyaya sədaqətin, sözə verilən dəyərin, azadlığın

ölçüsü yoxdur. Onu da qeyd edək ki, hürufilikdə azadlıq ideyası Qərbdəki "insan azadlığı"ndan fərqli mənada işlədilirdi. Qərbdə insan azadlıqları daha çox ictimai-siyasi mahiyyət daşıyırdısa, hürufilikdə (bütövlükdə isə Şərqdəki) insan azadlığı fərdi xarakter kəsb edirdi.

Nəsimi insanlar arasında dini mənsubiyyətə görə ayrı seçkiçilik salan din xadimlərini qətiyyətlə pisləyir, bütün xalqları bir etiqada – dostluğa səsləyirdi. O, insan anlayışına təkcə ontoloji deyil, həm də humanist və etik məna vermişdir. O insanı "kiçik aləm" adlandırır və göstərirdi ki, o öz kamilliyinə görə maddi şeylərdən daha yüksəkdə durur.

Demokratik ideyaların tərənnümü, şəxsiyyət hüquqlarının müdafiəsi XVI əsr Azərbaycan ictimai-siyasi fkirinin ən gör-kəmli nümayəndəsi Məhəmməd Füzulinin (1494-1556) yaradıcılığında xüsusi yer tutur. M. Füzuli özünün bütün əsərlərində insan şəxsiyyətini müdafiə edir, müsbət şəxsiyyət tipi idealını yaratmağa çalışırdı.

Azərbaycanda yeni tarixi dövrdə siyasətin ciddi tədqiqi öz əksini Abbasqulu ağa Bakıxanovun irəli sürdüyü ideyalarda tapmışdır. Bakıxanovun siyasi görüşlərində insan, azadlıq və ədalət problemləri mühüm yer tuturdu.

Bakıxanov öz müasiri olduğu Avropa mütəfəkkirlərindən fərqli olaraq, insan hüquqlarının qorunmasında zəruri vasitə olan ədalət mühakiməsinin yalnız öz ölkəsi daxilində deyil, bütün dünyada həyata keçirilməsini arzu edirdi.

Azərbaycanda siyasi fikrin inkişafında XIX əsr onunla yadda qaldı ki, artıq, bu dövrdən etibarən şəxsi və milli azadlıq problemləri qarşılıqlı əlaqədə nəzərdən keçirilməyə başladı,

çünki bir çox ölkələr kimi Azərbaycan da XIX əsrdə həm ictimai münasibətlərin ədalətsizliyindən, həm də rus çarizminin müstəmləkə zülmündən əziyyət çəkirdi. Ona görə də bu dövrün qabaqcıl mütəfəkkirlərinin əsərlərində milli azadlıq problemi, bütün millətlərin hüquq bərabərliyi və s. mühüm yer tuturdu.

Belə mütəfəkkirlərdən biri də bütün Şərqdə modernizmin, liberal dəyərlərin və müasir ədəbiyyatın yaradıcısı sayılan Mirzə Fətəli Axundov idi. Müsəlman Şərqinin geriliyi, dövlət, cəmiyyət və ailədə hökm sürən müstəbid qayda-qanunlar və onun tənqidi Axundovun yaradıcılığında aydın sezilirdi.

M.F.Axundov 1850-55-ci illərdə yazdığı altı komediya ilə Yaxın və Orta Şərq realist dramaturgiyasının əsasını qoymuşdur. O, bu əsərlərdə dini fanatizmə və Şərq ailə, cəmiyyət və dövlətində hökm sürən xurafatcıl və müstəbid qayda-qanunlara qarşı çıxırdı. O, feodalizmi zorakı yolla devirmək ideyasını irəli sürmüş, xalqı inqilab etməyə çağırmış, xalq hakimiyyəti ideyaları ilə çıxış etmişdir. Onun "Aladanmış kəvakib" əsəri Azərbaycanda yazılmış ilk siyasi roman hesab olunur. O, Azərbaycanın siyasi fikir tarixinə yeni ruh gətirərək siyasi leksikonu "millət", "parlament" və başqa anlayışlarla zənginləşdirmişdir.

Axundov Yaxın Şərqin məzlum xalqlarına müraciət edərək deyirdi: "Üzərinizdə əsrlərdən bəri ağalıq edən soyğunçuların zülmünə son qoyun. İstibdad üsul-idarəsini yıxın, konstitusiyalı xalq hakimiyyəti yaradın!"

Axundov millətlərdən bəzilərinin guya təbiət tərəfindən kamil, digərilərinin naqis yarandığını müdafiə edən mütrəce nəzəriyyələrə düşmən olmuşdur.

Həsən bəy Zərdabi (1842 - 1907) də Axundov kimi Şərq xalqlarının geridə qalmasının əsas səbəbini onların milli azadlıqdan məhrum olmalarında görürdü. O, açıq surətdə deyirdi: "Məşriq zəmində azadlıq olmadıgına görə biz Avropa əhlindən geri qalmışıq və nə qədər ki, belə olsa biz tərəqqi etməyəcəyik".

Zərdabi cəmiyyətdəki sosial ədalətsizlikləri, hüquq və azadlıqların kobud surətdə pozulmasını tənqid etməkdən çəkinmirdi. O, insan hüquqlarının pozulmasının əsas səbəblərindən biri kimi ölkədə ədalət məhkəməsinin yoxluğunu göstərirdi. Zərdabi mövcud məhkəmələrin qanunçuluğa, sosial ədalətə zidd olan fəaliyyətini ifşa edərək yazırdı: "Qanunsuzluq və özbaşınalıq hər yerdə hökm sürür: məhkəmələrimiz andın müqəddəsliyi barədə heç bir anlayışı olmayan yalançı şahidlərin ifadələri ilə aşıb-daşır". Zərdabi məhkəmələrin ana dilində aparılmamasına qarşı çıxır və çarizmin bu siyasətini ədalətə, xalqın milli mədəniyyətinə qərəzli münasibət kimi qiymətləndirirdi.

Nəcəf bəy Vəzirovun ilk "Müsibəti-Fəxrəddin" facia-sində cəmiyyətin əxlaqi cəhətdən böhranı fonunda ziyalıların müsibətini, nadanlığın doğurduğu dəhşətləri təsvir edirdi.

Azərbaycan xalqının siyasi fikir tarixində ən görkəmli yerlərdən birini də məşhur tarixçi, filosof və hüquqşünas, Rusiyada şərqşünaslıq elminin yaradıcılarından olan, mənşəcə Azərbaycan türkü olan dərbəndli, sonradan şotland missionerlərinin təsiri ilə xristianlıq dinini qəbul etmiş Mirzə Məhəmməd Kazım bəydir. (1802-1870) M.Kazım bəy öz siyasi görüşlərində istibdad üsul idarəsinin düşməni kimi çıxış edirdi. Onun fikrincə, müstəbidlik xalqın əsarət altında olması,

cəhalətə məhkum edilməsi, milli-mənəvi dəyərlərinin aradan qaldırılması və mədəniyyətin inkişafdan qalmasıdır. M.Kazım bəyin siyasi görüşləri əhatəli şəkildə “Şamil və müridizm”, “Bab və babilər” əsərində əks olunmuşdur. O, babilərin və dağlıların  müstəmləkə zülmünə, istibdada və dini fanatizmə qarşı mübarizəsini alqışlayırdı.

Azərbaycanın məşhur publisisti, “Molla Nəsrəddin” jurnalının banisi və redaktoru Cəlil Məmmədquluzadə (1866-1932) bu qənaətdə idi ki, Azərbaycanda və eləcə də bütün dünyada milli məsələnin demokratik həlli müstəmləkə əsarətinin ləğv edilməsindən keçir. O, 1907-ci ildə yazdığı “Cümhuriyyət” adlı məqaləsində demokratik respublikanın tərfdarı kimi çıxş edirdi.

Azərbaycanın məşhur satiriki M.Ə.Sabir (1862-1911) fəhlə və kəndlilərin yoxsulluğunu, istismarını, acınacaqlı sosial vəziyyətini və hüquqsuzluğunu müasiri olduğu cəmiyyətin eybəcərliyi sayırdı. Sabir mənsub olduğu xalqın mənəviyyatına, psixologiyasına və mübarizliyinə yaxından bələd idi.Buna görə də o, öz xalqının hər cür istismara dözməsinin yolverilməz hesab edirdi. “Neylərdin ilahi?”adlı şerində xalqı öz hüquqları və azadlıqları uğrunda mübarizəyə səsləyən şair fikirlərini satirik boyalarla bu cür ifadə edirdi:

Atdıqca həyasızlıq  olur el mütəhəmmil,
Hər zülmə dözən canları neylərdin ilahi?

Sabir onu da aydın surətdə dərk edirdi ki, azadlıq, istiqlaliyyət,müasirləşmək uğrunda mübarizə qadın azaqdlığını həll

edilməsi zəruri sayılan tələbata çevirir.Onun nəzərində qadın hər şeydən əvvəl yeniliyin anası, nəslin tərbiyəçisi idi. Bu ana, bu tərbiyəçi əsarətdən xilas olmadan, maariflənmədən, öz hüquqlarını əldə etmədən, xalq öz qarşısında duran böyük tarixi vəzifələri yerinə yetirə bilməzdi. Bir sözlə, Sabirin qadının ailə və cəmiyyətdəki rolunun gücləndirilməsinə dair fikirləri insan hüquqları uğrunda mübarizə tarixində mühüm ideoloji əsas sayılmalıdır.

N.Nərimanov (1870-1925) isə milliyyətindən və dinindən asılı olmayaraq bütün insanların xoşbəxtliyini onların azadlığında görürdü. O yazırdı: “Bütün insanların – ya müsəlman, ya xaçpərəst, ya yəhudi, ya bütpərəst olsun, ittihad edə biləcəkləri nöqtə hüriyyətdir”. N.Nərimanov göstərirdi ki, hər bir xalqın öz mədəni, din və dil xüsusiyyətlərini qoruyub saxlamaq hüququ vardır. Mütləqiyyət rejimini ifşa edən Nərimanov insanı cəhalətdən, milli zülmdən xilas edə biləcək dövlət quruluşunu demokratik respublikanın timsalında görürdü: “Belə bir səltənətdə azadəlik artacaq olar, tərəqqi, millət və dövlət qabaga gedər”.

XIX əsrin sonu - XXəsrin əvvəllərində Azərbaycan siyasi fikri Qərb mühtinin təsiri altında formalaşırdı. Bu isə səbəbsiz deyildi. Qeyd olunan dövrdə Qərbdə artıq din dövlətdən ayrılmışdı. Burada dövlət dini prinsiplərlə deyil, qanunlarla idarə olunmağa başlamışdı. Şərqdə isə intibah dövründən sonra din dövlətdən ayrılmamışdı. İctimai inkişafa neqativ təsir göstərən bu amil mütərəqqi ruhlu mutəfəkkirlərin kəskin etirazlarına səbəb olmuşdu. Azərbaycanda Şərqin tənqidi, Qərbin isə təqdir edilməsinin əsas səbəbi bu idi.

Məhəmməd ağa Şaxtaxtlı (1846-1931) özünün “Müsəlman həyat qabiliyyətinin böhranı” adlı məqaləsində yazırdı: “Avropalılar öz həyat tərzindən başqa, özlərinin biliyi, elmi, maarifi, sənayesi, bir sözlə, mədəniyyət, sivilizasiya adlanan nə varsa, onunla müsəlmanlardan üstündürlər”. Şahtaxtlı hesab edirdi ki, dövlət dindən ayrı olmalı və demokratik qanunlar əsasında idarə olunmalıdır.

Görkəmli mütəfəkkir Əhməd bəy Ağaoğlu (1868 - 1939) isə hesab edirdi ki, demokratiya hər cür qabiliyyətlərin inkişafına maneəsiz və asan sahələr açan fərdi azadlıq təməli üzərində qərarlaşır. Mütəfəkkir özünün “Dövlət və fərd” kitabında opponentlərini tənqid edərək göstərirdi ki, onlar azadlığa fərdi cəmiyyətdən ayıran bir amil kimi baxır və bu zəmində iddia edirlər ki, dünyada hər bir millətə və fərdə azadlıq vermək qeyri - mümkündür. Bu tezisi tənqid edən Ağaoğlu yazırdı ki, əgər bu fikirlə razılaşsaq, onda sanki klassik demokratiyalar bütün dünya içində millətə haqq verməyirlərmiş. Sanki İngiltərə, Fransa, Amerika, İsveçrə, Skandinaviya və s. demokratik dövlətlər öz millətlərini dünyada haqdan məhrum edirlərmiş.

Şeyx Cəmaləddin Əfqani (əsl adı Seyid Məhəmməd ibn Səttar) (1836-1895) isə nəinki Azərbaycanın, hətta bütün islam-türk dünyasının ən görkəmli mütəfəkkirlərindən olmuşdur. Müsəlman xalqlarının milli soykökünə, dininə, mədəniyyətinə böyük əhəmiyyət verən Əfqaninin baxışları “Milli vəhdət fəlsəfəsi və din birliyinin həqiqi mahiyyəti” adlı əsərində öz əksini tapmışdır. Əfqaninin Avropalı həmkarı O.Renan iddia edirdi ki, guya islam Şərqində insanların geriliyinin və cəhalətinin əsas günahkarı islamdır. Onun fikrincə, islam və

eləcə də orta əsrlər ərəb təfəkkürü həmişə elmin və mədəniyyətin əleyhinə çıxış etmişdir. Cəmaləddin Əfqani Renanı faktlarla təkzib edərək, əsərlərində islam dünyasının Avropanı 500 il qabaqladığını göstərmişdir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi fikrin ən görkəmli nümayəndələrindən biri də Əlibəy Hüseynzadə (1864-1940) olmuşdur. Onun siyasi görüşləri "Siyasət və fürusət" əsərində əks olunmuşdur. Mütəfəkkir Şərq müstəbidlərinin, Avropa müstəmləkəçilərinin siyasi və ideoloji təxribatları, xurafatın təzyiqi altında müstəqilliyini itirmiş xalqların dirçəlişi, azadlığı və hüquqları uğrunda mübarizə aparırdı.

Əlibəy inqilabın heç də bütün xalqlar üçün zəruri olmadığını hesab edirdi. O, inqilabı xəstəlik adlandırır, 1918-ci ildə üç ideologiyanın dünyanı lərzəyə saldığını göstərirdi: "imperializm, nasionalizm, sosializm".

Ə.Hüseynzadə yaradılmasını nəzərdə tutduğu milli cəmiyyət quruculuğunda müasir insan amilinə böyük əhəmiyyət verirdi. "Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai" yetişdirmək bu gökəmi mütəfəkkirin əsas qayəsi idi. Onun bu tezisi XX əsrin əvvəllərində milli dirçəliş uğrunda mübarizənin qida mənbəyinə çevrilmiş, "türkləşmək, islamlaşmaq, müasirləşmək" şəklində siyasi şüara çevrilərək, AXC - nin dövlət atributlarında reallaşmışdır.

XX əsrin əvvəllərində Azərbaycanda milli mənlik şüurunun oyanması, siyasi problemlərin qoyulması və həlli yollarının axtarılması işində mətbuat mühüm rol oynayırdı. Bu cəhətdən "Həyat" qəzeti və "Fyuzat" jurnalı xüsusilə böyük əhəmiy-

yət kəsb edirdi. Məhz "Həyat" qəzetinin nəşri ilə (1905-1906) milli özünüdərk təlimi ciddi elmi-konseptual müəyyənlik kəsb etmişdir. "Azərbaycan" sözünə milli anlayış kimi ilk tərif də məhz bu qəzetin səhifələrində verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banisi M.Ə. Rəsulzadənin siyasi ideyaların inkişafında xidmətləri xüsusilə böyük olmuşdur. Rəsulzadənin siyasi irsində azadlıq ideyaları mühüm yer tuturdu. O, azadlığın beş əsas formasını göstərirdi: söz azadlığı, mətbuat azadlığı, cəmiyyət və ittifaq azadlığı, vicdan azadlığı, malın və canın mühafizə olunması.

Rəsulzadə azadlığın ideal təsəvvürdən real gerçəkliyə çevrilməsinin zəruri olduğunu vurğulayaraq yazırdı: "Hürriyyət yalnız quru sözdən ibarət deyil. O, həyatda əməli halda görünməlidir. Hürriyyətin mənası dərindir. O, həyatın, insan fəaliyyətinin müxtəlif sahələrində görünməlidir. Bu sözün işığı o qədər qüvvətli və parlaqdır ki, üstündəki qaranlıq pərdəni götürəndə bütün zülmətlərə işıq saçır".

İstiqlal dövründə Azərbaycan siyasi fikri yüksək inkişaf dövrünə qədəm qoysa da, 1920-ci il aprelin 28-də bolşeviklərin işğalı bu prosesi yarımçıq qoydu.

Azərbaycanda totalitar sovet rejimi qurulduğu üçün siyasi fikir marksizm-leninizm təliminin və kommunist partiyasının təsiri altına düşdü. Cəmiyyətdə demokratik institutların yoxluğu və özbaşınalıq dalğasının artması son nəticədə ölkənin inzibati-amirlik metodları ilə idarə olunmasına gətirib çıxarmışdı. Hakimiyyətin yalnız bir partiyanın əlində cəmləşməsi siyasi fikrin sərbəst inkişafını faktik olaraq şübhə altında qoyurdu.

Sərbəst və azad siyasi fikrin inkişafı yalnız müstəqillik və demokratiya şəraitində mümkün olduğu üçün ölkəmizdə ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra daxili sabitliyin bərpa edilməsi, ölkədə vətəndaş qarşıdurmasının alınması və müstəqilliyin möhkəmləndirilməsi, demokratik cəmiyyət quruculuğuna keçilməsi siyasi fikrin inkişafını stimullaşdırdı.

Heydər Əliyevin siyasi-diplomatik fəaliyyəti, “Qayıdış”, “Müstəqilliyimiz əbədidir” və s. əsərlərində, dövrü mətbuatda çap olunmuş nitq və çıxışlarında irəli sürülən demokratiya, insan hüquqları, vətəndaş cəmiyyəti, hüquqi dövlət, Azərbaycanın bu günü və gələcəyi ilə bağlı irəli sürülən nəzəri ideyalar və müddəalar Azərbaycan siyasi fikrini zənginləşdirərək onun sürətli inkişafına təkan vermişdir.

Heydər Əliyevin konseptual fikirləri bu gün dövlət və siyasət sahəsində aparılan tədqiqatların metodoloji ornəyini təşkil edir. Bu məsələlərə həsr olunmuş başlıca əsərlər bunlardır: Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003, Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. B, 2008; Mehdiyev R. Azərbaycan diasporu: muasir cağırışlar və sistemli fəaliyyətin təşkili; Qəndilov S. “Müstəqillik illərinin düşüncələri. Bakı, 2006; Orucov H. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. B, 2008; Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. B, 2001; Əliyev V. Heydər Əliyevin dil siyasəti. B., 2003; Xəlilov S. Lider, dövlət, cəmiyyət. B, 2001; Ələkbərova N. Heydər Əli-

yev fenomeni – bilik, əməl və həyat mövqeyinin canlı mənbəyi kimi; Həbibbəyli İ. Heydər Əliyev: dövlətçilk təlimi və müasir dövr. Bakı, 2013; Mirzəzadə A.Heydər Əliyev siyasi irsinin politoloji aspektləri, Bakı:Azərbaycan, 2016. və s.

## *Mövzu 4*
## *Siyasi hakimiyyət və onun subyektləri*

***Əsas ideya*:** Siyasətdə hakimiyyətin reallaşdırılması cəmiyyətin bütövlüyünü və vəhdətini saxlamağa xidmət edir. Siyasi hakimiyyət yalnız qüvvəyə və zora deyil, ictimai münasibətləri qanunvericilik yolu ilə tənzinləməyə əsaslanır.

***Məqsədlər*:** siyasi hakimiyyətin mahiyyətinin və başlıca əlamətlərinin, eləcə də formalarının müəyyənləşdirilməsi;

siyasi hakimiyyətin məzmununa dair müxtəlif konsepsiyaların nəzərdən keçirilməsi vasitəsi ilə tələbələrdə müqayisəli şəkildə təhlil etmək vərdişlərinin formalaşmasına nail olmaq;

siyasi hakimiyyətin demokratikliyinin insanların firəvan yaşayış tərzi ilə düz mütənasibliyinin tələbələr tərəfindən dərk edilməsinə nail olmaq;

siyasi hakimiyyətdən istifadə bacarıq və vərdişlərinin formalaşdırılması.

***Əsas anlayışlar:*** siyasi hakimiyyət, legitimlik, leqallıq, resurslar, xarizmatik, rasional, lobbi, absolyutizm,despotizm, oliqarxiya və s.

### *Slaydlardan istifadə edilməsi*

Adətən mühazirənin başlanmasından bir qədər sonra tələbələrin diqqəti zəifləyir ki, bunun da qarşısının alınmasının sınaqdan çıxmış ən etibarlı vasitələrindən biri müxtəlif slaydlardan istifadə edilməsidir. Bu metod fəal təlim üsulunu zənginləşdirən elementlərdən biridir. Müəllim mövzuya uyğun müəyyən slaydlar hazırlayaraq, vizual görüntü yarada və əyani vəsait kimi ondan istifadə edə bilər. Tələbələr eşitdiklərini vizual gördükləri zaman mövzu daha aydın və maraqlı olur. Slaydlar Microsoft Power Point proqramı vasitəsilə yaradılır və onları bir-birinin ardınca istənilən qaydada düzməklə təqdimat təşkil olunur. Təqdimat vasitəsilə qeydlər, çıxış tezisləri, müxtəlif terminlər, məntiqi sxemlər, cədvəllər və s. məlumatlar dinləyicilərə gözəl tərtibatda çatdırılır.

## *Hakimiyyət sosial fenomen kimi*

| | |
|---|---|
| Mahiyyəti | İnsanların həyat və fəaliyyətinə, onların yaratdığı təsisatlara həlledici təsir göstərmək hüququ və imkanı |
| Mənbələri | Maraqlar, ənənələr, möhvumat, təsir, inam, nüfuz, insanların qeyri-bərabərliyi |
| Obyekti | Fərd, təşkilat, müəssisə, ölkə, region və s. |
| Növləri | Siyasi, iqtisadi, hərbi, informasiya, dini, ailə və s. |
| Atributları | Ekstensivlik - təsir imkanlarının genişliyi; intensivlik-hakimiyyətin öz obyektinə təsir ölçüsü |
| Tipləri | Ənənəvi, harizmatik, rasional-leqal |
| Vasitələri | Hüquq, nüfuz, məcburetmə, inandırma, ənənələr, güc |

***Hakimiyyətin həyata keçirilməsi mexanizmləri***

**Ağalıq** - bir sosial qrupun digərinə tabe olması və bunun dövlətin siyasi-hüquqi normaları ilə möhkəmləndirilməsi

**Rəhbərlik** - siyasi sistemin və cəmiyyətin inkişaf strategiyasının müəyyən edilməsi və qanunvericilikdə möhkəmləndirilməsi

**Nəzarət** - bu mexanizm vasitəsilə hakimiyyət idarəetmə qərarlarının hansı nəticələr verdiyini müəyyənləşdirir.

**İdarəetmə** - konkret idarəetmə qərarlarının qəbul edilməsi, müxtəlif şəxslər, sosial qruplar, siyasi və qeyri-siyasi təşkilatlar arasında münasibətlərin razılşdırılması və nizama salınması

## *Hakimiyyətin tipləri*

***Ənənəvi hakimiyyət*** → Hakimiyyət nəsildən-nəsilə keçir; idarə olunanlar dövlətin vətəndaşı deyil, hökmdarın şəxsi təbəələridir.

***Harizmatik hakimiyyət*** → Şəxsiyyətin qeyri-adi keyfiyyətlərinə inama əsaslanır;qanunlarla deyil, magik bir qüvvə ilə idarə olunur.

***Rasional-leqal hakimiyyət*** → Hakimiyyət ənənələr və ya xarizmatik keyfiyyətlər əsasında deyil, siyasi-hüquqi normalarla idarə olunur.

***Hakimiyyətin resursları***

**İqtisadi resurslar** - ictimai tələbatı və istehsalı ödəmək üçün zəruri olan maddi dəyərlərdir. (pul, qida məhsulları və s.)

**Sosial resurslar** - sosial dərəcəni (rütbəni) artırmaq və ya azaltmaq qabiliyyətidir. (sosial təminat, tibbi xidmət və s.)

**Demoqrafik resurslar** - insanın özü hakimiyyətin xüsusi və mühüm resurslarından biridir.

**Mədəni-informasiya resursları** - bilik və informasiya, onların əldə olunması və yayılması vasitələridir.

**Güc resursları** - silah və fiziki məcburetmə təsisatlarıdır. (ordu, polis, prokurorluq, məhkəmə və s.)

*Çıxış tezisləri*

–Hakimiyyətdən o zaman danışmaq olar ki, orada ağalıq və tabelik münasibətləri dəqiq təzahür etsin, cəmiyyətin qəbul etdiyi normalarla hər iki tərəfin davranışı nizama salınsın. Həmin qanunlar müəyyən edirlər ki, əmri verən insanların əmrin aid olduğu şəxslərdən onun göstərişlərinə tabe olmağı tələb etmək hüququ vardır.

-Siyasi hakimiyyət fərdin və ya qrupun cəmiyyətin hüquqi normalarında qanuniləşdirilmiş iradəsini həyata keçirməkdən ibarət qabiliyyətidir;

–Siyasi hakimiyyət: başqalarına təsir göstərməkdir; müəyyən məqsədlərə və nəticələrə nail olmaqdır; güc də daxil olmaqla mümkün üsul və vasitələrdən istifadə etmək bacarığıdır; başqalarının davranışını dəyişən və nizamlayan xüsusi tip fəaliyyətdir və s.

-Siyasətdə hakimiyyətin reallaşdırılması hər şeydən əvvəl cəmiyyətin bütövlüyünü və təhlükəsizliyini saxlamağa xidmət edir. İctimai hadisə olan hakimiyyətin özünəməxsusluğu ondadlr ki, bu kimi proseslərdə sadəcə təsir deyil, həm də hakimiyyət iradəsi hakimdir;

-Siyasi hakimiyyətin hüdudları dövlət hakimiyyətindən daha genişdir; o yalnız dövlət çərçivəsində həyata keçirilmir. Dövlət hakimiyyətinin xüsusi məcburetmə aparatı olur. Dövlət hakimiyyəti həm müəyyən təsissat, həm də əməli fəaliyyət deməkdir. Dövlət hakimiyyəti dedikdə, dövlət orqanları sisteminin öz tabeliyində olan vətəndaşları, təşkilatları və müəssisələri ozünə tabe etmək və onları idarə etmək qabiliyyəti,

müxtəlif xarakterli normativ aktları dərc etmək və onların icrasını təmin etmək qabiliyyəti başa düşülür.

-Siyasi hakimiyyətin əsas əlamətləri bunlardır: ictimai xarakter daşıyır, böyük qrupların maraqlarını ifadə edir; siyasi institutların fəaliyyəti ilə ifadə olunur; xüsusi idarəetmə aparatına malik olur; gücdən leqal istifadə etmək imkanlarına sahib olur; qərarları ali xarakter daşıyır və s.

-Siyasi hakimiyyətin subyektləri bunlardır: ayrı-ayrı fərdlər, siyasi partiyalar, elita,təzyiq qrupları, millət və s.

-Siyasi hakimiyyətin əsas funksiyaları bunlardır: ictimai ahəngdarlığın təmin edilməsi;vətəndaşların dövlət idarəçiliyinə cəlb edilməsi; siyasi qərarların hazırlanması, qəbulu və həyata keçirilməsi; ölkə daxilində münaqişələrin tənzimlənməsi; cəmiyyətin idarə edilməsi və ona rəhbərlik; siyasi sabitliyin təmin olunması; siyasi sistemin optimallaşdırılması və s.

-Fransız alimi Ş. L.Monteskyenin müəllifi olduğu “hakimiyyətin bölünməsi” haqqındakı nəzəriyyəyə görə hakimiyyətin üç qolu var: qanunverici, icraedici və məhkəmə.

-Müasir dövrdə siyasi hakimiyyətin müşahidə olunan əsas inkişaf meylləri bunlardır: siyasi hakimiyyətin demokratikləşməsi prosesinin intensivləşməsi; siyasi hakimiyyətin legitimlik amilinin artması; hakimiyyətin müxtəlif qolları arasında ziddiyyətlərin artması; kütləvi informasiya vasitələrinin rolu və təsirinin artması və s.

-Hakimiyyətin legitimliyini şərtləndirən amillər aşağıdakılardır:dövlətlə vətəndaş cəmiyyəti arasında münasibətlərin düzgün qurulması; siyasi sistemin milli nüfuzunun yüksəlməsi: vətəndaşların tələbat və mənafelərinin ödənilməsi, sosial

rifahın və ədalətin təmin edilməsi; siyasi liderin harizmatik keyfiyyətlərinə inam və s.

–Hakimiyyətin çökməsinə və öz legitimliyini itirməsinə səbəb olan amillər isə bunlardır: hüquq və azadlıqların məhdudlaşdırılması; icbariliyin artması; hakimiyyətin korrupsiyalaşması, müstəqil mətbuatın qadağan olunması; iqtisadi effektliyin aşağı olması və s.

–Hər bir hakimiyyət müəyyən qüvvələr tərəfindən həyata keçirilir. Siyasi hakimiyyətlə bağlı məsələləri hərtərəfli aydınlaşdırmaq üçün həmin qüvvələri, daha doğrusu, hakimiyyətin başlıca subyektlərini müəyyənləşdirmək lazımdır.

Marksizm-leninizm siyasi hakimiyyəti bir sinfin başqa bir sinfi əzməsi üçün mütəşəkkil gücü hesab edirdi. Yəni bu təlim siyasi hakimiyyəti istehsal vasitələri üzərində xüsusi mülkiyyətin mühüm əlaməti hesab edirdi.Lakin müasir dövrdə Qərb politoloqları insanın sosiallaşmasının məhz qruplardakı münasibətlərdə reallaşmasını əsas tutaraq qrupları siyasi hakimiyyətin əsas subyektləri hesab edirlər. Sosial qrupu siyasi hakimiyyət subyekti kimi təhlil edən həmin aliçlərin fikrinə görə insanların qrupa cəlb olunması üç əsas amillə bağlıdır: maddi maraq, ümumi mənafe birliyi və müəyyən məqsəd uğrunda mübarizə. Ona görə də cəmiyyətdəki qruplar üç əsas tipə bölünür:

Təsisatlı qruplar ordu, kilsə, siyasi partiyalar kimi təsisatların yarımqrupları olub, onların siyasi mənafelərinin qayğısına qalırlar.

Assosiasiyalaşmamış qruplar müəyyən struktura, mənafelərin formalaşdırılması üsullarlna malik deyillər.

Anomik qruplar spontan, qısa müddətli qruplar olub, tərkibi qeyri-mütəşəkkil, nümayişlər zamanı öz narazılığını ifadə edən fərdlərdən təşkil olunurlar.

Siyasi hakimiyyətin subyektlərindən danışarkən "kütlə" anlayışına da aydınlıq gətirmək lazımdır. Kütlənin əsas əlamətləri aşağıdakılardır:

–öz spontan subyektiv arzularını cəmiyyətin mənafeyinə uyğunlaşdıra bilmir;

–mədəniyyətin dərin təbəqələrini mənimsəməyə və özündə intizam tərbiyə etməyə qadir olmur;

–barışmaz və dağıdıcıdır, nə qədər çoxsaylı olursa, səviyyəsi bir o qədər aşağı olur;

–güclü hakimiyyətə kölə kimi tabe olur;

–ağıla deyil, hisslərə qapılır;

–məqsədyönlü şəkildə təşkil edilmir;

–rasionallığın olmur, hisslər ağıldan üstün tutulur, məsuliyyətsizlik baş alıb gedir;

–amorfluq– daxili təşkilatın və strukturun olmaması;

–tərkibinin dəyişkənliyi və müxtəlif sosial qrupları təmsil etməsi və s.

–Siyasi hakimiyyətin obyektləri isə həmin hakimiyyətin tətbiq edildiyi şəxslər və sosial qruplardır. Başqa sözlə, siyasi hakimiyyətin subyektləri cəmiyyətin içərisindən çıxır. Cəmiyyətin fəal bir hissəsi hakimiyyətə sahib olduqdan sonra, bu hakimiyyətin idarə ütdiyi digər hissə, yəni tabe olan çoxluq siyasi hakimiyyətin obyekti olur. Siyasi hakimiyyətin subyekt və obyektləri arasında fərq nisbi olub, konkret siyasi şəraitdən asılıdır.

## *Mövzuya dair terminlər*

***ANARXİZM***

(yun.anarchia-hakimiyyətsizlik) - əsas ideyası hər cür dövlət hakimiyyətini inkar etmək, şəxsiyyətin qeyri-məhdud azadlığını təbliğ etməkdir.

***AVTORİTET***

(lat.auctorias hakimiyyət,təsir) - hamının qəbul etdyi nüfuz, hörmət, etibar və təsir.

***DESPOTİZM***

(yun.despoteia – məhdudlaşdırılmayan hakimiyyət) – istibdad, qanunla məhdudlaşdırılmayan mütləq hakimiyyət forması.

***LEGİTİMLİK***

(lat. qanuni deməkdir) – hər hansı bir hərəkətin, şəxsin, hadisə və faktın, hakimiyyətin xalq tərəfindən tanınması və qəbul edilməsidir. Leqallıq hüquqi, legitimlik isə əxlaqi qiymətləndirmədir.

***İYERARXİYA***

(yun.hieros müqəddəs, ali+arche hakimiyyət) - aşağıdan yuxarıya doğru tabelik qaydasında olan rütbələr sistemi.

***İMPİÇMENT***

(ing.impeachement - ittiham) - vəzifədən uzaqlaşdırmaq və hər hansı fəxri, rəsmi və ya gəlir gətirən vəzifə tutmaq hüququndan məhrum etmək.

***İRTİCA***

inqilaba və tərəqqiyə müqavimət göstərilməsi; ilk əvvəl, sadəcə olaraq, "qarşıdurma" mənasında işlənmişdir. İrtica baxışları və fəaliyyət növlərini məhv etmək və tamamilə aradan

qaldırmaq məqsədilə ictimai - siyasi sistemlərin həyata keçirdikləri tədbirlərin (ideoloji, siyasi, sosial, hərbi) toplusudur.

***TEXNOKRATİYA***

(yun.tehno+kratos-sənətkarlığın, ustalığın hökmranlığı) – idarəetmənin yuxarı pilləsinə daxil olan texniki mütəxəssislər təbəqəsi; texnokratik idarəetmənin müddəalarını əməli həyata keçirən real siyasi rejim.

***TEOKRATİYA***

(yun.tueos-Allah, kratos-hakimiyyət) – hakimiyyətin ruhanilərin əlində cəmləşdiyi dövlət idarəçiliyi forması.

## *Mövzu 5*
## *Siyasi elita və siyasi liderlik*

***Əsas ideya*:** Cəmiyyətin siyasi həyatında aparıcı mövqe tutan, böyük imtiyazlara malik olan və xalqı təmsil etmək iddiasından çıxış edən elitanın xarakteri, funksiyalarının məzmunu və səmərəlilik səviyyəsi, peşə keyfiyyətləri siyasi sistemin təbiətinin müəyyənləşməsinə mühüm təsir göstərir. Siyasi elitanın fəaliyyətinin səmərəli təşkil olunmasında isə siyasi liderlərin xarakterik xüsusiyyətləri və seçdikləri siyasi kurs olduqca mühüm rol oynayır.

***Məqsədlər*:** siyasi elitanın mövcudluğunu şərtləndirən amillərin müəyyənləşdirilməsi;
demokratik cəmiyyətin siyasi həyatında siyasi elitanın və liderin rolunun və əhəmiyyətinin öyrənilməsi;
elitanın müxtəlif əlamətlərə görə təsnifatının verilməsi;
elitanin seçilməsi sistemləri olan antreprener və gildiya sistemlərinin üstün və nöqsanlı cəhətlərinin müəyyən edilməsi;
Müasir Azərbaycan siyasi elitasının xarakterik xüsusiyyətlərinin təhlil edilməsi;
tələbələrdə bürokratiya və bürokratizm arasındakı fərqi görə bilmək bacarığını formalaşdırmaq;
tələbələrdə idarəçilik və liderlik bacarıqları formalaşdırmaq və s.

***Əsas anlayışlar:*** siyasi elita, marginal, antreprener, gildiya və s.

### *I mərhələ-Motivasiya.*

*Problemin qoyulması*

***"Əqli hücum"***

Bu metod ideyaların generasiyası və tələbələrin fəallığının artırılması üçün tətbiq olunur. Bu, tələbələrdə yeni mövzuya maraq oyatmaq üçün ən yaxşı vasitədir. Müəllim mövzuya dair sual verir və hamıya təklif edir ki, cavabları ilə öz ideyalarını əsaslandırsınlar. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır.

**Müəllim:** "Siyasi elita və siyasi lider anlayışlarının mənasını necə başa düşürsünüz?

Tələbələr bu anlayışların mahiyyətini açıqlayandan sonra, müəllim aşağıdakı suala cavab tapmaq üçün "əqli hücum" keçirir.

Siyasi elitanın hansı əlamətlərini göstərə bilərsiniz?

-idarəetmə funksiyalarını yerinə yetirir;

-böyük imtiyazlara malikdir;

-cəmiyyətin ən qabaqcıl və fəal üzvlərindən ibarət olur;

-sosial tərəqqiyə təkan vermək iqtidarındadır;

-cəmiyyətin siyasi həyatında aparıcı mövqe tutur;

-siyasi qərarların qəbul edilməsinə təsir göstərir;

-ictimai strukturlarda rəhbər mövqe tutur.

Daha sonra müəllim "lider" sözünü yazaraq tələbələrə tapşirir ki, onlar lideri səciyyələndirən epitetləri sadalasınlar.

***Lider***

natiq

ağıllı

ümummilli

ciddi
təşkilatçı
iradəli
qətiyyətli
humanist
praqmatik
vətənpərvər
harizmatik
realist
islahatçı
mütərəqqi

***Tədqiqat sualları***

Siyasi elitanın mövcudluğunu şərtləndirən amillər hansılardır?

Siyasi elitanın hansı seçilmə sistemləri mövcuddur?

Azərbaycanda elitanın əsas transformasiya mərhələləri hansılardır?

M.Veber tərəfindən irəli sürülən liderliyin tipologiyası nəzəriyyəsi sizi qane edirmi?

Sizin fikrinzcə, siyasi lider əsas etibarı ilə hansı xüsusiyyətlərə sahib olmalıdır?

Siyasi liderin funksiyaları içərisində hansını daha üstün əhəmiyyətli hesab edirsiniz?

“Başçı”, “lider” və “rəhbərlik” anlayışları arasında nə kimi fərqlər görürsünüz?

Tədqiqat suallarını və tələbələrin söylədikləri dəlilləri və fərziyyələri müəllim lövhədə yazaraq, onların düzgünlüyünü yoxlamağı təklif edir.

**II mərhələ**
**Tədqiqatın aparılması**
*Kiçik qruplarda iş*

Müəllim fərziyyələri yoxlamaq üçün tələbələri qruplara bölür və hər qrupa marker və iri vərəqələr paylayır. Çıxışların mətninin hazırlanması zamanı tələbələr beynəlxalq sənədlərdən çıxarışlardan, habelə milli qanunvericilikdən, faktlar və statistik göstəricilərdən istifadə edə bilərlər.

**III mərhələ**
**İnformasiya mübadiləsi**
*Qrupların təqdimatı*

Hər bir qrupun nümayəndəsi çıxış edərək əldə etdiyi nəticə haqqında məlumat verir ki, bu da informasiya mübadiləsinə səbəb olur.

Müəllim "Akvarium" (bu üsul diskussiya vərdişlərini inkişaf etdirmək üçün ən yaxşı üsullardan biridir. Bu zaman tələbələr iki qrupa bölünür. Bir qrup stullarda əyləşərək, daxili dairə təşkil edir. Onlar müəllimin təklif etdiyi problemi müzakirə edirlər. Lehinə olan dəlilləri irəli sürürlər. Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər. Onlar dəlilləri dinləyir, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 20-25 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan tələbələr öz yerlərini dəyişirlər. İndi onlar diskussiya apararaq, əvvəlki iştirakçıların dəlillərini təkzib etməlidirlər) adlanan fəal təlim üsulundan istifadə etməklə aşağıdakı mövzuda diskussiya keçirə bilər:

-Siz elitanın seçilməsinin hansı sisteminə üstünlük verirsiniz?

### *IV mərhələ*
### *Ümumiləşdirmə və nəticə*

➢ Siyasi elitanın mövcudluğunu şərtləndirən amillər bunlardır: sosial orqanizmin tamlığını və bütövlüyünü təmin etmək; insanların fərqli siyasət və idarəetmə qabiliyyətləri, əksəriyyətin buna həvəsinin, biliklərinin və imkanlarının olmaması; cəmiyyətdəki zəruri ixtisaslaşma, idarəçiliklə professional məşğuliyyət tələb edən əməyin bölgüsü qanunu; idarəçilik əməyinin yüksək sosial əhəmiyyəti; geniş xalq kütlələrinin siyasi passivliyi və idarə olunmağa meylli olması; siyasi liderin fəaliyyətinə nəzarətin çətinliyi və s.

➢ Elitanın seçilməsinin iki əsas sistemi mövcuddur: gildiya və antreprener.

Antreprener (sahibkarlıq) sisteminin səciyyəvi cəhətləri bunlardır: elitanin seçilməsinin açıq xarakteri; elitanın formalaşmasında yüksək rəqabət; formal tələblərin məhdudluğu, elitanın yeniləşməsi imkanlarının genişliyi.

Elitanın seçilməsinin gildiya sisteminin əlamətləri isə bunlar hesab edilir: elitanın seçilməsinin qapalı xarakteri; statusu yüksəltmək üçün müxtəlif tələblərin mövcudluğu; elitaya namizədlər seçən bazanın məhdud dairəsi; elitanın yeniləşməsi imkanlarının məhdudluğu.

➢ Azərbaycanda elitanın əsas transformasiya mərhələləri aşağıdakılardır:

**-latent** (gizli) mərhələ (1985-1989) - cəmiyyətin və dövlətin ictimai-siyasi həyatında baş verən dəyişikliklər sovet elitasının (nomenklaturasının) fəaliyyətində yeni xarakterik xüsusiyyətlərin meydana gəlməsinə səbəb olur;

-**konversiya** dövrü (1989-1991) - nomenklaturanın ölkənin inkişafının yeni siyasi və iqtisadi şərtlərinin hazırlanmasında fəal iştirakı;

-**konfrontasiya** dövrü (1991-1993) - anarxiya meyllərinin güclənməsi, elitanın həm təmsilçilik, həm də qrupdaxili inteqrasiya səviyyəsinin aşagı olması;

-**stabilləşmə** dövrü (1993-2003) - eltanın siyasi sabitliyin təmin edilməsi, iqtisadi tənəzzülün qarşısının alınması və cəmiyyətin demokratikləşməsi istiqamətindəki fəal və məqsədyönlü fəaliyyəti;

-**inkişaf** mərhələsi (2003-cü ildən sonrakı dövr) - elitanın formalaşmasının antreprener sisteminin qəti olaraq möhkəmlənməsi, onun əhalinin digər təbəqələri ilə sıx əlaqəsinin və daxili vəhdətinin təmin edilməsi.

### *Nəzəri material*

“Elita” anlayışı fransızca “ən yaxşı”, “seçilmiş” deməkdir. Siyasi elmdə bu terminə ilk dəfə XX əsrdə Sorelin və Paretonun əsərlərində rast gəlinir. Siyasi nəzəriyyələrdə elita sözü malik olduğu yüksək keyfiyyətlərinə görə kütlələrdən seçilən və onlara rəhbərlik edən azlığı ifadə etmək üçün işlədilir.

Siyasi elita – hakimiyyəti öz əlində cəmləşdirən, cəmiyyəti idarə edən və yüksək vəzifələr tutan azsaylı bir qrupdur. Elitanın yetişdirilməsində siyasi partiyalar və ictimai təşkilatlar böyük rol oynayır. Siyasi partiyaların fəaliyyəti nəticəsində

fəal partiya funksionerləri idarəetmənin müxtəlif pillələrində təmsil olunaraq siyasi elita təbəqəsini yeniləşdirirlər.

Elita nəzəriyyəsinin kökləri qədim dövrlərə gedib çıxır. Hələ qədim yunan filosofu Platon qeyd edirdi ki, insanın ruhi fəaliyyətinin idraki və iradi ünsürlə bağlı olan formaları çox az adamlara - aristokratiyaya xasdır.

Müasir elita nəzəriyyələri isə XIX əsrin sonu - XX əsrin əvvəllərində meydana gəlmişdir. İtalyan sosioloqu və politoloqu V.Pareto göstərirdi ki, cəmiyyət heç də yekcins deyil və insanlar fiziki, əxlaqi və intellektual cəhətdən bir-birindən fərqlənirlər. İnsanların elitaya və kütlələrə bölünməsinin başlıca səbəbi onların fərdi qabiliyyətlərindəki fərqlərdir. O, aristokratiyanın xarakterik xüsusiyyəti kimi psixoloji keyfiyyət və qabiliyyət məsələlərinə diqqət yetirirdi. Pareto hesab edirdi ki, məhz bu keyfiyyətləri hesabına hakimiyyətdə enerjili və qabiliyyətli insanlar qalır.

"İdarəedən elita" konsepsiyasının müəllifi Q.Moska isə qeyd edirdi ki, elita öz hakimiyyətini əxlaqi və hüquqi prinsiplərlə möhkəmləndirir.

Alman alimi R.Mixelsin "oliqarxiyanın dəmir qanunu" konsepsiyasına görə isə demokratiya özünü qoruyub saxlamaq üçün xüsusi təşkilat yaratmağa möhtacdır ki, bu da fəal azlığın-elitanın yaranmasına gətirib çıxarır. Kütlələr böyük təşkilatlara birbaşa nəzarət etmək imkanlarına malik olmadığından, bu səlahiyyətlərin həyata keçirilməsini elitaya həvalə etməyə məcburdur. Bununla da, demokratiyanın mütləq oliqarxiyaya çevrilməsi baş verir.

Siyasi elitanın funksiyaları bunlardır:

-rəhbər kadrların hazırlanması üçün rezerv rolunu oynaması. Rəhbərlikdə təmsil olunmanın fərdi qabiliyyətləri daha da inkişaf etdirməsi;

-cəmiyyətin siyasi məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;

-müxtəlif sosial qrupların, təbəqələrin və siniflərin qarşılıqlı münasibətlərini tənzimləməsi və koordinasiya etməsi;

-ölkənin strateji rəhbərliyini həyata keçirməsi və s.

Siyasi elita öz tərkibinə görə rəngarəngdir. Siyasi həyatdakı roluna, qərarların qəbul edilməsində iştirak etmək dərəcəsinə görə elitanın iki forması olur: yüksək və orta elita. Yüksək elitanın orta elitadan başlıca fərqi onun siyasi qərarların qəbul edilməsində birbaşa iştirak etməsidir. Orta elita isə üç əsas əlamətə (gəlirinə, peşəsinə və təhsilinə) görə müəyyən olunur.

Siyasi elita həmçinin dövlət hakimiyyətinə malik olan insanlardan təşkil edilmiş hakim elitaya və hakimiyyətlə rəqabətdə olan müxalifət elitasına bölünür. Kompleksləşmə metodlarına görə isə elita açıq və qapalı olur. Birinci halda elita təbəqəsi cəmiyyətin bütün təbəqələrindən çıxmış peşəkarların üzünə açıq olur, ikinci halda isə elita yalnız öz daxili sıraları hesabına yeniləşir.

Elitanın başlıca formaları bunlardır :

-iqtisadi elita – əsas etibarilə cəmiyyətin iqtisadi resurslarına nəzarət funksiyasını həyata keçirən azlıq: iri mülkiyyət sahibləri, maliyyə korporasiyalarının sahibləri və s.

-hərbi elita – yüksək rütbəli zabitlər ;

-bürokratik elita – dövlət aparatının yüksək çinli məmurları;

-ideoloji elita – ideologiyanın və kütlələrin şüurunun formalaşmasında iştirak edən elm və mədəniyyət xadimləri, siaysətşünaslar, KİV nümayəndələri və s.

Politoloji lüğətdə lider (ing.-aparıcı, rəhbər) başqasına təsir göstərmək, müştərək fəaliyyəti təşkil etmək qabiliyyətinə malik olan və toplum maraqlarını istiqamətləndirməyi bacaran şəxs hesab olunur. İnsanlar bu şəxsə ən məsul qərarlar qəbul etmək səlahiyyəti verir, o, kollektivin təşkilində və fəaliyyətində, toplum maraqlarının istiqamətləndirilməsində əsas rol oynayır. Lider qrupun, təşkilatın və ya bütövlükdə cəmiyyətin nüfuzlu və sosial-siyasi proseslərdə mühüm rol oynayan üzvüdür.

Liderliyin məzmunu ilə bağlı çoxsaylı baxışları ümumiləşdirməklə aşağıdakıları söyləmək mümkündür:

-Liderlik fərdin başqalarına təsiridir, lakin insanların başqalarının təsirinə məruz qalması həmişə liderlik hadisəsi çərçivəsində nəzərdən keçirilə bilməz. Şəxsin başqalarına təsiri üç halda liderliyə səbəb ola bilər. Əvvəla, bu təsir bütün qrupu, bütün təşkilatı və bütün cəmiyyəti əhatə etməlidir. İkincisi, liderin təsiri keçici deyil, daimi xarakterə malik olmalı və insanlar onun liderliyini könüllü olaraq qəbul etməlidirlər. (Durnaların üç xüsusiyyəti var: birincisi, durnalar öz başçılarını dəyişirlər; ikincisi, onlar hava axınına qarşı dura biləcək durnanı başçı seçirlər; üçüncüsü, durnalar öz çığırtıları ilə dəstənin başında olana öz razılıqlarını bildirirlər.) Üçüncüsü, lider

qrupda başqalarından əhəmiyyətli dərəcədə üstün nüfuza malik olmalıdır.

Siyasi və psixoloji ədəbiyyatda liderliyin müxtəlif əlamətlərə görə təsnifatı mövcuddur. Məsələn: davranış üsullarına görə liderlər demokratik və avtoritar olurlar. Demokratik liderlər qrup üzvlərinin mənafeyini nəzərə alaraq və onların dəstəyinə arxalanaraq rəhbərlik funksiyasını yerinə yetirirlər. Avtoritar liderlər isə təkbaşına qərarlar qəbul edirlər, ciddi intizam tətbiq edirlər, qrupun rəyinə qulaq asmırlar və hamını öz qərarlarına tabe etdirməyə çalışırlar. Reallığa münasibətdə liderlər açıq (başqalarının fikri ilə hesablaşır, hadisəyə yenidən baxmağı bacarır) və doqmatik (reallığı qiymətləndirmək və hadisəni yenidən nəzərdən keçirməyə qadir olmur) olur. Fəaliyyət miqyaslarına görə liderlər dörd qrupa bölünür: kiçik qrupun lideri; içtimai hərəkatın və ya siyasi təşkilatın lideri; etnosun lideri; liderliyi sosial təsisat kimi formalaşan ümummilli lider. Adətən dünyanın klassik siyasi sistemlərində (məsələn ABŞ-da) dövlətin konstitusiyasını yaradanlar millətin, xalqın lideri hesab olunurlar.

M. Veber isə siyasi liderləri belə təsnif edir:

1. Ənənəvi liderlər. Belə liderlər tarixdən gələn irsi imkanlara görə lider olurlar.

2. Rasional-leqal liderlər. Belə liderlər açıq mübarizədə öz qabiliyyətləri, şəxsi keyfiyyətləri və demokratik seçkilərlə ortaya çıxır.

3.Harizmatik liderlər–insanların inamı əsasında ortaya çıxırlar.Harizmatik liderlər çox vaxt ekstremal situasiyalarda yetişir.

Amerikalı politoloq R. Taker isə liderləri üç qrupa bölür: konservatorlar, islahatçılar və inqilabçılar. Konservatorlar ictimai həyatın mövcud formasını saxlamağa çalışır.1936-cı ildə Almaniya ilə ittifaq bağlamağın məqsədəuyğun olmadığını U. Çörçill məhz konservativ mülahizələrlə əsaslandırmışdır: “ 400 il ərzində İngiltərənin xarici siyasəti qitədə ən güclü, təsirli və aqressiv dövlətə qarşı dayanmağa yönəlib”.

İslahatçılar, ilk növbədə, hakimiyyət strukturlarında geniş islahatlar aparmaqla mövcud sosial-siyasi şəraiti dəyişdirməyə can atırlar.(Den Syaopin)

İnqilabçılar isə hər şeyi fundamental olaraq yenidən qurmağa can atırlar. Bu cür liderə örnək Kuba Respublikasının başçısı olmuş Fidel Kastrodur.

Alman alimi Hermann isə liderliyi stilinə görə dörd yerə bölür:

–“yanğınsöndürənlər” ən aktual, “yanan”, qaynar problemərin həlli ilə məşğul olmağa üstünlük verirlər;

–“bayraqdarlar” kütləri cəlb etməyə, onları arzu və ideallarla silahlandırmağa meyl edirlər;

–“tacirlər” kütləri öz planlarının cəlbedici olduğuna inandırmağı bacarırlar;

–“xidmətçilər” öz tərəfdarlarının maraqlarını müdafiə etməyə üstünlük verirlər.

Sosial rolların təsisatlanmasına görə isə formal (rəhbər) və qeyri-formal liderlər olur. Formal lider situasiyaya tutduğu vəzifəyə, qeyri-formal lider isə ağlına və bacarığına görə təsir göstərir. Formal liderlik, yəni rəhbərlik şəxsin ictimai iyerarxiyadakı mövqeyindən çıxış edərək mövcud normalar çərçivə-

sində qrup üzvlərinə təsir göstərməsini bildirir. O, liderlik funksiyasını həyata keçirməyə imkan verən təsisatlara, normalara və eyni zamanda gücə arxalanır. Qeyri-formal liderlik isə bir tərəfdən liderlik funksiyalarını həyata keçirməyə istiqamətlənmiş subyektiv meylləri, digər yandan isə qrup üzvlərinin liderin rəhbərlik hüququnu qəbul etməyə hazır olmasını əks etdirir.

**Rəhbərlik və liderlik arasındakı fərqlər aşağıdakılardır:**

-Rəhbər çalışır ki, insanlar hər hansı bir şeyi düzgün etsinlər, liderlər isə çalışırlar ki, insanlar düzgün işlər görsünlər;

-rəhbər hər hansı sosial birlikdə qruplar arasındakı rəsmi münasibətləri nizamlayır, lider isə qrupdakı şəxslərarası münasibətləri nizamlayır;

-rəhbərlik sosial strukturun müxtəlif elementlərinin nəzarəti altında həyata keçirilən məqsədyönlü prosesdir, liderlik isə öz-özünə meydana gəlir;

-rəhbərin fəaliyyət sferası daha genişdir, çünki o kiçik qrupu daha geniş sosial sistemdə təmsil edir, liderin fəaliyyət sferası isə əsas etibarilə kiçik qrupdur;

-rəhbərlik - nisbətən yüksək səviyyəli təşkilatlar tərəfindən təsdiq edilmiş əsasnamə çərçivəsində rəsmi səlahiyyətin tətbiqi yolu ilə kollektivin idarə olunması prosesidir. Liderlik isə işçilərdən birinin şəxsi nüfuzunun kollektivin bir çox və ya bütün üzvlərinin davranışına təsiridir;

-rəhbər başqalarının işini istiqamətləndirir və onun nəticələri üçün şəxsi məsuliyyət daşıyır. Lider isə qrup üzvlərini

həvəsləndirir, onlarla işin gedişi haqqında öz fikirlərini bölüşür;

-rəhbər insanlara komanda verir, lider öyrədir;

-rəhbər hakimiyyətə əsaslanır, lider azad iradəyə;

-rəhbər insanlarda həyəcan, lider ruh yüksəkliyi yaradır;

-rəhbər necə işləmək lazım olduğunu bilir, lider necə işləmək lazım olduğunu göstərir;

-rəhbər gedin, lider gedək deyir;

-rəhbər işçinin bu və ya digər məsələyə dair qərar qəbul etməsi əsasən vasitəli xarakter daşıyır. O, böyük informasiya sistemi kanallarına malikdir və qərar qəbulu zamanı öz səlahiyyətini aşağı pillə işçilərinə həvalə edə bilər. Lider isə qrupda qərarın qəbul edilməsində bilavasitə iştirak edir. O, müəyyən bir informasiyanı qeyri-rəsmi rabitə kanalları sistemi ilə əldə edir.

Liderə xas olan xarakterik keyfiyyətlər bunlardır: iti ağıl və intusiya; təşkilatçılıq istedadı; natiqlik qabiliyyəti; xarizma; siyasi iradə və məsuliyyəti öz üzərinə götürmək bacarığı, fərasət; təşəbbüskarlıq; insanların rəğbətini qazanmaq bacarığı; dinləmək bacarığı və s.

Liderlik:

–insanların görmək istəmədikləri işi onlara gördürüb bundan məmnun qalmalarını təmin etməkdir;

–insanların diqqətini tək bir hədəfə yönəltmək qabiliyyətidir;

–insanların bacarıq və qabiliyyətlərini kəşf edə bilmək qabiliyyətidir;

–qrup üzvlərini faydalı dəyişiklik üçün həvəsləndirmək və inandırmaqdır;

–iş mədəniyyətini və iş əxlaqını təmin etmək üçün nümunə götürüləcək bir fəaliyyətdir;

–inanmaq və inandırmaqdır;

–insanlara ilham və ruh verə biləcək şəraiti təmin edə bilməkdir;

–ağlın və gücün birləşməsidir;

–sözlə əməlin vəhdətidir;

–ən yaxşı şeyin nə vaxt və necə ediləcəyini ən yaxşı zamanda etməyi bacarmaqdır;

–özünə hakim olub, sonra başqalarını arxasınca aparmaq bacarığıdır;

–həmişə yaxşı, lakin tanış olmayan qərarlar tapmaq deməkdir;

–özünü ağlının, başqalarını ürəyinin köməyi ilə idarə etməkdir;

–manipulyasiya (kələk və hiylə) və məcburetmə deyil, motivasiya (həvəsləndirmə) etməkdir.

Siyasi liderin əsas funksiyaları aşağıdakılardır:

1.Analitik funksiya. Lider yaranmış şəraiti dərindən və hərtərəfli analiz etməli, obyektiv və subyktiv amilləri nəzərə almalı, bunlara uyğun olaraq gerçək fəaliyyət proqramı hazırlayıb, onu həyata keçirməlidir.

2.Təşkilatçılıq funksiyası. Lider qarşıya qoyulmuş məqsədə nail olmaq üçün öz tərəfdarlarını, kütlələri səfərbər etməli,komandasını formalaşdırmağı, siyasi fəaliyyətini plan-

laşdırmağı, optimal siyasi qərarlar qəbul etməyi və işin icrasına nəzarət etməyi bacarmalıdır.

3.İnteqrativ funksiya. Lider ümummilli maraqlar, dəyərlər və ideallar ətrafında müxtəlif siyasi qüvvələrin, qrupların, təbəqələrin konsolidasiyasına nail olmalıdır.

4.Novatorluq funksiyası. Lider yeniliyin və innovasiyaların təşəbbüskarı olmalıdır.

5.Kommunikativ funksiya. Lider hakimiyyətlə cəmiyyətin müxtəlif qüvvələri arasında əlaqələr qurmağı bacarmalıdır.

6.Ədalətin və nizam-intizamın təmin olunması və s.

Hər bir şəxsin cəmiyyətdə mövqeyi onun ictimai imici (cəmiyyətdə qazandığı hörmət və nüfuz) və statusu (cəmiyyət tərəfindən verilən "hüquqi" səlahiyyət) ilə müəyyən edilir. Şəxsin siyasi statusu onun dövlət hakimiyyətində tutduğu mühüm siyasi postla, siyasi imici isə onun öz fəaliyyəti zamanı qazandığı hörmətlə müəyyən olunur.

## *Mövzu 6*
## *Siyasi sistemlər nəzəriyyəsi*

***Əsas ideya*:** Cəmiyyətin sosial-siyasi təbiətini, siyasi münasibətləri, təsisatları və normaları açıqlamağa imkan verən siyasi sistem sosial sistemin əsas elementidir. Siyasi sistemin təsisatları iqtisadi həyata, mədəni münasibətlərə və ideologiyaya təsir edərək, sosial sistemin normal fəaliyyət göstərməsini təmin edir.

***Məqsədlər*:** siyasi sistemin mahiyyəti və strukturu, cəmiyyətin siyasi təşkili haqqında tələbələrə məlumat vermək;
siyasi sistemin müxtəlif əlamətlərə görə təsnifatının verilməsi;
tələbələrdə siyasi sistemləri müqayisəli təhlil bacarığını formalaşdırmaq;
siyasi sistemin demokratikləşməsi yollarının müəyyən edilməsi;
tələbələrin Azərbaycan Respublikasının siyasi sistemindəki islahatların aktuallığını və zəruriliyini dərk etməsinə nail olmaq;
tələbələrdə müstəqil mühakimənin nəticəsi kimi öz fikrini əsaslandırmaq və müdafiə etmək, eləcə də müstəqil qərar qəbul etmək kimi bacarıq və vərdişlərin formalaşdırılmasına motiv yaratmaq və s.

***Əsas anlayışlar:*** siyasi sistem, imperiya, amirlik, konfederasiya, diktator, inteqrasiya və s.

***I mərhələ-Motivasiya.***

*Problemin qoyulması*

***Söz assosiasiyaları***

Müəllim lövhədə “sistem” sözünü yazır və tələbələrdən xahiş edir ki, bu sözün onlarda yaratdığı assosiasiyaları desinlər.

siyasi sistem
iqtisadi sistem
ekoloji sistem
mədəni sistem
sosial sistem
hərbi sistem
ictimai sistem

Sonra isə tələbələrdən sisyasi sistemin tərifinin tərtib edilməsi xahiş olunur.

Müəllim sadə terminologiyadan istifadə etməklə, “siyasi sistem” anlayışının aşağıdakı tərifini lövhədə yaza bilər: “Siyasi sistem, cəmiyyətin siyasi həyatında rol alan siyasi qurumları və digər ictimai təsisatları, bunların fəaliyyətini və qarşılıqlı münasibətlərini ifadə edir.

*Tədqiqat sualları:*

Siyasi sistemə sosial sistemin hansı ünsürləri daxildir?

Siyasi sistemin təbiətini və xarakterini müəyyən edən başlıca amillər hansılardır?

Siyasi sistemin strukturunu yadınıza salın. Sizcə, siyasi sistemin komponentlərindən hansı müəyyənedici rola malikdir?

Siyasi sistemin funksiyalarını sadalayın. Sizcə, onların içərisində ən əhəmiyyətlisi hansıdır? Fikirlərinizi əsaslandırın.

Siyasi sistemin sabitliyini şərtləndirən amillər hansılardır?

Tədqiqat sualları və tələbələrin fərziyyələri lövhədə yazılır.

***II mərhələ***
***Tədqiqatın aparılması***

Müəllim tələbələri iki qrupa bölərək, onların hər birinə müəyyən mövzu verir (bax: Mövzuya aid əlavə). Qrup öz mövzusunu öyrəndikdən sonra onu auditoriyaya təqdim etməlidir. Bu zaman aşağıdakı suallara cavab verilməlidir:

Müstəqil Azərbaycan Respublikasının yeni siyasi sistemi sovet dövrünün siyasi sistemindən hansı cəhətləri ilə fərqlənir? Sizcə, sovet siyasi sisteminə xas olan cəhətlərdən hansıları hələ də öz təsirini saxlamaqda davam edir?

Siyasi sistemin demokratikləşməsinin müxtəlif yollarından hansına daha çox üstünlük verirsiniz?

***III mərhələ***
***İnformasiya mübadiləsi***
*Qrupların təqdimatı*

Hər bir qrupun nümayəndəsi çıxış edir və auditoriyanı öz qrupunun işinin nəticələri ilə tanış edir. İnformasiya mübadiləsi baş verir.

***IV mərhələ***
***İnformasiyanın müzakirəsi və təşkili***

*İnformasiyanın müzakirəsi üçün suallar:*

Siyasi sistemin demokratikləşməsində vətəndaş cəmiyyətinin rolu və əhəmiyyəti nə dərəcədədir?

Demokratik cəmiyyət quruculuğunu qarşısına məqsəd qoyan Azərbaycan üçün inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə etmək vacibdirmi?

ABŞ, Böyük Britaniya, Fransa, Almaniya və s. kimi inkişaf etmiş ölkələrin Azərbaycanda olmayan hansı müsbət təcrübəsini ölkəmizin siyasi sistemində görmək istərdiniz?

### *V mərhələ*
### *Ümumiləşdirmə və nəticə*

- Beynəlxalq nəzəriyyə və praktikanın, eləcə də Azərbaycanda keçid dövründə baş verən köklü dəyişikliklərin ümumiləşdirilməsi əsasında belə qənaətə gəlmək olar ki, ölkəmizdə demokratik cəmiyyət quruculuğu üçün təkcə hər hansı siyasi institut və normaların, demokratik mexanizmlərin yaradılması, daha dəqiq desək, dövlət tərəfindən görülən tədbirlər kifayət etmir. Müasir şəraitdə bu proses dövlət və vətəndaş cəmiyyətinin səylərinin birləşdirilməsi yolu ilə həyata keçirilə bilər;
- Demokratik cəmiyyət quruculuğunu qarşısına məqsəd qoyan Azərbaycan üçün inkişaf etmiş ölkələrin demokratiya və insan hüquqları sahəsində topladığı təcrübədən istifadə etmək olduqca vacibdir. Əgər hər bir millət bəşər adlı ictimai orqanizmin bir hissəsidirsə, deməli, ümumbəşəri amillər onun inkişafında öz rolunu oynayır. Lakin demokratik inkişaf yoluna qədəm qoymuş Azərbaycan digər ölkələrin bu sahədəki təcrübəsini mexaniki surətdə təkrarlaya bilməz. Bu məsələdə ölkənin milli inkişaf qanunları, tarixi xüsusiyyətləri və digər spesifik cəhətləri hökmən nəzərə alınmalıdır.

## *MÖVZUYA AİD ƏLAVƏ*

### Azərbaycan Respublikasının siyasi sistemi

| | | |
|---|---|---|
| ***Dinə münasibətdə*** | Dünyəvi | Azərbaycan Respublikasında din dövlətdən ayrıdır (AR Konstitusiyası – Maddə 18). |
| ***Ərazi quruluşuna görə*** | Unitar | Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır (Maddə 7). |
| ***İdarə formasına görə*** | Prezidentli respublika | Azərbaycan Respublikasının Prezidenti xalq tərəfindən seçki yolu ilə 5 il müddətinə seçilir. |
| Siyasi rejimə görə | Demokratik | Açıq və hesabat verən hökumət, azad və ədalətli seçkilər, insan hüquqlarının təminatı və s. |
| Qanunvericilik hakimiyyəti | Milli Məclis | Geniş məsələlər üzrə ümumi qaydalar müəyyənləşdirir, qanunlar qəbul edir. |
| İcra hakimiyyəti | Prezident | Baş nazir də daxil olmaqla nazirləri təyin edir. |
| ***Məhkəmə hakimiyyəti*** | Məhkəmələr | Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Apellyasiya məhkəmələri və ümumi məhkəmələr |

## *Siyasi sistemin demokratikləşməsi yolları*

**_Əsas istiqamətlər_**

- Özünüidarəetmə prosesinin inkişafı, nümayəndəli təsisatların rolunun artması
- Bütün sosial qrupların maraqlarının formalaşdırılması və təsisastlandırılması
- Qanunçuluğun və nizam-intizamın möhkəmləndirilməsi
- Dövlət və qeyri-dövlət orqanlarının səlahiyyətlərinin dəqiq ayrılması
- Cəmiyyətin siyasi sisteminin yeniləşdirilməsinin effektli mexanizminin yaradılması
- Şəxsiyyətin, xalqların və millətlərin inkişafı və qarşılıqlı əlaqələri imkanlarının genişləndirilməsi

## Nəzəri material

**Siyasi sistem** siyasi münasibətlərin, təsisatların, normaların və hakimiyyətin təşkili prinsiplərinin məcmusudur. Siyasi sistem cəmiyyətin sosial həyatı, idarəçilik forması, dövlət formaları, siyasi rejimin mahiyyəti, əxlaqi-mədəni və ideoloji münasibətlərin xarakteri, ölkənin coğrafi mövqeyi və milli ənənələri kimi cəhətlərlə müəyyən olunur.

Siyasi sistem hər bir ölkənin tarixi və mental xüsusiyyətlərinə, siyasi mədəniyyətinin xarakterinə və hətta coğrafi mövqeyinə uyğun olaraq qurulur.

Siyasi sistemlər o zaman səmərəli hesab olunur ki, onlar hərtərəfli inkişafı təmin edir, əhalinin tələbat və mənafeyini nəzərə alır, vətəndaş cəmiyyətinə və ictimai fikrə dəstək göstərir, siyasi plüralizmə və iqtisadi rəqabətə, şəffaf və operativ idarəçiliyə, məhsuldarlığa və hesabatlılığa əsaslanaraq fəaliyyət göstərir.

Siyasi sistemin elmentləri daxili nizamlılığa və mütəşəkkilliyə malik olmalıdırlar.

Siyasi sistem nəzəriyyəsinin banisi amerikan alimi C. İston sayılır. O özünün “Siaysi sistem” adlı kitabında (1953) siyasi sistemi xaricdən daxil olan impulslara reaksiya verən özünütənzimləyən orqanizm kimi xarakterizə etmişdir.

Hər hansı təşkilatın siyasi xarakteri aşağıdakılarla müəyyən olunur:

-hər hansı təbəqənin siyasi tələbat və mənafelərini ifadə etməsi;

-cəmiyyətin siyasi həyatında iştirak etməsi və siyasi münasibətlərin iştirakçısı olması;

-siyasi hakimiyyətin əldə edilməsi, təşkili və həyata keçirilməsi ilə müstəqim və ya bilvasitə əlaqədar olması;

- fəaliyyətində siyasi həyatda qərarlaşmış normalara əsaslanması və s.

Tədqiqatçılar siyasi sistemin strukturuna təsisatlanmış, normativ, funksional, kommunikativ və mədəni yarımsistemləri aid edirlər. Təsisatlanmış sistemə dövlət, siyasi partiyalar, siyasi hərəkatlar kimi struktur elemntləri aiddir. Normativ yarımsistemə siyasi norma və ənənələr, əxlaq, siyasi etika və s. daxildir. Funksional yarımsistem siyasi hakimiyyətin həyata keçirilməsi üsul və metodlarında, yəni siyasi rejimlərdə öz əksini tapır. Kommunikativ yarımsistem siyasi sistem daxilində müxtəlif elementlərin qarşılıqlı əlaqəsini əks etdirir. Mədəni yarımsistemə isə siyasi şüur, siyasi ideologiya və siyasi mədəniyyət daxildir.

Siyasi sistemin funksiyaları bunlardır: vətəndaşların siyasi proseslərə cəlb edilməsi və sosiallaşması; siyasi normaların işlənib hazırlanması; siyasi sistemlə mühit arasında qarşılıqlı əlaqənin yaradılması; vətəndaşların mənafe və tələbatlarının ödənilməsi; siyasi sistemin özünün optimallaşdırılması və s.

Siyasi sistemlərin klassik təsnifatı ilk dəfə 1956-cı ildə Q.Almond tərəfindən irəli sürülmüşdür. O, siyasi sistemləri dörd əsas kateqoriyaya ayırırdı: ingilis-amerikan siyasi sistemləri; kontinental Avropa siyasi sistemləri; sənayeyəqədərki, yaxud qismən sənaye cəmiyyətlərindəki siyasi sistemlər; totalitar siyasi sistemlər.

Tarixi təsnifata əsasən, siyasi sistemin üç əsas forması mövcuddur: imperiya, müasir milli dövlət və konfederasiya.

İmperiyanın başlıca əlamətləri bunlardır:

–geniş ərazilərin olması və bunların da işğal yolu ilə ələ keçirilməsi;

–ciddi mərkəzləşdirilmiş hakimiyyət;

–vahid siyasi ideologiyanın mövcudluğu;

–bir millətin digər millətlərdən üstünlüyünün bəyan edilməsi;

–dövlətin mövcudluğunun gücdən asılı olması;

–müxtəlif etnik və siyasi münaqişələr ucbatından sabitliyin olmamsı və s.

Müasir milli dövlətin əlamətləri isə aşağdakılardır:

–ərazi birliyi və sabitliyin olması;

–siyasi elitadan asılı silahlı qüvvələrin mövcudluğu;

–vahid bürokratiyanın–məmur aparatının formalaşması və s.

Konfederasiya (latın dilində "müqavilə ilə əlaqələndirmək" deməkdir) isə adətən hərbi böhran və ya xarici təhlükə şəraitində meydana gəlir və çox keçmədən ya federativ dövlətə çevrilir, yaxud da ərazisində müstəqil dövlətlər yaranır. Konfederasiya müstəqil suveren dövlətlər tərəfindən öz vəzifələrini əlaqələndirmiş formada həll etmək məqsədi ilə yaradılan birlik formasıdır. Konfederasiyaya daxil olan dövlətlər öz daxili, bəzən hətta xarici müstəqilliyini də tamailə saxlayır və sərbəst hərəkət edirlər. Konfederasiyanın mərkəzi hakimiyyət orqanları, vahid konstitusiyası, vətəndaşlığı və valyutası olmur. Onun orqanlarının qəbul etdiyi qərarlar ittifaqın bütün üzvləri üçün imperativ (məcburi) olmur.

Siyasi sistemin digər təsnifatı onun ingilis-amerikan, totalitar və kontinental Avropa sistemlərinə bölünməsidir.

İngilis-amerikan siyasi sistemini vətəndaşlar və siyasi elita arasında tolerant münasibətlərə əsaslanan siyasi mədəniyyət səciyyələndirir.

Totalitar siyasi sistemdə isə güc strukturları qeyri-məhdud hakimiyyətə malik olurlar. Vətəndaşların siyasi fəallığı isə dövlət tərəfindən məqsədyönlü şəkildə təşkil edilir.

Kontinental Avropa siyasi sistemində isə köhnə və yeni siyasi mədəniyyət qarşılıqlı şəkildə fəaliyyət göstərir. Bu sistemə İtaliya, Almaniya və Fransada rast gəlmək olar. Hakimiyyətin siyasi hadisələrə praqmatik baxışı və siyasi radikalizmin olmaması onun əsas əlamətləridir.

Hazırda dünyada müxtəlif siyasi sistemlər mövcuddur. Lakin ABŞ-ın dünyada söz sahibi kimi tanınmasında siyasi hakimiyyətin rasional şəkildə təşkilinin böyük rola malik olması həmin ölkənin siyasi sisteminin xarakterik xüsusiyyətlərinin öyrənilməsini zəruri edir. Ərazi quruluşuna görə federativ dövlət olan ABŞ yerli muxtariyyatın olmasına, hakimiyyətin səpələnməsinə və vətəndaşların siyasi elitanın fəaliyyətinə nəzarət etməsinə maraq göstərir.

ABŞ-da icraedici hakimiyyətin başında yetkinlik yaşına çatmış, ümümxalq səsverməsi ilə dörd il müddətinə seçilən prezident durur. Ümumi seçkilərdə deyil, 532 nəfərdən ibarət olan Seçici Kollegiyasında daha çox səs toplayan şəxs Prezident seçilir.

Prezident Nazirlər Kabinetinin üzvlərini Senatın razılığı ilə seçir.Nazirlər Kabinetinin üzvləri adətən iş adamlarından, menecerlərdən və alimlərdən ibarət olur.

Qanunvericilik hakimiyyəti iki palatadan: 435 deputatın təmsil olunduğu Nümayəndələr Palatasından və 100 nəfərlik Senatdan ibarətdir.

Böyük Britaniya isə konstitusiyalı monarxiya idarə üsulunun və demokratik rejimin hökm sürdüyü  unitar dövlətdir. ABŞ-da prezident seçicilər kollegiyası vasitəsilə xalq tərəfindən seçildiyi halda,  Böyük Britaniyada icraedici hakimiyyətin başçısı olan baş nazir parlament üzvləri arasından seçilir.

Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması 1995-ci il noyabrın 12-də yeni– 5 bölmə,12 fəsil və 156 maddədən ibarət olan Konstitusiyasının qəbul edilməsi ilə başa çatmışdır. Hər bir dövlətin xarakterini, siyasi sistemin əsas məziyyətlərini onun Əsas qanunu–Konstitusiyası müəyyən edir. Konstitusiya siyasi sistemin strukturunu əks etdirən sənəd olmaqla, hakimiyyətin necə bölüşdürülməsini, hakimiyyət orqanlarının quruluşunu, təşkili qaydasını və səlahiyyətlərini, ictimai quruluşun əsaslarını, vətəndaşla dövlət arasındakı münasibətlərin xarakterini müəyyənləşdirir.

Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi və unitar respublikadır. Azərbaycan Respublikasında dövlətin demokratikliyini göstərən başlıca meyar  hakimiyyətinin yeganə mənbəyinin xalq olmasıdır. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

Dövlət hakimiyyətinin həyata keçirilməsi formasına görə Azərbaycan prezidentli respublikadır. Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycan Respublikasında müstəqil

şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu mövcuddur: qanunvericilik, icra və məhkəmə hakimiyyəti. Bu hakimiyyət orqanlarından hər birinin fəaliyyəti Konstitusiya və qanunvericilik aktları ilə tənzimlənir.

Azərbaycanda ictimai təşkilatların və siyasi partiyaların sərbəst şəkildə fəaliyyət göstərməsinə ali qanun səviyyəsində təminat verilir.

Öz fəaliyyətində hüququ rəhbər tutması, qanunun aliliyinə söykənməsi, insan və vətəndaş hüquq və azadlıqlarını təmin etməsi isə dövlətimizin hüquqi xarakter daşımasının göstəricisidir.

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən Prezident, Məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir.

Ölkəmizin Konstitusiya ilə müəyyən olunmuş unitarlığı spesifikliyə malikdir ki, bu da onun tərkibində Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti statusuna malik olmasıdır. Yəni AR-in tərkibində Naxçıvan MR-in olması onu nəzəri baxımdan onu federativ dövlət hesab etməyə əsas verir. Naxçıvan MR özünün qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarına, inzibati-sərhədlərə, Konstitusiyaya, qanunvericilik təşəbbüsü hüququna, müstəqil fərman vermək səlahiyyətinə sahib olan Ali Məclis sədrinə malikdir. Lakin bütün bu orqanlar AR Konstitusiyasının müddəalarını rəhbər tutaraq, öz səlahiyyətləri çərçivəsində hakimiyyəti həyata keçirirlər. Nax-

çıvan MR Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və Azərbaycan qanunları onun ərazisində hüquqi qüvvəyə malikdir.

Azərbaycan Respublikasını dünyəvi dövlət kimi səciyyələndirən əsas cəhət ölkə ərazisində dinin dövlətdən ayrı olmasıdır. Belə ki, Azərbaycanda dinin dövlət hakimiyyətinə qarışması və dinxadimlərinin siyasətlə məşğul olması qanunla qəti şəkildə qadağan olunur. Azərbaycanda bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

Azərbaycanın siyasi sistemində yerli özünüidarəetmə orqanı olan bələdiyyələr də mühüm yer tutur. Bu institut yeni yaranmasına baxmayaraq, böyük perspektivə malikdir.

Bütün müasir siyasi sistemlər kimi Azərbaycanın siyasi sisteminə də çoxpartiyalılıq, plüralizm xasdır. Siyasi partiyalar qanunverici və yerli özünüidarəetmə orqanlarında təmsil olunmaq vasitəsi ilə dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmək imkanına malikdirlər.

Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Azərbaycan Respublikasının siyasi sistemi üçün ideologiyaya münasibətdə sosialist ideologiyasının dağılması, liberal demokratiya dəyərlərinin təbliğ edilməsi xatrakterikdir.

Konstitusiya görə AR Prezidentinin xalqın vahidliyini təcəssüm etdirməsi onu göstərir ki, ölkə başçısı öz fəaliyyəti

dövründə hansısa sosial,siyasi, milli qüvvələrin tələbat və mənafeyini deyil, mütün xalqın istək və maraqlarını müdafiə və ifadə edir. Ölkə başçısının əsas məqsədi cəmiyyətinə inkişafına və rifahına nail olmaqdır.

## *Mövzu 7*

## *Dövlət və mülki cəmiyyət*

**Əsas ideya:** Siyasi sistemin başlıca təsisatı olan *dövlət* siyasətin məzmununu müəyyənləşdirən həlledici amillərdən biridir.Dövlət digər sosial təsisatlardan fərqli olaraq, siyasi sistemin bütün əlamətlərini və funksiyalarını özündə birləşdirir.

**Məqsədlər:** "dövlət", "hüquqi dövlət", "vətəndaş cəmiyyəti" anlayışlarının mahiyyətini tələbələrin dərk etməsinə nail olmaq;

dövlət və vətəndaş cəmiyyəti haqqında mövcud olan müxtəlif nəzəriyyələrin müqayisəli şəkildə təhlil edilməsi;

dövlətin müxtəlif əlamətlərə görə təsnifatının verilməsi və onun formalarından hansının müasir dövr üçün daha mütərəqqi olması fikrinin əsaslandırılması;

müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanın dövlət quruluşunda hansı transformasiyaların baş verməsini təhlil etmək;

dövlət quruluşu kimi monarxiya və respublika arasındakı prinsipial fərqin nədən ibarət olması barədə təsəvvür yaratmaq;

tələbələri dövlət idarəçilik işlərinə hazırlamaqla onlarda vətəndaş məsuliyyəti hissinin formalaşdırılmasına əsaslar yaratmaq;

tələbələrdə respublika quruluşunun parlamentli, prezidentli və qarışıq formalarının bir-birindən

fərqləndirilməsi bacarığının formalaşmasına nail olmaq;
hüquqi dövlət və vətəndaş cəmiyyəti arasındakı qarşılıqlı əlaqə və asılılığı təhlil etmək və s.

**Əsas anlayışlar:** dövlət, dövlət suverenliyi, idarəçilk forması, vətəndaş cəmiyyəti, hüquqi dövlət, monarxiya, respublika, unitar, federasiya, konfederasiya və s.

***I mərhələ-Motivasiya.***
***Problemin qoyulması***

- "Dövlət" anlayışının mahiyyəti nədir və onun əsas əlamətləri hansılardır?
- Dövlətin yaranmasına dair hansı nəzəriyyələr mövcuddur?

Müəllim dövlətin mahiyyəti və əlamətləri haqqında sualların müzakirəsi əsnasında tələbələrə yeni məlumat verir. (dərsə aid "Nəzəri material"a bax) :

***Tədqiqat sualları***

- Dövlətin müxtəlif funksiyaları işərisində hansını daha əhəmiyyətli hesab etmək olar?
- Dövlət quruluşu forması nə deməkdir? İdarəçilik forması kimi monarxiya ilə respublika arasındakı əsas fərq nədədir?

- Unitar dövlətin üstün və mənfi cəhətləri hansılardır?

- Prezidentli respublika ilə parlamentli respublikanın əsas fərqi nədədir?

- Azərbaycanda hazırda respublika quruluşunun hansı növü mövcuddur?

- Dövlət idarəçiliyinin müxtəlif formalarında hakimiyyətlə xalq kütlələrinin qarşılıqlı əlaqəsi hansı şəkildə mövcud olur?

- Vətəndaş cəmiyyətinin dövlətdən fərqi nədədir?

- "Hüquqi dövlət" anlayışının mahiyyəti nədir? Hüquqi dövlətin mövcud olmadığı şəraitdə vətəndaş cəmiyyəti sərbəst fəaliyyət göstərə bilərmi?

-Sizcə hakimiyyətin müxtəlif qollar arasında bölünməsi nə dərcədə doğrudur?

***II mərhələ***

***Tədqiqatın aparılması***

*Kiçik qruplarda iş*

Müəllim fərziyyələri yoxlamaq üçün tələbələri qruplara bölür və hər qrupa marker və iri vərəqələr paylayır.

***III mərhələ***

***İnformasiya mübadiləsi***

*Qrupların təqdimatı*

Hər bir qrupun nümayəndəsi çıxış edərək, əldə etdiyi nəticə haqqında məlumat verir ki, bu da informasiya müba-

diləsinə səbəb olur. Müəllim  sonuncu tədqiqat sualına tələbələr tərəfindən veilən cavabın doğruluğunu yoxlamaq üçün fəal təlimin “rollar üzrə oyun” üsulundan istifadə edə bilər.

### *Rollar üzrə oyun*

Bu oyunu keçirməzdən əvvəl ona ciddi hazırlaşmaq lazımdır. Bunun üçün müəllim aşağıdakı tövsiyələri nəzərə almalıdır.

-rollar üzrə oyunun gedişi haqqında tələbələrə ilkin məlumat verilməlidir. Bunun üçün “Problemin təsviri” mətnini ucadan oxumaq və ya tanışlıq üçün onu tələbələrə paylamaq lazımdır;

-çıxışların mətnlərinin hazırlanması zamanı tələbələr beynəlxalq sənədlərdən çıxarışlardan, milli qanunvericilikdən, faktlar və statistik göstəricilərdən bəhrələnə bilərlər və s.

## *Problemin təsviri*

Hindistan İngiltərənin müstəmləkəsi altında olduğu dövrdə ingilislər hindlilərə duzun yığılması və qaynadılmasını qanunla qadağan etmişdilər. Bir dəfə 10 nəfər hindli dəniz qırağında oturub, heç kimdən gizlənməyərək duz qaynadırlar. Polis onları tutur. Sabahısı 100 nəfər orada duz qaynadır, polis onları da tutur. O birisi gün, artıq, 10000 nəfər həmin işi görür. Polislər qanunu pozanları tutmaqda çətinlik çəkirdilər. Axı bu qədər insanı necə həbsxanaya atmaq olar. Onlardan bəziləri belə hesab edirdilər ki, duz qaynadanları həbs etməkdən çəkinmək lazımdır, digərləri isə mövcuq qanunu əsas gətirərək bunun əleyhinə çıxırdılar.

Duz yığan hindlilər xalqın hüquqlarının müdafiəsinin mütəşəkkiliyini təmin etmək məqsədi ilə özlərinin ictimai birliyini də yaradırlar. Bu birlik, üzvlərinin öz iradəsini azad surətdə ifadə etməsini təmin etmək üçün hindlilərin kütləvi şəkildə yaşadığı ərazidə nümayiş keçirməyi qərara alır.

Nümayişin təşkilatçıları belə hesab edirlər ki,bu aksiya ilə onlar öz pozulmuş hüquqlarının bərpa edilməsinə nail olacaqlar.

İngilislər bu tədbirin həyata keçirilməsinin əleyhinədirlər. Onların fikrincə, hindlilərin bu nümayişi təxribat xarakteri daşıyır. Çünki, bundan az əvvəl hindlilərlə polislər arasında toqquşma baş vermişdir. Bu aksiyanın keçirilməsinin mümkünlüyü haqqında son qərarı hökumət verməlidir. Hökumət isə tədqiqat üçün Hindistana təftişçi göndərir. Təftişçi tədqiqat üçün müşavirə çağırmaq və tərəfləri dinləmək qərarına gəlir. Bu müşavirədə tərəfləri təmsil edən nümayəndələr öz mövqelərini müdafiə etməlidirlər.

Müəllim tələbələri üç qrupa bölür və onların arasında aşağıdakı rolları bölür:

- hindlilərin nümayəndələrinin dəlilləri;
- ingilislərin nümayəndələrinin dəlilləri;
- təftişçi

***Hindlilərin nümayəndələrinin dəlilləri:***

-hindlilər bu hərəkətləri ilə siyasi sistemi, dövləti bütünlükdə inkar etmirlər, çünki dövlət hakimiyyəti və onun qəbul etdiyi qanunlar ölkə ərazisində yaşayan bütün insanlara aiddir. Sadəcə olaraq, hindlilər bu hərəkətləri ilə insan haqları, azlıqların hüquqları ilə bağlı ədalətsizliyin olduğunu bəyan etmək istəyirlər;

- təxribat xarakterli hərəkətlərin baş verə bilməsi ehtimalı hindlilərin nümayiş keçirmək hüququnu ləğv etmir;

-hindlilər qanunu konkret çıxarışları üçün pozmayıblar. Pozublar ki, belə bir qanunu tanımadıqlarını dörd yana bildirsinlər.

***İngilislərin dəlilləri:***

-dövlətin əsas əlamətlərindən biri əhalidən vergi və mükəlləfiyyətlər toplamaqdır, çünki dövlət idarəetmə strukturlarını toplamaq üçün əhalidən vəsaitlər toplmağa məcburdur. Hindlilər isə bu hərəkətləri ilə vergidən boyun qaçırıblar;

-polislərin qanuna tabe olmayan hindlilərə qarşı güc tətbiq etməsi tamamilə təbii hal kimi qəbul edilməlidir, çünki, digər təsisatlardan fərqli olaraq, dövlət elə bir orqandır ki, onun güc strukturları qanunun nəzərdə tutduğu hallarda zora əl ata bilərlər;

-heç kim dövlət hakimiyyətinə tabe olmaması haqqında özbaşına qərar çıxara bilməz, çünki dövlət mənsubiyyəti ictimai zərurətdir.

### *IV mərhələ*
### *İnformasiyanın müzakirəsi və təşkili*

Hər bir qrupun dəlillərini və faktlarını dinlədikdən sonra müəllim oyunun müzakirəsini keçirə bilər.

*Müzakirə üçün suallar:*

*1.Hindlilərin rolunu oynayarkən hansı hissləri keçirdiniz?*

*2.Sizcə, Britaniya hökuməti müzakirələrin sonunda hansı amili əsas götürərək qanunu dəyişməyə məcbur olur. Bu dəyişikliyin hüquqi dövlətlə nə kimi əlaqəsi var?*

*3.İngilislərin rolunu oynayarkən hansı hissləri keçirdiniz?*

*4.Əvvəllər hüquqi dövlət haqqında nə düşünürdünüz. Bu dərsdən sonra hüquqi dövlət və vətəndaş cəmiyyəti haqqındakı təsəvvürlərinizdə hansısa dəyişikliyin baş verdiyini hiss edirsiniz, ya yox?*

*5. Britaniya hökumətinin yerinə olsaydınız hansı qərarı qəbul edərdiniz?*

### *V Mərhələ*
### *Ümumiləşdirmə və nəticə*

-Nümayiş təşkil etmək hüququ istənilən ölkənin ictimai-siyasi həyatının mühüm şərti və demokratik cəmiyyətin fundamental prinsiplərindəndir. Lakin o, mütləq xarakter daşımır.

Hökumət ictimai təhlükəsizliyin və asayişin qorunması naminə nümayişlərin keçirilməsi yeri və vaxtı barədə məhdudiyyət qoya bilər.

-Sözsüz ki, hindlilər tərəfindən qanunun bu şəkildə pozulması cinayətdir. Ancaq belə "cinayətə" yol verənlər həbsxanalara düşəcəklərini gözlərinə alıb qanunu qəsdən, simvolik şəkildə pozurlar və onların bu mətinliyi, fədakarlığı getdikcə hakimiyyəti öz addımlarını yumşaltmağa vadar edir. (bu zaman müəllim fəal təlimin "situativ praktikim" üsulundan istifadə edərək, hər hansı bir olmuş hadisəni tələbələrə söyləməklə mövzu ilə bağlı problemin obrazlı və ətraflı təhlilinə nail ola bilər. Bax: ***Situativ praktikum***);

-Britaniya hökuməti bu qədər insanı həbsxanaya salmaq qeyri-mümkün olduğu üçün qanunu dəyişməyə məcbur olur. Hindlilərin hamısı duz qaynadırdı, ingilislər onların bəzilərini həbsxanaya salıb, digərlərini buraxa bilməzdilər. Çünki hüquqi dövlətin prinsiplərinə görə hamı qanun və məhkəmə qarşısında bərabərdir. Deməli, hüquqi dövlət prinsiplərinə zidd olduğundan bu cür qanun işləyə bilməzdi. Böyük Britaniya isə müstəmləkəçi olmasına baxmayaraq, hüquqi dövlət idi. Hüquqi dövlət - elə bir dövlətdir ki, insan böyük ehtimalla dövlətin onun fəaliyyətinə necə cavab verəcəyini deyə bilər. Yəni, mənim etdiyim hərəkətlərə hakimiyyətin cavabı məlumdur. Əgər mən A variantını etsəm, məmur B variantını edəcək. Artıq, C və D variantlarına əl atmayacaq. Məhz bu - hüquqi dövlət deməkdir.

Bəs görəsən qeyri-hüquqi dövlətdə bu cür hadisə baş versə idi, nə ilə nəticələnərdi? Birinci gün, on hindli duz qaynadanda polislər gəlib hamını döyər, bəzilərini həbsxanaya

salar, digərlərini isə sərbəst buraxardılar. Çünki bu cür dövlətlərdə qanun deyil, hüquqi özbaşınalıq hökm sürür. İnsanların təfəkküründə isə belə bir stereotip (haqlı olaraq) hakim olur: "dövlət istəsə məni həbs edə bilər, istəməsə - yox".

### *Situativ praktikum*

Martin Lüter 1953-cü ildə Alabamada Montqomeri kilsəsinin pastoru olur. İki ildən sonra baş vermiş bir hadisə onun Alabama ştatında irqi ayrı-seçkiliyə qarşı mübarizəyə başlamasına ilham verir.

Belə ki, 1955-ci il dekabrın 1-də zənci qadın Roza Parks avtobusda ön oturacaqdan durub yerini ağ adama vermək istəmir. (ştatın qanunu isə buyurur ki, ictimai nəqliyyatda ağ adam gələndə zəncilər yerini ona verib arxada otumalıdırlar) Qanuna qarşı itaətsizlik etdiyi üçün Roza Parks elə həmin dəqiqə həbsxanaya salınır.

Yəqin ki, əgər Martin Lüter Kinq olmasaydı bu hadisə elə də böyük diqqət çəkməyəcəkdi. Gənc pastor zənciləri inandırır ki, nəqliyyatda seqreqasyon (ayrı-seçkilik) qanununu aradan götürmək üçün ictimai nəqliyyatı boykot etmək lazımdır. Zəncilər əvvəlcə bir günlük boykot aksiyasına keçirlər və bu aksiya ilə həm də Roza Parksın tutulmasına qarşı çıxırlar. Daha sonra Kinqin təşəbbüskarlığı ilə 382 gün çəkən "Montqomeri avtobus boykotu" deyilən hərəkat yaranır. Kinq boykotu təşkil edən quruma sədr seçilir.

Avtobusların boykotundan başlayan aksiyalardan təxminən bir il sonra Ali Məhkəmə Alabama ştatı kimi dairələr

haqqında qərar çıxarır ki, oturacaqların seqreqasyonu Konstitusiyaya ziddir.

Bu, zənci vətəndaş hərəkatının çox böyük uğuru olur. Hərəkatın sonucunda nəqliyyatda, məktəblərdə seqreqasyon aradan götürülür. Hərçənd Cənub Ştatlarının ucqarlarına yenilik gedib çatmır.

1963-cü il Kinqin başçılıq etdiyi hərəkatın zirvə nöqtəsi oldu. Aktiv dinc, qeyri-zorakı etiraz hərəkatı dürlü formalar aldı. Oturaq etiraz, etiraz yürüşü həm qaralar, həm ağ liberallar tərəfindən bütün Amerikaya yayıldı. Bu hərəkata prezidentlər Kennedi və Lindon Conson da dayaq durdu.

Kinq vətəndaş hüquqları üzrə çıxışında zorsuz müqavimət metodunu belə əsaslandırırdı: "Soruşa bilərsiniz ki, niyə birbaşa aksiyalara, məsələn, oturaq etirazlara, yürüşlərə keçməliyik. Bəlkə danışıqlara getmək daha yaxşıdır! Danışıqlara çağırmaqda siz haqlısınız. Ancaq bizim bütün bu zorsuz aksiyalarımız məhz onun üçündür ki, elə bir böhran və ya gərginlik yaransın ki, axırda qoyduğumuz məsələyə diqqət artsın və onlar danışıqlara getməyə razı olsunlar. Biz acı təcrübələrdən yaxşı bilirik. Zülmkarlar azadlığı könüllü vermirlər. Əzilən azadlığını tələb etməlidir. Azadlıq uğrunda direniş göstərmək gərək!"

Hadisələrin gedişi Martin Lüterin gözlədiyi kimi də oldu. Yürüşə iki yüz minəcən adam qoşuldu. Yürüşün mitinqində Kinq "Mənim arzum var" adlı parlaq çıxışını yapdı. Burada o bildirdi ki, bir vaxtlar insanlar qardaş olacaqlar".

Montqomeridə başqa bir yürüşü təşkil edib yola düşəndə Kinqin 1500 nəfərlik qaralardan və ağlardan ibarət dəstəsinin qarşısına silahlı güc strukturları çıxdı. Belə olanda Kinqin

tərəfdarları Pettus körpüsündə diz çöküb dua etməyə başladılar. M.L. Kinqin başçılıq etdiyi hərəkatın nəticəsi olaraq Cənub Ştatlarında qanun səviyyəsində irqi ayrı-seçkiliyə son qoyuldu. Martin Lüter isə 1964-cü ildə Sülh üzrə Nobel Mükafatı aldı.

### *Nəzəri material*

Dövlət siyasi hakimiyyətin təşkili forması olmaq etibarilə müəyyən struktura və ali hakimiyyətə malik olan, xüsusi mexanizmlər vasitəsilə qanun əsasında cəmiyyətin idarə edilməsini həyata keçirən siyasi təsisatdır.

Dövlət digər sosial təsisatlardan fərqli olaraq, siyasi sistemin bütün əlamətlərini və funksiyalarını özündə birləşdirir. Dövlətin mürəkkəbliyi və rəngarəngliyi onun mahiyyəti haqqında fikirlərin çoxşaxəliliyini şərtləndirmişdir. "Dövlət" anlayışı siyasi ədəbiyyatda iki mənada işlədilir. Geniş mənada dövlət müəyyən ərazidə yaşayan, ali hakimiyyət orqanlarında təmsil olunan insanların birliyi kimi başa düşülür. Bu mənada dövlət ölkə və siyasi cəhətdən təşkil olunmuş xalq anlayışları ilə eyniyyət təşkil edir: məsələn, rus dövləti, alman dövləti və s.

XVII əsrə qədər dövlət bu mənada işlədilirdi. İnsanlar dövləti "politiya", "imperiya", "krallıq", "knyazlıq", "despotiya" ya s. anlayışlarla ifadə edirdilər. Dövlətin geniş şəkildə şərh edilməsinə qarşı çıxan ilk mütəfəkkir Nikolo Makiavelli olmuşdur. O, "Tit Livinin birinci ongünlüyü" əsərində dövlət və cəmiyyət anlayışlarını bir-birindən fərqləndirirdi. Lakin buna baxmayaraq italiyalı alim nəzərdən keçirilən problemin elmi əsaslarını işləyib hazırlaya bilmədi. Dövlət və cəmiyyət

anlayışları arasındakı fərqlər T.Hobbsun, C.Lokkun və J.J. Russonun dövlət nəzəriyyələrində öz elmi təsdiqini tapdı. Həmin nəzəriyyələrdə dövlət və cəmiyyət anlayışları nəinki məzmun cəhətdən, hətta tarixi baxımdan da bir-birindən fərqləndirilirdi. Yəni göstərilirdi ki, ilk əvvəl azad və təşkilatlanmamış səviyyədə olan fərdlər təsərrüfat xarakterli və digər qarşılıqlı fəaliyyət nəticəsində başlanğıcda cəmiyyət təşkil etmişlər, sonra isə özlərinin təhlükəsizliyini və təbii hüquqlarını qorumaq məqsədi ilə xüsusi orqan – dövlət yaratmışlar. Müasir elmdə dövlət dar mənada müəyyən ərazidə ali hakimiyyəti həyata keçirən təşkilatların və orqanlarm vahid sistemi kimi başa düşülür.

İspan alimi Sanisteban özünün “Siyasət elminin əsasları” adlı əsərində yazır: “Dövlət əslində konkret məkan – zaman şəraitində sosial davranışı hüquqi tənzimləmənin müəyyən tipidir”. Rus alimi V. Puqaçyov isə yazır: “Dövlət özünü ümumi maraqların ifadəçisi və ya təmsilçisi, leqitimlik və məcburetmə aparatı, cəmiyyətin özünüidarətmə mexanizmi və eynizamanda dünya birliyinin subyekti kimi əks etdirir”. Turk alimi Əhməd Rasim Sokak isə dövləti müəyyən ərazidə ictimai prosesləri tənzimləyən siyasi təsisat kimi nəzərdən keçirirdi.

Dövlətin mənşəyi, yəni nə vaxt və necə meydana gəlməsi haqqındakı fikirlər birmənalı olmamışdır. Bütövlükdə həmin baxışları bir neçə qrup ətrafında cəmləşdirmək olar:

1.Platon başda olmaqla bir qrup alim hesab edir ki, dövlət ictimai əmək bölgüsünün inkişafı gedişində idarəetmənin xüsusi peşə növü kimi ayrılması nəticəsində meydana gəlmişdir.

2. Marksizm dövlətin yaranmasını istehsal vasitələri üzərində xüsusi mülkiyyətin, istismarın və antaqonist siniflərin yaranması ilə bağlayırdı.

3.Demoqrafik faktorlar: insanın özünün təkrar istehsalında baş verən dəyişikliklər: əhalinin sayının artması, xalqların köçəri formadan oturaq həyat tərzinə keçməsi, qəbilələr arasında nikah münasibətlərinin tənzimlənməsi və s.

4.Teoloji təlimə görə, dövlət Allah iradəsinin yerdəki təzahürüdür.

5.Patriarxal nəzəriyyəyə görə, dövlət hakimiyyəti ailə başçısının hakimiyyəti kimi nəzərdən keçirilir (Konfutsi).

6.Daxili müqəddəm şərtlərin yetişdiyi bir vaxtda dövlətin yaranmasını sürətləndirən real hücum təhlükəsi (məsələn: şumerlərin hücüm təhlükəsi qarşısında Azərbaycanda Manna dövlətinin yaranması).

7.Dövlət quruluşu olan cəmiyyətlərlə, dövlət ideyası ilə ünsiyyət saxlamaq, qonşu dövlətlərin təcrübəsi. (məsələn: Yaxın və Orta Şərq regionunda Osmanlı imperiyasınm təsiri)

Sivilizasiyadan, ictimai-iqtisadi formasiyalardan və mövcud olduqları tarixi şəraitdən asılı olaraq, dövlətlər spesifik xüsusiyyətlərə malik olurlar. Bütövlükdə, dövlətin tarixi təkamülü bir neçə mərhələdən ibarət olmuşdur.

***I mərhələ.*** Dövlətin təşəkkülünün ilk mərhələsində ibtidai icma (hərbi) demokratiyasınm qalıqları saxlanılır, antik dünyada respublika və monarxiya, despotik rejimlər bir-birini əvəz edirdi. Antik dövrdə demokratik idarəetmə formaları da məhdud diapazona malik olması ilə seçilirdi. Məsələn, strateq olmazdan əvvəl Pekinin verdiyi "Təmiz vətəndaşlıq haqqında"

qanuna görə, seçki hüquqlarmdan yalnız Afına vətəndaşları – əslən ata-anası Afinalı olanlar istifadə edə bilərdilər. Onlar isə 3 milyonluq Afına əhalisinin cəmi 30 minini təşkil edirdilər. Bütövlükdə, hələ tam şəkildə formalaşmayan qədim cəmiyyətlərdə əhali azadlara və qullara bölünürdü. Belə qeyri-mükəmməl cəmiyyətdə dövlətin iki başlıca funksiyası mövcud idi: birincisi, azad adamlarm ümumi işinin qaydaya salınması. İkincisi, kölə halında olan insanların itaətdə saxlanılması.

***II mərhələ***. Dövlətin təşəkkülünün ikinci mərhələsi orta əsrləri və yeni dövrün başlanğısını əhatə edir. Bu mərhələnin səsiyyəvi xüsusiyyəti ondan ibarətdir ki, feodal dağınıqlığının aradan qalxması və torpaqlarm birləşdirilməsi nətisəsində dövlət özünün əsas əlaməti olan əraziyə sahib olur. İkinci mərhələdə vassalın monarxa şəxsi sədaqətindən ibarət olan münasibətləri idarəetmənin mütəşəkkil dövlət aparatı əvəzləyir. Bu mərhələdə dövlətin ərazidən sonra digər mühüm əlaməti olan hakimiyyətin siyasi təşkili prosesi təşəkkül tapır. Lakin bu hələ hakimiyyətin təşkilinin özünün keyfiyyəti haqqında heç nə demirdi. Çünki bu mərhələdə hələ hakimiyyətin aydın müşahidə edilən bölgüsü və onun fəaliyyətinin tam və dəqiq hüquqi meyarları mövcud deyildi.

***III mərhələdə*** isə dövlətin hüquqla məhdudlaşdırılması ideyası irəli sürülür (Kant, Hegel), insan hüquqları uğrunda mübarizə və vətəndaş cəmiyyətinin inkişafı barədə ideyalar fəallaşır. Monteskye tərəfindən irəli sürülən hakimiyyət bölgüsü ideyası XVIII əsrin sonunda yenicə yaranmış ABŞ-m dövlət idarəçiliyində öz real təsdiqini tapır. 1787-ci ildə ABŞ-

da ilk konstitusiyanın qəbul edilməsi dövlətin III mərhəbdə konstitusiyalı dövlətkimi təşəkkül tapmasma səbəb olur.

***IV (müasir) mərhələnin*** əsas xüsusiyyətləri aşağıdakılardır:

–Dövlətin başlısa əlaməti olaraq sadəcə əhali deyil, öz müqədərratını təyin etmək hüququna malik olan və bu hüququ reallaşdırmış millət çıxış edir. Dördüncü mərhələdə sosial problemlərin həllinə diqqətin artması dövlətin özünün təbiətində əhəmiyyətli dəyişikliklərə səbəb olur. Artıq, dövlətin fımksiyalarına hər bir vətəndaşın layiqli həyat səviyyəsini təmin etmək, sosial müdafiəsini təmin etmək və rifah halını yaxşılaşdırmaq əlavə olunur. Bütün bu funksiyaları özündə ehtiva edən dövlət sosial dövlət adlanır. Bu mərhələdə yeni dövlətlərin yaranması prosesi geniş hal alır. Məsələn, 1900-cü ildə dünyada 30, 1945-ci ildə 60, 1965-si ildə 100, 1990-cı ildə 160, 1992-ci ildə 175 dövlət var idisə, hazırda onların sayı 200-ə yaxındır.

**V mərhələdə** (gələcəkdə) dövlətin ekoloji tarazlığı təmin edəcək bir qüvvəyə çevriləcəyi nəzərdə tutulur.

***Dövlətin əsas əlamətləri bunlardır:***

-Məcburetmə. Heç kim dövlətdən kənar olması və dövlət hakimiyyətinə tabe olmaması haqqında özbaşına qərar qəbul edə bilməz, çünki dövlət mənsubiyyəti ictimai zərurətdir.

-Zor tətbiq etmək hüququ. Dövlətin xüsusi güc strukturları vardır və qanunun nəzərdə tutduğu hallarda onlara əl atır.

-Suverenlik. Müəyyən ərazidə ali hakimiyyəti nəzərdə tutur. Hamı üçün, hər bir təşkilat və təsisat üçün məcburi xarakter daşıyan hakimiyyət yalnız dövlətə mənsubdur.

-Ümumilik. Dövlət hakimiyyəti onun ərazisində yaşayan bütün adamlara aiddir.

-Hüquq. Dövlət onun müəyyən etdiyi hüquq qaydaları və normaları çərçivəsində fəaliyyət göstərir.

-Əhalidən vergi və mükəlləfiyyətlər toplamaq hüququ.

-Dövlətin sərhədlərini əhatə edən ərazi. Məhz ərazi, dövlətin fıziki, maddi və məkan əsasıdır. Dövlətin qanunları və səlahiyyəti müəyyən ərazi daxilində yaşayan insanlara şamil edilir. Dövlət hər hansı qan qohumluğu və dini əlamətlərə görə deyil, ərazi birliyi əsasında qurulur.

-Cəmiyyətin adından çıxış etmək. Dövlətdən başqa heç bir təşkilat daxili və xarici məsələlərdə cəmiyyətin adından çıxış edə bilməz. Beynəlxalq münasibətlərdə xalqın mənafeyinin əsas təmsilçisi məhz dövlətdir.

Dövlətin iki başlıca funksiyası vardır: daxili və xarici funksiyalar.

Dövlətin daxili funksiyasına bunlar aiddir:

1. Mövcud siyasi quruluşu, cəmiyyətin sosial-siyasi strukturunu qoruyub saxlamaq. Vətəndaşların və cəmiyyətin təhlükəsizliyinin, qanunçuluğun və hüququn təmin edilməsi.

2. Təsərrüfat-təşkilatçılıq və ictimai-iqtisadi vəzifələr: iqtisadiyyatın tənzimlənməsi,müxtəlif mülkiyyət növlərinin müdafiəsi və s.

3.Mədəni–tərbiyəvi vəzifələr. Bura təhsilin, mədəniyyətin, elmin inkişaf etdirilməsi daxildir.

4.Fərdlərin və sosial qrupların mənafeyinin və tələbatının əlaqələndirilməsinin təmin edilməsi.

5. Etnik qrupların münasibətlərinin tənzimlənməsi və milli birliyin təmin edilməsi.

6. Demoqrafik və ekoloji funksiya. İnsanların mühafizə edilməsi və təbii ehtiyatlardan düzgün istifadənin təmin edilməsi və s.

Xarici funksiyaya ölkənin müdafiəsi, beynəlxalq aləmdə onun mənafeyinin qorunması və suverenliyinin təmin olunması aiddir.

Müasir dövlət nəzəriyyəsinin ən aktual problemlərindən biri dövlət formalarının müəyyən edilməsidir. Mövcud ədəbiyyatda aşağıdakı əsas əlamətlərə görə dövlətin təsnifatı verilir:

Ərazi quruluşuna görə: unitar, federativ və konfederativ.

İdarə formalarına görə: monarxiya və respublika.

Siyasi rejimlərə görə: demokratik, avtoritar və totalitar.

Dövlətin ərazi üzrə təşkili hakimiyyətin mərkəzi və regional orqanlarının nisbəti ilə səciyyələnir. Unitar dövlətdə ali dövlət hakimiyyəti orqanlarının, idarəetmənin və hüququn vahid sistemi mövcuddur. Unitar dövlət xüsusi əlahiddə dövlət təsisatının olmadığı, siyasi cəhətdən yekcins təşkilatdır.

Federasiya isə elə dövlətdir ki, öz tərkibində müəyyən müstəqilliyə malik olan inzibati-ərazi bölgüsü və qanunvericiliyi ilə səciyyələnən dövlət birliklərini birləşdirir. Məlum olduğu kimi, unitar dövlətdə suverenliyin subyektini ancaq xalq təşkil edir. Federasiyada isə bərabərhüquqlu vətəndaşlarından ibarət olan xalqdan əlavə olaraq, dövlətin suverenliyinin subyektini, yəni hakimiyyətin mənbəyini iri ərazi birlikləri, məsələn respublikalar, ştatlar, kantonlar, əyalətlər, muxtar dövlət qurumları təşkil edir. Federativ dövlət üçün ikili

konstitusiya, ikili vətəndaşlıq, ikili məhkəmə, ikili qanunvericilik və s. əlamətdardır.

Federalizmin meyarı hakimiyyətin ali federal orqanları tərəfindən federasiyaya daxil olan bütün ərazi üzərində nəzarətdən ibarətdir. Federasiyanın subyekti faktiki olaraq fərdi suverenliyə malik deyil və birtərəfli qaydada onun tərkibindən çıxmaq hüququna malik deyil. Federasiyanın subyektləri müstəqil konstitusiyaya malik ola bilər, lakin bu federasiya konstitusiyasına zidd olmamalıdır. Nə federal hökumət, nə də ştatlar konstitusiyanı birtərəfli qaydada dəyişdirə bilməzlər. Bunun üçün onların birgə razılığı tələb olunur. Federasiyada sərhədlər onun subyektlərinin rəyi nəzərə alınmaqla dəyişdirilə bilər. Müasir tipli federativ dövlət ilk dəfə olaraq 1787-ci ildə ABŞ-da yaranmışdır. Federasiya tarixən Braziliya, ABŞ və İsveçrə kimi ölkələr üçün siyasi dağınıqlığın (parçalanmanın) aradan qaldırılması forması olmuşdur. Həmin ölkələrdə ittifaq dövlətin yaranması onların heç birində milli münasibətlərin tənzimlənməsinə yönəlməmişdir. Buna görə də klassik federasiyada siyasi ərazi bölgüsü əhalinin milli tərkibinə uyğun olaraq aparılmır. Bu ölkələrin siyasi praktikasında "milliyyət" vətəndaşlığı əhatə edən termin kimi işlədilir. Məsələn, ABŞ-da şəxsiyyəti təsdiq edən sənədin "milliyyət" qrafasında "ingilis" və ya "amerikan" yazılmır, "ABŞ-nın vətəndaşı" yazılır.

Eyni sözləri ölkə əhalisinin milli tərkibinə əsaslanaraq respublikaların bayağı suverenliyi zəmnində qurulan bəzi keçmiş federasiyalar – SSRİ, Yuqoslaviya və Çexoslavakiya haqqında söyləmək mümkün deyildir. Hər üç dövlət son

nəticədə süquta uğramış və ərazisində bir sıra müstəqil dövlətlər yaradılmışdır.

Unitar dövlət quruluşu, bir tərəfdən, əlverişli şəraitdə milli birlik hissinin yaranmasına kömək edir, çünki bir hakimiyyətin tabeliyində olan bütün vətəndaşlar sanki vahid bir tam təşkil edirlər. Unitar dövlətdə çox vaxt federativ dövlətlər üçün xarakterik olan mürəkkəb siyasi hüquqi mübahisələr, ixtilaflar baş vermir. Belə dövlət sistemində mərkəzləşdirilmiş hakimiyyət vahid qanunlar və qanunvericilik aktları yaradır, bütün ölkədə vahid inzibati siyasət yeridir. Dövlətin daxilində regional xüsusiyyətlər bir o qədər də əhəmiyyətli olmadığına görə vahid ardıcıl siyasət vətəndaşlar üçün böyük üstünlük kəsb edir.

Digər tərəfdən, unitar dövlət də müəyyən çətinliklərdən və ziddiyyətlərdən xali deyildir. Böyük bir ölkədə ayrı-ayrı bölgələrin əhalisinə elə gələ bilər ki, uzaq mərkəzdə qəbul olunan qərarlar heç də onların tələbatına və mənafeyinə cavab vermir.

Adətən unitar dövlətlər mədəniyyət, dil və milli ənənələrlə əlaqədar problemlərin həllində kifayət qədər çevik və operativ hərəkət edə bilmirlər.

Yuxarıda da qeyd edildiyi kimi, idarə üsuluna görə dövlətlər monarxiyaya və respublikaya ayrılır. Monarxiyada hakimiyyətin mənbəyi monarx və onun sülaləsidir. Monarxiya ali hakimiyyətlərin təkbaşına həyata keçirildiyi dövlət quruluşu formasıdır. Monarx öz hakimiyyətini birbaşa varisinə ötürür. Monarxiya özü də üç yerə ayrılır: mütləq, Konstitusiyalı (qarışıq) və monarxiya.

Mütləq monarxiya elə bir idarəçilik formasıdır ki, bu zaman ali dövlət hakimiyyəti bütünlüklə bir şəxsə-çara, əmirə, krala,imperatora məxsus olur. Onun əsas əlaməti monarxın səlahiyyətlərini məhdudlaşdıran heç bir dövlət orqanının olmamasıdır.(BƏƏ, Bəhreyn, Küveyt və s.)

Konstitusiyalı idarəçilk formasında monarx icra hakimiyyətini formalaşdırır və ona rəhbərlik edir. Cəmiyyətin maraqlarını isə seçilmiş parlament təmsil edir ki, bu da qanunverici hakimiyyəti monarxın tabeliyindən çıxarır və dövlətdə qüvvələr balansı yaradır.(Monako,Lixtenşteyn və s.)

Parlamentli monarxiyanı səciyyələndirən əsas cəhət monarx hakimiyyətinin kifayət qədər məhdudlaşdırılmasıdır. Parlament seçkilərində qalib gəlmiş partiya hökuməti formalaşdırır və ona rəhbərlik edir. (B.Britaniya, İsveç, Danimarka və s.)

Monarxiyadan fərqli olaraq, dövlət idarəçiliyinin respublikada formasında hakimiyyətin mənbəyi xalqdır. Dövlətin ali hakimiyyət orqanları və vəzifəli şəxsləri vətəndaşlar tərəfindən seçilir. Respublikanın üç əsas növü mövcuddur: parlamentli, prezidentli və yarımprezidentli.

Prezidentli respublikada prezident xalq, parlamentli respublikada isə parlament tərəfindən seçilir. Prezidentli respublikada baş nazir prezident, parlamentli respublikada isə parlament tərəfindən seçilir. Parlamentli respublikada hökumət prezident deyil, parlament qarşısında məsuliyyət daşıyır. Parlamentli respublikada icraedici hakimiyyətin başçısı prezident deyil, baş nazir hesab edilir.

Prezidentli respublika daha çox Asiya,Afrika,Latın Amerikası ölkələri və postsovet məkanında yayılmışdır.

Yarımprezidentli respublikada isə baş nazir həm prezident, həm də parlament qarşısında məsuliyyət daşıyır. Burada dövlət başçısı icraedici hakimiyyəti baş nazirlə paylaşır. Yarımprezidentli respublikanın parlamenti bir tərəfdən prezident tərəfindən formalaşdırılan hökumətə etimadsızlıq göstərə bilir, digər tərəfdən isə prezident parlmenti buraxa və növbədənkənar seçkilər təyin edə bilir. (Fransa, Polşa, Rumıniya, Bolqarıstan və s.)

Siyasi elmin ən aktual problembrindən biri də, vətəndaş cəmiyyəti və hüquqi dövlətin qarşılıqlı əlaqəsi məsələsidir, çünki hüquqi dövlətin yaranması vətəndaş cəmiyyətinin inkişafı ilə şərtlənir. Vətəndaş cəmiyyətinin normal mövcudluğunun və fəaliyyətinin təminatçısı isə hüquqi dövlətdir.

Dövləti və vətəndaş cəmiyyətini, siyasi və mülki sferaları bir-birindən qəti şəkildə ayıran ilk mütəfəkkir Makiavelli olmuşdur.

Vətəndaş cəmiyyətinin əsas əlamətləri bunlardır:

-vətəndaş cəmiyyəti fərdlər, təzyiq qrupları, siyasi partiyalar və s. birliklər arasındakı qeyri-dövlət, yəni iqtisadi, sosial, təsərrüfat, ailə, etnik, milli, mənəvi, dini və hüquqi münasibətlərin məcmusudur.

-vətəndaş cəmiyyəti yuxarıdan təşkil edilmir, vətəndaşların öz arzuları ilə meydana çıxır. Onların funksiyası şəxsiyyətin tələbatının ödənilməsi və mənafeyinin reallaşdırılmasıdır.

-iyerarxik (tabelik) münasibətlərin mövcud olduğu dövlətdən fərqli olaraq, vətəndaş cəmiyyətində bərabərhüquqlu

partnyorlar arasında üfuqi əlaqələr - rəqabət münasibətləri və həmrəylik mövcuddur.

-vətəndaş cəmiyyəti üçün əxlaq normaları mövcud olduğu halda, dövlət qanunlar əsasında fəaliyyət göstərir.

-özündə struktur ünsürü kimi siyasi təşkilatları əhatə edən dövlətdən fərqli olaraq, vətəndaş cəmiyyətinin özəyini insanların könülü formalaşan birlikləri, xeyriyyə cəmiyyətləri, həmkarlar ittifaqları, siyasi partiyalar, klublar, dini qurumlar, maraq qrupları, təsərrüfat şirkətləri və s. təşkil edir.

Aralarındakı göstərilən fərqlərə baxmayaraq, vətəndaş cəmiyyətini və dövləti bir-birindən təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün deyildir. Onların qarşılıqlı əlaqəsini şərtləndirən amillər bunlardır:

-vətəndaş cəmiyyəti və dövlət vahid ictimai orqanizmin bir-birini tamamlayan tərəfləridir. Vətəndaş cəmiyyəti bu və ya digər dərəcədə siyasət aləminə nüfuz edir, sonuncu isə öz növbəsində sosial həyatdan təcrid olunmuş halda mövcud deyil;

-vətəndaş cəmiyyəti siyasi rejimin sabitliyinin əsasıdır;

-dövlət vətəndaşlarının bu təsisatı yaratmaq barədə razılığının rəsmi ifadəsidir. Vətəndaş cəmiyyətinin tələbləri isə məhz dövlətin iradəsi nəticəsində yerinə yetirilir.

Hüquqi dövlət terminini ilk dəfə alman alimi Robert Fon Mol (1799-1875) işlətmişdir. Onun mahiyyəti hakimiyyət orqanlarının hüquqa tabe olması və onların üzərində qanuni nəzarətin olmasında ifadə olunur. Bütövlükdə hüquqi dövlətin əsas əlamətlərini aşağıdakı kimi komplekslәşdirmək olar:

-qanunun aliliyi və hüququn üstünlüyü;

-qanunlara riayət olunması üzərində təsirli nəzarət mexanizminin mövcudluğu;

-inkişaf etmiş vətəndaş cəmiyyətinin mövcüd olması;

-dövlətin səlahiyyətlərinin şəxsiyyətin hüquq və azadlıqları ilə məhdudlaşdırılması;

-xalqın suverenliyi, yəni hakimiyyətinin hüquqi cəhətdən tanınması;

-dövlət və qanun qarşısında vətəndaşların hüquq bərabərliyi;

-hakimiyyətin qanunverici, icraedici və məhkəmə qollarına ayrılması və s.

## *Mövzu8*
## *Siyasi rejimlər və onların təsnifatı*

***Əsas ideya:*** İdarəetmə metodlarının məcmusu olan *siyasi rejim* dövlət sistemində əhəmiyyətli rola malikdir. *Siyasi rejim* dövlət orqanlarının fərdə, ictimai-siyasi təsisatlara, etni birliklərə münasibətini, eləcə də fərdin hakimiyyətə münasibətini ifadə edir.

***Məqsədlər:*** siyasi rejimlərin müxtəlif əlamətlərə görə təsnifatının verilməsi və demokratiyanın totalitar və avtoritar rejimlərdən üstünlüyünün əsaslandırılması;
müasir dövrdə demokratiyanın inkişafına mənfi təsir göstərən amillərin müəyyənləşdirilməsi;
tələbələrdə siyasi rejimləri bir-birindən fərqləndirmək bacarığının formalaşmasına nail olmaq;
qeyri-demokratik rejimlərdən demokratik rejimlərə transformasiya yollarının təhlil edilməsi:
demokratik inkişafın Azərbaycan modelinin özünəməxsus xüsusiyyətlərinin izah edilməsi;
cəmiyyətdə insan hüquqlarına hörmətin zəruriliyini sübut etməklə tələbələrdə humanizm keyfiyyətləri formalaşdırmaq;
tələbələrdə cəmiyyətin maraqları və demokratik rejim çərçivəsində öz hüquq və azadlıqlarını qorumaq bacarığı formalaşdırmaq və s.

***Əsas anlayışlar:*** siyasi rejim, avtoritarizm, plüralizm, diktatura və s.

***Mühazirənin gedişi***

Qabaqlayıcı ev tapşırığı qismində müəllim tələbələrə mövzu ilə bağlı müxtəlif sosioloji sorğular keçirməyi təklif edə bilər.

Sosioloji sorğunu keçirmək üçün əvvəlcədən tələbələrlə birgə müvafiq suallar tərtib etmək olar. Bundan əlavə, respondentlərin kateqoriyaları - onların yaşı, cinsi, sosial vəziyyəti və s. müəyyən edilməlidir.

***I mərhələ-Motivasiya. Problemin qoyulması***

Müəllim sual verir:

Siyasi rejimləri müəyyənləşdirən başlıca kriteriyalar hansılardır?

Müəllim tələbələrin cavablarını dinlədikdən sonra onları lövhədə yazır. Fərziyyələrin yoxlanılması üçün sorğu keçirilir.

***II mərhələ - Sosioloji sorğunun keçirilməsinin təhlili***

| ***Tələbələrin cavabları*** | | % |
|---|---|---|
| Dövlət başçısının funksiyaları və səlahiyyətləri | | |
| Ölkənin maddi, iqtisadi və coğrafi vəziyyəti | | |
| Mülki cəmiyyətin inkişaf səviyyəsi | | |
| Nümayəndəli orqanların | | |
| Mərkəzi və yerli hakimiyyət orqanları arasındakı münasibətlər | | |
| Vətəndaşların hüquq və azadlıqlarının səviyyəsi | | |

### *Sorğunun nəticələrinin müzakirəsi üçün suallar:*

-Demokratiyanın sosial-iqtisadi şəraitlə bağlılığını şərtləndirən amillər hansılardır?

-Demokratiyaya münasibətdə hansı nöqteyi-nəzərlər mövcuddur və siz bunlardan hansına daha böyük əhəmiyyət verirsiniz?

-Demokratiyada sizi ən çox cəlb edən nədir? Demokratiyanı avtoritarizm və totalitarizmdən fərqləndirən əsas meyarlar nədir?

-Müxalifətin fəaliyyət səviyyəsi siyasi rejimin təbiətinə nə dərəcədə təsir göstərir?

-Sizin fikrincə, sizin cəmiyyət və dövlət qarşısında hansı vəzifələriniz var?

-Siyasi plüralizm nədir, sizin fikrinizcə, müasir demokratik rejimlərdə bu prinsip nə dərəcədə gözlənilir?

-Hazırda Azərbaycanda hansı siyasi rejim mövcuddur? Sizcə, dəyişikliklərin dinamikası necədir?

-"İnsan hüququ" ilə "vətəndaş hüququ", "hüquq" ilə "azadlıq" anlayışları arasında nə kimi fərqlər mövcuddur?

-"Ümumbəşəri dəyərlər" anlayını necə başa düşürsünüz?

-Sizcə BMT insan hüquqlarını qorumayan ölkələrə hansı üzullarla təsi göstərə bilər? Bu sahədəki vəziyyəti qənaətbəxş hesab edirsinizmi?

-Yaxın və Orta Şərqdə yaranan hazırki acınacaqlı duruma görə kimləri günahkar hesab edirsiniz

### *IV mərhələ*
### *Ümumiləşdirmə və nəticə*

–Neft ehtiyatları ilə zəngin olan bəzi ölkələrdəki vəziyyəti nəzərə almasaq, qeyd edə bilərik ki, əksər hallarda demokratik rejimlərin qurulması iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə mümkün olur. Kasıb ölkələrdə isə bu problemlərin həll edilməsi müşkül bir məsələyə çevrilir. Məsələn: postsovet məkanında müstəqillik əldə etdikdən sonra Latviya, Litva və Estoniya kimi güclü iqtisadi resurslara malik olan ölkələr şəxsi azadlığın, demokratiyanın reallaşdırılması sahəsində daha böyük uğurlara imza atdılar. Lakun Afrika ölkələrininin əksəriyyəti müstəmləkə asılılığından xilas olduqdan sonra iqtisadi inkişafı təmin edə bilmədikləri üçün demokratik cəmiyyət quruculuğuna nail ola bilmədilər.

Demokratiya və iqtisadiyyat arasındakı bağlılığı bir sıra amillər şərtləndirir. Əvvəla, iqtisadi inkişaf insanların yaşayış səviyyəsinin yüksəlməsinə, elmdə və təhsildə dəyişikliklərin baş verməsinə, urbanizasiya prosesinin artmasına və bütün bunların məntiqi davamı olaraq sosial strukturda orta təbəqənin çəkisinin artmasına səbəb olur. Azadlığın sosial bazasını isə əlbəttə ki, orta təbəqə təşkil edir. Məhz orta təbəqə nümayəndələri öz hüquqlarının müdafiəsi üçün müxtəlif ictimai-siyasi təşkilatlar yaratmaqda maraqlı olurlar. İkincisi, sürətli iqtisadi tərəqqi cəmiyyətdəki qütbləşmənin ortadan qaldırılmasına şərait yaradır ki, bu da, son nəticədə gəlirlərin bölgüsündə daha çox bərabərliyə nail olunmağa imkan yaradır. Demokratiya cəbr yolu ilə və inzibati üsullarla məcburən əldə edilən iqtisadi bərabərliyi məqbul hesab etmədiyi kimi, gəlirlərin

bölüşdürülməsi və rifah səviyyəsində ciddi fərqlərin olmasını da qəbul etmir. Əksinə, iqtisadi tərəqqi bu fərqləri ortadan qaldırmaqla azadlığın və demokratiyanın tamamlayıcı şərti kimi çıxış edir. Üçüncüsü, iqtisadi inkişaf sahibkarlıq fəaliyyətinin genişlənməsi ilə yanaşı gedir ki, bu da iqtisadi həyatda dövlət tənzimlənməsinin zəifləməsinə səbəb olur.

Azərbaycanın da müstəqillik qazandıqdan sonra sovet dövründən miras qalan, insan tələbatına zidd olan kollektiv mülkiyyəti ləğv etməsi, əvəzində dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarını bərqərar etməsi ölkəmizdədə demokratikləşmə prosesinin inkişafına və iqtisadi tərəqqiyə müsbət təsir göstərdi. Dördüncüsu, iqtisadi tərəqqinin nəticəsi olan kommunikasiyanın inkişafı cəmiyyətdəki qapalılığının ləğvinə gətirib çıxarır ki, bu da son nəticədə demokratiyanın göstəricinə çevrilir.

İkinci Dünya müharibəsindən sonra müstəqillik əldə edən Hindistan iqtisadi inkişafın nisbətən aşağı səviyyəsinə, əhalinin böyük əksəriyyətinin savadsızlığına baxmayaraq, demokratik ölkə hesab edilir. Məsələn, seçki zamanı bir çox Hindistanlı səs vermək istədikləri partiyanın rəmzinin altından xətt çəkirlər. Bu o demək deyil ki, əhali onların maraqlarını kimin daha yaxşı təmsil edəcəklərini dərk etmir. Sadəcə olaraq yazmaq və oxumağı bacarmırlar.

-Demokratiyaya münasibətdə üç baxış mövcuddur:

1) hakimiyyətin mənbəyi baxımından: demokratiya - xalq hakimiyyəti kimi;

2) hakimiyyətin məqsədi baxımından: demokratiya – insanlar üçün və ya insanların naminə hakimiyyətdir;

3) hökumətin formalaşması baxımından.

Son yanaşma bu gün daha məşhurdur, çünki məhz seçkilərdə demokratiyanın iki mühüm xüsusiyyəti öz əksini tapır: birincisi, siyasətçilər daha çox səs almaq uğrunda mübarizə aparırlar; ikincisi, seçkilər zamanı xalq namizədi müdafiə etmək imkanı qazanır, yox əgər həmin namizəd xalqın mənafeyinə uyğun gəlmirsə, onu qəbul etməyə də bilir. Beləliklə də, xalq öz ölkəsinin siyasi kursuna təsir göstərmiş olur.

–İnsanlar üçün mühüm olan şey ölkənin, kollektivin və s. həyatında iştirak etmək deyil, iştirak etmək hüququna sahib olmaqdır. Yəni demokratiyanın başlıca prinsipini şəxsiyyət azadlığı, insan ləyaqətinə hörmət təşkil edir. Demokratiya irqindən, cinsindən, dilindən, dinindən, ictimai mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabərliyini nəzərdə tutur. Bərabərlik dedikdə həm imkanlar bərabərliyi, həm nümayəndəlik bərabərliyi, həm də qanun qarşısında bərabərlik başa düşülür.

–Siyasi rejimlərin təsnifatı zamanı istifadə olunan əsas meyarlardan biri də müxalifətin fəaliyyət səviyyəsidir. Belə ki, demokratik idarə-üsuluna malik ölkələrdə müxalifət leqal fəaliyyət göstərərək, siyasi proseslərin aparıcı qüvvəsi kimi çıxış etsə də, avtoritar rejimlərdə müxalifətin siyasi həyatda iştirakı ciddi şəkildə reqlamentləşdirilir. Ölkədə müxtəlif partiyalar və siyasi qüvvələr olsa da, onlar dövlət hakimiyyətinin ələ keçirilməsi uğrundakı mübarizədə fəal iştirak edə bilmirlər.

–Plüralizm dedikdə siyasi sferada müxtəlif partiyaların və siyasi təsisatların, ideya-siyasi istiqamətlərin, cərəyanların

və  s. mövcudluğu başa düşülür. Siyasi plüralizmin baçlıca prinsipləri bunlardır:

–güc siyasətindən imtina;

–xalqın mütləq suveren kimi qəbul edilməsi;

siyasi konsensusa və kompromisə sadiqlik;

–azlıqlara qarşı dözümlülük və vicdan azadlığı.

–1991-ci ildə sovet totalitarizminin siyasi gerçəkliyindən çıxaraq öz dövlət müstəqilliyini əldə etmiş Azərbaycanda demokratik təsisatların formalaşması və inkişafı prosesi hazırda uğurla davam etdirilir.

–Özünün hüquqi mahiyyətinə və təminatına görə hüquq və azadlıqlar eynilik təşkil edirlər. Hər ikisi şəxsiyyətə müəyyən subyektiv imkanlar yaradır, cəmiyyətin maddi və mənəvi nemətlərindən istifadə etməyə kömək edir. Lakin azadlıq ümumi xarakter daşıyır və hər kəsə aiddir. Hüquq isə konkret xarakter daşıyır. AR Konstitusiyasının 47-ci maddəsində deyilir: "Hər kəsin fikir və söz azadlığı vardır". AR Konstitusiyasının 56-cı maddəsində isə deyilir: "Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmık və seçilmək .. hüququ vardır". Digər tərəfdən şəxssiz ifadə kimi "hüquqlar tanınır", "azadlıqlara təminat verilir" ifadələri işlədilir.

Əgər mənim nəyə isə hüququm var, bu o deməkdir ki, hakimiyyətin də vəzifələri var. Əgər mənim azadlığım varsa, deməli həyatımın elə bir sahəsi vardır ki, hakimiyyətdə olanlar ora qarışmamalıdırlar. Mənim hüququm - hakimiyyətin nə isə etmək vəzifəsidir, mənim azadlığım isə hakimiyyətin hansısa bir sahədə fəaliyyət göstərməsinə qadağadır. İnsan hüquqları

yalnız hakimiyyət və fərd arasında baş verən münasibətlərdir. Bərabərhüquqlu partnyorlar arasındakı əlaqələr insan hüquqları kimi təsvir edilə bilməz.

İnsan hüquqları insana vətəndaş cəmiyyətinin üzvü kimi aiddir. Bu hüquqlara dövlətin vətəndaşlarından başqa,həm də xarici ölkə vətəndaşları, eləcə də vətəndaşlığı olmayan şəxslər sahibdir.Vətəndaş hüquqları isə dövlətin vətəndaşlarına aiddir.

## Nəzəri material

**Siyasi rejim** dövlət hakimiyyəti ilə vətəndaş cəmiyyəti arasındakı qarşılıqlı münasibətlərin səviyyəsini xarakterizə edir. Siyasi rejimlərin ən geniş yayılmış təsnifatı onun demokratik, avtoritar və totalitar rejimlərə bölünməsidir.

Totalitarizm sözü hərfi mənada hər şeyi əhatə etmək deməkdir (lat. totalis - tam, bütöv). Bu anlayışı ilk dəfə 1923-cü ildə Covanni Amendola Mussolininin başçılıq etdiyi hərəkatı və siyasi rejimi səciyyələndirmək üçün işlətmişdir. 1926-ci ildə isə bu termini Covanni Centile işlətmişdir.

Siyasi ədəbiyyatda, adətən, Hitlerin Almaniyadakı, Stalinin SSR-dəki, Mussolininin İtaliyadakı rejimini totalitarizmə aid edirlər. Lakin müxtəlif müəlliflər Frankonun İspaniyadakı, Salazarın Portuqaliyadakı, Maonun Çindəki, Xomeyninin İrandakı, taliblərin Əfqanıstandakı, Kim Çen İrin Şimali Koreyadakı, Auqusto Pinoçetin Çilidəki, Səddam Hüseynin İraqdakı, Bəşər Əsədin Suriyadakı, S.Niyazovun Türkmənistandakı, Xo Şi Minin Vyetnamdakı siyasi quruluşlarını da totalitar rejimlərə aid edirlər.

***Totalitarizmin əsas əlamətləri bunlardır:***

-vahid partiyanın mövcudluğu, partiya başçısının dövlət başçısı olması;

-partiyanın inzibati üsullurla liderin ətrafında təşkil olunması;

- vahid ideologiyanın mövcudluğu;

-repressiyanın və terrorçu polis nəzarətinin daxili siyasətin əsas alətinə çevrilməsi;

-güc strukturlarının ictimai asayişin qorunması ilə deyil, totalitar rejimin qayğısına qalmaqla məşğul olması;

-media üzərində tam texnoloji nəzarət, fikir, söz və vicdan azadlığına yol verilməməsi;

-müxalifətin fəaliyyətinə yol verilməməsi;

-iqtisadiyyatın dövlətin tam nəzarəti altında olması;

-xüsusi mülkiyyətə yol verilməməsi;

-sağlam rəqabət mühitinə imkan verilməməsi;

-müəyyən sinfin, sosial qrupun, millətin üstünlüyünün mövcudluğu;

-rəqabətin qarşısının alınması;

-təsərrüfat həyatında müxtəlifliyin olmaması və s.

Totalitarizmin tarixi formaları bunlardır: kommuniz, faşizm və milli sosializm. Totalitarizmin ilk forması kommunizm hesab olunur. 1918-ci ildə Rusiyada meydana gələn, istehsal vasitələri üzərində ictimai mülkiyyətə əsaslanan kommunizm fəhlə sinfinin digər siniflərdən üstünlüyünü bəyan edirdi.

Totalitarizmin ikinci tarixi forması 1922-ci ildə İtaliyada qurulan faşist rejimidir. Onun başlıca xüsusiyyəti ondan ibarətdir ki, o, yeni total cəmiyyət qurmaq deyil, Roma imperiyasını XX əsrdə yenidən dirçəltmək məqsədi güdürdü.

1933-cü ildə Almaniyada meydana gələn milli sosializm almanların digər millətlərdən üstünlüyünü bəyan edirdi. Milli sosializm repressiyaya, irqçiliyə, şovinizmə, zorakılığa, şəxsiyyətə pərəstişə, dövlətin şəxsiyyət üzərində tam hökmranlığına, ictimai həyatın bütün sahələrinin militaristləşdirilməsinə haqq qazandırmağa çalışırdı.

Bir qayda olaraq, avtoritarizm demokratiya ilə totalitarizm arasında keçid rolunu oynayır. ***Avtoritarizmin*** əsas əlamətləri bunlardır:

-avtokratizm (təkhakimiyyətlilik) və ya hakimiyyətin məhdud qrupa mənsub olması;

-gücə arxalanmaq, zərurət yaranarsa onun köməyilə əhalini itaətdə saxlamaq;

-hakimiyyətin qeyri-məhdudluğu, yəni onun vətəndaşların nəzarətindən kənarda qalması;

-media nisbətən azad olsa da, dövlətin nəzarətindən kənarda deyildir;

-vətəndaş davranışının tipik formasının konformizm olması, yəni əhalidə siyasətə məxsusluq hissinin zəif olması;

-ideologiyanın müxtəlifliyi, lakin birinin hakim xarakter daşıması;

-iqtisadiyyatın azad, siyasətin isə inhisarda olması.

Avtoritarizmin formaları bunlardır:

–Ənənəvi mütləq monarxiya (1974-cü ilədək Efiopiya, Mərakeş, Səudiyyə Ərəbistanı və b.)

–Oliqarxiya tipli ənənəvi avtoritar rejimlər (Qvatamela, Kuba 1959-cu ilədək, Nikaraqua 1979-cu ilədək)

–Yeni oliqarxiyanın hegemon avtoritarizmi (Kamerun, Filippin və b.)

–Hərbi rejimli avtoritarizm (2005-ci ilədək İraq,Misir, mali, Fici)

–Sosialist orientasiyalı avtoritar rejimlər (Birma, Qvineya, Mozambik, Venesuela və b.)

–Teokratik tipli avtoritar rejimlər(İran, Bruney, Səudiyyə Ərəbistanı, Oman, Qətər və b.)

***Demokratiyanın əsas əlamətləri isə bunlardır:***

-xalqın suverenliyinin, hakimiyyətinin hüquqi cəhətdən tanınması;

-medianın senzuradan tam azad olması;

-mühüm dövlət hakimiyyəti oqanlarının seçki əsasında formalaşması;

-insan və vətəndaş hüquq və azadlıqlarının təminatı;

-siyasi plüralizmin mövcudluğu, çoxpartiyalılıq;

-müxalifətin leqal fəaliyyəti, siyasi proseslərin aparıcı ünsürü kimi çıxış etməsi;

-güc strukturlarının siyasətdən kənar olması;

-rəqabətin cəmiyyətin tərəqqisinin başlıca amili hesab edilməsi;

-təsərrüfat həyatında müxtəlifliyin olması;

-ideologiyanın və dünyagörüşünün müxtəlifliyi;

-mənəvi həyatın dövlətin və dini qurumların özbaşınalığından müdafiəsi

-qərarların çoxluq tərəfindən qəbul edilməsi və s.

Demokratiyanın məhək daşı sayılan xalq hakimiyyəti ideyası əhalinin hakimiyyətin həyata keçirilməsində iştirakının konkret formaları vasitəsilə həyata keçirilir. Bu mənada müstəqim (birbaşa), plebissitçi və nümayəndəli demokratiya formaları fərqləndirilir. Birbaşa demokratiyada əhali qərarların qəbul edilməsində birbaşa iştirak edir. Plebissitçi (lat.-xalqın qəbul etdiyi qərar) demokratiyada əhali bu və ya digər məsələyə, hazırlanmış qanun layihəsinə öz münasibətini bildirir. Nümayəndəli demokratiyanın başlıca cəhəti isə vətəndaşların qərarların qəbul edilməsində birbaşa deyil, hakimiyyət orqanlarına seçilmiş nümayəndələri vasitəsi ilə iştirak etməsində ifadə olunur.

Demokratiyanın əsas növləri isə aşağıdakılardır:

-oliqarxiyalı demokratiya ancaq iri sahibkarların dövlət idarəçiliyində iştirak etmək imkanını nəzərdə tutur. Vətəndaşların seçki hüququ əmlak senzi ilə məhdudlaşdırılır;

-eqalitar demokratiyada bütün millətin maraqları azlıqların və vətəndaşın maraqlarından üstün tutulur;

-sosialist demokratiya sadə xalqın iradəsini əsas götürərək, sinifli cəmiyyətin ləğvini və istehsal vasitələri üzərində dövlət mülkiyyətinin bərqərar olmasını nəzərdə tutur. Bu cür demokratiyanın digər cəhəti siyasi müxalifətin və fərdi maraqların olmamasıdır;

-imitasiyalı demokratiyada vətəndaşların siyasi proseslərə təsiri zəif olur. Qanunvericilik və məhkəmə hakimiyyəti icraedici hakimiyyətdən asılı olur;

-liberal demokratiya isə aşağıdakı prinsiplərə söykənir:

a) parlamentarizm-siyasi təsirin nümayəndəli formalarının üstünlüyü

b)çoxluğun azlıq üzərində hakimiyyətinə məhdudiyyət qoyulması

c) hakimiyyətin bölünməsi və tarazlaşdırılması mexanizminin yaradılması

d) dövlətin səlahiyyətlərinin vətəndaşların təhlükəsizliyinin təmin edilməsi ilə məhdudlaşdırılması

e) şəxsiyyətin muxtariyyatına üstünlük verilməsi və s.

Siyasi elmdə və praktikada demokratiyaya keçidin əsas yolları inqilablar, abdikasiya–hakimiyyətin könüllü olaraq demokratik qüvvələrə verilməsi, yuxarıdan həyata keçirilən islahatlar, iqtidarla müxalifət arasında dialoq, Qərbin demokratik təcrübəsindən istifadə və s. hesab olunur. Lakin keçmiş avtoritar rejimin hakimiyyətdən uzaqlaşdırılmasını demok-

ratikləşmə prosesinin yalnız başlanğıcı hesab etmək olar. Ölkənin sosial-iqtisadi durumu, milli münasibətlərin xarakteri, milli münaqişələrin olub-olmaması, əhalinin siyasi mədəniyyət səviyyəsi, ölkənin dünya arenasındakı mövqeyi və s. demokratikləşmə prosesinin gedişinə öz təsirini göstərir.

Demokratik cəmiyyət quruculuğunun başlıca meyarı insan hüquqlarının təmin edilməsidir. İnsan hüquqlarının sərhədləri geniş oldugundan alimlər üçün onun hüdudlarını müəyyən etmək o qədər də asan olmamışdır. Hələ indiyə qədər insan hüquqları anlayışına vahid yanaşmanın olmaması onun mahiyyəti ətrafında müxtəlif cür baxışların meydana gəlməsini şərtləndirmişdir. "İnsan hüquqları" anlayışının mahiyyətini özündə ehtiva edən ən ümumi definisiyanı (tərifi-M.) bu cür ifadə etmək mümkündür: "İnsan hüquqları elə bir şeydir ki, hər bir insana, onun sadəcə, bəşər nəslindən olması səbəbindən xasdır. Yəni insan hüquqlarının mövcudluğu insanın varlığı faktı ilə birbaşa əlaqəlidir.

Digər tərəfdən insan hüquqları insanın elə bir xarakterik cəhəti ilə bağlı olmalıdır ki, o, bəşər nəslinin bütün üzvlərinə aid olsun. Belə bir ümumiləşdirici cəhət isə insanın öz mahiyyətindən irəli gəlir. İrqi, cinsi, milli, dini və əqidə mənsubiyyətdən asılı olmayaraq insanın mahiyyəti–bütün bəşər nəslinə xas olan xüsusiyyətdir.

Bildiyimiz kimi, hər bir canlı varlığın, eləcə də insanın müəyyən tələbatları var. Canlıların əksəriyyətinın hava, su, istilik və qidaya ehtiyacı va. Onlar məhz sadaladığımız bu nemətlər sayəsində həyatda qalmağı bacarırlar. Lakin digər canlılardan fərqli olaraq insan idrak və mənəvi aləm kimi keyfiyyətlərə də malikdir. Məhz bu keyfiyyətlər onu digər

canlılardan ayırır və onun anadangələmə insanlıq ləyaqətini müəyyən edir.

Yalnız yemək, özünü qoruma və nəsli davam etdirmə kimi ehtiyacların ödənilməsi insan üçün yetərli deyildir. İnsanın öz mahiyyətindən irəli gələn mənəvi qidaya–biliyə, ünsiyyətə, tanınmağa və s. tələbatı vardır.

O da nəzərə alınmalıdır ki, heç bir insan cəmiyyətdən təcrid olunmuş halda yaşamır, digər fərdlərlə birgə həyat yaşayır. Öz tələbat və mənafeyini həyata keçirmək və digər cəmiyyət üzvlərinin maraqlarının təmin edilməsinə maneçilik törətməmək üçün insanlaraın müəyyən təminat mexanizmlərinə ehtiyacı var. Məhz həmin zəruri ehtiyaclar insan hüquqlarının fundamental prinsiplərini təşkil edir.

Azərbaycan Respublikasının 1995-ci il noyabr ayının 12-də qəbul edilmiş Konstitusiyası insan hüquqları və azadlıqlarının əsas prinsiplərini ən yüksək səviyyədə təsbit edir və onların müdafiə mexanizmini müəyyən edir.

İnsan hüquq və azadlıqlarının Konstitusiya ilə təsbit olunmuş prinsiplərinə hüquq və azadlıqların universallığı, toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı, insan hüquqları və azadlıqlarına dair beynəlxalq hüquq normalarının üstünlüyü, hüquq və azadlıqların təminatlı olması, hüquq və azadlıqların birbaşa qüvvəsi aiddir.

Hüquq və azadlıqların universal xarakteri onların yaranmasının mexanizmini və əsaslarını ifadə edir. Belə ki, Konstitusiyaya uyğun olaraq insan anadangəlmə, yəni doğulduğu vaxtdan etibarən Konstitusiya və qanunlarla elan olunmuş hüquq azadlıqlara malik olur, onların daşıyıcısına çevrilir.

Hüquq və azadlıqların toxunulmazlığı onlara hər cür qanunsuz və özbaşına qəsdin yolverilməzliyini ifadsə edir. Yəni hər bir insan doğulduğu gündəcə böyük, təkrarolunmaz və qiymətli bir varlıqdır, onun öz muxtariyyatı və ləyaqəti var, insanını ləyaqətinə toxunaraq onun muxtariyyatına müdaxilə etməyə dövlətin ixtiyarı yoxdur;

Hüquq və azadlıqların pozulmazlığı insan hüquqları və azadlıqlarının aliliyini, onların hər hansı normativ akt və ya vəzifəli şəxs tərəfindən ləğv olunmasının, yaxud özbaşına məhdudlaşdırılmasının yolverilməzliyini müəyyən edir.

Ayrılmazlıq hüquq və azadldıqların insan iradəsindən asılı olmayraq mövcud olduğunu, ictimai varlıq kimi insanın təbiətindən irəli gəldiyini, onun zəruri atributu olduğunu ifadə edir. Bu hüquqlar eyni dərəcədə cəmiyyətin həm yaşlı nümayəndəsinə, həm uşağa, həm hörmətli adama, həm də cinayətkara məxsusdur. Elə hüquqlar var ki, insan özü belə könüllü olaraq onlardan imtina edə bilməz. Əgər bir insan sənəd imzalayıb könüllü şəkildə azadlıqdan imtina edərsə və özünü qula çevirərsə, bu sənəd məhkəmədə həqiqi sənəd sayılmaz. Lakin insan qərar verib özünü mülkiyyətdən məhrum edə bilər.

Hüquq və azadlıqların universallığı, toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı bütövlükdə onu onu ifadə edir ki, dövlət heç vaxt insanı onun hüquqlarından və azadlıqlarından məhrum edə bilməz. Dövlət hakimiyyətinin bir çərçivəsi var! Dövlət yalnız o hakimiyyətə malikdir ki, həmin hakimiyyəti öz hüquqlarını qorumaq məqsədi ilə insanlar özləri könüllü olaraq dövlətə verirlər.

İnsan hüquq və azadlıqların universallığı, toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı bir prinsip kimi Azərbaycan

Respublikası Konstitusiyanın 24-cü maddəsində təsbit olunur. Həmin maddədə müəyyən edilir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

İnsan hüquqlarının başlıca formaları aşağıdakılardır:

–mülki hüquqlar–fərdin toxunulmazlığını, onun şəxsi həyatının muxtariyyatını və ictimai həyatda fəal iştirakını nəzərdə tutur. (yaşamaq hüququ,azadlıq hüququ,bərabərlik hüququ,nikah bağlamaq və ailə qurmaq hüququ, söz,fikir və vicdan azadlığı və s.

–siyasi hüquqlar–fərdin cəmiyyətin siyasi həyatında və dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmək imkanını nəzərdə tutur. (seçki hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ, birləşmək hüququ və s.)

–iqtisadi hüquqlar–fərdin təsərrüfat fəaliyyətinin əsas faktorlarından sərbəst surətdə istifadə etmək imkanını nəzərdə tutur. (əmək hüququ, istirahət hüququ, həmkarlar ittifaqları yaratmaq hüququ, azad sahibkarlıq hüququ və s.)

–sosial hüquqlar–fərdin qənaətbəxş yaşayış səviyyəsini və onun sosial müdafiəsini nəzərdə tutur. (sosial təminat hüququ, sağlamlıq hüququ, mənzil hüququ və s.)

–mədəni hüquqlar–fərdin mənəvi və intellektual inkişafına təminat verir. (təhsil hüququ, cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ, əqli mülkiyyət hüququ, yaradıcılıq azadlığı və s.)

İnsan hüquqları həyat və fəaliyyət sferalarına görə də fərqlənirlər. Buradan da insan hüquqları nəsli meydana gəlir. İnsan hüquqlarının birinci nəsli özündə ənənəvi olaraq burjuaziya inqilablarının həyata keçirilməsi prosesində

formalaşmış liberal dəyərləri təsbit edirdi: yaşamaq hüququ, şəxsiyyət azadlığı, təhlükəsizlik hüququ, mülkiyyət hüququ və s.

İnsan hüquqlarının ikinci nəslinə sosial, iqtisadi və mədəni hüquqlar daxildir.

İkinci dünya müharibəsindən sonra insan hüquqlarının üçüncü nəsli formalaşmağa başladı. Bu hüquqların xarakterik cəhəti ondan ibarətdir ki, onlar kollektiv hüquqlara aiddir və yalnız birlik ya assosiasiyalarda həyata keçirilə bilərlər. Bu hüquqlar həmrəyliyə əsaslandığı üçün "həmrəylik hüquqları" da adlanır. Belə hüquqlara inkişaf hüququ, sülh, sağlam ətraf mühit, kommunikasiya hüququ aiddir.

Zənnimizcə, bu üç kateqoriyadan olan hüquq və azadlıqları dördüncü qrup hüquq və azadlıqlarla tamamlamaq olardı. Bu, şəxsiyyətə verilən milli hüquqlardır. Milli hüquq dedikdə, milli-etnik qruplara özlərinin özünəməxsusluğunu, identikliyini, özgürlüyünü, dilini, mədəniyyətini qorumaq məqsədi ilə verilən hüquqları nəzərdə tuturuq. Milli-etnik qrupların çıxış nöqtəsini, nüvəsini şəxsiyyət və ayrı-ayrı fərdlər təşkil edir. Yəni milli hüquq anlayışı milli-etnik qrup anlayışından doğur. Şəxsiyyətin milli hüquqları onlara verilən əlavə hüquqlardır. Hansı ki, bu hüquqlar həmin şəxsiyyətin etnik mənsubiyyətindən irəli gəlir. Milli hüquqlardan istifadə edən şəxs,həm də bütün Azərbaycan Respublikası vətəndaşlarına verilən fərdi hüquqlardan istifadə edə bilər.

## *Mövzu 9*
## *Təzyiq qrupları və siyasi partiyalar*

***Əsas ideya:*** Qərarların qəbul edilməsinə, siyasi strategiyanın işlənib hazırlanmasına və həyata keçirilməsinə az və ya çox dərəcədə təsir göstərə bilən, müxtəlif sosial təbəqələrin mənafelərini üzə çıxaran və bəyan edən, vətəndaşların siyasi sosillaşmasına səbəb olan müxtəlif *maraq qrupları* və *siyasi partiyalar* demokratik cəmiyyətin təməl prinsiplərindən biridir.

***Məqsədlər:*** təzyiq qrupları və siyasi partiyaların əlamətlərinin, eləcə də aralarındakı oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsi;

təzyiq qruplarının və siyasi partiyaların cəmiyyətdəki rolunun tələbələrə izah edilməsi;

siyasi partiyaların və partiya sistemlərinin müxtəlif əlamətlərə görə təsnifatının verilməsi;

müxtəlif ölkələrdə partiya sistemi ilə bağlı olan müsbət təcrübənin öyrənilməsi;

Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşmasının özünəməxsus xüsusiyyətlərinin təhlil edilməsi;

demokratik və çoxpartiyalı sistemin formalaşmasına təsir göstərən amillərin təhlil edilməsi;

tələbələrdə müxtəlif orientasiyalı ictimai təşkilatlar və siyasi partiyalarla əməkdaşlıq etmək və ya onların işində fəal iştirak etmək bacarığı formalaşdırmaq və s.;

***Əsas anlayışlar:*** siyasi partiya, ictimai təşkilat, koalisiya, müxalifət,

sağlar və sollar, təzyiq qrupu, bürokratiya, lobbizm və s.

### *I Mərhələ-Motivasiya*
### *Problemin qoyulması*

Hakimiyyətin yol verdiyi nöqsanların qarşısını hansı yolla almaq mümkündür?

Demokratik ölkələrdə qərarların qəbul edilməsinə, siaysi strategiyanın işlənib hazırlanmasına və həyata təsir göstərə bilən müxtəlif qüvvələr fəaliyyət göstərir. Bunlar partiyalar, təzyiq qrupları, həmkarlar ittifaqları, ictimai təşkilatlar və intellektual elitadır. Onlar KİV-dən və ictiami rəydən istifadə edir, demokratik yürüşlər təşkil edir, müxtəlif maarifləndirmə tədbirləri vasitəsilə öz sosial bazalarını genişləndirirlər.

Cəmiyyətin və dövlətin siyasi həyatına təsir göstərilmısində ən mühüm vasitə siyasi partiyalar hesab olunur.

Tarixi və siyasi ədəbiyyatda "partiya" anlayışına dair müxtəlif fikirlər mövcuddur. "Partiya" anlayışının tərifini ilk dəfə 1861-ci ildə ingilis alimi E. Berk vermişdir: "Partiya ümumi prinsipləri rəhbər tutaraq birgə səylə milli maraqları təmin etmək üçün birləşən insanlar qrupudur".

M. Veber isə hesab edirdi ki, partiya öz üzvlərinin könüllülük prinsipinə əsaslanan ictimai təşkilatdır. Onun başlıca məqsədi hakimiyyəti əldə etmək və partiyanın fəal üzvləri üçün müəyyən mənfəət qazanmağa şərait yaratmaqdır.

İspan alimi Sanistebana görə, Partiya eyni siyasi əqidəyə malik,ideal yaxud maddi məqsədlərə çatmaq uğrunda birgə çalışan insanlardan ibarət sabit ierarxik təşkilatdır.

Marksizmə görə, siyasi partiyalar sinfi mübarizə təşkilatıdırlar.

Sizcə, yuxarıda verilən təriflərin hansı partiya anlayışına daha çox uyğun gəlir?

Hansı amillər siyasi partiyaların meydana gəlməsində müəyyənedici rola malik olmuşdur?

Tələbələr bu barədə öz mülahizələrini söylədikdən sonra müəllim tədqiqat suallarını qoyur:

***Tədqiqat sualları***

Partiyanı təzyiq qruplarından və digər birliklərdən fərqləndirən əsas cəhətlər hansılardır?

Nə üçün partiyalar cəmiyyətin siyasi həyatına əhəmiyyətli şəkildə təsir göstərə bilir?

Ona görə ki, nümayəndəli demokratiya şəraitində hər bir fərdin mənafeyi hakimiyyət orqanına seçilmiş adamlarla təmsil olunur. Tələbat və mənafeyin təmsil edilməsi vasitəsi isə partiyalar hesab olunur. Partiyalar müxtəlif maraqları siyasi kurs şəklinə salır və mümkün olduqca onları dövlət səviyyəsində həyata keçirir; hakimiyyətin müxtəlif səviyyələri və qolları arasında əlaqə yaradır; ortaya çıxan problemlərin alternativ həlli yollarını təklif edir və s.

Siz belə mövqe ilə razısınızmı?

***II mərhələ***

***Tədqiqatın aparılması***

*Kiçik qruplarda iş*

Müəllim fərziyyələri yoxlamaq üçün tələbələri qruplara bölür və hər qrupa marker və iri vərəqələr paylayır.

### *III mərhələ*
### *İnformasiya mübadiləsi*
*Qrupların təqdimatı*

Hər bir qrupun nümayəndəsi çıxış edərək, əldə etdiyi nəticə haqqında məlumat verir ki, bu da informasiya mübadiləsinə səbəb olur.

### *IV mərhələ*
### *İnformasiyanın müzakirəsi və təşkili*

Təqdimat mərasimi başa çatdıqdan sonra müəllim auditoriyada ümumi müzakirə keçirə bilər.

***<u>Müzakirə üçün suallar:</u>***

Siyasi partiyaların hansı əlamətlərə görə təsnifatını vermək mümkündür?

Hansı kriteriyalarına görə partiyalar "sağlara" və "sollara" bölünür?

Sizcə, seçkilərdə məğlub olaraq müxalifət statusu qazanan siyasi partiyaların əsas vəzifələri nədən ibarət olmalıdır?

Siyasi partiyaların çoxcəhətli funksiyaları içərisində hansını daha vacib hesab edirsiniz?

Partiyaların fəaliyyətinin hüquqi tənzimlənməsi nədən irəli gəlir?

Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşmasının özünəməxsus xüsusiyyətləri hansılardır?

Müasir demokratik ölkələrdə partiya sistemi ilə bağlı mövcud olan hansı müsbət təcrübənin ölkəmizdə tətbiq edilməsini istərdiniz?

### *V Mərhələ*
### *Ümumiləşdirmə və nəticə*

- Öz maraqlarını mövcud rejim və hakimiyyət münasibətləri çərçivəsində həyata keçirməyə çalışan təzyiq qruplarından fərqli olaraq, partiya öz üzvlərinin mənafeyini siyasi hakimiyyətdə iştirak vasitəsilə reallaşdırmağa çalışır.
- Seçkilərdə məğlub olan partiyaların vəzifələri bunlardır: sistematik olaraq hökumətin siyasətini tənqid etmək, onun səhvlərini və çatışmazlıqlarını göstərmək; hakimiyyət orqanlarının fəaliyyətinin konstitusiyaya, siyasi normalara və əxlaqi dəyərlərə uyğunluğuna nəzarət etmək və s.

Müxalifət milli mənafeyə xidmət etməli və siyasi yollarla mübarizə aparmalıdır. Təəssüflər olsun ki, bəzən mövcud siyasi quruluşu inqilabi yolla devirməyə çalışan siyasi partiyalar da özlərini müxalifət hesab edirlər. Əslində o partiyalar müxalifət hesab oluna bilər ki, onlar milli təhlükəsizliyin və dövlət sisteminin əsaslarını təhlükə altına almırlar.

- Siyasi partiyaların funksiyaları bunlardır:

–sosial təbəqələrin mənafelərinin üzə çıxarılması və bəyan edilməsi;

–sosial ədalətin və ümumi rifahın təmin edilməsi;

–siyasi sistemin komponentlərinin formalaşmasında iştirak etmək;

–hakimiyyətin əldə edilməsi və möhkəmləndirilməsi;

–ictimai rəyin formalaşmasında yaxından iştirak etmək;

–vətəndaşların siyasi sosiallaşması;

–cəmiyyətin siyasi inkişaf strategiyasının hazırlanması;

–dövlətin daxili və xarici siyasət kursunun hazırlanmasında və həyata keçirilməsində iştirak etmək və s.

➢ Demokratik dövlətlərdə siyasi partiyaların statusu və fəaliyyətinin xüsusi qanunlarla tənzimlənməsi aşağıdakı amillərlə bağlıdır:

-partiyaların fəaliyyət prinsiplərinin müəyyənləşdirilməsi;

-partiyaların yaradılması şərtlərinin müəyyənləşdirilməsi;

-partiyaların dövlət orqanları ilə münasibətlərinin müəyyənləşdirilməsi;

-partiyaların seçki prosesində iştirak sisteminin müəyyənləşdirilməsi;

-partiyaların fəaliyyətinin maddi təminat prinsiplərinin müəyyənləşdirilməsi və s.

➢ Dağlıq Qarabağ hadisələrinə qədər bütün SSRİ ərazisində olduğu kimi, Azərbaycan SSR-də də vahid kommunist partiyası hakim idi. 1988-ci il noyabrın 17-də başlanan milli azadlıq hərəkatı AKP-nin iflasının başlanğıcını qoydu. Demokratikləşmə zəmnində Dağlıq Qarabağ münaqişəsi cəmiyyətin siyasi qütbləşməsində aparıcı rol oynayırdı.

Totalitar kommunist rejimindən azad olduqdan və müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasında müxtəlif ictimai-siyasi hərəkatların və siyasi təşkilatların yaranması prosesi başlandı. Bu proses dərinləşdikcə ölkənin həyatında siyasi partiyalar meydana çıxdı. 1992-ci ildə parlament "Siyasi partiyalar haqqında" qanun qəbul ediləndə məlum oldu ki, ölkədə 60-dan artıq siyasi partiya mövcuddur və onlardan 48-i Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Plüralist cəmiyyət və bazar münasibətli iqtisadiyyata qədər respublikamızda siyasi partiyalar sosial təbəqələrin mənafeləri üzərində deyil, ərazi bütövlüyümüzün qorunması məsələsində iqtidarla xalq kütləsinin ciddi fikir ayrılığı məsələsində formalaşmışdı. Bu məsələ Azərbaycanda demokratik qüvvələrin xeyrinə həll edildikdən sonra isə siyasi qüvvələr arasında mübarizə cəmiyyətin strateji xəttini düzgün qurmaq üzərində getməyə başladı.

Müstəqilliyin ilk illərində ölkəmizdə çoxpartiyalılığın formalaşmasında əsas maneə, bütün sosial təbəqələrin maraqlarının qarşılıqlı surətdə təmin edilməsi mexanizminin işlək vəziyyətdə olmaması idi. Təəssüflər olsun ki, Azərbaycanda yaranan ilk siyasi partiyalar cəmiyyət üçün prioritet məsələlərdə vahid mövqe nümayiş etdirmək qabiliyyətinə malik deyildilər. Demokratik ölkələrin təcrübəsi isə göstərir ki, məhz əsas məsələlərdəki yekdillik cəmiyyəti sosail fəlakətlərdən qoruyaraq, siyasi sabitliyi təmin edir və ictimai tərəqqini sürətləndirir.

Hazırda Azərbaycanda bərqərar olmuş çoxpartiyalılıq milli demokratik dövlət quruculuğunun vacib qarantı olmaqla yanaşı, bəşəri sivilizasiyaya doğru irəliləyişimizin mühüm elementidir. Lakin təəssüflər olsun ki, Azərbaycanda mövcud olan partiyaların sayı ilə onların fəaliyyətinin səmərəliliyi arasında mütənasiblik yoxdur. Azərbaycanda 50-dən çox partiya qeydiyyatdan keçdiyi halda, parlamentdə cəmisi bir neçə partiya təmsil olunur, çünki onların siyasi proseslərə real təsir göstərmək imkanları olduqca aşağıdır. Bu partiyaların bir qismi yalnız iqtidara qarşı çıxmaq mövqeyi tutur, digər qismi isə xalq arasında yüksək reytinqə, yəni zəruri sosial bazaya malik deyillər. Respublika üçün taleyüklü problemlərin həllində konstruktiv möv-

qelərin, iqtidarla yaradıcı dialoqa getmək bacarığının olmaması, cəmiyyətdə süni ziddiyyətlərin artırılmasına, ifrat radikalizmə meyl göstərilməsi də Azərbaycan müxalifətinin əsas çatışmayan cəhətləridir.

Müasir Azərbaycan gerçəkliyi isə müxalifətdən praqmatiklik tələb edir, çünki ölkəmizdə demokratik cəmiyyət quruculuğunun uğurla başa çatması, Dağlıq Qarabağ probleminin həlli müxalifətin tutacağı mövqedən xeyli asılıdır.

## Nəzəri material

İnsanın sosiallaşması və kommunikasiyası məhz qruplardakı münasibətlərə əsaslandığından siyasi hakimiyyətin əsas subyektlərindən biri hesab edilən təzyiq qruplarının öyrənilməsi siyasi elm üçün mühüm əhəmiyyət kəsb edir.

**Təzyiq qrupu** siyasi mənafelərlə birləşmiş, əsas məqsədi öz mənafelərinə uygun olaraq hökumət qərarlarının qəbul edilməsinə təsir etmək olan fərdlər birliyidir.

Təzyiq qruplarının əsas əlamətləri bunlardır:

-cəmiyyət üzvlərinin etnik, siyasi, dini, sosial və s. maraqlarını ifadə edir.

-öz üzvlərinin maraqlarını mövcud quruluş çərçivəsində təmin etməyə çalışır.

-mənafelər antaqonist (ziddiyyətli) deyil, aqonist (barışan) mahiyyət daşıyır.

Təzyiq qruplarının cəmiyyətdə yeri və rolu hər şeydən əvvəl onun funksiyalarında öz əksini tapır. Müxtəlif qrupların maraqlarının təmin edilməsinə yönələn təzyiq qrupları öz fəa-

liyyətləri ilə hakimiyyətə təsir göstərə bilirlər. Təzyiq qrupları vətəndaşları sosial fəaliyyətdən siyasi aktivliyə cəlb edir.

Hökumətin siyasəti heç bir partiyanın üzvü olmayan bir çox vətəndaşları da maraqlandırır. Demokratiya şəraitində həm fərdi qruplar, həm də maraqlara görə qruplar təşkil edərək siyasətə təsir göstərmək mümkündür.

Təzyiq qruplarının fəaliyyəti peşəkar siyasətçilərin formalaşmasına da zəmin yaradır. Təzyiq qruplarının fəal üzvləri idarəetmənin müxtəlif pillələrində təmsil olunaraq siyasi elita təbəqəsini yeniləşdirirlər.

Təzyiq qruplarının müxtəlif əlamətlərə görə təsnifatını aparmaq olar. Məsələn: təşkilatlanma səviyyəsinə görə təzyiq qrupları anomik və təsisatlı olur. Anomik qruplar spontan, qısa müddətli qruplar olub, tərkibi qeyri-mütəşəkkil, nümayişlər və həyəcanlar zamanı öz narazılığını ifadə edən fərdlərdən təşkil olunurlar. Belə qruplar əgər uzun müddət mövcud olurlarsa, onda artıq təsisatlı qrupa çevrilirlər. Təsisatlı qruplar isə təşkilati struktura və peşəkar kadr aparatına malik olurlar.

Fəaliyyət xarakterinə görə isə təzyiq qrupları vahidməqsədli və çoxməqsədli olurlar. Vahidməqsədli təzyiq qrupları müəyyən qanunvericilik aktının parlamentdə qəbul olunmasına çalışırlar. Məqsədlərinə nail olduqdan sonra isə öz fəaliyyətlərini dayandırırlar.

Təzyiq qrupları içərisində özlərinin mütəşəkkillik dərəcəsinə, birliklərinə, mövcud olmalarının müddətinə və effektliyinə görə lobbilər (ing.-koridor) xüsusilə fərqlənirlər. Lobbizm obyektə kənardan, lakin onun daxili imkanlarından istifadə etməklə məqsədyönlü təsiri nəzərdə tutur. Lobbizm birbaşa siyasətə qarışmadan müxtəlif siyasi təsisatlara təsir etmək imkanı verir. Yəni müəyyən bir hakimiyyət orqanına təsir

etmək istəyən hər hansı mənafe qrupu həmin qrumun daxilində müəyyən şəxsləri öz tərəfinə çəkir ki, onlar da o mənafe qrupunun iradəsinə uyğun olaraq fəaliyyət göstərirlər. Hazırda lobbizmin ən geniş yayılmış forması seçki kompaniyası zamanı namizədlərdən birinin, yaxud müvafiq partiyanın xeyrinə pul xərcləməkdir, çünki bu, parlament üzvlərinin bu və ya digər layihəyə səsverməsinə nail olmaq üçün səmərəli üsullardan biri hesab olunur.

Lobbizm müxtəlif mənafeləri təmsil edə bilər. Məsələn: ABŞ parlamentində erməni və yəhudi lobbiçiliyi kifayət qədər güclüdür. Qondarma erməni soyqırımının erməni lobbiçiliyinin kifayət qədər güclü olduğu Kanada və Fransada həmin ölkələrin qanunverici orqanları tərəfindən rəsmi surətdə tanınması dövlətin siyasi həyatında iştirak hüququnun bu formasının nə dərəcədə böyük rol oynadığını bir daha təsdiq edir.

Demokratik cəmiyyətdə ictimai rəyin formalaşmasında QHT-lər də mühüm rol oynayır. Dövlət, bazar və ailə ilə yanaşı, sosial strukturun dörd əsas elementindən biri olan vətəndaş cəmiyyətində QHT-lər xüsusilə böyük əhəmiyyətə malik olur. QHT-lər mahiyyət etibarilə öz-özünü idarə edən könüllü təşkilatlardır və buna görə də, dövlət hakimiyyəti orqanları tərəfindən idarə oluna bilməzlər.

Dünya praktikasında QHT-lər ictimai birlik və fond formasında fəaliyyət göstərirlər. **İctimai birlik** –təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan

və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatdır. **Fond** - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədlər daşıyan qeyri-hökumət təşkilatdır.

QHT-lərlə bağlı əsas prinsiplər bunlardır: könüllü təsis olunma; öz fikrini ifadə etmək azadlığı, məhkəmə müdafiəsi və s.

Müasir dövrdə demokratiyanın inkişafı və nümayəndəli hakimiyyət orqanlarının möhkəmlənməsi siyasi partiyaların cəmiyyətdəki rolunun artmasını şərtləndirir. "Partiya" termini, "pars" - hissə və ya "partire"-bölmək olan latın sözlərindən meydana gəlmişdir. "Seçkiləri qeydə almağın liberal yoldaşlığı" adlanan ilk siyasi partiya da məhz 1861-ci ildə İngiltərədə meydana gəlmişdir.

Siyasi partiyaların müəyyən edilməsinin əsas kriteriyaları bunlardır:

- siyasi həyatda uzunmüddətli iştirakının nəzərdə tutulması: bu xüsusiyyət partiyanı müxtəlif fraksiyalardan və kliyentel qruplardan fərqləndirir;

- genişmiqyaslılığı, yəni mərkəzlə sıx əlaqə saxlayan yerli təşkilatlara malik olması: bu, partiyanı ancaq milli səviyyədə fəaliyyət göstərən parlament qruplarından fərqləndirir;

- hakimiyyətin həyata keçirilməsinə cəhd göstərilməsi partiyanı yalnız mövcud hakimiyyət çərçivəsində dəyişikliklər etməyə çalışan digər ictimai-siyasi təşkilatlardan fərqləndirir;

- seçki və digər üsullarla xalq tərəfindən dəstək axtarışları: bu xüsusiyyət partiyanı, adətən, seçkilərdə və parlament

həyatında iştirak etməyən, yalnız ictimai fikrə və hökumətə təsir etməyə çalışan təzyiq qruplarından fərqləndirir;

- cəmiyyətin siyasi həyatında iştirak etməyə imkan verən müəyyən statusun olması və s.

Partiyaların ilk təsnifatı XVIII əsrin ortalarında ingilis filosofu D.Yum tərəfindən verilsə də, onun dərəcələndirməsi hazırkı dövrdə öz aktuallığını itirmişdir, çünki həmin zamandan keçən dövr ərzində həm siyasi sistemdə, həm də siyasi partiyaların özünün statusunda əhəmiyyətli dəyişikliklər olmuşdur.

Hazırda siyasi partiyaların təsnifatı aşağıdakı meyarlara əsasən aparılır:

-hakimiyyətə münasibətdə: iqtidar və müxalifət;

-sosial dəyişikliklərə münasibətdə: inqilabi, radikal, mütərəqqi, islahatçı, mötədil;

-reallığa münasibətdə: doktrinalı, praqmatik və harizmatik;

-orientasiyasına görə: sağ (mühafizəkar və liberal siyasl dəyərlərin, yəni xüsusi mülkiyyətin və şəxsi muxtariyyatın üstünlüyü), mərkəzçi və sol (kommunist və sosialist dəyərlərin, yəni istehsal vasitələri üzərində ümumi mülkiyyətin əsas götürülməsi);

-ideoloji yönümünə görə: kommunist, sosial-demokrat, liberal-demokrat, mühafizəkar, etatist (dövlətçi), milliyyətçi, faşist, dini fundamentalist və s.;

-siyasi davranışının xarakterinə görə: mülayimlər və radikallar;

-partiyadaxili həyatın təşkilinin stilinə görə: rəhbərə bağlı və demokratik;

-üzvlüyə görə: kadr və kütləvi;

-siyasi sistemə münasibətinə görə: sistemli (mövcud siyasi sistemi qəbul edən) və antisistemli (onu rədd edən).

Partiyaların çox sayda mövcud olan funksiyaları arasında ən mühümü aşağıdakılardır:

-sosial funksiyalar: cəmiyyətin və dövlətin müxtəlif qruplarının maraqlarının inteqrasiyası;

-ideoloji funksiyalar: müvafiq ideologiyanın, proqram və nizamnamənin hazırlanması və eyni zamanda, partiya təbliğatının həyata keçirilməsi;

-siyasi funksiyalar: partiya digər təşkilatlardan fərqli olaraq, öz üzvlərinin mənafeyini hakimiyyətdə iştirak vasitəsi ilə reallaşdırmağa çalışır;

-idarəetmə funksiyaları: seçkilərdə qələbədən sonra partiya mərkəzi hökuməti və ya yerli hakimiyyəti formalaşdırmaq imkanı və hüququ qazanır.

Siyasi sistemdə fəaliyyət göstərən partiyalar müəyyən sistem meydana gətirirlər. Partiya sistemləri dedikdə, partiyaların bir-biri ilə və dövlətlə davamlı əlaqə və münasibətləri sistemi nəzərdə tutulur. Partiya sistemlərinin xüsusiyyəti bir çox faktorlarla – cəmiyyətin siyasi yetkinlik səviyyəsi, dini və milli tərkibi, sosial-sinfi qüvvələrin mövqeyi, mövcud seçki sistemi və s. ilə müəyyən olunur. Hakimiyyət uğrunda mübarizə aparan və ya onun həyata keçirilməsi prosesinə təsir göstərən partiyaların sayından asılı olaraq partiya sistemlərinin aşağıdakı növləri fərqləndirilir:

- birpartiyalı (hakimiyyət faktik olaraq bir partiya tərəfindən mənimsənilir);

- ikipartiyalı (hakimiyyətdə vaxtaşırı iki aparıcı partiya təmsil olunur);

- çoxpartiyalı (müxtəlif partiyaların bir-birini əvəz edərək hakimyyətdə ya tək, ya da koalisiyada təmsil olunması).

İkipartiyalı sistem hər hansı ölkədə yalnız iki partiyanın mövcud olması anlamına gəlmir. Sadəcə olaraq, seçkilərdə iki başlıca parlament partiyası bir-biri ilə mübarizə aparırlar. ABŞ, Böyük Britaniya buna bariz nümunədir. Bu ölkələrdə partiyalardan biri seçkilərdə səs çoxluğu qazanır.

Keyfiyyətinə görə isə partiya sistemlərinin totalitar, demokratik, avtoritar, və sosialist formaları bir-birindən fərqləndirilir.

Demokratik partiya sisteminin əsas əlamətləri bunlardır:

–hakimiyyət uğrunda açıq mübarizə aparılır;

–hakimiyyətin mənbəyi demokratik yolla keçirilən seçkiləridir;

–leqal müxalifət mövcuddur və s.

Totalitar partiya sistemində isə yalnız bir partiya leqal fəaliyyət göstərir, partiya aparatı dövlət idarəçiliyi ilə sıx bağlı olur, yəni müxtəlif səviyyəli partiya rəhbərləri dövlət funksiyalarını yerinə yetirir.

Avtoritar pariya sistemində isə həm doktrinada, həm də siyasi praktikada partiya deyil, dövlət əsas götürülür. Burada partiya elitası siyasi hakimiyyət elitası deyildir. Bu partiya sistemində müxalifət partiyaları mövcud olsa da, onların fəaliyyəti reqlamentləşdirilir.

Sosialist partiya sisteminin səciyyəvi cəhəti isə ondan ibarətdir ki, burada mövcud olan partiyalar kommunist partiyasının siyasi sistemdəki üstün rolunu qəbul edir və sosializm qurmağı qarşıya ali məqsəd qoyurlar.

Azərbaycanda ilk siyasi partiyalar hələ XX əsrin əvvəllərində yaradılmışdır. (“Hümmət”, “Difai”, “İttihad”, “Mu-

sasavat", "Əhrar" və s. ) Lakin 1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal olunduqdan sonra Azərbaycanda birpartiyalılıq (Azərbaycan Kommunist Partiyası) sistemi bərqərar olmuşdur.

1988-ci ilin 17 noyabrında Azərbaycanda başlanan milli azadlıq hərəkatı AKP-nin iflasının başlanğıcını qoydu. Artıq, totalitar rejim üçün xarakterik olmayan yeni bir siyasi təşkilatın meydana gəlməsi reallığa çevrilirdi.

Azərbaycanda partiyalaşma prosesini şərti olaraq altı dövrə bölmək olar:

- ***I mərhələ*** (1989-cu ilin əvvəli-1990-cı ilin yanvarı) monopolist AKP ilə mübarizə aparan AXC-nin yaranması və fəaliyyəti;

- ***II mərhələ*** (1990 -cı ilin yanvarı-1991-ci ilin sentyabrı) AXC fəalları tərəfindən yeni partiyaların yaranması (Ana Vətən Partiyası, Demokrat Partiyası və s.);

-***III mərhələ*** (1991-ci ilin oktyabrı -1993-cü ilin iyunu) AXC-də bölünmə meylinin güclənməsi və yeni siyasi partiyaların meydana gəlməsi (Müsavat, AMİP və s.). YAP-ın yaranması və ən nüfuzlu partiyaya çevrilməsi;

-***IV mərhələ*** (1993-cü ilin iyunu-1995-ci ilin noyabrı) H. Əliyevin rəhbərliyi ilə demokratik prinsiplərin təsbit edilməsinin partiyalaşma prosesini sürətləndirməsi və müxtəlif mövqeləri əks etdirən siyasi patiyaların meydana gəlməsi (DİP, MDP, Azərbaycan Naminə Alyans və s.);

-***V mərhələ*** (1995-ci ilin noyabrı-2003-cü ilin oktyabrı) -sosial bazanın zəifliyi ucbatından müxalifətin bloklaşması prosesinin sürətlənməsi);

***VI mərhələ*** (2003-cü ilin oktyabrından indiyədək) – seçkilərdəki ardıcıl məglubiyyətlərdən sonra ənənəvi müxalifət

partiyalarının (AXCP, Müsavat və b.) nüfuzdan düşməsi, yeni siyasi partiyaların ana müxalifət statusu qazanmaq cəhdləri (Ümid Partiyası, Böyük Quruluş Partiyası,VHP və s.).

## *Mövzu 10*
## *Parlament ali qanunvericilik təsisatı kimi*

***Əsas ideya:*** Yüksək seçkili namyəndəli orqan olan, qanunvericilik və icra hakimiyyəti orqanlarının işinə nəzarət etmək funksiyasını həyata keçirən *parlament* öz fəaliyyətini demokratik dəyərlər əsasında həyata keçirən hər bir dövlətin mühüm və zəruri atributudur.

***Məqsədlər:*** parlamentin əlamətlərinin və siyasi sistemdəki rolunun müəyyən edilməsi;
tələbələrə parlamentin səlahiyyətləri və formaları haqqında məlumat vermək;
tələbələri parlamentin işinin təşkili ilə bağlı müxtəlif siyasi-normativ sənədlərlə tanış etmək;
tələbələrdə müqayisəli-analitik təhlil və ümumiləşdirmə vərdişləri formalaşdırmaq;
müxtəlif parlament sistemlərinin müqayisəli təhlilinin verilməsi;
Azərbaycan parlamentinin strukturu, səlahiyyətləri və işinin təşkili haqqında tələbələrə məlumat vermək və s.

***Əsas anlayışlar:*** parlament, parlamentarizm, fraksiya, bikameral, unikameral, impiçment, veto və s.

***I Mərhələ- Motivasiya***

***Problemin qoyulması***

Müəllim tələbələrə aşağıdakı suallara cavab verməyi tapşırır:

-Sizcə, demokratik ölkələrdə hakimiyyət bölgüsü prinsipi vacibdirmi?

-Qanunverici hakimiyyətin – parlamentin əsas vəzifələri hansılardır?

-Ölkəmizdə qanunverici hakimiyyət, icra hakimiyyəti, məhkəmə hakimiyyəti kimə məxsusdur?

Sualların qısa müzakirəsindən sonra müəllim tələbələrin diqqətini tədqiqat suallarının qoyulması məsələsinə yönəldir.

***<u>Tədqiqat sualları</u>***

-Parlamentin strukturu və formalarını təyin edən mühüm ünsür onun palatalarının sayıdır. Bəs palataların sayının müəyyənləşdirilməsi hansı amillərdən asılıdır?

-Sizcə, parlamentin çoxcəhətli funksiyaları içərisində hansı daha vacibdir?

-Parlamentarizm nədir? Onun müsbət və mənfi cəhətləri hansılardır?

-Referendumda qəbul edilmiş qanun ali qüvvəyə malikdir, yoxsa parlamentdə?

-Parlament fraksiyası nədir? Sizcə, parlamentdə müxtəlif fraksiyaların mövcudluğu dövlətin bu əsas orqanının işinin daha səmərəli təşkilinə mane olur, yoxsa, kömək edir?

-Parlament partiyası nə deməkdir? Parlamentdə partiya nümayəndəsi kimi təmsil olunan deputat heç kimlə və heç nə

ilə hesablaşmadan azad fəaliyyət göstərmək imkanına malikdirmi?

-ABŞ-da, Böyük Britaniyada, İtliyada, Rusiyada, Azərbaycanda mövcud olan parlamentarizm təcrübəsini müqayisə edin. Hansı ümumi cəhətləri görmək mümkündür? Əsas fərqlər nədən ibarətdir?

### *II mərhələ*
### *Tədqiqatın aparılması*

*Kiçik qruplarda iş*

Müəllim fərziyyələri yoxlamaq üçün tələbələri qruplara bölür və hər qrupa marker və iri vərəqələr paylayır.

### *III mərhələ*
### *İnformasiya mübadiləsi*

*Qrupların təqdimatı*

Hər bir qrupun nümayəndəsi çıxış edərək, əldə etdiyi nəticə haqqında məlumat verir ki, bu da informasiya mübadiləsinə səbəb olur.

### *IV mərhələ*
### *İnformasiyanın müzakirəsi və təşkili*

Təqdimat mərasimi başa çatdıqdan sonra müəllim auditoriyada ümumi müzakirə keçirə bilər.

## *V Mərhələ*
## *Ümumiləşdirmə və nəticə*

-Parlamentin fəaliyyətinin təşkili əsas etibarı ilə onun təşkilat strukturu və formalarının müəyyən edilməsindən birbaşa asılıdır. Parlamentin palatalarının sayının müəy-yənləşdirilməsi isə ölkənin siyasi rejimindən, ərazi quruluşundan, milli-tarixi ənənələrindən, siyasi qüvvələrin nisbətindən və s. amillərdən asılıdır.

-Qanunverici orqanların icraedici hakimiyyətdən üstünlük təşkil etdiyi dövlətlərdə siyasi hakimiyyət sistemini xarakterizə etmək "***parlamentarizm***" anlayışından istifadə edirlər. Parlamentarizm sistemində qanunverici orqanda çoxluğu qazanan partiya başda baş nazir olmaqla hökuməti təşkil edir. Parlamentarizmin üstün cəhəti onun meydana çıxan dəyişikliklərə reaksiya vermək bacarığında və çevikliyindədir. Proporsional seçki sistemi vasitəsilə formalaşan parlament hökumətləri çoxpartiyalılığa meyl edirlər. Rəqbət aparan partiyalar hakim koalisiya formalaşdırdıqları zaman bu müxtəliflik dialoq prosesi üçün əlverişli şərait yaradır.

Parlamentarizmin başlıca çatışmayan cəhəti qeyri-sabitlikdir. Çünki çoxpartiyalı koalisiya möhkəm olmayanda siyasi böhranın baş vermə ehtimalı artır. Digər tərəfdən bu sistemdə olan baş nazirlərin xalq tərəfindən seçilən liderlər qədər nüfuzu olmur.

-Referendumda qəbul edilmiş qanun parlament tərəfindən qəbul edilmiş qanuna nisbətən daha yüksək siyasi-hüquqi qüvvəyə malik olur. Təsadüfi deyil ki, referendumda qəbul edilmiş akt özünün hüquqi qüvvəsinə görə yalnız Konstitusiyadan sonrakı yerdə dayanır. Konstitusiyadan başqa bütün digər siyasi-hüquqi normalar referendum aktlarına uyğun olmalıdır. Re-

ferendum yolu ilə qəbul edilən qərar hər hansı dövlət orqanı, yaxud vəzifəli şəxs tərəfindən deyil, yalnız bu haqda referendum keçirilməklə ləğv edilə və ya dəyişdirilə bilər. Parlamentin qəbul etdiyi qanun layihəsini isə prezident öz veto hüququndan istifadə edərək ləğv edə və ya dəyişdirə bilər. Məsələn: ABŞ-da Konqres tərəfindən qəbul edilmiş hər bir qanun layihəsi prezidentə göndərilir. Əgər prezident qanun layihəsini bəyənmirsə, o, 10 gün müddətində həmin proyekti imzalayaraq öz təklifləri ilə bir yerdə geri qaytarmalıdır. Əgər qanun layihəsi 10 gün müddətində prezident tərəfindən imzalanmasa və geri qaytarılmasa, o, qüvvəyə minir. Azərbaycan da daxil olmaqla başqa dövlətlərdə də buna oxşar təcrübə mövcuddur. Yalnız müddət fərqli olur: məsələn: Argentinada 10 gün, Rusiyada 14 gün, Cilidə 30 gün, Azərbaycanda 56 gün, Finlandiyada 3 ay və s.

AR Konstitusiyasının 3-cü maddəsinə görə, "Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumda həll edə bilər". Ancaq parlament istənilən məsələ ilə bağlı qanun qəbul etmək iqtidarında deyildir. Məsələn: Konstitusiya aşağıdakı məsələlərin yalnız referendum yolu ilə həll edilməsini mümkün sayır:

1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;

2) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi.

-Parlament üzvlərinin birlikləri hər şeydən əvvəl ümumi partiya mənsubiyyəti əsasında yaradılır və fəaliyyət göstərir. Bu birliklər ayrı-ayrı ölkələrdə müxtəlif cür adlandırıla bilər. Məsələn, Almaniyada "fraksiya", Böyük Britaniyada "parlament partiyaları", İspaniyada "parlament qrupları", Polşada

"deputat klubları", Azərbaycanda "deputat qrupu" ifadələrindən istifadə edilir. Parlament üzvlərinin birlikləri bəzən iki və ya daha çox siyasi partiyanın bloku kimi çıxış edir, bir çox hallarda isə müstəqil (partiya üzvü olmayanlar) parlament üzvləri də onlara qoşulur.

## *Nəzəri material*

Parlament (fransız parler, yəni danışmaq sözündən) – hakimiyyətin ali qanunverici orqanıdır. Təmsilçi hakimiyyət orqanı kimi ilk parlament 1265-ci ildə İngiltərədə hakimiyyətin demokratikləşməsi uğrunda aparılan mübarizənin nəticəsi kimi meydana gəlmişdir.

Parlament öz fəaliyyətini demokratik prinsiplər və dəyərlər əsasında həyata keçirən hər bir dövlətin zəruri atributudur.

Hüquqi dövlətlərdə hakimiyyətin üç qolu – icraedici, qanunverici və məhkəmə hakimiyyəti mövcuddur. Hakimiyyətin hər üç qolu dövlət üçün əhəmiyyətlidir. Amma bu qollar arasında birbaşa seçkili orqan olan parlamentin əhəmiyyəti xüsusilə böyükdür. Buna səbəb odur ki, ölkədə hamının riayət etməli olduğu hüquq normalarını məhz bu orqan yaradır. Parlament əhalinin sosial və siyasi səhətdən fəal qruplarını təmsil edən nümayəndələr hesabına formalaşır və bir sıra ölkələrdə müxtəlif cür: ABŞ və Latın Amerikası ölkələrində (Braziliya, Boliviya, Meksika, Venesuela) Konqres, İsveçdə Riqsdaq, Polşa və Finlandiyada Seym, Norveçdə Stortinq, Macarıstanda Dövlət Məclisi, Türkiyədə Böyük Millət Məclisi, Almaniyada Federal Məclis adlanır.

Demokratik rejimlərdə dövlət hakimiyyəti konstitusiyaya və qanunlara əsaslanmaqla hüquq və azadlıqları nizamlayır, xalqın idarəetmədə fəal iştirakı təmin olunur.

Parlament xalq tərəfindən seçilən və xalqın adından idarə edən təmsilçi orqandır. AR Konstitusiyasının IV maddəsinə əsasən xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Eyni zamanda xalq suveren kimi ümümxalq seçkiləri vasitəsilə öz seçilmiş nümayəndələri üzərində nəzarəti həyata keçirir. Seçilən deputatların səlahiyyətləri və statusu isə konstitusiya ilə müəyyən edilir.

Parlament vasitəsilə demokratiyanın əsas göstəricisi olan plüralizmin siyasi həyatda gerçəkləşdirilməsinə nail olunur. Yəni parlamentdə müxtəlif partiyaların fəaliyyətini, müxtəlif siyasi baxışların və mövqelərinin rəqabətini plüralizmin həyata keçirilməsinin göstəriciləri kimi qeyd etmək olar.

Parlament çoxluğun iradəsini təmsil etdiyindən dövlət hakimiyyətinin legitimləşdirilməsinin ən mühüm vasitəsi hesab olunur. Xalqın seçdiyi nümayəndələri tərəfindən qəbul edilən qanunların icrası hakimiyyətin digər qolları üçün məcburi xarakter daşıyır.

Parlamentlər səlahiyyətlərinə görə üç cür olur:

-məhdud səlahiyyətli parlamentlər. Konstitusiyaya görə parlamentin səlahiyyətinə aid olan məsələlərin dəqiq siyahısının hazırlanması. (İran, İraq və s.)

-qeyri-məhdud səlahiyyətli parlamentlər. Qanunverici orqanın hüquqi baxımdan bu və ya digər məsələlər üzrə qanun

qəbul etmək səlahiyyətində olması (Böyük Britaniya, Yeni Zelandiya, İtaliya, İrlandiya və s.).

-nisbi-məhdud səlahiyyətli parlamentlətlər. Burada parlamentin səlahiyyətləri konstitusiyada dəqiq müəyyənləşdirilsə də, onun bu və ya digər məsələr üzrə səlahiyyətlərinin artırılması üçün mexanizmlər də mövcud olur. (AFR, Hindistan və s.) Azərbaycan Respublikasının parlamenti də bu qrupa daxildir. Belə ki, Konstitusiyanın 94-cü və 95-ci maddələrinin sonuncu bəndində həmin maddələrə əlavələr edilməsinin mümkünlüyü qeyd olunur. Yəni Milli Məclisin səlahiyyətləri istənilən vaxt artırıla bilər.

Parlamentin strukturu və formalarını təyin edən mühüm ünsür onun palatalarının sayıdır. Parlamentin palatalarının sayı onun dövlət hakimiyyəti sistemində yeri və əhəmiyyətini müəyyən etmək baxımından heç də formal xarakter daşımır. Qanunverici orqanın palatalarının sayının müəyyənləşdirilməsi isə ölkənin siyasi rejimindən, ərazi quruluşundan, demokratik durumundan, tarixi ənənələrindən, siyasi və milli qüvvələrin nisbətindən və s. bir çox amillərdən asılıdır.

Parlament strukturuna görə iki cür olur: ikipalatalı (bikameral) və birpalatalı (unikameral) parlamentlər. Federativ dövlətlərdə bir-biri ilə qarşılıqlı əlaqədə olan iki anlayış mövcuddur: bir tərəfdən, bütövlükdə ölkə anlayışı və digər tərəfdən, federasiyanın subyektləri anlayışı (məs: ABŞ-da ştatlar, Rusiya Federasiyasında respublikalar və s). Parlament ölkənin belə quruluşunu uyğun şəkildə əks etdirir: onun palatalarından biri ölkənin və millətin təmsilçiliyi prinsipi, digəri isə federasiya subyektlərinin nümayəndiliyi əsasında formalaşdırılır.

İkipalatalı parlamentə yalnız federativ dövlətlərdə təsadüf edilmir. Unitar dövlətlərdə ikipalatalı parlamentin mövcudluğunun əsl səbəblərini dərk etmək üçün iki məsələyə diqqət yetirilməlidir: birincisi, yuxarı palata necə formalaşır, ikincisi, palataların bir-birinə münasibətdə səlahiyyəti necədir. Əgər yuxarı palata ümumxalq seçkiləri vasitəsilə seçilmir, təyin edilirsə və aşağı palataya nisbətən daha böyük səlahiyyətlərə malikdirsə, bu o deməkdir ki, parlament hakimiyyətin mühafizəkar qanadının maraqlarına uyğun olaraq təşkil edilmişdir.

Parlamentin deputatları toxunulmazlıq hüququna malikdirlər və parlamentdəki çıxışlarına görə məsuliyyətə cəlb oluna bilməzlər. Onlar qanunvericilik təşəbbüsünə, yazılı və şifahi şəkildə ölkənin səlahiyyətli şəxslərindən və hakimiyyət orqanlarından məlumat almaq hüququna malikdirlər. Parlament sistemli dövlətlərdə seçkilərdə qələbə qazanmış və parlamentdə çoxluq təşkil edən partiya və ya onların koalisiyası nazirlər kabinetini formalaşdırır, aparıcı çoxluğun seçdiyi şəxs isə hökumət rəhbəri olur. Bu cür sistemdə öz partiyalarında yüksək nüfuza malik deputatlar öz mandatlarını saxlamaqla yanaşı, nazir vəzifəsinə də təyin edilmək imkanına malik olurlar.

Parlamentin əsas funksiyaları aşagıdakılardır:

-qanunvericilik fəaliyyəti;

-icra hakimiyyəti orqanlarını təyin etmək və onların fəaliyyətinə nəzarət;

-bu və ya digər məsələlər üzrə ümumi qaydaları müəyyən etmək;

-maliyyə siyasəti və dövlət gəlirlərinin tənzimlənməsi;

-dövlət büdcəsinin təsdiq edilməsi və ona nəzarət;

-siyasətin müəyyən edilməsi və ya siyasi xəttin rəsmən təsdiqi;

-ictimai rəyə təsir;

-qanunların həyata keçirilməsi prosesinə nəzarət;

-impiçment proseduru (vəzifədən uzaqlaşdırmaq, hər hansı fəxri ad almaq hüququndan məhrum etmək) və s.

Azərbaycanda qanunvericiliyin təməl prinsipi olan parlamentin formalaşması Azərbaycan Xalq Cümhuriyyətinin dövrünə təsadüf edir. 1918-ci il dekabrın 7-də Bakıda açılan ilk Azərbaycan Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov olmuşdur.

Özünün 17 aylıq qısa fəaliyyəti dövründə parlament vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin yaradılması haqqında qanunları müzakirə edərək qəbul etmişdir.

Təəssüflər olsun ki, 1920-ci il aprelin 28-də AXC-nin süqutu ilə Azərbaycanda milli parlamentçilik təcrübəsi 70 il fasilə verməli oldu.

AR-in 1995-ci il noyabrın 12-də qəbul olunan Konstitusiyası ölkəmizdə parlamentin təşkilinin əsas qaydalarını və prinsiplərini təsbit etdi. Konstitusiyaya əsasən, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini 125 deputatdan ibarət olan birpalatalı Milli Məclis həyata keçirir. Deputatlar majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Milli Məclisin hər çağırışının seçkiləri beş ildən bir noyabr ayının birinci bazar günü ke-

çirilir. Milli Məclisdə hər il iki növbəti yaz və payız sessiyaları keçirilir. Seçkilər günü 18 yaşı tamam olan və yaşı 18-dən çox olan Azərbaycan Respublikasının vətəndaşları Milli Məclisə deputat seçilə bilərlər.

Milli Məclisin sessiyaları iki növə bölünür: növbəti və növbədənkənar. Növbəti sessiya qanunvericilikdə müəyyənləşdirilmiş ardıcıllıqla keçirilən sessiyadır. Növbədənkənar sessiyalar, qanunvericilikdə nəzərdə tutulmuş müddətdən daha tez keçirilən sessiyalardır. Növbədənkənar sessiya prezidentin və ya 42 deputatın tələbi əsasında çağrılır.

Yaz sessiyası fevralın 1-dən mayın 31-dək, payız sessiyası isə senyabrın 30-dan dekabrın 30-dək davam edir. Sessiyanın seçkidən sonra başlanması üçün 83 deputatın səlahiyyətinin təsdiq olunması zəruridir. Bu cür say məhdudiyyətinin tətbiq edilməsinda başlıca məqsəd hər hansı azlğın parlament adından danışması və onun funksiyalarını yerinə yetirməyə cəhd etməsinin qarşısını almaqdan ibarətdir.

Azərbaycan Respublikasının Konstitusiyasında Milli Məclisin səlahiyyətinə aid edilən məsələlər 94 və 95-ci maddələrdə öz əksini tapmışdır.

Daxili nizamnaməyə görə Milli Məclis öz fəaliyyətində aşağıdakı prinsipləri üstün tutur:

–aşkarlıq;

–siyasi plüralizm, çoxpartiyalılıq;

–məsələlərin sərbəst müzakirə və müstəqil həll olunması.

Qanunvericilik təşəbbüsü dedikdə səlahiyyətli subyektin qanun layihəsini və ya qanuna dair təkliflərini parlamentin səlahiyyətli orqanına rəsmi surətdə təqdim etməsi başa düşülür. Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik

təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) 96-cı maddəyə əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına, Azərbaycan Respublikası Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur.

2016-cı il ilin 26 sentyabrında Konstitusiyaya edilən yeni dəyişikliyə görə, Milli Məclis kollegial qurumların işini pozarsa, bir il ərzində iki dəfə Nazirlər Kabinetinə etimadsızlıq göstərərsə, Ali Məhkəmə, Konstitusiya Məhkəməsi hakimlərinin, hökumətin formalaşmasının əleyhinə səs verərsə, AR Prezidenti parlamenti buraxmaq səlahiyyətinə malikdir. Çünki Milli Məclisin əslində bilərəkdən hər dəfə Prezidentin təklif və qanunvericilik təşəbbüsünə qarşı çıxması dövlət orqanlarının işinin pozulmasına və dövlət idarəçiliyində ciddi boşluq yaranmasına səbəb ola bilər.

## *Mövzu 11*
## *Seçkilər, seçki sistemləri və seçki texnologiyaları*

***Əsas ideya*: *Seçkilər*** demokratiyanın məhək daşı sayılan xalq suverenliyi ideyasını reallığa çevirən başlıca vasitədir. Demokratik seçkilər yalnız inkişaf etmiş vətəndaş cəmiyyəti şəraitində həyata keçirilə bilər. Hər bir insanın öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququ vardır. Bunun üçün insanın seçmək və seçilmək hüququ olmalıdır.

***Məqsədlər*:** tələbələrin seçki hüququ və bütövlükdə seçki prosesi, onun əsas mərhələləri və s. ilə bağlı təsəvvürlərinin zənginləşdirmək və onlarda dövlət idarəçiliyində iştirak vərdişləri formalaşdırmaq;
tələbələri modelləşdirilmiş seçki prosesi ilə tanış etmək;
seçkilərdə iştirakın zəruriliyini əsaslandırmaqla tələbələrdə vətəndaş məsuliyyəti hissinin formalaşdırılmasına əsaslar yaratmaq.

***Əsas anlayışlar*:** seçkilər, aktiv və passiv seçki hüququ, obyektiv və subyektiv seçki hüququ, seçkiqabağı kampaniya, təbliğat, təşviqat, absenteizm, majoritar, proporsional, seçkiqabağı kampaniya, və s.

### *Imərhələ-Motivasiya.*
### *Problemin qoyulması*

Müəllim tələbələrə aşağıdakı suallara cavab verməyi təklif edə bilər:

-Seçki nədir? Seçkilərdə iştirakın insanın vəzifəsi sayılması nöqteyi-nəzəri hansı konsepsiyaya əsaslanır? Siz seçkilərdə iştirakın seçicinin hüququ kimi təsdiq edilməsinin tərəfdarısınız, yoxsa vəzifəsi kimi? Fikirlərinizi əsaslandırın.

-Sizə hansı seçki sistemləri məlumdur? Onların bir-birindən fərqli cəhətləri hansılardır?

Sualların qısa müzakirəsindən sonra müəllim tələbələri tədqiqat suallarının qoyulması məsələsinə yönəldir.

### ***Tədqiqat sualları***

Əgər seçkilər demokratiyanın, xalq hakimiyyətinin reallaşmasının mühüm atributudursa, onda dövlət hakimiyyəti orqanlarını seçki yolu ilə formalaşdıran ölkələrin hamısını demokratik hesab etmək olarmı?

Aktiv və passiv seçki hüququ nə deməkdir? Seçki hüququna məhdudiyyətlərin qoyulması sizcə qanunidirmi? Əgər bu belədirsə, hansı məhdudiyyətləri məqsəduyğun hesab edirsiniz?

Necə hesab edirsiniz, başqa ölkənin vətəndaşı sizin ölkənin prezidenti ola bilərmi?

Sizcə, ölkəmizin tarix ənənələrinə, milli xüsusiyyətlərinə və siyasi mədəniyyətinə seçki sisteminin hansı kompromis variantı daha çox uyğun gəlir?

Majoritar və proporsional seçki sisteminin üstün və mənfi cəhətləri hansılardır?

Müasir nümunələrlə Stalinin məşhur "seçkilərdə kimin səsverməsi deyil, kimin sayması önəmlidir" aforizmini tənqidi cəhətdən təhlil etməyə çalışın.

Azərbaycanda keçirilən son bələdiyyə, parlament və prezident seçkilərində ölkəmizin əvvəlkilərlə müqayisədə daha böyük irəliləyişlərə nail olmasını hansı amillərlə izah etmək olar?

***II mərhələ***

***Tədqiqatın aparılması***

*Kiçik qruplarda iş*

Müəllim fərziyyələri yoxlamaq üçün tələbələri qruplara bölür və hər qrupa marker və iri vərəqələr paylayır.

Majoritar və proporsional seçki sisteminin üstün və mənfi cəhətləri hansılardır? – sualı ilə bağlı tələbələrin mülahizələrini yoxlamaq üçün müəllim fəal təlimin "debat" üsulundan istifadə edə bilər.

***Debat***

Hələantik dünyada mövcud olan debat açıq cəmiyyət məfhumu ilə sıx bağlı olmuşdur. Afina əhalisi günün ən əsas problemlərini müzakirə etmək üçün forumlara yığışırdılar.

Diskussiyanın yalnız bir-birinə opponentlik edən tərəflərin arasında keçirildiyi mübahisə, müzakirə, rəy mübadiləsi kimi formalarından fərqli olaraq, debatlarlarda opponenti de-

yil, üçüncü tərəfi inandırmağa çalışılır. Sonuncunun vəziəsi isə hər bir tərəfin mövqeyini dinləyib, öz seçimini etməkdən ibarətdir. Vahid ideologiyanın hökm sürdüyü, ciddi senzuranın mövcud olduğu totalitar və avtoritar rejimlərdən fərqli olaraq, demokratik cəmiyyətlər rəqabətdən, azad və açıq fikir mübadiləsindən asılı olur. Yəni demokratiyanı debatsız–mühakimə və sübutsuz təsəvvür etmək mümkün deyil. Debatlar hadisələrə müxtəlif nöqteyi-nəzərdən baxmağı, ideyaları şübhə altına almağı, arqumentlərdən və faktlardan məntiqi şəkildə istifadə etməyi öyrədir. İstər elmdə, istərsə də siyasi həyatda mühüm nailiyyətlər əldə etmək üçün öz fikrini ifadə etmək və opponentlərin müddəalarını inkar etmək bacarığı əsas şərtdir. Tələbələr debat aparmaq vərdişlərinə yiyələnməklə cəmiyyətdə baş verən hadisələri analiz etməyi və öz fikirlərini əsaslandırmağı öyrənirlər.

**Majoritar seçki sistemi üstündür, yoxsa proprsional?**

Mövzunun qoyulması zamanı aşağıdakı tələblərə əməl edilməlidir:

-mövzu kifayət qədər aktual olmalıdır;

-mövzu maraqlı və mövzuya birbaşa aid olmalıdır;

-mövzu xarakterinə görə “münaqişəli” olmalıdır;

-mövzu elə olmalıdır ki, heç bir mövqeyin üstünlüyü hiss edilməsin və s.

Tələbələr qabaqlayıcı tapşırıq qismində mövzu üzrə müvafiq informasiyalardan (müxtəlif sənədlərdən, statistik materiallardan, faktlardan, sitatlardan, müəllimin mühazirə mətnindən və internetdən) istifadə edə bilərlər.

Debatların mövzusu üzrə tələbələrin aşağıdakı anlayışlarla tanış edilməsi zəruridir:

**Aktiv seçki hüququ -** seçmək, yəni müəyyən namizədin lehinə səs vermək hüququdur.

**Passiv seçki hüququ -** seçkili orqanlara seçilmək hüququdur.

**Majoritar seçki sistemi -** seçicilər ölkə üzrə bölünmüş təkmandatlı seçki dairələrində ayrı-ayrı namizədlərə səs verirlər.

**Proporsional seçki sistemi -** seçki çoxmandatlı dairələrdə aparılır, seçicilər partiyalara və partiyaların təqdim etdiyi namizədlərə səs verirlər.

### *Mövzu ilə bağlı arqumentlərin irəli sürülməsi*

Tələbələr "T-diaqram"üsulunun köməyi ilə dəlilləri "təsdiq" və "inkar" mövqeləri üzrə müəyyən edirlər.

| İnkar dəlilləri | Təsdiq dəlilləri |
|---|---|
| | |

Bu mərhələ qrupların irəli sürülmüş arqumentləri əsaslandırmasından, inandırıcı dəlillər və faktlar göstərməsindən, əsaslı nəticələrə gəlməsindən ibarətdir. Qruplar öz dəlillərini əsaslandırmaq üçün əvvəlcədən hazırladıqları faktlardan, nümunələrdən, mütəxəssislərin fikir və rəylərindən, istifadə edə bilərlər.

Müəllimin vəzifəsi bu mövqenin hansının daha inandırıcı olmasını öz şəxsi mövqeyindən asılı olmayaraq müəyyən etməkdir.

### *III mərhələ*
### *İnformasiya mübadiləsi*

*Qrupların təqdimatı*

Hər bir qrupun nümayəndəsi çıxış edərək, əldə etdiyi nəticə haqqında məlumat verir ki, bu da informasiya mübadiləsinə səbəb olur.

### *IV mərhələ*
### *İnformasiyanın müzakirəsi və təşkili*

Təqdimat mərasimi başa çatdıqdan sonra müəllim auditoriyada ümumi müzakirə keçirə bilər.

### *V mərhələ*
### *Ümumiləşdirmə və nəticə*

Seçki – səsvermə yolu ilə nümayəndəli siyasi hakimiyyətin formalaşdırılması vasitəsidir. Seçkilərin köməyi ilə vətəndaşlar konkret namizədlərə səs verməklə dövlətin idarə olunması ilə bilavasitə məşgul olan nümayəndələrini seçir və qanunvericilik, yaxud icra hakimiyyətini həyata keçirmək üçün onlara səlahiyyət verirlər. Məhz seçkilərdə hər bir vətəndaş öz

iradəsini ifadə etməklə ən mühüm insan hüquqlarından birini gerçəkləşdirmiş olur.

Əgər səsvermədə iştirak seçicilərin hüququ olaraq nəzərdən keçirilirsə, onda səsvermə könüllülük prinsipinə əsaslanır, yəni konkret seçicinin səsverməsi məcbur hesab edilmir. Əksinə, səsvermədə iştirak vəzifə hesab edilirsə, onda bu, məcburi xarakter kəsb edir.

Demokratik seçkilər əsasən rəqabətə imkan verilməsi ilə səciyyələnir. Rəqabət müxalifətə təkcə seçkilərdə iştirak imkanının tanınması  kimi başa düşülməməlidir. Müxalifətin sosial media və televiziyadan kənar edildiyi, onun seçicilərlə görüşünün qadağan olunduğu seçkilər demokratik hesab oluna bilməz.

Demokratik seçkilər vaxtaşırı–dövri olmalıdır. Seçkilərin dövriliyi seçkili orqanların səlahiyyət müddəti ilə müəyyən edilir. Dövrilik, bir tərəfdən, seçkili orqanların tərkibində davamlı olaraq dəyişikliklərin aparılmasını şərtləndirir, digər tərəfdən, seçilən şəxslərin öz seçicilərinin maraqlarını nəzərə almasına səbəb olur ki, bu da onların məsuliyyətini daha da artırır.

Demokratik seçkilərə inkişaf etmiş vətəndaş cəmiyyəti şəraitində nail olmaq mümkündür. Çünki, dövlətin və vətəndaş cəmiyyətinin qarşılıqlı əlaqəsi, onların arasındakı münasibətlərin xarakteri seçkilərin necə keçiriləcəyinə birbaşa təsir göstərir.

Konstitusiya və seçki qanunları ilə seçki hüquqları tanınan şəxslərin dairəsi senzlərlə, yəni xüsusi şərtlərlə məhdudlaşdırılır. Seçki senzləri içərisində ən əhəmiyyətlisi yaş senzidir. Yəni hər bir insan müəyyən yaş həddinə çatdıqdan sonra

onun seçki hüququ tanınır. Dünya ölkələrinin böyük əksəriyyətində, o cümlədən Azərbaycanda seçici olmaq hüququ 18 yaş tamam olduqdan sonra, bəzilərində isə daha yüksək (məsələn Avstriyada 19 yaş, Mərakeşdə 20 yaş, Latviyada 21 yaş) və daha aşağı (İranda, Kubada 16 yaş) həddində tanınır. Passiv seçki hüququ üçün yaş senzi daha yüksək və müxtəlif ölkələrdə fərqlidir. Məsələn, ABŞ-da prezident olmaq üçün 35 yaşa, Almaniyada 40 yaşa, İtaliyada isə 50 yaşa, Polşa Seymində deputat olmaq üçün 21 yaşa, Azərbaycan Milli Məclisində deputat olmaq üçün 18 yaşa, Braziliya və Fransada ali qanunverici palatalara seçilmək üçün 35 yaşa, Liviya və Türkiyədə isə 40 yaşa çatmaq lazımdır.

Oturaqlıq senzinin mahiyyəti ondan ibarətdir ki, şəxsin səsvermə hüququ hər hansı ölkədə və ya regionda müəyyən olunmuş müddət ərzində yaşadıqda təmin edilir. Məsələn, bu müddət Almaniyada 3 ay, Fransada 6 ay, Böyük Britaniyada isə 12 ay təşkil edir. Bu senzin müəyyən edilməsində məqsəd seçicinin yerli problemlərlə tanışlığını təmin etməkdir. Azərbaycanda yalnız prezident seçilmək üçün ölkə vətəndaşlarının respublika ərazisində 10 ildən artıq daimi yaşaması məcburidir. Belə ki, AR Konstitusiyasının 100-cü maddəsinə əsasən, yaşı otuz beşdən aşağı olmayan, AR-in ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan AR vətəndaşı AR-in Prezidenti seçilə bilər.

Formaca oturaqlıq senzinə yaxın olan, lakin məzmunca kəskin surətdə ondan fərqlənən vətəndaşlıq senzi müəyyən

edilmiş minimum müddətdə dövlətin vətəndaşı olmaq tələbini özündə ehtiva edir. Bu senz ölkə ərazisində yaşamanı tələb etmir.

***Majoritar seçki sisteminin üstünlükləri bunlardır:***

1. Seçicilərlə namizədlər arasında birbaşa ünsiyyətin yaranması.

2. Parlamentdə daha güclü partiyaların üstünlük qazanması.

3. Parlamentdə şəxsiyyətin rolunun güclənməsi.

4. Siyasi sabitlik, parlamentdə partiyalar arasında çəkişmələrin, hökumət böhranlarının məhdud xarakteri.

5. Hakimiyyətlə xalq arasında daha konkret və birbaşa münasibətin yaranmasına imkan verməsi.

***Majoritar seçki sisteminin çatışmazlıqları bunlardır:***

1. Regional və qrup mənafelərinin güclənməsi.

2. Səslərin itkisi ehtimallarının artması.

3. Syasi partiyaların hakimiyyət strukturlarında təmsilçilik dərəcəsinin aşağı düşməsi.

***Proporsional seçki sisteminin üstünlükləri bunlardır:***

1. Seçicilərin siyasi fəallığının artması.

2. Çoxpartiyalılığın və pluralizmin inkişafı.

3. Ümumdövlət mənafelərinin üstünlük təşkil etməsini şərtləndirməsi.

***Proporsional seçki sisteminin çatışmazlıqları bunlardır:***

1. Ölkədə partiyaların çoxalmasını və xırdalanmasını stimullaşdırması.

2. Parlamentdə partiyalar arasında çəkişmələrin, hökumət böhranlarının geniş hal alması.

3. Deputatların xalqdan deyil, partiyadan asılılığının artması.

4. Seçici ilə mandat almış deputatın qarşılıqlı əlaqəsinin məhdudlaşdırılması

5. Namizədlərin siyahısı partiyada bürokratik və inzibati yolla müəyyənləşdirildiyi üçün xalqın mənafeyini tam əks etdirməməsi.

Majoritar seçki sistemi ölkədə qüvvələr nisbətində balans yaradılmasına, parlamentdə daha daha güclü partiyaların üstünlük qazanmasına səbəb olur. Ölkədə real gücü təmsil edə bilməyən partiyalar majoritar sistemin tətbiqi ilə parlamentdən kənarda qalırlar. Parlamentdə təmsil olunmuş iki-üç partiya arasında təxmini qüvvələr tarazlığının təmin edilməsi ehtimalı yüksək olduğundan, daha sabit hökumət qurulması imkanları da artır. Daha sabit siyasi rejimlər qura bilmiş demokratik ölkələrdə, o cümlədən Azərbaycanda bu sistemin tətbiqi nəticəsində əldə olunmuş nailiyyətlər və siyasi sabitlik deyilənləri bir daha təsdiq edir.

### ***Nəzəri material***

Hazırda siyasi leksikonda ən çox rast gəldiyimiz "seçki" anlayışı demokratiya üçün barometr rolunu oynayır, çünki demokratik rejimlərdə hakimiyyət yalnız idarəedənlərin razılığı üzərində qurulur. Bu razılığı reallığa çevirməyin əsas mexanizmi kimi isə seçkilər çıxış edir. Azad və ədalətli seçkilər olmayan yerdə demokratiyadan danışmağa dəyməz, yəni

demokratiya elə bir idarə formasıdır ki, orada hakimiyyət xalqın seçdiyi nümayəndələr vasitəsilə idarə olunur.

Seçkilər cəmiyyətin siyasi həyatının güzgüsüdür. Seçkilər müxtəlif siyasi partiya və təşkilatların cəmiyyətdəki nüfuzunu, seçicilərin maraqlarını, cəmiyyətdəki siyasi ab-havanı aşkar etməyə imkan verir. Seçkilər siyasi liderlərin fərqləndirilməsinə, onlardan ən layiqlisinin hakimiyyətdə təmsil olunmasına və öz seçicilərinin tələbat və mənafeyini ifadə etməsinə şərait yaradır. Cəmiyyət yeknəsəq olmadığı kimi, orada təmsil olunan müxtəlif təbəqələrin də maraqları bir-birindən kəskin şəkildə fərqlənir. Seçkilər həmin təbəqələrin bir-biri ilə sağlam rəqbət aparmasına, siyasi kompromisə və hakimiyyət dəyişikliyinin sivil yolla gerçəkləşməsinə şərait yaradır.

Seçkilər əhalinin siyasi fəallığının yüksəlməsinə, xalqın özünü hakimiyyətin mənbəyi kimi təsdiq etməsinə şərait yaradır. Seçkilərin gedişində hər bir vətəndaş öz siyasi mövqeyini dəqiqləşdirir, hər hansı partiyaya və ya namizədə səs verməklə öz mənafeyini gerçəkləşdirməyə çalışır.

Seçki siyasi elitanı və hakimiyyəti formalaşdıran, onu yeniləşdirən əsas mexanizmdir.

Müasir demokratiyanın mühüm atributu kimi ümumi seçki hüququ əsasında həyata keçirilən seçkilər qəbul edilir. Obyektiv mənada seçki hüququ dedikdə, seçki münasibətlərini tənzimləyən hüquqi normaların məcmusu başa düşülür. (məsələn, konstitusiya, seçki məcəlləsi və s.) Subyektiv mənada isə bu hüquq konkret şəxslərin seçkilərdə iştirak etmək, yəni dövlət və özünüidarəetmə orqanlarına seçmək və seçilmək hüququnu nəzərdə tutur.

Seçki hüququ aktiv və passiv olmaqla iki yerə bölünür. Aktiv seçki hüququ dövlət hakimiyyəti orqanlarının üçün əhalinin səsvermədə iştirak etmək hüququnu nəzərdə tutur. Passiv seçki hüququ isə ayrı-ayrı fərdlərin hakimiyyət orqanlarına və seçkili vəzifələrə öz namizədliyini irəli sürmək imkanında ifadə olunur.

Bundan əlavə seçki hüququ bunları özündə ehtiva edir: seçkili orqanların təşkilində iştirak, namizəd irəli sürmək, seçkili nümayəndələrin və vəzifəli şəxslərin geri çağırılması barədə təşəbbüslə çıxış etmək, seçkilərin nəticələrinə etiraz etmək, bu nəticələr barədə mübahisə etmək hüquqları və s.

Hal-hazırda bir neçə istisnalarla (məsələn Çində parlament üzvünü, Avstriyada isə prezidenti geri çagırmaq olar) geri çağırma institutu heç bir dövlətdə seçkili mərkəzi hakimiyyət orqanları barədə nəzərdə tutulmamışdır. Yalnız bəzi ölkələrin yerli özünüidarəetmə orqanlarının üzvlərinin və yerli seçkili vəzifələr tutan şəxslərin geri çagırılması nəzərdə tutulmuşdur.(məsələn Yaponiyada,ABŞ-ın bəziu ştatlarında və s.)

Dünya praktikasında qəbul edilmiş bölgüyə əsasən, seçki hüququnun mühüm prinsipləri onun ümumiliyi, azadlığı, bərabərliyi və məxfiliyidir.

Ümumi seçki hüququ o deməkdir ki, bu hüquqlar müəyyən yaşa çatmış və psixi cəhətdən sağlam olan bütün vətəndaşlara məxsusdur. AR Seçki Məcəlləsinin III maddəsində göstərilir ki, “irqindən, mülkiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən... asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır”.

Vətəndaşların seçki hüquqlarının mühüm prinsiplərindən biri də onun azad olmasıdır. Azad seçki prinsipi o deməkdir ki, vətəndaşlar seçki prosesində iştirak edib-etməyəcəklərini sərbəst şəkildə müəyyən edirlər. Başqa sözlə desək, seçici seçkilərdə öz iradəsinə və arzusuna uyğun şəkildə iştirak edir.

Seçki hüququnun fundamental əhəmiyyətli prinsiplərindən biri də bərabərlikdir. Bu ideyanın əsas məğzi ondan ibarətdir ki, hər bir seçici eyni sayda səsə malik olmalı və seçkinin nəticələri bütün insanlara bərabər surətdə təsir etməlidir. Əgər hər hansı sosial qrup seçkilərdə müəyyən imtiyazlara malikdirsə, onda həmin ölkədə bərabər seçki hüququ prinsipinin mövcudluğundan danışmağa dəyməz. Yəni sosial və siyasi əlamətlərə görə vətəndaşların seçkidə iştirakdan məhrum edildiyi ölkələrdə ümümi seçki hüququ prinsipi mövcud ola bilməz. Vaxtilə Vyetnam, Monqolustan və Rumıniyada mövcud olmuş bu hal hazırda Çində hələ də qalmaqda davam edir. Belə ki, Çində Ümumçin Xalq Nümayəndələri Məclisinə bir deputat kənd əhalisi ilə müqayisədə səkkiz dəfə az olan şəhər əhalisindən seçilir. Çində belə qeyri-bərabərlik kəndli ölkəsində fəhlə sinfinin rəhbər rolunun möhkəmləndirilməsi zərurəti ilə izah olunur.

Aşagıdakı şərtlər mövcud olduqda bərabər seçki hüququ prinsipi təmin olunmuş hesab edilir:

1.Əgər seçkilərdə hər bir seçicionin bərabər səsi varsa. ABŞ alimləri D.Bitem və K.Boyl yazırlar: "Seçkilər siyasi b-ərabərliyi və vətəndaşların dövlət vəzifələrinə bərabər buraxılmasını təmin etməklə yanaşı, həm də onların səslərinin bərabər qiymətləndirilməsini təmin edirlər". Əksər ölkələrdə hər bir seçici bir səsə malik olur. Lakin hər seçicinin iki və daha artıq

səsə malik oldugu ölkələr də vardır. Məsələn AFR-də hər bir seçicinin iki səsi var: parlamentin aşagı palatasına seçkilərdə səslərdən biri partiya siyahısına, ikincisi isə seçki dairəsi üzrə konkret namizədə verilir. Lakin bu prinsipin əsas mahiyyəti seçicinin səsinin sdayı yox,bütün seçicilərin eyni sayda səsə malik olmasıdır.

2.Seçki hüququnun bərabərliyi eyni zamanda vahid nümayəndəlik prinsipi ilə təmin edilir. Bu o deməkdir ki, hər bir deputat mandatına bərabər sayda əhali uyğun gəlir və adekvat seçki dairələri yaradılır. Əlbəttə ki, tam bərabərliyi təmin etmək qeyri-mümkündür. Bu səbəbdən seçki qanunvericiliyi seçki dairələrinin əhalisinin sayında müəyyən faiz daxilində qeyri-bərabərliyi məqbul sayır. Məsələn, bu fərqlərin ölçüsü ABŞ-da 2%, Azərbaycanda 5-10%, Ukraynada 12%, Rusiyada 20-30%, Almaniya və Litvada 25%-dir.

Azərbaycan Respublikasının Konstitusiyası və Seçki Məcəlləsi də vətəndaşların seçki hüququnun bərabərliyini birmənalı şəkildə təsbit edir.

Səsvermənin məxfilik prinsipi insanı, onun öz iradəsini sərbəst ifadə etməsi zamanı hər cür müdaxilədən real surətdə müdafiə edir. Seçki hüququnun məxfilik prinsipi müxtəlif üsullarla – səsvermə kabinəsinə heç kəsin buraxılmaması, seçki zərfindən istifadə və s. ilə təmin olunur.

Seçkilərdə səsvermədə iştirak edən şəxslərin məcmusuna elektorat deyilir. Elektoratın özünün də üç növü mövcuddur:

–Potensial elektorat, yəni səsvermədə iştirak etmək hüququna malik olan, seçkilərdə iştirak edib-etməməsindən asılı olmayaraq qanunvericiliyin bütün şərtlərini ödəyən şəxslərin məcmusu;

–Hüquqi-yuridik elektorat, yəni seçici kimi dövlət orqanları tərəfindən qeydə alınmış şəxslərin məcmusu;

–Faktiki elektorat–seçkilərdə səs verən şəxslərin məcmusu.

Vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında iştirakını təmin edən seçkilərin nəticələri çox vaxt seçki sistemlərinin xususiyyətlərindən asılı olur. Aşağıdakı seçki sistemləri mövcuddur:

–majoritar;

–proprosional;

–qarışıq.

"Majoritar" sözü fransız dilindən tərcümədə çoxluq mənasını verir. Bu sistemdə çoxluğun səsini qazanan seçilir. Majoritar sistemin özünün də aşağıdakı növləri vardır:

1) İxtisaslaşdırılmış majoritar
2) Mütləq majoritar
3) Nisbi majoritar.

İxtisaslaşdırılmış sistemdə seçicilərin daha böyük səs çoxluğu tələb olunur. Məsələn, 2002-ci il Referendumunadək, AR Konstitusiyasının 101-ci maddəsinin ikinci bəndinə əsasən, Prezident seçilmək üçün səsvermədə iştirak edən seçicilərin 2/3-sinin səs çoxluğunu toplamaq tələb olunurdu.

Mütləq majoritar sistemdə isə seçicilərin ümumi sayının yarıdan çoxunun səsini qazanmaq tələb olunur. Mütləq majoritar sistemdə seçicilərin yarıdan çoxunun səsini qazanmaq çətin olduğundan seçkilrədə ikinci turun keçirilməsi qaçılmaz olur. İkinci turda artıq birinci torda ən çox səs toplayan iki namizəd iştirak edir və bu zaman seçki prosesi nisbi majoritar sistem əsasında həyata keçirilir.

Nisbi majoritar sistemdə isə digər namizədlərə nisbətən daha çox səs toplayan şəxs seçilmiş sayılır.

Azərbaycanda 2003-cü ildə qəbul olunmuş yeni Seçki Məcəlləsi və ona sonradan edilən əlavə və dəyişikliklər ölkəmizdə demokratik seçki mühitinin formalaşması üçün əsaslı zəmin yaratmışdır. Bu Seçki Məsəlləsinin ən üstün cəhəti ondan ibarətdir ki, burada Qərb demokratiyasının müsbət ənənələri milli təcrübə ilə dialektik vəhdətdə əks olunmuşdur.

AR Seçki Məcəlləsinə əsasən, ölkəmizdə vətəndaşların seçkidə iştirakı məcburi xarakter daşımır, yəni seçkidən yayınmaya görə qanunvericilikdə cəza nəzərdə tutulmur. Ölkə Konstitusiyası ikili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi olan, icraedici və məhkəmə hakimiyyəti sistemində işləyənlərin,din xadimlərinin, fəaliyyət qabiliyyəti olmayanların, məhkəmə hökmü ilə cəzaçəkmə yerlərində olanların, azadlıqdan məhrum edilmiş şəxslərin parlamentə seçilməsini qadağan edir. (Maddə 85) Konstitusiyaya görə, parlament seçkiləri 5 ildən bir keçirilir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə 5dəfə (1995,2000,2005,2010,2015) parlament seçkiləri keçirilib. Bu seçkilərdən əvvəlki ikisi qarışıq sistem əsasında aparılıb. Sonuncu iki seçki isə birmandatlı, yəni majoritar seçki əsasında keçirilib.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə 7 dəfə prezident, 4 dəfə bələdiyyə seçkiləri keçirilmişdir.

Vətəndaşların dövlətin idarə olunmasında birbaşa iştirakının ən geniş yayılmış formalarından biri də referendumdur. (latın dilindən tərcümədə xəbər verilməli olan deməkdir) Referendum dedikdə ən mühüm dövlət və ictimai əhəmiyyətli

məsələlərinin ümumxalq səsverməsinə çıxarılması başa düşülür. Ümumxalq səsverməsi vasitəsilə qərarların qəbul edilməsinin mexanizminin tarixi çox qədim olsa da, ilk "müasir" referendum 1439-cu ildə Berndə keçirilmişdir. Hazırda referendum xalq hakimiyyətinin tamlığını, vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında iştirakını təmin edən demokratik institut kimi olduqca böyük əhəmiyyətə malikdir. Seçkilərdən fərqli olaraq, referendumda insanlar hər hansı bir vəzifəli şəxsin mandatına yox, müəyyən bir məsələnin həllinə səs verirlər. Referendumda seçicilər aralıq mərhələ olmadan müzakirəyə çıxarılan məsələnin ya lehinə, ya da əleyhinə səs verirlər. Referendumda qəbul olunmuş qərar xalqın iradə ifadəsinin ən yüksək forması hesab edilir. Referendumda qəbul edilmiş qanun parlamentin qəbul etdiyi qanuna nisbətən daha yüksək siyasi-hüquqi qüvvəyə malikdir. Çünki referendumda qəbul edilmiş akt özünün hüquqi qüvvəsinə görə yalnız Konstitusiyadan sonrakı yerdə dayanır. Konstitusiyadan başqa bütün digər siyasi-hüquqi normalar referendum aktlarına uyğun olmalıdır. Referendum yolu ilə qəbul edilən qərar hər hansı dövlət orqanı, yaxud vəzifəli şəxs tərəfindən deyil, yalnız bu haqda referendum keçirilməklə ləğv edilə və ya dəyişdirilə bilər. Parlamentin qəbul etdiyi qanun layihəsini isə prezident öz veto hüququndan istifadə edərək ləğv edə və ya dəyişdirə bilər.

Əsas Qanunun 3-cü maddəsinə görə, "Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə baglı olan hər bir məsələni referendumda həll edə bilər". Ancaq parlament istənilən məsələ ilə bağlı qanun qəbul etmək iqtidarında deyildir. Məsələn, Konstitusiya aşagıdakı məsələlərin yalnız referendum yolu ilə həll edilməsini mümkün sayır:

1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;

2) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi. Qeyd edilən məsələlərin həlli idarəçilikdə xalqın iştirakına müstəsna xarakter verir. Həmin məsələlər xalqın taleyüklü problemləri oldugundan onlar barədə hər hansı dövlət orqanı deyil, yalnız xalq qərar vermək səlahiyyətinə malikdir.

Xalqın öz iradəsini bilavasitə səsverməklə həyata keçirərək hər hansı məsələyə hüquqi qüvvə verməsi plebissit (latınca "plebs və citum" – "sadə xalqın qərarı" deməkdir) vasitəsilə də reallaşa bilər. Hüquqi baxımdan referendum və plebissit arasında fərq yoxdur. Ancaq mahiyyət fərqi ondan ibarətdir ki, adətən region üçün tale əhəmiyyətli məsələlər üzrə keçirilən referenduma plebissit deyilir. Azərbaycan qanunvericiliyində də plebissit referendumun bir növü sayılır. Maraqlıdır ki, dünyanın bəzi ölkələrində federasiyanın subyektləri və kiçik inzibati ərazi vahidləri tərəfindən həyata keçirilən plebissitə daha geniş yer verilir. Məsələn, ABŞ, Kanada, Avstraliya və Almaniyada plebissit tez-tez keçirilsə də, federal səviyyədə referendumdan heç vaxt istifadə olunmayıb. Lakin, İsveçrədə hər il orta hesabla 5-6 federal səviyyəli referendum gercəkləşir.

Referendumun keçirilməsi kimi, onun çağırılmasına təşəbbüs göstərmək hüququ da dünyanın ayrı-ayrı ölkələrində müxtəlifdir. Bəzi dövlətlərdə (Norveç, İsveç və b.) onu təyin etmək səlahiyyətləri parlamentə və hökumətə, bəzilərində (məsələn, Fransa) prezidentə, üçüncü qrup ölkələrdə (Avstriya, İsveçrə, Italiya) isə birbaşa xalqa məxsusdur. İsveçrədəki mövcud qanunvericiliyə əsasən vətəndaşlar 50 min imza toplamaqla

referendumun keçirilməsinə nail ola bilərlər. AR-in Seçki Məcəlləsinin 122-ci maddəsinə əsasən, referendumun keçirilməsinə dair qərar Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilir. Ən azı 300 min aktiv seçki hüququna malik olan AR vətəndaşı Azərbaycan Respublikasın Prezidentinə və ya Azərbaycan Respublikasının Milli Məclisinə referendumun keçirilməsi haqqında qərarın qəbul edilməsi təklifi ilə müraciət edə bilər.

Referendumun çagırılması və keçirilməsi qaydaları, eləcə də orada həll olunacaq məsələlər müxtəlif olsalar da, belə bir prinsipə riayət edilməsi bütün ölkələr üçün eyni dərəcədə zəruri olmalıdır ki, referenduma çıxarılan hər bir məsələ geniş xalq kütlələrinə hərtərəfli izah edilməli və sadə vətəndaşların başa düşə biləcəyi tərzdə aydın şəkildə ifadə olunmalıdır. Təsadüfi deyil ki, məhz belə genişmiqyaslı intensiv təbligat və izahat işi nəticəsində Azərbaycan vətəndaşları ölkənin ictimai-siyasi həyatındakı dəyişikliklərin vacibliyini və əhəmiyyətini lazımınca qiymətləndirərək 2002-ci il avqustun 24-də referendumda iştirak etməklə H.Əliyev tərəfindən təklif olunmuş “Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında” aktın layihəsinə öz müsbət münasibətlərini nümayiş etdirmişdilər. Referendum yolu ilə Azərbaycan Respublikası Konstitusiyasına edilmiş dəyişikliklər siyasi sistemin təkmilləşdirilməsinə, çoxpilləli ədalət mühakiməsinin həyata keçirilməsinə, respublika vətəndaşlarının hüquq və azadlıqlarının genişləndirilməsinə, Azərbaycanın sovet və postsovet dövrünün özünü doğrultmayan siyasi və hüquqi normalarından azad olunmasına xidmət edirdi. Ona görə də referendum Azərbaycanda

insan hüquqlarının müdafiəsi və demokratik proseslərin genişlənməsində yeni mərhələnin təməlini qoydu.

2009-cu il 18 mart referendumunda nəzərdə tutulan dəyişikliklərə də Azərbaycan Respublikası vətəndaşları müsbət rəylərini bildirməklə özlərinin hüquq və azadlıqlarını daha da genişləndirərək, onlar təmin olunması üçün daha əlverişlı hüquqi baza yaratmış oldular. Təsadüfi deyildir ki, 29 maddəyə təklif olunan dəyişikliklərdən 8-i birbaşa insan və vətəndaş hüquq və azadlıqlarına aid olmuşdur.

Prezident İlham Əliyevin təklif etdiyi, olduqca faydalı və fundamental dəyişiklikləri özündə ehtiva edən 26 sentyabr 2016-cı il Referendum Aktı isə ölkəmizdə siyasi sabitliyə, iqtisadi inkişafa, təhlükəsizlik məsələlərinin yeni məzmun kəsb etməsinə, demokratiyanın dərinləşməsinə, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına və idarəçilik sisteminin daha da təkmilləşməsinə öz töhfəsini verməkdədir.

Konstitusiyaya edilən 29 dəyişikliyin yarıdan çoxu, daha dəqiq desək, 15-i demokratiyanın barometri hesab olunan insan və vətəndaş hüquq və azadlığının təmin edilməsi mexanizmlərinin daha da təkmilləşdirilməsinə və ondan sui-istifadə hallarının qarşısını almaq üçün əlverişli hüquqi bazanın yaradılmasına yönəlib. Məsələn, Konstitusiyanın 29-cu maddəsinə aşağıdakı məzmunda V və VI hissələr əlavə edilmişdir: “Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur”, “Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər”.

Əlbəttə ki, bu dəyişikliklər ölkəmizdə ərzaq təhlükəsizliyinin təminatına və Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən aqrar sahənin–qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi mənafeyinə xidmət göstərir.

32-ci maddəyə əlavə edilən "Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz" kimi VII hissəsi isə fərdi məlumatların məxfiliyinin qorunması və şəxsi toxunulmazlığın təmin edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Konstitusiyanın 36-cı maddəsinə edilən dəyişiklik isə əmək hüququ əsasında işləyənlərin hüquqlarının müdafiəsini özündə əks etdirir. Müvafiq maddəyə edilən dəyişikliyə "lokaut" anlayışı əlavə edilmişdir. Məlum olduğu kimi, Əmək Məcəlləsinin 284-cü maddəsində işəgötürənin lokaut hüququ təsbit olunmuşdur. Lokaut(ingiliscə lock out hərfi mənada qapını bağlamaq və buraxmamaq deməkdir) işçilərə təsir etmək üçün işəgötürən tərəfindən fəaliyyətin tam və ya qismən dayandırılmasıdır. Lokaut işçilərin işdən çıxarılması deyil, işəgötürən tərəfindən çalışdırılmamasıdır. Bu isə insanların əmək hüququnun birbaşa pozulması deməkdir. Dəyişikliklərə əsasən, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut Konstitusiya səviyyəsində qadağan edilir.

56-cı maddəyə edilən dəyişiklik isə özündə vətəndaşların seçki hüquqlarının genişləndirilməsini ehtiva edir. Belə ki,

artıq bu dəyişiklikdən sonra hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin seçmək (aktiv) hüququ deyil, yalnız passiv seçki (seçilmək) hüququ məhdudlaşdırıla bilər.

60-cı maddəyə edilən dəyişiklik isə hüquq və azadlıqların artıq yalnız məhkəmədə deyil, həm də inzibati qayda da müdafiəsinə hüquqi təminat yaradır.

68-ci maddəyə edilən əlavə ilə dövlətin öz qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıması nəzərdə tutulur ki, bu da öz fəaliyyətində səhvə və özbaşınalığa yol vermiş məmurun məsuliyyətə cəlb edilməsinə konstitusion norma səviyyəsində təminat vermək deməkdir.

71-ci maddənin II hissəsinə "Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır" şəklində edilən əlavə isə dövlət məhdudiyyətinin əsaslandırılmasının və dəlil-sübuta söykənməsinin vacibliyini nəzərdə tutur.

Konstitusiyanın 25-ci maddəsinin III hissəsinin birinci cümləsində "milliyyətindən" sözünün "etnik mənsubiyyətindən" sözləri ilə əvəz edilməsi hüquqi cəhətdən korrekt yanaşma olsa da, ikinci cümləsində "milli" sözünün "etnik" sözü ilə əvəz edilməsi əsl mahiyyət dəyişikliyidir. "Milliyyət" anlayışı elə "etnosa mənsubluq" mənasına gəlir. "Milli" anlayışına münasibətdə isə "etnik" sözü nisbətən daha dar mənalıdır. Milli dedikdə müəyyən dövlət daxilində yaşayan bütün etnosların

tarixən formalaşdıra bildiyi ortaq dəyərlər, yəni xalqın və ya millətin etnik xüsusiyyəti, özünəməxsusluğu başa düşülür. Məlumdur ki, dövlət daxilində həm xalq, həm də millət formalaşa bilir. Bu səbəbdən "milli" sözü həm xalqa, həm də millətə tam əsasda şamil edilir.

Konstitusiyaya edilən dəyişikliklərin və əlavələrin bir qismi isə dövlət və bələdiyyə idarəçiliyi sisteminin təkmilləşdirilməsi, dövlət strukturlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi və siyasi sahədə innovativ inkişafın və modernləşmənin təmin edilməsi ilə bağlıdır. Yeni dəyişiklilkər özündə Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılmasını, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılmasını, prezident seçkilərində yaş məhdudiyyətinin aradan qaldırılmasını, parlament seçkilərində iştirak üçün yaş həddinin 25-dən 18-ə endirilməsini, prezidentə Milli Məclisi buraxmaq səlahiyyətinin verilməsini nəzərdə tutur.

Vitse-prezidentlik institutunun yaradılması hakimiyyətdə varisliyin təmin edilməsi və şaquli nəzarət mexanizminin effektivliyinin artırılması baxımından olduqca böyük əhəmiyyətə malikdir. Hazırda 67 dövlətdə 103 vitse-prezident postu mövcuddur. Digər maraqlı məqam isə ondan ibarətdir ki, həmin ölkələrdə vitse-prezident postlarını tutanların 22%-ni qadınlar təşkil edir. Gender bərabərliyinin təmin edilməsi üçün idarəetmənin hər bir sahəsində 30%-dən az olmayaraq qadın iştirakının münasib hesab edildiyini nəzərə alsaq, onda bu rəqəmi qənaətbəxş hesab etmək olar.

Yaş senzinin endirlməsi isə yeni nəslin inkişafının əsas vasitəsi olan gənclərə dövlətin və cəmiyyətin ictimai-siyasi həyatında layiqli yer tuta bilmək üçün yeni imkanlar açır.

## *Mövzu 12*
## *Siyasi şüur və siyasi ideologiya*

**Əsas ideya:** *Siyasi şüur* - siyasət, siyasi sistem, siyasi hakimiyyət, siyasi proses və hadisələrin dərk edilməsi nəticəsində insan beynində əmələ gələn inam, etiqad, dəyər, baxış və təsəvvürlərin məcmusudur.

*Siyasi mədəniyyət*-vətəndaşların və hakimiyyətin qarşılıqlı münasibətlərini tənzimləyən, əxlaqi-mənəvi,sosial-siyasi dəyərlərin,davranış qaydalarının, adət və ənənələrin məcmusunu ifadə edir.

*İdeologiya* - bu və ya digər qrupun hakimiyyət iddialarını əsaslandıran və buna uyğun olaraq, ictimai rəyi öz mənafeyinə tabe etdirməyə çalışan müəyyən doktrinadır.

**Məqsədlər:** siyasi şüurun komponentlərinin, təşəkkül mərhələlərinin və müxtəlif əlamətlərə görə təsnifatının izah edilməsi;

Azərbaycan cəmiyyətinin siyasi şüur və mədəniyyətinin özünəməxsus xüsusiyyətlərinin təhlil edilməsi;

siyasi mədəniyyətin formalaşmasına təsir göstərən subyektlərin və amillərin tələbələr tərəfindən dərk edilməsinə nail olmaq;

yüksək siyasi mədəniyyətə sahib olmanın insanın təhlükəsiz yaşamasının təminatçısı olmasının tələbələr tərəfindən dərk edilməsinə nail olmaq;

tələbələrə stereotiplərdən-gerçəklik haqqında sadə, bəsit və sxematik təsəvvürlərdən çəkinməyin zəruriliyini aşılamaqla,onlarda yüksək siyasi şüur

və siyasi mədəniyyətin formalaşmasına nail olmaq; tələbələrdə siyasi mövqeyi əsaslandırmaq və müdafiə etmək bacarığının formalaşdırılması.

**Əsas anlayışlar:** siyasi şüur, stereotip, liberalizm, konservatizm, konformizm, radikalizm və s.

## Ənənəvi mühazirə

Siyasi münasibətlərin, siyasi prosesin və fəaliyyətin dərk edilməsi siyasi şüurla birbaşa bağlıdır. Yəni fərdin siyasi həyatda iştirakı, siyasi proseslərin subyekti kimi fəaliyyəti siyasi gerçəkliyin dərk edilməsi nəticəsində formalaşan təsəvvür və baxışlara müvafiq olur.

Siyasi şüurun formalaşması tələbat və mənafelərin dərk edilməsi, onları mövcud siyasi münasibətlərindən irəli gələn reallıqlarla müqayisə etmək səyləri ilə bağlıdır. (sxemə bax)

Azərbaycan cəmiyyətinin siyasi şüurunun başlıca xüsusiyyətlərini aşağıdakı kimi səciyyələndirmək olar:

–Köhnə sovet totalitar cəmiyyəti ideologiyasının təsirindən hələ də cəmiyyətin bəzi üzvlərinin xilas ola bilməməsi;

–stereotiplərin-gerçəklik haqqında sadə,bəsit və sxematik təsəvvürlərin qalmaqda davam etməsi, siyasi orientasiyanın yüksəldilməsi yollarının axtarışı;

–kütləvi siyasi şüurun müxtəlifliyi, qərarsızlığı, ziddiyyətliliyi və differensiallığı;

–Azərbaycanın tarixi keçmişinin və gələcəkdə aparılacaq islahatların qiymətləndirilməsində fikir və baxışların polyarlaşması və s.

Siyasi şüurun strukturunda siyasi mövqe, ictimai rəy və stereotip kimi ünsürlər mühüm rol oynayır.

Siyasi mövqe dedikdə, şəxsiyyətin hakimiyyətin həyata keçirilməsi və ya hakimiyyət uğrunda mübarizə zamanı özünü büruzə verən özünəməxsus davranışını səciyyələndirən keyfiyyətləri başa düşülür.

İctimai rəy isə özündə ayrı-ayrı fərdlərin siyasi baxış və mövqelərinin məcmusunu ehtiva edir. İctimai rəydə vətəndaşların bu və ya digər məsələ ilə əlaqədar siyasi hakimiyyətin fəaliyyətinə münasibəti özünü göstərir. Hər hansı məsələ ətrafında ifadə edilən fikir o zaman ictimai rəy statusu qazana bilər ki, o, toplumun-sosiumun mövqeyini ifadə etmiş olsun.

Stereotip isə ictimai şüurda gerçəklik haqqında sadə, bəsit, sxematik təsəvvürlərdir. Stereotip təsəvvür və baxışların ictimai şüurda uzun müddət dəyişməz qalması nətisəsində meydana gəlir. "Stereotip" anlayışını elmə ilk dəfə 1922-ci ildə amerikan politoloqu B. Lipman gətirmişdir.

Siyasi şüurun bir neçə əlamətə görə təsnifatını aparmaq mümkündür.

1) Demokratik dəyərlərə münasibətdə: demokratik , totalitar, avtoritar, ekstremist.

2) İctimai inkişaf üsuluna münasibətdə: islahatçı, inqilabçı, konformist, neytral, apolitik.

3) Məzmununa görə: ənənəvi, normativ,dini və ya ateist.

4) İstiqamətinə görə: *sol radikalizm* (zor tətbiq etməklə inqilabi dəyişikliklərin əldə olunması); *liberalizm* (şəxsiyyətin

muxtariyyatına dövlətin müdaxiləsini yumşaltmaq); *kon-formizm* (mövcud qaydaları, hakim rəyi passiv şəkildə qəbul etmək); *sağ radikalizm* (hakim sinfin mənafeyindən çıxış etməklə qətin dəyişikliklərə nail olmaq); *konservatizm* (fərdi deyil, milli mənafelərin üstün tutulması, ənənələrə hörmət) və s.

Siyasi mədəniyyət anlayışını elmə ilk dəfə alman alimi İ.Gerder gətirmişdir. Lakin siyasi mədəniyyət haqqında elmi nəzəriyyə XX əsrin ortalarında meydana gəlmişdir.

Müasir politologiyada "siyasi mədəniyyət" anlayışına ilk dəfə amerikan alimi X.Fayerin "Böyük Avropa dövlətlərinin idarəçiliyi sistemləri" (1956) əsərində rast gəlinsə də, politoloqlar bu problemin əsas tədqiqatçısı kimi ABŞ alimi Q.Almondu qəbul edirlər. Sonuncuya görə, "siyasi mədəniyyət siyasi sistemin iştirakçıları arasında siyasi münasibətdə təzahür edən fərdi mövqe və meyllərin nümunəsi rolunu oynayır".

**Siyasi mədəniyyət -** ümumi mədəniyyət anlayışının kom - ponentlərindən biri olsa da, maddi və mənəvi həyatın inkişafında müəyyənedici amil ona məxsusdur.

Siyasi mədəniyyətin şərtlənməsi öz növbəsində mövcud siyasi rejimlə sıx bağlıdır. Təsadüfi deyil ki, insanın siyasət, hakimiyyət və dövlət haqqında təsəvvürləri məhz siyasi praktikanın təsiri ilə meydana gəlib inkişaf edir. Məhz mövcud siyasi gerçəklik insanları siyasətə gətirmək və ya siyasətdən uzaqlaşdırmaq məqsədi güdən siyasi sistem yaradır. Yəni siyasi mədəniyyət eyni zamanda siyasi sistemin mühüm tərkib hissəsi rolunda çıxış edir.

Siyasi mədəniyyətin elementləri bunlardır:

-hakimiyyətə münasibət, yəni vətəndaşların siyasi davranış nümunələri, vərdişləri və fəaliyyətinin məcmusu;

–siyasi fəaliyyətin davranış üsulu, başqa sözlə desək, siyasi sistemin tətbiq etdiyi idarəçilk üsulu;

–siyasət subyektlərinin siyasi qərarların qəbul edilməsi prosesinə təsir göstərmək imkanı;

–cəmiyyətin siyasi əhval-ruhiyyəsi, psixoloji yönümü;

Siyasi mədəniyyətin başlıca funksiyası odur ki, o, fərdin siyasi hadisələrin mahiyyətini dərk edərək müəyyən siyasi sistemdə öz yerini müəyyənləşdirməyə və buna müvafiq olaraq özü üçün siyasi davranış norma və vərdişləri əxz etməsinə köməklik edir.

Siyasi mədəniyyət konkret siyasi sistem daxilində müxtəlif yönümlü siyasi qüvvələrin yanaşı yaşamasını və cəmiyyətin bütövlüyünü təmin edir.

Siyasi mədəniyyətin müxtəlif əlamətlərə görə fərqli təsnifatı mövcuddur:

1) Formasiyaya görə: quldarlıq, feodalizm, kapitalizm və sosializm siyasi mədəniyyəti.

2) Siyasi orientasiyaına görə : patriarxal, təbəəçi və fəal.

3)Bəşəri sivilizasiya tiplərinə uyğun olaraq: Qərb və Şərq.

4) Tarixi təsnifata əsasən isə siyasi mədəniyyətin üç başlıca tipi mövcuddur: a) ənənəvi siyasi mədəniyyət (siyasi fəaliyyət subyektlərinin qarşılıqlı əlaqələrinin ənənələrlə nizama salınması); b) silki demokratiya siyasi mədəniyyəti (insanların böyük hissəsinin siyasi sistemdə iştirakdan təcrid olunması); kütləvi siyasi mədəniyyət (əhalinin siyasi proseslərdə iştirakı-

nın genişlənməsi, xalqın siyasi proseslərin subyektinə çevrilməsi).

Azərbaycanda siyasi mədəniyyətin səciyyəvi xüsusiyyətləri bunlardır:

–əhalinin siyasi savadının aşağı olması;

–siyasi ideallarınn, baxışların və əhval-ruhiyyənin differensiasiyası;

–dövlət başçısına və siyasi elitaya rasional münasibət;

–kompromis və konsensus ünsürlərinin aşağı olması;

–bütün dini konfessiyalara və azsaylı etnoslara tolerant münasibət;

–multikulturalizmin həyat tərzinə çevrilməsi;

–cəmiyyət üzvlərində siyasi sistemə məxsusluq hissinin zəif olması və s.

İdeologiya politologiya elmində fundamental əhəmiyyətli problemlər sırasında xüsusi yer tutur. "İdeologiya" termininə ilk dəfə fransız alimi Destyut De Trasinin "Düşünmək qabiliyyəti haqqında etüdlər" adlı kitabında rast gəlinir. Trasiyə görə, ideologiya ideyaların meydana gəlməsi və inkişafı, insan idrakının qanunları haqqında elmdir.

Hazırkı siyasi ədəbiyyatda ideologiyanın aşagıdakı məzmunlu tərifi üstünlük təşkil edir: ideologiya bu və ya digər insan qrupunun hakimiyyət iddialarını əsaslandıran və buna müvafiq olaraq ictimai fikri öz mənafelərinə tabe etdirməyə çalışan müəyyən doktrinadır.

İdeologiyanın xüsusiyyətləri bunlardır:

–siyasi rejimə bağlılıq;

–inam;

–kollektiv düşüncə;

–ideyaların rasionallığı və yeniliyi,

–möhtəkirlik (qarşıya böyük məqsədlərin qoyulması);

–doqmatiklik (ideala inam);

–apologetiklik (ideala sadiqlik);

–avtoritarlıq (tələbkarlıq) və s.

İdeologiyanın strukturuna isə bunlar daxildir:

–gerçəkliyin təsviri;

–arzu edilən obrazın yaradılması;

–praktik göstərişlər.

İdeologiyanın mürəkkəb struktura malik olması və çoxcəhətli məzmunu onun fəaliyyət səviyyələrinin də müxtəlifliyini şərtləndirir. İdeologiyanın əsas səviyyələri aşağıdakılardır:

1. Nəzəri-konseptual səviyyə (prinsiplər, maraqlar, ideallar);

2. Proqram-siyasi səviyyə (proqram, şüar, tələb);

3. Kütləvi yayılma səviyyəsi (məqsəd və prinsiplərin vətəndaşlar tərəfindən mənimsənilməsi).

İdeologiyanın müxtəlif əlamətlərə görə təsnifatı mövcuddur:

1. Funksiyalarına görə: mütərəqqi, mühafizəkar və mürtəce.

2. Sosial bazasına görə: sinfi, milli, iqri və s.

3. Daxili strukturuna görə: dini və dünyəvi, rasional və irrasional, universal və partikulyar.

4. Tarixi taleyinə görə: qısa və uzunmüddətli.

5. Fəaliyyət sferasına görə: regional və beynəlxalq.

Azərbaycanın öz dövlət müstəqilliyini əldə etməsi, müasir dünya ilə bir çox sahələrdə əlaqə qurması, milli şüurun

və siyasi mədəniyyətin inkişaf etdirilməsinin zəruriliyi baycançılığın iqtisadi, sosioloji və politoloji aspektlərinin çox ciddi şəkildə araşdırılmasını tələb edir.

Müasir dövrün başlıca ideolji cərəyanları bunlardır:

–**Liberalizm**–iqtisadi, siyasi, sosial və digər sferalarda insanın maksimal azadlığını nəzərdə tutur. İctimai və dövlət məcburiy- yətinin yumşaldılması və ya ləğvinə çalışır;

–**neoliberalizm**–dövlətin iqtisadiyyata müdaxiləsini və sosial həyatın dövlət tərəfindən tənzimlənməsini nəzərdə tutur. Dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin plüralist formasına üstünlük verir;

–**konservatizm**–dövlətin və ictimai həyatın tarixən qərarlaşmış formalarının, xüsusilə də onun millət, din, ailə, mülkiyyət kimi anlayışlarda ifadə olunan mənəvi dəyərlərinin qorunub saxlanmasını ehtiva edir;

**–neokonservatizm**–qorunub saxlanmağa layiq olan ənənələrin yaradılmasına çağıran, gələcəyə istiqamətlənən ideyalar sistemidir.

Ölkəmizdə isə heç tərəddüd etmədən Azərbaycançılıq ideologiyasının aparıcı ictimai-siyasi status qazandığını söyləmək mümkündür.Azərbaycançılıq ideyasının təkamül prosesi həm çoxşaxəli, həm də ziddiyyətli olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının konsepsiyasına görə müstəqillik ideyası ölkədə yaşayan bütün xalqların hüquq bərabərliyinin tanınmasına söykənirdi. Onun nəzəri-fəlsəfi əsasını isə azərbaycançılıq, islamçılıq və müasirlik təşkil edirdi.

Azərbaycanın böyük tarixi şəxsiyyətlərinin hər biri azərbaycançılığı bir ideya olaraq görürdü. Ulu öndər Heydər Əliyev isə onlardan fərqli olaraq, azərbaycançılığı dövlət

ideologiyasına çevirdi. O deyirdi: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir”.

Azərbaycançılıq irqi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının mənəvi, ideoloji və siyasi birliyi mənasını verir. Azərbaycançılıq respublikada yaşayan bütün xalqlardan Azərbaycan dövlətinə mənsubluq hisslərinin formalaşdırılması, ölkədə vahid vətəndaş siyasi mədəniyyətini inkişaf etdirmək vəzifələrinin yerinə yetirilməsini tələb edir. Azərbaycançılıq - Azərbaycan dilinin və mədəniyyətinin qorunub saxlanmasını və inkişaf etdirilməsini nəzərdə tutur. Azərbaycançılıq milli maraqların şəxsi maraqlardan üstün tutulmasını nəzərdə tutur. Azərbaycançılıq Vətən duyğusunu hər şeydən yüksək tutmaq vərdişi tələb edir.

## *Siyasi şüurun təşəkkül mərhələləri*



## *Mövzu 13*
## *Siyasi sosiallaşma və onun əsas mərhələləri*

**Əsas ideya:** Şəxsiyyətin siyasi dəyərləri, normaları və davranış qaydalarını mənimsəməsi və öz fəaliyyətində reallaşdırması hadisəsi *siyasi sosiallaşma* adlanır.

**Məqsədlər:** siyasi sosiallaşmanın tipləri, vasitələri və başlıca inkişaf mərhələlərinin aydınlaşdırılması;
şəxsiyyətin siyasi inkişafını müəyyən edən faktorların müəyyən edilməsi;
siyasi sosiallaşmaya təsir edən üsul və vasitələrin nəzərdən keçirilməsi;
şəxsiyyətin siyasi fəallığının müxtəlif səviyyələrinin izah edilməsi;
siyasi prosesin mahiyyəti haqqında təsəvvürlərin formalaşdırılması;
Azərbaycandakı siyasi proseslərin səciyyəvi xüsusiyyətlərinin təhlil edilməsi;
siyasi savranışın təsnifatının verilməsi;
tələbələrdə siyasi həyatda iştirak istəyinin və vərdişlərinin formalaşmasına nail olmaq və s.

**Əsas anlayışlar:** siyasi sosiallaşma, siyasi proses, siyasi iştitak, siyasi davranış, kütlə, sosial mühit, sosial genetika və s.

### *I mərhələ - Özündə söhbət elementləri daşıyan mühazirə*

Siyasi sosiallaşmanın əsas hədəfi vətəndaşlara siyasi mədəniyyət ünsürlərinin ötürülməsidir. Siyasi sosiallaşma bir tərəfdən şəxsiyyətin siyasi hadisə və proseslər haqqında biliklərinin artmasına kömək edir, digər tərəfdən onun siyasi mövqeyinin formalaşmasına və ictimai-siyasi həyatda iştirakına şərait yaradır. Siyasi sosiallaşmanın üç əsas mərhələsi vardır: I mərhələ 3-13 yaşı əhatə edir (imitasiya adlanan bu mərhələdə hakimiyyətlə bağlı şüur formalaşır); II mərhələ 4-18 yaşı əhatə edir (siyasətə şəxsi münasibətin formalaşması dövrüdür); III mərhələ 18 yaşdan sonrakı dövrü əhatə edir. (artıq bu dövrdə şəxsiyyət aktiv siyasi fəaliyyətə qoşulur)

Şəxsiyyətin siyasi fəallığının müxtəlif səviyyələri mövcuddur:

- siyasətin yalnız obyekti olan, minimal siyasi fəallığa malik vətəndaşlar;
- ictimai və ya siyasi təşkilatların üzvü olan vətəndaşlar;
- ictimai-siyasi xadimlər - rəsmi hakimiyyətin tərəfdarları və ya opponentləri;
- siyasəti həyat fəaliyyətinin əsas forması hesab edən peşəkar siyasətçilər;
- siyasi rəhbərlər-formal və qeyri-formal liderlər.

Şəxsiyyətin siyasi sosiallaşmasına təsir göstərən vasitələr bunlardır:

–ailə;

–məktəb;

–sosial və hüquqi normalar;

–gənclər təşkilatları və əmək kollektivləri;

–siyasi partiyalar və təzyiq qrupları;

–bədii və siyasi ədəbiyyat;

–kütləvi informasiya vasitələri  və s.

Şəxsiyyətin siyasi inkişafının kriteriyaları isə bunlardır: siyasi norma və dəyərlər sisteminin mövcudluğu; siyasi məqsədlər qoymaq və onların həllinə nail olmaq bacarığı; siyasi həyatda iştirakın aktivlik səviyyəsi; digər baxış və mövqelərə hörmət; siyasi davranışın siyasi məqsədlərə və şərtlərə adekvat olması; siyasi mədəniyyətin ümumi səviyyəsi və s.

Siyasi sosiallşmanın bir-birindən fərqli dörd əsas tipi mövcuddur:

**1) Harmonik tip -** Səxsiyyət siyasi həyatın aktiv və könüllü subyektidir. Hakimiyyət və şəxsiyyət arasında harmoniya var, qanunlara qarşılıqlı  şəkildə əməl olunur.

**2) Hegemon tip -** Adətən qapalı cəmiyyətlərdə formalaşan bu tip şəxsin öz mənafeyinə xidmət göstərməyən bütün siyasi dəyərlərə və təsisatlara neqativ münasibətini səciyyələndirir.

**3) Plüralist tip -** Fərdin bütün cəmiyyət üzvlərinin hüquq və bərabərliyinə hörmət etdiyini, özünün siyasi ehtiraslarını dəyişə  bilmək və yeni siyasi dəyərlər qəbul etmək qabiliyyətini əks etdirir.

**4) Münaqişəli tip -** Cəmiyyətin müxtəlif qrupları arasında gedən mübarizə ilə xarakterizə olunur. Əsas devizi isə budur: “Kim bizimlə deyilsə, bizə  qarşıdır”.

Siyasi həyat dedikdə insanın və cəmiyyətin siyasi mövcudluğunun mənəvi, hissi və praktik  forması başa düşülür. Siyasi həyat insanların  siyasi proseslərə münasibətini və siyasətdə iştirakını səciyyələndirir. Siyasi həyat dəyişkən və dinamik xüsusiyyətlərə malikdir.

Siyasi fəaliyyətin əsasını hakimiyyət orqanları vasitəsilə ictimai münasibətlərin idarə olunması təşkil edir. Siyasi fəaliyyətin məzmununa bunlar daxildir:

–dövlət idarəçiliyndə iştirak etmək;

–siyasi sistemin fəaliyyət istiqamətlərini müəyyənləşdirmək;

–ölkədə siyasi sabitliyin formalaşmasında iştirk etmək və s.

Siyasi fəaliyyəti şərtləndirən amillər bunlardır:

–praqmatik səbəb;

–siyasətdə iştirak etmək vasitəsi ilə tarixə düşmək arzusundan irəli gələn səbəb;

–maddi-utilitar maraq;

–qrup maraqlarından doğan səbəb;

–dövlətə və dövlətçiliyə xidmət etmək əzmi və s.

Siyasi sistemin formalaşmasında və inkişafında iştirak edən siyasi subyektlərin məcmu halında fəaliyyəti siyasi proses anlayışı ilə ehtiva olunur. Siyasi proses siyasi münasibətləri, siyasi hakimiyyətin idarə olunması texnologiyalarını və siyasi fəaliyyət mexanizmlərini əks etdirir.

Siyasi prosesin elementləri bunlardır:

–fərdlərin və müxtəlif qrupların siyasi maraqlarının aydınlaşdırılması;

–siyasi maraqların siyasi qərarlar qəbul edən təsisatlara təqdim edilməsi;

–siyasi qərarların hazırlanması, qəbul edilməsi, reallaşdırılması və s.

Siyasi proseslər açıq və gizli formada cərəyan edir. Açıq siyasi proseslərdə baş verən siyasi hadisələr elektorata aydın

olur və siyasi kurs ictimai rəy əsasında formalaşaraq inkişaf edir. Siyasi prosesin bu formasında məhsuldarlıq, operativlik, şəffaflıq və hesabatlılıq idarəetmənin başlıca pinsiplərinə çevrilir.

Siyasi proseslərin gizli formasında isə ictimai rəy nəzərə alınmır. Siyasi hakimiyyət üzərində ictimai nəzarət mexanizmlərinin mövcudluğu formal xarakter daşıyır.

Siyasi proseslər öz inkişafında dörd əsas mərhələdən keçir:

-əvvəlcə, siyasi qərarlar qəbul edən təsisatlar öz maraqlarını təqdim edir;

-sonrakı mərhələdə, siyasi qərar qəbul edilir;

-üçüncü mərhələdə, informasiya sistemi nizama salınır;

-dördüncü mərhələdə, siyasi qərarların yerinə yetirilməsinə nəzarət təmin edilir.

Azərbaycandakı siyasi proseslərin səciyyəvi xüsusiyyətlərini aşağıdakı kimi xarakterizə etmək olar:

- dövlət hakimiyyətinin həyata keçirilməsi zamanı ictimai rəyin nəzərə alınması və və qəbul edilən siyasi qərarların açıq xarakter daşıması;

- hakimiyyətin düzgün və balanslı bölgüsü;

- hakimiyyət daşıyıcıları və subyektlərinin siyasi rol və funksiyalarının ixtisaslaşma və differensasiyasının aşağı olması;

- siyasətin və iqtisadiyyatın, sosial və şəxsi münasibətlərin bölünməsinin, eləcə də vətəndaş cəmiyyəti institutlarının siyasətə nəzarət səviyyəsinin aşağı olması;

- siyasi prosesin iştirakçıları arasında konsensus meylinin olmaması (bunun əsas səbəbi isə yeni formalaşmış siyasi qüvvələrin demokratiya dəyərlərini müxtəlif cür dərk etməsidir);

- siyasi partiyaların müxtəlif sosial qrupların tələbat və mənafelərinin hakimiyyət orqanlarına çatdırılmasında mühüm vasitəçi rolunu oynaya bilməməsi və s.

Şəxsiyyətin siyasi sosiallaşmasının praktik mənası onun siyasi prosesdə iştiraka cəlb olunmasıdır. **Siyasi iştirak** vətəndaşların birbaşa və ya dolayı yolla siyasi qərarların qəbul edilməsində, siyasi strategiyanın müəyyənləşməsində, siyasi elitanın və liderin fəaliyyətinə təsir göstərməkdə müəyyən imkanlara malik olmasıdır. İnsanlar öz maraqlarını məhz siyasi həyatda iştirak vasitəsilə reallaşdırmağa nail olurlar.

Siyasi iştirakın əsas formaları bunlardır:

– seçkilərdə iştirak etmək;

–yürüş, mitinq və nümayişlərdə iştirak etmək;

–siyasi partiya və hərəkatlara üzv olmaq;

–lobbizm fəaliyyəti ilə məşğul olmaq və s.

Vətəndaşların siyasi həyatda iştirtakı müxtəlif amillərlə şərtlənir ki, bunlardan da biri və hətta ən əsası siyasi rejimin təbiətidir. Qeyri-demokratik rejimlərdə siyasi hakimiyyətin formalaşmasında və həyata keçirilməsində öz rolunu görməyən insanlar siyasi proseslərə qoşulmaqdan imtina edir, daha doğrusu, buna məcbur edilir.

Fəaliyyət motivindən asılı olaraq siyasi iştirakın iki formasını göstərmək mümkündür:

–fərdin siyasi proseslərdə şüurlu və könüllü fəaliyyəti;

–qorxu və müxtəlif təzyiq vasitələri ilə vətəndaşların siyasi proseslərdə məcburi iştirakının təmin edilməsi.

Siyasi həyatda iştirak fərdin cəmiyyət və dövlət qarşısında vətəndaşlıq məsuliyyəti, dövlətçilik təfəkkürü, milli

heysiyyat hissi və siyasi sistemi qoruyub saxlamaq cəhdi ilə də şərtlənir.

Müstəqil Azərbaycan Respublikasında vətəndaşların siyasi iştirakının hüquqi təminatı AR-in Konstitusiyasıdır. Siyasi iştirak AR Konstitusiyasının aşağıdakı maddələrində konkret olaraq öz əksini tapmışdır:

–Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi-referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir (Maddə 2).

–Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələr vasitəsilə həyata keçirə bilərlər. (maddə 55)

–AR vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır (maddə 56).

–Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. (maddə 58).

### *II mərhələ*
### *Müzakirə*

Mühazirədən sonra müəllim mövzunun müzakirəsini keçirə və tələbələrə mövzunu və müvafiq terminləri nə dərəcədə mənimsədiklərini müəyyən edən suallar verə bilər.

***Özünüyoxlama üçün suallar:***

1. Siyasi sosiallaşma nə deməkdir? Şəxsiyyətin siyasi sosiallaşması hansı mərhələlərdən keçir?

2. Şəxsiyyətin siyasi inkişafının əsas kriteriyaları hansılardır?

3. Siyasi proseslərin xarakterinin və əsas istiqamətlərinin dəyişməsi əsas etibarı ilə hansı amillərdən asılıdır?

4. Siyasi sosiallaşmanın hansı tipləri mövcuddur?

5. Vətəndaşların siyasi həyatda iştirakını şərtləndirən amillər hansılardır?

6. Azərbaycanda siyasi iştirakın siyasi-hüquqi təminatını qənaətbəxş hesab etmək olarmı?

## *Mövzu 14*
## *Siyasətin və hakimiyyətin sosial əsasları*

**Əsas ideya:** *Sosial siyasət* cəmiyyətdə vətəndaşların, sosial qrupların tələbatını nəzərə alaraq, onlar üçün yaşayış şəraiti yaratmaq sahəsində dövlətin konkret fəaliyyətidir. Sosial siyasət dövlətin ən geniş fəaliyyət sahəsi olmaqla, cəmiyyətin bütün təbəqələrini əhatə edir. *Milli siyasət* isə milli münasibətlərin idarə edilməsi sahəsində dövlətin konkret fəaliyyətini nəzərdə tutur.

**Məqsədlər:** tələbələrin sosial qruplar və sosial siyasət haqqında təsəvvürlərini genişləndirmək;
tələbələrin müasir dövrdə sosial stratifikasiyanı müəyyən edən meyarların nədən ibarət olmasını dərk etməsinə nail olmaq;
"azsaylı xalq", "milli azlıq", "etnik azlıq", "xalq" "etnos", "millət" və "milliyyət" anlayışları arasındakı fərqlərin tələbələr tərəfindən dərk edilməsinə nail olmaq;
tələbələrdə başqalarının adət-ənənələrinə, mədəniyyətinə hörmət hissini formalaşdırmaqla, vətəndaş tərbiyəsinə nail olmaq;
tələbələrdə tolerantlıq, humanizm kimi nəcib keyfiyyətlərin formalaşmasına zəmin yaratmaq və s.

**Əsas anlayışlar:** sosial qrup, sosial stratifikasiya, sosial siyasət, milli siyasət və s.

### *I mərhələ- Motivasiya*
### *Problemin qoyulması*
### *"Əqli hücum"*

**Müəllim:** "sosial qrup" anlayışının mənasını necə başa düşürsünüz?

Tələbələr bu anlayışın mahiyyətini açıqlayandan sonra, müəllim aşağıdakı suala cavab tapmaq üçün "əqli hücum" keçirir.

Cəmiyyətin sosial-strukturunu müəyyən edən meyarlar hansılardır?

### *Tələbələrin cavablarının mümkün variantları:*

-peşə nüfuzu;

-hakimiyyət və əzəmət;

-gəlir və  sərvət;

-təhsil və bilik;

-dini mənsubiyyət və s.

### *Tədqiqat sualları*

-Sosial siyasətin xarakterinə və məzmununa təsir göstərən amillər hansılardır?

-Sosial siyasətin əsas formaları hansılardır?

–Azərbaycanda  hazırda sosial siyasətin hansı formasına üstünlük verilir və onun əvvəlki sosial sistemdən fərqli və üstün cəhətləri hansılardır?

-Milli siyasətin konseptual müddəaları hansılardır?

- İki dövlət birliyini - ABŞ və MDB-ni müqayisə edin. Onların oxşar və fərqli cəhətləri hansılardır?

-"Azlıqlar" anlayışı azlıqların nümayəndələrinin digər vətəndaşlarla müqayisədə daha az hüquqlara və azadlıqlara malik olması anlamına gəlmirki?

-" Etnik azlıq", "azsaylı xalq", "milli azlıq", "xalq", "millət" və milliyyət" anlayışları arasındakı fərqləri izah edin.

- Hansı daha effektlidir: çoxmillətli dövlətlərdə milli azlıqlara xüsusi siyasi hüquqların verilməsi, yoxsa milli ərazi qurumlarına xüsusi siyasi hüquqların verilməsi?

***II mərhələ***
***Tədqiqatın aparılması***
***Kiçik qruplarda iş***

Müəllim tələbələri qruplara bölərək, onların hər birinə müəyyən mövzu verir. Qrup öz mövzusunu səylə öyrənməli və onu auditoriyaya təqdim etməlidir.

***III mərhələ***
***İnformasiya mübadiləsi***

Hər bir qrupun nümayəndəsi çıxış edir və auditoriyanı öz qrupunun işinin nəticələri ilə tanış edir. İnformasiya mübadiləsi baş verir.

***IV mərhələ***
***İnformasiyanın müzakirəsi və təşkili***

Tələbələr keçirilmiş tədqiqat nəticəsində sosial siyasətin formaları və onların qərarlaşmasına təsir göstərən amillərlə bağlı fikirləri bir-biri ilə müqayisə edirlər. Bu müqayisə

nəticəsində tələbələr öz fikirlərindəki üstün və nöqsan cəhət-ləri daha aydın dərk edirlər.

### *V mərhələ*
### *Ümumiləşdirmə və nəticə*

Müəllim əvvəlki mərhələlərdə ifadə olunan fikirləri və qazanılan bilikləri ümumuləşdirərək, auditoriyanın diqqətini bu kimi nəticələrə yönəldir:

- Cəmiyyətin **sosial strukturu** dedikdə, bir-biri ilə qarşılıqlı əlaqədə və təsirdə olan müxtəlif sosial birliklərin məcmusu başa düşülür.

- Cəmiyyətdəki sosial fərqləri şərtləndirən əsas amillər bunlardır:

–regionun inkişaf səviyyəsi və xüsusiyyətləri;

–cəmiyyətin mənəvi və maddi inkişaf səviyyəsi;

–istehsalın inkişaf səviyyəsi;

–şəhər və kənd arasındakı əmək bölgüsü və s.

–Sosial siyasətin xarakterinə təsir göstərən əsas amillər bunlardır:

–ölkədəki siyasi rejimin təbiəti;

–ölkənin maddi və iqtisadi vəziyyəti;

–milli sərvətlərin bölgüsünün ədalətli prinsiplərinin olub-olmaması və s.

-Sosial siyasətin əsas formaları bunlardır:

–kommunist sosial siyasəti;

-liberal sosial siyasəti;

–sosial-demokrat sosial siyasəti.

- Azərbaycan 70 il ərzində, yəni totalitar rejimin pəncəsi altında yaşadığı müddət ərzində mövcud siyasi sistemə uyğun olaraq sosial siyasətin kommunist modelinə üstünlük vermişdir. Kommunist sosial siyasətinin üstünlüyü ondan ibarətdir ki, insanların sosial və maddi tələbatlarının ödınilməsinin böyük bir hissəsini dövlət öz üzərinə götürürdü. Lakin sosial siyasətin bu modelində insanların faktik bərabərliyinə mane olan başlıca amil xüsusi mülkiyyət hesab olunurdu. Lenin bir az da "irəli gedərək" bəyan edirdi ki, tam ictimai bərabərlik yaratmaq üçün dövlət insanların sosial və maddi tələbatlarının böyük hissəsinin ödənilməsini öz üzərinə götürməlidir. Leninin bu müddəasını onun özünün "Bir addım irəli, iki addım geri" ifadəsi ilə səciyyələndirmək olar. Belə ki, tələbatların ödənilməsi insanların layiqli yaşayaış səviyyəsi meyarlarından uzaq olsa da, bu cür siyasət insanlarda minimum təminatdan irəli gələn optimizm hissi formalaşmasına səbəb olurdu. Ancaq belə bərabərlik modelinin çatışmayan cəhətləri daha çox idi. Birincisi, bu cür yanaşma tərzi insanların yaşayış tərzinin fərdi əmək və qabiliyyətdən asılılığını minimuma endirirdi. İkincisi, insanların zor gücünə bərabərləşdirilməsi onların öz imkanları vasitəsilə təzahürünə mane olur, şəxsiyyətin inkişafı yönündə əsas maneəyə çevrilirdi. Ədalət adına insanları zorla bərabərləşdirməyin özü ən böyük ədalətsizlik idi. Əslində isə insanları faktik olaraq bərabərləşdirmək qeyri-mümkündür. İnsanlar bir fərd kimi təkrarolunmaz keyfiyyətlərə malikdirlər və onların fərdi-bioloji imkanları bir-birindən fərqlənir. Ən azı bu amillərin təsiri altında insanlar arasında olan anadangəlmə bərabərsizliklə yanaşı, sonradan bunun əsasında sosial-faktik bərabər-

sizlik formalaşır. Bu gün ictimai münasibətlər sistemində bərabərsizlik hallarının olması danılması mümkün olmayan faktdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatına keçərək, sosial siyasətin liberal modelinin həyata keçirilməsini özünün prioritet vəzifəsi elan etmişdir.

–Milli siyasətin konseptual müddəaları bunlardır:

–xalqların bərabərliyi;

–millətçiliyin neqativ təzahürlərinə qarşı barışmazlıq;

–coğrafi amilin, demoqrafik proseslərin, milli–tarixi xüsu-siyyətlərin, etnik tərkibin və s. nəzərə alınması.

–Federasiya tarixən ABŞ, Braziliya və İsveçrə kimi ölkələr üçün siyasi dağınıqlığın (parçalanmanın) aradan qaldırılması forması olmuşdur. Həmin ölkələrdə ittifaq dövlətin yaranması onların heç birində milli münasibətlərin tənzimlənməsinə yönəlməmişdir. Buna görə də klassik federasiyada siyasi ərazi bölgüsü əhalinin milli tərkibinə uyğun olaraq aparılmır. Bu ölkələrin siyasi praktikasında "milliyyət" vətəndaşlığı əhatə edən termin kimi işlədilir. Məsələn, ABŞ-da şəxsiyyəti təsdiq edən sənədin "milliyyət" qrafasında "ingilis" yaxud "amerikan" yazılmır, "ABŞ vətəndaşı" yazılır.

Eyni sözləri ölkə əhalisinin milli tərkibinə əsaslanaraq respublikaların bayağı suverenliyi zəmnində qurulan bəzi keçmiş federasiyalar - SSRİ, Yuqoslaviya və Çexoslavakiya haqqında söyləmək mümkün deyildir. Hər üç dövlət son nəticədə süquta uğramış və ərazisində bir sıra müstəqil dövlətlər yaradılmışdır.

-Demokratiya şəraitində başqa mədəniyyətə, dünyagörüşə və dinə mənsub insanlara qarşı dözümsüzlüyə və düşmən münasibətinə yer ola bilməz, çünki "bütün insanlar azad, hüquq

və ləyaqətlərinə görə bərabər doğulurlar"... Buna görə azlıqların hüquqlarının müdafiəsində iki əsas prinsip: hüquq bərabərliyi və ayrı-seçkiliyə yol verməmək prinsipləri durur.

***Nəzəri material***

Sosial siyasət dövlətin ən geniş fəaliyyət sahəsi olub, cəmiyyətin bütün təbəqələrini əhatə edir.

Marksist yanaşmaya görə, cəmiyyətdə sinifləri bir-birindən aşağıdakı əlamətlərə görə fərqləndirmək olar:

–ictimai istehsal sistemində tutduğu yerinə görə;

–istehsal vasitələrinə olan münasibətlərinə görə;

–ictimai əməyin təşkilindəki roluna görə və s.

Hazırda elmi ədəbiyyatda və ictimai rəydə daha geniş yayılmış Qərb yanşmasına görə isə cəmiyyətin sosial-sinfi strukturunun müəyyən edilməsinin əsas kriteriyaları bunlardır:

–həyat obrazının spesifik xüsusiyyətləri;

–hakimiyyətə münasibət;

–ideologiya və psixologiya;

–təhsilin və mədəniyyətin səviyyəsi;

–investisiya və ya pul kapitalı üzərində nəzarət;

–fiziki istehsal vasitələri üzərində nəzarət və s.

Sosial siyasətin funksiyaları bunlardır:

–cəmiyyət üzvlərinin təkrar istehsalına şərait yaratmaq;

– insanların zəruri maddi ehtiyaclarını ödəmək;

–sosial ədaləti təmin etmək;

–ictimai ahəngdarlığın və sosial sülhün təmin edilməsi;

–siyasi sistemin əsaslarını möhkəmləndirmək və s.

Sosial siyasətin məzmununa isə aşağıdakılar daxildir:

–İstehsalın tənzimlənməsinin bazar mexanizmlərinin inkişaf etdirilməsi;

–hüquqi dövlətin formalaşdırılması;

–kifayət qədər geniş iş yerlərinin yaradılması;

–kadrların ixtisasının artırılması və yenidən hazırlanması sisteminin təşkil edilməsi;

–işçi qüvvəsinin təkrar istehsalının genişləndirilməsi;

– bazarın həcminin genişləndirilməsi;

– əməyə görə layiqli haqq verilməsi;

– hüquqi müdafiənin artırılması;

– istirahət hüququnun reallaşdırılması;

–işsizlər və iş qabiliyyətini itirənlər üçün sosial müdafiə sisteminin yaradılması;

– işçilərin sosial sığortası və s.

Sosial siyasətin müxtəlif formaları məzmununa və xarakterlərinə görə bir-birlərindən kəskin surətdə fərqlənirlər.

Kommunist sosial siyasətinin başlıca xüsusiyyəti sərvətlərin bölgüsünün bərabərləşdiricilik prinsipi əsasında həyata keçirilməsi, insanların sosial və maddi tələbatlarının ödənilməsinin böyük hissəsini dövlətin öz üzərinə götürməsidir.

Liberal sosial siyasət insanların tələbatının fərdi qaydada, onların əməyi və əməkdən aldığı haqq hesabına ödənilməsini nəzərdə tutur. Yəni burada insanın tələbatının ödənilməsində əsas vəzifə dövlətin deyil, onun öz üzərinə düşür.

Sosial siyasətin sosial-demokrat modelinin başlıca xüsusiyyəti insanların tələbat və mənafelərinin ödənilməsində dövlətin mərkəzləşmiş səyləri ilə onların özünün fərdi qaydada iştirakını üzvi surətdə əlaqələndirməkdir.

Müasir şəraitdə sosial problemlərin həllinə diqqətin artması, dövlətin sosial funksiyalarının rol və əhəmiyyətinin güclənməsi dövlətin özünün təbiətində əhəmiyyətli dəyişikliklərə gətirib çıxarmışdır. Bu dəyişikliklərin məntiqi nəticəsi sosial dövlət anlayışının meydana gəlməsidir. Sosial dövlət elə bir dövlətdir ki, hər bir vətəndaşa layiqli həyat səviyyəsi, sosial müdafiə, istehsalda iştirakçılıq, habelə bir ideal olaraq bərabər imkanlar təmin etməyə çalışır.

Sosial dövlətin əsas prinsipləri bunlardır:

– İnsanların sağlamlığının qorunması;

–insanın dövlətdən yaşayış minimumunu tələb etmək hüququnun mövcudluğu;

–dövlətin hər bir  vətəndaşa layili həyat səviyyəsi təmin etməyə çalışması;

–müəyyən qrupların məcburi sosial  sığortası;

–ailəyə, valideynlərə və uşaqlara dövlət yardımı göstərilməsi;

–istehsalda iştirakçılıq üçün bərabər imkanların yaradılması;

–insanlar arasında əmlak bərabərsizliyinin yumşaldılması;

–sosial ədalətin təmin edilməsi və s.

Milli siyasət dedikdə isə müxtəlif sosial-etnik birliklər arasında milli münasibətlərin idarə edilməsi sahəsində dövlətin həyata keçirdiyi konkret fəaliyyət başa düşülür.

Sosial münasibətlərin xüsusi formalarından biri olan milli münasibətlərin üç formasını var: millətdaxili, milli-etnik birliklərarası və şəxsiyyət səviyyəsində millətlərin və xalqların münasibətləri.

Milli münasibətlər sistemində siyasi amillər xüsusilə mühüm rol oynayır. Milli münasibətlərin millətlərin hüquq bərabərliyi, milli dillərin və adət-ənənlərin inkişafı üçün şəraitin yaradılması, müxtəlif millətlərin nümayəndələrinin hakimiyyət orqanlarında təmsil edilməsi və s.kimi məsələlər siyasi sferaya aiddir.

Milli münasibətlərin siyasi cəhətləri milli məsələdə daha qabarıq şəkildə təzahür edir. Milli məsələ millətlər və xalqlar arasında dövlətdaxili və dövlətlərarası ünsiyyətdə meydana gələn siyasi, hüquqi, mədəni və s. problemlərin məcmusudur. Milli məsələ hakim və məzlum millətin olması, onların inkişafının qeyri-bərabərliyi deməkdir.

Milli siyasətin mühüm cəhətlərindən biri təkcə vaxtı çatmış problemlərin həll edilməsi olmayıb, eyni zamanda onları qabaqcadan görməsidir. Lakin bütün proqnozlara baxmayaraq müxtəlif zamanlarda ayrı-ayrı səbəblər üzündən millətlərarsı münaqişələr, milli-etnik zəmində problemlər ortaya çıxır.

Millətlərarası münaqişə dedikdə bir-birinə qarşı duran və biri digərini tamamlayan iki reallıq başa düşülür. Belə ki, o, ictimai şüur səviyyəsində başqa xalqa qarşı sadəcə neqativ deyil, həm də qarşıdurma niyyəti ilə müşaiyət olunan münasibət tipidir. Yəni bu münasibət etinasızlıqdan fəal qarşıdurmaya gətirib çıxara bilər. Bu isə o deməkdir ki, millətlərarası münasibətlərin üç tipi (müsbət, mənfi və ya bitərəf) arasındakı fərqlər kifayət qədər nisbidir və biri digərinə çox asanlıqla keçə bilər.

Millətlərarası münaqişə dedikdə milli maraqların müdafiəsi və ifadəsi üçün yaradılmış olan və yeni zamanda bir-biri

ilə rəqabətdə olan ictimai-siyasi hərəkatlar arasındakı münaqişə başa düşülür.

Millətlərarası münaqişələrin aşağıdalı tipləri mövcuddur:

–sosial-iqtisadi;

–mədəni-dil;

–ərazi-status;

–separat və s.

Politoloqların fikrincə, millllətlərarası münaqişələrin meydana gəlmə səbəbləri aşağıdakilardır:

–xalqların müstəqil siyasi həyat formalarına, perspektivdə isə müstəqil milli dövlət yaratmağa can atması;

–inkişaf ehtiyatlarının məhdudluğu;

–etnik reallığı lazımi səviyyədə nəzərə almayan dövlətin siyasi qurluşunun etnoslararası gərginliyin artmasına təsir göstərməsi;

–milli-mənəvi dəyərlərin qorunması ilə qloballaşma arasındakı ziddiyyətlər;

–suverenliyə cəhdlərin artması ilə federativ quruluş arasındakı ziddiyyətlər;

–dövlətin mərkəzi orqanları ilə milli-dövlət təsisatları arasındakı ziddiyyətlər;

–dövlətdəki müxtəlif milli birliklər arasındakı ziddiyyətlər;

–mədəniyyətlər və sivilizasiyalar arasındakı ziddiyyətlərin dərinləşməsi;

–mədəniyyətlərin qarşılıqlı zənginləşməsi tələbatı ilə milli mədəniyyətlərin özünəməxsusluğunun qorunması arasındakı ziddiyyətlər;

–ölkələrin iqtisadiyyatının vahidliyi tendensiyası ilə milli birliklərin təsərrüfat müstəqilliyini qoruyub saxlamaq cəhdləri arasındakı ziddiyyətlər və s.

Göründüyü kimi, millətlərarası münaqişələr bir tərəfdən sosial ziddiyətlərın təzahürü kimi çıxış etsə də, digər tərəfdən özünü milli münaqişə kimi büruzə verir. Millətlərarası ziddiyyətlər münaqişə həddinə çatdıqda olduqca təhlükəli xarakrer alır.

Politoloqlar hesab edir ki, milli münaqişələrin meydana gəlməsi xeyli dərəcədə millətin siyasi təşkilindən asılıdır. Onlar həmçinin bu təşkilin aşağıdakı üç əsas tipini fərqləndirirlər:

1. Etnik birliyin milli muxtariyyatı. Milli və etnik azlıqlara xüsusi siyasi azadlıqların verilməsini nəzərdə tutur.

2. Çoxmillətli dövlətlərdə azsaylı xalqlara xüsusi siyasi hüquqların verilməsi. Məsələn, Finlandiya əhalisinin cəmi 6 faizini təşkil edən isveçlilərə dövlət dili statusu verilmişdir.

3. Çoxmillətli dövlət daxilində milli-ərazi qurumları. Bu tip ən çox münaqişə yaradan tipdir, çünki muxtariyyat deyil, tam müstəqil dövlət quruluşunu nəzərdə tutur.

Azərbaycan, Gürcüstan, Rusiyan, Moldova, Ukrayna və b. dövlətlərin daxilində yaranan münaqişələr milli-ərazi zəmnində meydana gələn münaqişələrə misaldır. Bu isə onu göstərir ki, azsaylı xalqlara siyasi strukturlar verməklə onların problemlərini həll etmək mümkün deyil. Bu cür problemlərdən azad olmağın ən optimal varianrı onların etno-mədəni səviyyədə həll olunmasıdır.

Müasir dövrdə milli münasibətlərdəki əsas tendensiyalar aşağıdakılardır:

-milli şüurun inkişafı, milli təsisatların suverenliyinə cəhdlərin artması;

-millətlər arasında iqtisadi inteqrasiyanın güclənməsi;

-milli dövlət strukturlarında əhalinin sosial-milli strukturunun bərabərləşməsi;

-millətlər arasında işçi, alim, müəllim, mütəxəssis və yaradıcı ziyalı kadrlarının dəyişdirilməsi prosesinin inkişafı;

-milli özünəməxsusluğun, dillərin, mədəniyyətin və adət-ənənlərin inkişafı;

-mərkəzdənqaçma və müstəqillik meyllərinin güclənməsi;

-millətlərarası nikahların sürətlə artması;

-millətlərarası ünsiyyətin dərinləşməsi;

-kapitalların, məlumatların, xidmətlərin və ehtiyatların transmilli cərəyanının həcminin və intensivliyinin kəskin artırılması;

-milli münaqişələrin həllində beynəlxalq hüququn rolunun artması, lakin bunun məcburi deyil, tövsiyə xarakteri daşıması;

-milli müqəddəratı təyinetmə və dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsiplərinin müqayisəsində üstünlüyün ikinciyə verilməsi və s.

Azərbaycanda isə etno-siyasi proseslərin səciyyəvi cəhətlərini aşağıdakı kimi xarakterizə etmək olar:

-Azərbaycanda məskunlaşan xalqların nümayəndələrinə öz dillərini inkişaf etdirmək üçün hər cür şərait yaradılmışdır. Yəni bu gün Azərbaycanda mövcud olan dillərin assimilyasiyasından deyil, Azərbaycan dilinin dövlət dili kimi fəaliy-

yətindən və bütün xalqlara məxsus dillərin hər səviyyədə inkişafından danışmaq olar;

–azlıqlar milli özünəməxsusluqlarını iki formada göstərirlər. Birinci halda azlıqlar özlərinə məxsus keyfiyyətləri qoruyub saxlamağa çalışırlar. İkinci halda azlıqlar yerli əhali ilə eyni adət-ənənələrə və mədəniyyətə malik olmağa meylli olurlar. Azərbaycandakı etnoslar ikinci formaya üstünlük verirlər;

-Azərbaycanda yaşayan xalqların əksəriyyəti dini inancına görə yekdildir, yəni onların əksəriyyəti islam dininə inanlardır. Ən qədim zamanlardan bu günə kimi Azərbaycanda dini zəmində heç bir qarşıdurma baş verməmişdir. Bu qanunauygunlugun nəticəsidir ki, Orta Asiyadan zorla çıxarılan Ahısxa türkləri başqa yerə yox, Azərbaycana pənah gətirdilər, 1988-ci ildə azərbaycanlılarla birlikdə Ermənistan ərazisindən deportasiya olunan kürdlərin böyük əksəriyyəti başqa yerdə deyil, məhz Azərbaycanda məskunlaşdılar;

-Azərbaycandakı azsaylı xalqların və milli azlıqların nümayəndələri hakimiyyət orqanlarında yetərincə təmsil olunurla;

–Ermənilər istisna olmaqla Azərbaycan ərazisində məskunlaşan digər azsaylı etnoslar ölkənin ərazi bütövlüyü və müstəqilliyi üçün təhlükə yaratmırlar. Azərbaycan dövlətinin gördüyü çoxsaylı tədbirlər kompleksi onların Azərbaycan cəmiyyətinə inteqrasiyası üçün əlverişli zəmin yaradıb.

Burada bir cəhəti də qeyd etmək yerinə düşərdi ki, sovet dövründə "xalq", "millət", "etnik azlıq", "azsaylı xalq", "milli azlıq", "milliyyət" kimi anlayışlar qarışıq salınır, onların arasındakı mövcud fərqlərə heç bir məhəl qoyulmurdu. Nəti-

cədə milli münasibətlərlə bağlı məsələlərə qərəzli yanaşılırdı. Ona görə də, bu anlayışlara dəqiqlik gətirilməsinin əhəmiyyəti olduqca böyükdür.

"Xalq" termininin müxtəlif izahı olsa da, onu qısa şəkildə belə ifadə etmək olar: xalq tarixən müəyyən ərazidə məskunlaşmış, nisbətən sabit mədəniyyətə malik olan, ümumi bir dildə danışan, nəsildən-nəsilə keçən özünəməxsus psixoloji xüsusiyyətləri ilə başqa əhali qruplarından fərqlənən insan toplusudur.

Xalqın tədricən millətə çevrilməsi prosesi kapitalizmin meydana gəlməsi ilə əlaqədar olmuşdur. Müasir dünyada vahid millət anlayışı yoxdur. Məsələn, islam ideoloqları milləti ümmət kimi qələmə verərək onu eyni dinə inanc gətirən adamların birliyi kimi başa düşürdülər. Makiavelli hesab edirdi ki, millətin yaranması üçün başlıca şərt dövlətdir. Otto Bauer milləti xarakter və tale ümumiliyinə əsaslanan birlik adlandırırdı. Ştompelə görə millət xüsusi düşüncə tərzinə, mentalitetə, şəxsi ləyaqət hissinə malik insan birliyidir. İngilis alimi A.Smit milləti iqtisadi əməkdaşlıq münasibətlərində birləşmiş insanlar qrupu hesab edirdi. Türk alimi Orxan Türkdogan isə eyni ərazidə yaşayan, eyni şüura, irqə və mədəni – psixoloji xüsusiyyətlərə malik insanlar birliyini millət hesab edirdi. Y.Montequa millətə müəyyən qrupa daxil olan adamların şüur ümumiliyi kimi baxırdı. Marksizm cərəyanının nümayəndələri isə hesab edirdilər ki, millət ümumi əraziyə, ədəbi dilə, iqtisadi və mənəvi həyat birliyinə malik olan sabit insan qrupudur. Dünyanın əksər alimləri bu yanaşma ilə qismən razı olsalar da, onda iqtisadi həyat birliyinin millətin əsas amili kimi götürülməsi fikrini

qəbul etmirlər. Onlar hesab edirlər ki, millətin yaranması üçün birinci əsas şərt dövlətdir. Doğrudan da, milli münasibətlərin həyata keçirilməsində, millətin vahid dövlət ideyası ətrafında sıx birləşməsində, eləcə də milli azlıqların özünəməxsusluğunun qorunmasında, milli kadrların hazırlanmasında və s. məsələlərdə dövlətin müstəsna rolu vardır.

Milli azlıqlar dedikdə bu və ya başqa dövlətdə, yaşayan, ölkə əhalisinin çoxunu təşkil edən millətdən sonra azlıqda qalan, öz etnik, din və dil xüsusiyyətləri ilə başqa xalqlardan seçilən özünəməxsus etnik qruplar nəzərdə tutulur. Məsələn, əgər Fransada, Rusiyada, Türkiyədə yaşayan azərbaycanlılıar bu ölkələrdə milli azlıq hesab edilirsə, Azərbaycanda yaşayan fransızlar, ruslar, gürcülər və s. bu ölkənin milli azlıqları hesab olunurlar.

Hazırki dövrdə bu və ya başqa dövlətdə elə xalqlar yaşayır ki, onlar milli azlıqlardan fərqli olaraq özlərini qədim zamanlardan yaşadıqları ərazilərin ilkin sakinləri sayırlar və kompakt halda bir ölkədə məskunlaşırlar. Azərbaycanda yaşayan udi, xınalıq, buduq, qrız, ingiloy və s. azsaylı xalqlara nümunədir.

Etnik azlıqlar isə hər hansı etnik birlikdən qopmuş, etnik proseslər zamanı xüsusi forma və məzmun kəsb etmiş ayrıca etnik birliklərdən ibarət olur. Hər bir etnik azlıgın öz dili, adət-ənənəsi və mənəvi birliyi mövcud olur. Etnik azlıqlar tarixən baş vermiş etno-siyasi proseslər nəticəsində öz keçmiş etnik əlamətlərini saxlamaqla yanaşı qonşu xalqlardan da müəyyən xüsusiyyətlər əxz edə bilər. Azərbaycanda Ahısxa türkləri, tatlar, krım tatarları və s. kimi etnik azlıqlar yaşayırlar.

“Milliyyət” dedikdə həm insanın bu və ya başqa millətə, xalqa mənsubiyyəti (məsələn, əhalinin siyahıyaalınması zamanı), həm də etno-mədəni törəməsi xarakterizə olunur (məsələn, harada –Türkiyədə, Rusiyada və s. yaşamasından asılı olmayaraq azərbaycanlı).

Milli münasibətlərin nəzəriyyə və praktikası göstərir ki, demokratiya ölkə ərazisinda yaşayan bütün xalqların hüquqlarının təmin olunması şəraitində mümkündür. Yəni polietnik cəmiyyətdə milli-etnik deyil, vətəndaşlıq prinsipləri–etnik mənsubiyyətindən asılı olmayaraq bütün xalqların hüquq bərabərliyi, hər bir xalqın nümayəndəsinin sosial-siyasi inkişafının təmin edilməsi ön plana çəkilməlidir.

Bu gün Azərbaycanda multikulturalizm (ingilis dilindən tərcümədə “çoxlu mədəniyyətlər” deməkdir) bir həyat tərzidir. Multikulturalizm – hər hansı ölkədə və ya bütün dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunmasını və harmoniyasını, azsaylı xalqların və milli azlıqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasını nəzərdə tutur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edərək Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ili “Multikulturalizm ili” elan etmişdir.

Hazırda Azərbaycanda “Tolerantlığın ünvanı. Azərbaycan” layihəsi çərçivəsində məscidlərin təmir və bərpası ilə yanaşı, xristian kilsələrinin və yəhudi sinaqoqlarının restavrasiyası da həyata keçirilir. Belə ki, bu layihə əsasında müxtəlif

dini obyektlərdə – Pir Həsən ziyarətgahı, Möhsün Səlim məscidi, Gəncədəki Həzrəti Zeynəb məscidi, Bakıda Müqəddəs Mirodaşıyan Qadınlar Kafedral Kilsəsi, Şamaxıda Cümə Məscidi, Müqəddəs Roma katakombalarının bərpasından tutmuş Fransanın müxtəlif regionlarındakı kilsələrin, Strasburq Kafedralının XIV əsrə aid vitrajlarının bərpasınadək restavrasiya işləri aparılmışdır.

Hazırda Azərbaycanda 2 mindən çox məscid, 13 kilsə və 7 sinaqoq mövcuddur. 2014-cü il dekabrın 26-da Prezident İlham Əliyev Qafqazda ən böyük məscid olan "Heydər" məscidinin açılışını etmişdir.

Bakıda yaşayan yəhudi uşaqları üçün Xabad-Or-Avner Təhsil Mərkəzinin inşa edilməsi də "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsinin tərkib hissəsidir.

Sivilizasiyalararası münaqişələrin kəskinləşdiyi bir dövrdə Azərbaycan mədəniyyətlərarası dialoqun fəal təşəbbüskarı kimi çıxış edir. Son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoq istiqamətində keçirilmiş beynəlxalq tədbirlərin coğrafiyasına nəzər salsaq, bu sahədə təşəbbüslərin əksəriyyətinin beynəlxalq aləmdə müxtəlif mədəniyyətlərin qovuşduğu məkan kimi tanınan Azərbaycan tərəfdən gəlməsi danılmaz bir faktdır. İSESCO-nun 2009-cu ildə Bakı şəhərini İslam Mədəniyyətinin Paytaxtı elan etməsi, mədəniyyətlərarası dialoqla bağlı Bakıda müxtəlif tədbirlərin – 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, 2012-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə Toplantısının, beş beynəlxalq humanitar forumun, 2016-cı ilin aprelində Birləşmiş Millətlər Təşkilatının

Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, 2017-ci ildə Bakıda İV İslam Həmrəyliyi Oyunlarının və digər mötəbər tədbirlərin keçirilməsi buna əyani sübutdur.

Bu Azərbaycan dünyaya təkcə neft deyil, həm də tolerantlıq ixrac edir. Qədim yunanlar Zevsin heykəlinin qarşısına həkk edilmiş "Burada qələbəni pulla yox, ayaqların sürəti və bədənin möhkəmliyi ilə qazanmaq olar" sözlərini Afinada keçirilən Olimpiya Oyunlarının devizinə çevirmişdilərsə də, rəsmi Bakı Birinci Avropa və İslam Həmrəyliyi Oyunlarının açılış mərasimlərində Ezop dili ilə dünyaya "Qoy fiziki gücün üstün gəldiyi yeganə yer idman meydanı (beynəlxalq hüquq yox–M.) olsun" mesajını vermiş oldu. Azərbaycan Birinci Avropa Oyunlarını və IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə təşkil etməklə, "İŞİD" terror qruplaşmasının yaratdığı "vəhşi müsəlman" obrazını özünün nümunəvi müsəlman kimliyi ilə darmadağın etmiş oldu.

Lakin polietnik dövlət kimi Azərbaycanda yaşayan milli azlıqların hüquqlarının tanınması, onların barəsində müəyyən güzəştlərin tətbiqi, milli - mədəni muxtariyyatlarının tanınması və s. faktlar heç də separtçılığa, regionçuluğa və etnik millətçiliyin təbliğinə aparıb çıxarmamalıdır.

Təəssüflər olsun ki, ermənilər onlara verilən dil və din azadlığı, mədəni muxtariyyatla razılaşmır, "millətlərin öz müqəddəratını təyin etmək hüququ" kimi sərsəm ideyalarla ərazi müxtariyyatı tələb edirlər. Əlbəttə ki, bu cür təxribatların heç bir siyasi-elmi əsası yoxudr.

Əvvəla, milli siyasət təkcə böyük millətlərin kiçik millətlərə münasibətini deyil, həm də azsaylı xalqların çoxluqlara

münasibətini nəzərdə tutur. Yəni azsaylı etnoslar siyasi gerçəkliyi və milli müxtəlifliyi dərk edərək onunla razılaşmalıdırlar. Onlar bilməlidir ki, sayca çoxluq təşkil edən xalqın milli dəyərləri adətən üstün mövqedə olur və əksəriyyət tərəfindən qəbul edilir. Təsadüfi deyil ki, demokratiya anlayışı ətrafında bu günə kimi müxtəlif fikirlər səslənsə də, hamının yekdilliklə qəbul etdiyi yeganə cəhət odur ki, demokratiya çoxluğun azlığın hüquqları ilə məhdudlaşdırılmış hakimiyyətidir. Azlıqlar onlara verilən xüsusi hüquqları heç də xüsusi imtiyaz kimi başa düşməməlidirlər. Azsaylı etnoslar o zaman statusa malik ola və çoxluqlar buna təbii bir proses kimi baxa bilərlər ki, həmin milli birliklər öz dilindən, dinindən, mədəniyyətindən sərbəst surətdə istifadə edə bilsinlər. Lakin azlıqlara bu hüquqların verilməsi onların ayrılaraq vahid bir dövlət yaratması anlamına gəlmir.

Millətlərin öz müqəddaratını təyin etmək hüququ dedikdə, hər bir millətin öz iqtisadi, sosial, siyasi, mədəni məsələlərini sərbəst surətdə həll etməsi nəzərdə tutulur. Helsinki Yekun Aktında (1975) da öz müqəddəratını təyin etmə ayrılma kimi deyil, xalqların bərabərliyinə və dövlətlərin ərazi bütövlüyünə hörmət kimi başa düşülür.

Ermənistan Konstitusiyasında (maddə 37) deyilir: “Milli azlıqlara mənsub olan vətəndaşlar öz adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək hüququna malikdir”. Yəni ermənilərin Konstitusiyasında milli azlıqlara müstəqil dövlət yaratmaq hüququnun verilməsi nəzərdə tutulmur. Ermənilərin Konstitusiyada sadaladığı hüquqlarla isə Azərbaycan Dağlıq Qarabağda yaşayan erməniləri və ölkə

ərazisində məskunlaşan digər milli azlıqları çoxdan qeyd-şərtsiz təmin etmişdi. Öz müqəddəratını təyinetmənin subyekti milli azlıq deyil, millətdir. Dağlıq Qarabağda yaşayan ermənilər milli azlıq olduqları üçün onların öz müqəddəratlarını təyinetmə hüququ beynəlxalq normalara ziddir.

## *Mövzu 15*
## *Xarici siyasət və beynəlxalq münasibətlər. Müasir dövrün başlıca qlobal problemləri*

**Əsas ideya:** *Xarici siyasət* - dövlətin beynəlxalq arenada başqa subyektlərlə, dövlətlərlə, təşkilatlarla, hərəkatlarla münasibətlərinin tənzimlənməsi istiqamətində fəaliyyətidir. *Beynəlxalq münasibətlər* - dövlətlər, beynəlxalq təşkilatlar və transmilli koorporasiyalar arasında müxtəlif səviyyələrdə və formalarda həyata keçirilən münasibətlər sistemidir.

**Məqsədlər:** tələbələrin xarici siyasət və beynəlxalq münasibətlər haqqında təsəvvürlərini genişləndirmək;
tələbələri Azərbaycan Respublikasının xarici siyasətinin uğurları ilə tanış etmək;
dünyadakı siyasi proseslərin cizgilərini təhlil etmək;
müasir dövrdə beynəlxalq təşkilatların beynəlxalq siyasətin aparılmasındakı və münaqişələrin həll edilməsindəki rolunu təhlil etmək;
qloballaşmanın üstün və mənfi cəhətlərinin tənqidi və müqayisəli şəkildə təhlil edilməsi:
"coğrafi siyasət" konsepsiyasının mahiyyəti haqqında təsəvvürlər formalaşdırmaq;
müasir dövrün qlobal problemlərinin və onların həlli yollarının təhlil edilməsi;

**Əsas anlayışlar:** xarici siyasət, beynəlxalq münasibətlər, qloballaşma,milli təhlükəsizlik, siyasi strategiya, siyasi proqnozlaşdırma,beynəlxalq münaqişə,milli mənafe və s

***I mərhələ- Motivasiya***

***Problemin qoyulması***

Müəllim tələbələrə aşağıdakı suallara cavab verməyi tapşırır:

Xarici siyasət nədir? Xarci siyasətlə beynəlxalq münasibətlər arasındakı fərq nədən ibarətdir?

Qloballaşma nədir? Sizlərdən kim qloballaşmanın tərəfdarıdır, kim bu prosesin əleyhinədir?

Müasir dövrün əsas qlobal problemləri hansılardır?

Sualların qısa müzakirəsindən sonra müəllim **tədqiqat sullarını** qoyur:

-"Xarici siyasət" və "dövlətin xarici funksiyaları" anlayışları arasında hansı fərqlər mövcuddur?

- Xarici siyasəti şərtləndirən amillər içərisində hansını daha əhəmiyyətli hesab edirsiniz?

- Dünyada hansı beynəlxalq münaqişələr mövcuddur? Bu münaqişələrin həll edilməsinə dair özünüzün mümkün həll variantlarınızı göstərin.

-Sizcə, qloballaşma idarə olunan prosesdirmi?

- Azərbaycan Respublikası xarici siyasətinin aktual problemlərini sadalayın. Bu problemlərin içərisində hansının həllinin daha vacib olduğunu düşünürsünüz?

-Sizcə, Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmizə nə verdi?

***II mərhələ***
***Tədqiqatın aparılması***
***Kiçik qruplarda iş***

Müəllim tələbələri qruplara bölərək, onların hər birinə müəyyən mövzu verir. Qrup öz mövzusunu səylə öyrənməli və onu auditoriyaya təqdim etməlidir.

***III mərhələ***
***İnformasiya mübadiləsi***

Hər bir qrupun nümayəndəsi çıxış edir və auditoriyanı öz qrupunun işinin nəticələri ilə tanış edir. İnformasiya mübadiləsi baş verir.

***IV mərhələ***
***İnformasiyanın müzakirəsi və təşkili***

Tələbələr keçirilmiş tədqiqat nəticəsində mövzu ilə bağlı fikirləri bir-biri ilə müqayisə edirlər. Bu müqayisə nəticəsində tələbələr öz fikirlərindəki üstün və nöqsan cəhətləri daha aydın dərk edirlər.

***V mərhələ***
***Ümumiləşdirmə və nəticə***

-Xarici ticarət, xarici mədəni, sosial-humanitar və iqtisadi əlaqələr bütövlükdə dövlətin xarici fəaliyyət sahələrini əks etdirir. Düzdür, siyasi təsisat olduğundan dövlətin bütün fəaliyyəti bu və ya digər dərəcədə siyasi xarakter kəsb edir. Lakin dövlətin xarici fəaliyyətində sırf siyasi xarakterli fəaliyyət ayrıca sfera təşkil edir. Başqa sözlə, xarici siyasət dövlətin xarici funksiyalarının tərkib hissəsi olaraq, beynəlxalq arenada onun siyasi xarakterli əlaqələrini ehtiva edir.

-Xarici siyasətin mahiyyətini və məzmununu müəyyənləşdirən önəmli cəhətlər bunlardır:

–beynəlxalq münasibətlər sistemii;

–dövlətin siyasi rejimi;

–ölkənin coğrafi mövqeyi;

– ölkə başçısının xarakterik xüsusiyyətləri və beynəlxalq naləmdəki nüfuzu və s.

"Qloballaşma" anlayışı etimoloji cəhətdən latınca "qlobus"-"yer kürəsi" sözü ilə bağlıdır. Qloballaşma proseslərin ümumi-planetar xarakter daşıdığını göstərir. Bu termininin meydana gəlməsini professor Teodor Levitin adı ilə bağlıdır. Qloballaşma dedikdə, bəşəriyyətin bir-birinə yaxınlaşması, dünya xalqları arasındakı fərqlərin getdikcə ortadan götürülməsi başa düşülür. Qloballaşma, həmçinin dünya iqtisadiyyatının və beynəlxalq münasibətlərin dövlətlərüstü, transsərhəd tənzimləyicilərin rolunun güclənməsini, qlobal iqtisadiyyatın və siyasətin formalaşmasını nəzərdə tutur.

Bəzi müəlliflər qloballaşmanın güclü təsiri altında ümumbəşəri cəhətlərin milli-mənəvi dəyərlərdən üstün mövqeyə malik olmasını iddia edirlər. Başqa bir qisim isə hesab edir ki, millət və xalq milli olmayan hər şeyi inkar etməli, özünün bütün fəaliyyətini yalnız millətçilik üzərində qurmalıdır. Qloballaşma əleyhdarlarının fikrincə, qloballaşma dünya üzərində hökmranlığı ələ almaq üçün düşünülən və işə salınan bir mexanizmdir.

Əlbəttə ki, bu təsəvvürlərin hər ikisi yanlışdır, çünki milli cəhətlərin həddən artıq qabardılması millətlər arasında suni əngəllərin yaranmasına səbəb olursa, bəşəri ideallara qovuşmaq adı altında milli-mənəvi dəyərlərə etinasız münasibət göstərilməsi kosmopolitizmə aparır. Ona görə də ən optimal va-

riant ümumbəşəri dəyərlərin milli cəhətlərin fövqündə deyil, onlarla sintez halında formalaşmasıdır. Yəni milli ilə ümumbəşərinin dialektik vəhdəti əsas götürülməlidir. Başqa sözlə desək, milli özünəməxsusluğun məzmununda ayrı-ayrı millət və xalqlara mənsub olan milli cəhətlərin bəşəri dəyərlərlə nisbətini təkcə ilə ümuminin nisbəti kimi nəzərdən keçirmək mümkündür: dialektikanın qanunlarında deyildiyi kimi, təkcənin (millinin) ayrı-ayrı cəhətləri toplanaraq ümumidə (bəşəridə) cərəyan edir, ümumi (bəşəri) də öz növbəsində təkcənin (millinin) təkamülünə yeni rəng qatır. Məhz ümumbəşəri dəyərlərə müraciət edilməsi milləti dünya sivilizasiyasının ümumi inkişafını axınına qoşur.

Münasibətlərin müxtəlif olmasından asılı olmayaraq, bir aksiomatik həqiqət var ki, qloballaşma həm obyektiv (bu proses heç kimdən və heç nədən asılı olmadan gedir), həm də subyektivdir (insanların iştirakı ilə gedir). Qloballaşmanın dəniz küləyinə bənzədiyni anlamaq bizim üçün çox əhəmiyyətlidir. Dəniz küləyi həm gəmini hərəkətə gətirmək, həm də onu batırmaq imkanına malikdir. Əgər Azərbaycan bu dəniz küləyinə uyğunlaşarsa, ideallaşdırdığı “Demokratiya” limanının sahilinə asan və maneəsiz yetişə bilər, yox, əgər bizim laqeydliyimiz ucbatından qloballaşma dalğası bizi batırarsa və ya bizdən yan keçərsə, nəticə ürəkaçan olmaz-ölkəmiz bəşər sivilizasiysından uzaq düşə bilər.

Azərbaycan Respublikası xarici siyasətinin aktual problemləri isə bunlardır:

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunması, qaçqınların və köçkünlərin öz doğma yurd-yuvasına qayıtması;

-dünya azərbaycanlıları ilə əlaqələrin daha da intensivləşməsi (çünki 50 milyondan artıq azərbaycanlıların cəmi 10 milyonu ölkəmizin vətəndaşıdır. Bu isə xarici ölkələrdəki diasporamız içərisində təbliğat aparılmasına, milli şüurun gücləndirilməsinə və milli-mənəvi dəyərlərimizin təbliğinə tələbatı daha da artırır);

-Azərbaycanın türk və islam dünyasına ineqrasiyasını daha da sürətləndirmək. Lakin bu heç də xristian təəssübkeşliyi üzərində köklənən Qərbə adekvat reaksiya kimi deyil, əksinə sivilizasiyalararası dialoqun zənginləşməsi kimi başa düşülməlidir.

-siyasi elmlər sahəsində çalışan mütəxəssislər şəbəkəsinin siyasi strategiyanın hazırlanmasında töhvəsinə nail olmaq, çünki siyasi strategiyanın optimallığı onun söykənmiş olduğu elmi konsepsiyanın rasionallığından birbaşa asılıdır.

### *Nəzəri material*

Xarici siyasət dövlətin xarici funksiyalarının tərkib ünsürü olaraq beynəlxalq aləmdə onun başqa dövlətlərləvə hərəkatlarla siyasi xarakterli fəaliyyətini əks etdirir. Xarici siyasətin məqsədi daxili siyasi kursun təminatı üçün əlverişli mühit və təminatlar formalaşdırmaqdır. Onun məzmununu millətin xarici təhlükəsizliyinin, dövlətin ərazi bütövlüyünün, suverenliyinin, iqtisadi müstəqilliyinin təmin edilməsi ilə bağlı xüsusi davranış üsul və vasitələrinin məcmusu təşki edir.

Xarici siyasətin mahiyyətli dedikdə onun daxili əsasları, təbiəti və mövcudluğunu təmin edən səbəblər başa düşülür. Xarici siyasətin məzmunu dedikdə, onun qarşısında duran

məqsədlər və həmin məqsədləri həyata keçirmək üçün istifadə olunan üsul və vasitələrin məcmusu başa düşülür. Xarici siyasətin mahiyyəti sabit olsa da, məzmunu dövlətin xarici siyasət zamanı qarşıya qoyduğu konkret vəzifələrdən asılı olaraq dəyişir.

Xarici siyasət fəaliyyətinin mövcudluq üsulu onun formasında təzahür edir. Xarici siyasətin əsas formaları bunlardır:

–mürtəce;

–işgalçı;

-dinç yanaşı yaşamaq;

-bloklara qoşulmamaq;

–tarazlaşdırıcı xarici siyasət və s.

Xarici siyasətin əsas vasitələri isə bunlardır: diplomatiya, silahlı qüvvələr, blokada və təbliğat.

Diplomatiya dövlətin xarici əlaqələri haqqında təlim olub, başlıca məqsədi beynəlxalq arenada milli mənafelərin həyata keçirilməsi məqsədi daşıyan strategiyanın işlənib hazırlanmasıdır.

Xarici siyasətin vasitəsi kimi silahlı qüvvələrin iki əsas tipi mövcuddur:

-işğalçılıq məqsədlərinə xidmət edən silahlı qüvvələr;

-ölkənin suverenliyinin qorunmasına xidmət edən silahlı qüvvələr.

Xarici siyasətin təbliğatı isə iki başlıca məqsəd güdür:

1) xarici siyasət fəaliyyətinə adekvat ictimai rəy formalaşdırmaq;

2) beynəlxalq ictimaiyyəti mümkün hadisələrə hazırlamaq.

Hər bir xalqın, millətin, tayfanın, regionun və hətta ayrılıqda götürülmüş bir insanın özünəməxsus bir ideyası, yəni

uğrunda mübarizə apardığı bir məqsədi olur. Qloballaşan dünyada millətlərin özünü yad ideyalardan qorumasında milli ideyanın formalaşdırılması və inkişafı xüsusilə böyük əhəmiyyət kəsb edir. İnstitusional əsasları kövrək olan dövlətlərdə milli ideyanın inkişafı üçün münbit mühit olmur, əksinə ideya boşluğu olan ölkələrdə yad ideyalar daha tez cücərir. Nəticədə isə, sabitlik, milli suverenlik və dövlətçilik üçün ciddi təhlükə yaranır.

Milli ideya xalqın taleyini, onun məqsəd və vəzifələrini ifadə edən, milli məsələlərin həlli üçün xalqın gücünü səfərbər edən inteqrativ milli mənlik şüuru konsepsiyasıdır. Milli şüurun dərinliklərindən qaynaqlanan milli ideya cəmiyyətin inkişafının ümumi strategiyası rolunda çıxış edir.

Milli ideyanın cəmiyyətdə yayılmasının üsul və vasitələri isə milli ideologiya adlanır. Milli ideologiya ideyanın gerçəkləşməsinə xidmət edən taktika kimi çıxış edir. Milli ideologiya millətin tarixi inkişaf prosesini, mənsub olduğu toplumun dəyərləri barədə təsəvvürləri, eləcə də başqa dəyərlərə və millətlərə münasibətləri özündə əks etdirir. Milli ideologiya xalqın milli ruhuna zidd olmamalıdır.

Milli təhlükəsizlik isə milli müstəqilliklə başlayır və milli maraqlara söykənir. Ölkənin milli təhlükəsizliyi bütövlükdə millətin suverenliyi ilə bağlıdır. Milli təhlükəsizliyin qarşısında duran başlıca vəzifələr bunlardır:

-ölkədə mövcud konstitusiya quruluşunun saxlanılması;

-sosial-siyasi sabitliyin saxlanılması;

-daxildən və xaricdən ola biləcək təhlükənin aradan qaldırılması;

-ölkənin iqtisadi qüdrətinin artırılması;

-konstruktiv daxili və xarici siyasətin yeridilməsi;

-demokratik dəyərlərin qorunması və s.

Azərbaycanın ölkənin milli təhlükəsizliyinin təmin olunmasına, qlobal və regional mövqeyinin möhkəmləndirilməsinə istiqamətlənən  xarici siyasət prioritetləri aşağıdakılardır:

-işgal olunmuş ərazilərin düşmən təcavüzündən xilas edilməsi və ərazi bütövlüyünün bərpası;

-müxtəlif  dövlətlərlə ikitərəfli və çoxtərəfli zəmində qarşılıqlı  faydalı münasibətlər qurmaq və s.

Azərbaycan Respublikasının xarici siyasətindəki nailiyyətlər isə bunlardır:

–Xarici siyasətin əsas vasitələri olan diplomatiya və təbliğatdan rasional şəkildə istifadə edərək, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işgal edilməsi faktının beynəlxalq aləmdə tanınması;

–Artıq Azərbaycan özünün dünya üçün standartlar müəyyən etməsi;

–Azərbaycanın planetar proseslərin obyektindən subyektinə çevrilməsi. Bu gün  Azərbaycanın beynəlxalq enerji, nəqliyyat, iqtisadi və s. layihələrin fəal iştirakçısına və təşkilatçısına çevrilməsi;

–Sivilizasiyalararası münaqişələrin kəskinləşdiyi bir dövrdə Azərbaycan mədəniyyətlərarası dialoqun fəal təşəbbüskarı kimi çıxış etməsi;

–Qədim yunanlar Zevsin heykəlinin qarşısına həkk edilmiş “Burada qələbəni pulla yox, ayaqların sürəti və bədənin möhkəmliyi ilə qazanmaq olar” sözlərini Afinada keçirilən Olimpiya Oyunlarının devizinə çevirmişdilərsə də, rəsmi Bakı Birinci Avropa və İslam Həmrəyliyi Oyunlarının açılış məra-

simlərində Ezop dili ilə dünyaya "Qoy fiziki gücün üstün gəldiyi yeganə yer idman meydanı (beynəlxalq hüquq yox–M.) olsun" mesajını vermiş oldu.

İlk baxışda xarici siyasət və beynəlxalq münasibətlər bir-birinə yaxın sosial hadisə kimi görünsələr də, onların hər birinin spesifik xüsusiyyətləri vardır.

Əvvəla, beynəlxalq münasibətlər ictimai, dövlət, hərbi, iqtisadi və s. qüvvələrin qlobal, regional, çoxtərəfli və ya ikitərəfli səviyyələrdə qarşılıqlı fəaliyyət göstərdiyi bir sahədir. İkincisi, beynəlxalq münasibətlər dövlət halında təşkil olunmuş bir cəmiyyət miqyaslarından kənara çıxır və beynəlxalq birliyin müxtəlif elementləri arasında meydana gəlir. Üçüncüsü, dövlətin xarici siyasətindən beynəlxalq münasibətləri belə bir cəhət fərqləndirir ki, birincilər fəaliyyət kimi, ikincilər isə qarşılıqlı fəaliyyət kimi özünü büruzə verir. Dövlətin daxili həyatının təşkilində istifadə olunan iyerarxiya prinsipindən, yəni şaquli əlaqələrdən fərqli olaraq, beynəlxalq münasibətlərdə üfüqi əlaqələr, bərabər partnyorluq prinsipi ön plana keçir.

Siyasi elmdə beynəlxalq münasibətlərin müxtəlif təsnifatına rast gəlmək mümkündür. Məsələn, marksizmə görə tarixdə mövcud olan beş formasiyaya uyğun olaraq beynəlxalq münasibətlərin də beş forması var.

F. Martens beynəlxalq münasibətlərin inkişafında üç başlıca mərhələni bir-birindən ayırır:

–qədim dövr və orta əsrlər– Vestfal (1649) sülhünə qədərki dövr;

–Vestfal sülhündən 1815-ci il Vyana konqresinə qədər olan dövr;

–1815-ci ildən hazırki dövrə qədər.

Müasir dövrdə politoloqlar daha çox beynəlxalq münasibətlərin aşağıdakı tarixi təsnifatına üstünlük verirlər:

1) Beynəlxalq münasibətlərin ilkin forması (XVI-XVIII əsrlər);

2) Sənayə dövrünün beynəlxalq münasibətləri (XIX əsr-XX əsrin əvvəlləri);

3) Müasir beynəlxalq münasibətlər.

Birinci formanı səciyyələndirmək üçün dünyanın siyasi coğrafiyasının qeyri-sabit xarakterli olması ilə əlaqədar olaraq dəyişikliklərin yaranması, beynəlxalq münasibətlər üçün hüquqi əsasın olmaması, beynəlxalq münasibətlərdə dövlətlərin ictimai həyatının sadəcə bəzi sahələrinin əhatə olunması və s. kimi əlamətləri qeyd etmək olar. İkinci formanı səciyyələndirən əlamətlər - milli dövlətlərin meydana gəlməsi və beynəlxalq münasibətlərin aktorlarının sayının artması, beynəlxalq münasibətlərin rolunun artması, hüquq normalarının meydana çıxması ilə dövlətlərarası sistemsiz əlaqələrin tədricən sistemli hala düşməsi və s. ilə qiymətləndirilir. Müasir beynəlxalq münasibətlər isə bir sıra yeni keyfiyyətlərlə seçilir: qarşılıqlı münasibətlərdə bərabərhüquqlu tərəfdaşlığın olması, beynəlxalq hüquq normalarının milli hüquqi normalar üzərində imperativə malik olması, beynəlxalq hadisələri idarə edən ümumdünya və regional mərkəzlərin yaradılması, beynəlxalq münasibətlərin qloballaşması, milli dövlətlərin funksiyalarının zəifləməsi və s.

Müasir dövrdə beynəlxalq münasibətlərin qloballaşmasının həm üstün, həm də mənfi cəhətləri vardır.

Qloballaşmanın üstün cəhətləri aşağıdakılardır:

-kütləvi informasiya vasitələrinin rolunun artmasından, internetin fəaliyyətindən bütün bəşəriyyətin faydalanması;

-bəşər təcrübəsinin əldə etdiyi nailiyyətlərdən bütün dünya xalqlarının faydalanması;

-dünyada demokratik sistemlərin geniş yayılmasına əlverişli şərait yaratması və s.

Qloballaşmanın mənfi cəhətləri isə bunlardır:

-inkişaf etmiş ölkələrin daha da varlanması, əksinə, kasıb ölkələrdə yoxsulluğun səviyyəsinin artması;

–ayrı-ayrı dövlətlərin öz hərbi qüdrətini artırması və böyük dağıdıcılıq gücünə malik olan silahların satışını genişləndirməsi;

–təbiətə həddən artıq təsir göstərilməsinin dünyanın təbii balansını pozması və ekoloji problemlərin meydana gəlməsi və s.

Dünyanın getdikcə artmaqda olan vəhdəti, beynəlxalq münasibətlərin rolunun artması, cəmiyyətdə mövcud olan ziddiyyətləri də kəskinləşdirərək, onları qlobal - ümumdünya problemləri səviyyəsinə yüksəldir.

Qlobal problemlərin meyarı müxtəlif şəkildə təhlil olunur. Birinci mövqeyə görə "qlobal problemlər" aşağıdakı meyarlarla müəyyən olunur:

1) miqyası və əhəmiyyətinə görə ən geniş, çox mühüm əhəmiyyətli, bütün dünya ölkələrini əhatə edən;

2) sintetik mahiyyət daşıyan və bütün sahələri əhatə edən;

3) planetar və beynəlxalq xarakter daşıyan.

İkinci mövqeyə görə "qlobal problemlər" müəyyənləşdirilərkən aşağıdakı dörd cəhət əsas tutulmalıdır:

1) o hadisələr “qlobal” xarakter daşıyır ki, onlar ictimai tərəqiyyə mane olur və sivilizasiyanı məhv etmək təhlükəsi yaradırlar;

2) onlar bütün xalqların və dövlətlərin, bütün bəşəriyyətin mənafeyinə toxunurlar;

3) onlar özlərində ictimai və təbii prosesləri birləşdirərək, sosial-təbii və biososial mahiyyət daşıyırlar;

4) onların həll edilməsi kollektiv nəzarət, beynəlxalq əməkdaşlıq tələb edir.

Müasir dövrdə qlobal problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

–Təbii ehtiyatlardan qeyri-rasional istifadə edilməsi, təbii mühitə antropogen təsirlərin neqativ nəticələri kimi atmosferin çirklənməsi, ekoloji şəraitin pisləşməsi;

–Zəruri ərzaq bazası və sosial şərait olmadan əhali artımının yüksək sürəti;

–ayrı-ayrı ölkələr arasında iqtisadi və sosial ziddiyyətlərin kəskinləşməsi;

–bütün bəşəriyyəti məhv edə biləcək kütləvi qırğın silahlarının yaradılması, kütləvi şəkildə hərbiləşmə və s.

***Beynəlxalq münaqişələr və onların həlli yolları.***

Münaqişə (lat.dilində “conflictus” - toqquşma) müxtəlif tələbat və mənafelərin toqquşması, ciddi fikir ayrılığı deməkdir. Siaysi münaqişə dedikdə hakimiyyət uğrunda mübarizə aparan iki və daha çox tərəfin rəqabət xarakterli qarşılıqlı fəaliyyəti başa düşülür. Rəqabət və fikir ayrılığı cəmiyyətdə subyektin özünü təsdiq etmə vasitəsi kimi mühüm rola malikdir. Münaqişə cəmiyyətdəki durğunluğu aradan qaldıraraq ona yenilik ab-havası gətirir.

Hər bir münaqişə üç əsas mərhələdən keçir: münaqişənin başlanması, inkişafı və sona çatması.

Münaqişələr müxtəlif formalarda təzahür edir: sosial, siyasi, şəxsiyyətlərarası və dövlətlərarası və s.

Siyasi münaqişələr növünə görə aqonist (barışdırıcı) və antaqonist (barışmaz) olurlar. Aqonist münaqişələrin vaxtında həll edilməməsi onların daha da alovlanmasına və antoqonist münaqişəyə çevrilməsinə gətirib çıxara bilər.

Yaranma şəraitinə görə isə münaqişələr gizli (latent) və açıq olur.

Yayılma arealına görə münaqişələr daxili, xarici və beynəlxalq xarakterli olur. Beynəlxalq münaqişələr digərilərindən özünün miqyası və kəskinlik dərəcəsinə görə fərqlənir. Həmçinin cəmiyyətdaxili münaqişələrdən fərqli olaraq, beynəlxalq münaqişələr onları tənzimləyən mərkəzdən məhrumdur.

## *Sərbəst mövzular*

1. Politologiya nəyi öyrənir.
2. Siyasət incəsənət kimi.
3. Platonun “ideal dövlət” layihəsi.
4. “Siyasətin atası” – Aristotel.
5. Politologiyanın aktuallığı.
6. Nəzəri və tətbiqi politologiya.
7. Azərbaycanda politologiyanın elm kimi meydana gəlməsi.
8. Antik Yunan və Roma siyasi fikri.
9. Ellinizm dövründə siyasi fikrin xarakterik cəhətləri.
10. Qədim Şərqdə azadlıq və tolerantlıq haqqında ideyalar.
11. İntibah dövrü siyasi fikrinin xüsusiyyətləri.
12. Nikkollo Makiavelli dövlət xadimi və siyasi mütəfəkkir kimi.
13. J.J.Russonun siyasi ideyaları və Böyük Fransa inqilabı.
14. İctimai müqavilə və təbii hüquq nəzəriyyələri.
15. “Avesta” siyasi mənbə kimi.
16. Azərbaycanda maarifçilik dövrünün siyasi ideyaları.
17. M.Ə.Rəsulzadənin siyasi görüşləri.
18. Azərbaycanda siyasi fikrin publisistika daxilində inkişafı.
19. Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk dünyəvi, parlamentli və respublika quruluşuna malik dövlət kimi.
20. İslam ve demokratiya.
21. Cəmiyyət və sivilizasiya.
22. Siyasətdə əxlaq və mənəviyyat.
23. Bürokratiya və bürokratizm.
24. Siyasi elitaya dair nəzəriyyələr.
25. Dövlət siyasi sistemin əsas təsisatı kimi.

26. Dövlət və idarəçilik.
27. Dövlət və suverenlik.
28. Hüquqi dövlət: nəzəri modellər və siyasi gerçəklik.
29. Demokratiya: nəzəri modellər və siyasi gerçəklik.
30. Lobbizm və diaspor.
31. Siyasi sosiallaşmada ailənin rolu.
32. Postsovet məkanının siyasi liderləri: müqayisəli təhlil.
33. Azərbaycanda müxalifət partiyalarının xarakterik xüsusiyyətləri.
34. Heydər Əliyev və Azərbaycanda demokratik dövlət quruculuğu prosesi.
35. Müasir dövrün başlıca ideoloji cərəyanlar.
36. Azərbaycanda milli təhlükəsizlik problemi.
37. Demokratikləşmə prosesinin Azərbaycan modeli.
38. İnsan hüquqları və demokratiyanın qarşılıqlı əlaqəsi.
39. Demokratik cəmiyyətdə söz azadlığı problemi.
40. Şəxsiyyətin siyasi inkişafını müəyyən edən faktorlar.
41. Şəxsiyyətin siyasi fəallığının müxtəlif səviyyələri.
42. Azərbaycandakı siyasi proseslərin səciyyəvi xüsusiyyətləri.
43. "Gorus-2010: absurd teatrı mövsümü" kitabı ermənilərə qarşı müharibədə mühüm mənbə kimi.
44. Müasir beynəlxalq münasibətlərin əsas prinsipləri.
45. Müasir dövrdə insasn hüquqları problemi.
46. Gender bərabərliyi.
47. Kütlə davranışı və onun əsas xüsusiyyətləri.
48. Sosial siyasətdə sosial ədalət prinsipi.
49. Müasir dövrdə milli münasibətlərdəki əsas tendensiyalar.
50. Siyasi strategiyanın mahiyyəti, məqsədi və vəzifələri.

51. Azərbaycan Respublikasının xarici siyasət strategiyası.
52. Dünyadakı siyasi proseslərin xarakterik cizgiləri.
53. BMT dünya siyasətinin əsas subyekti kimi.
54. Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakı məsələsi.
55. İctimai quruluşun inkişafını şərtləndirən amillər.
56. Müasir kapitalizm.
57. Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət bölgüsü.
58. Tərəqqi və tənəzzül. Modernləşmə.
59. Ədalət və bərabərlik.
60. Ekstremizm və terrorizm.

## *İmtahan sualları*

1. Politologiyanın yaranması və tarixi təkamülü.
2. Politologiyanın predmeti, metodu və kateqoriyaları.
3. Politologiyanın aktuallığı.
4. Politologiyanın funksiyaları: təsvir, izahetmə, ideoloji, tərbiyəvi və s.
5. Politolgiyanın başqa ictimai elmlərlə qarşılıqlı əlaqəsi.
6. Siyasi elmin nəzəri və empirik səviyyəsi.
7. Siyasət və onun əsas funksiyaları.
8. Siyasətin strukturu, məqsədi və tipologiyası.
9. Siyasətdə ümumbəşəri dəyərlərin üstünlüyünü şərtləndirən amillər.
10. Nizami Gəncəvi irqlərin bərabərliyi ideyasının banisi kimi.
11. Nizami Gəncəvinin yaradıcılığında humanitar ideyalar və onun Şərq aləminə təsiri.
12. Nəsrəddin Tusinin "Əxlaqi - Nəsir" əsərində əsas siyasi ideyalar.
13. Hürufilik ideologiyası və onun mahiyyəti.
14. Azərbaycanda maarifçilik dövrünün siyasi ideyaları.
15. A.A.Bakıxanovun siyasi görüşləri.
16. N. Nərmanovun siyasi görüşləri.
17. Əlibəy Hüseynzadə türkçülük ideyasının banisi kimi.
18. Ə.Ağayev və onun başlıca siyasi görüşləri.
19. M.Ə.Rəsulzadənin demokratik ideyaları.
20. Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideri kimi.
21. Çağdaş Azərbaycanda siyasi fikir.
22. Qədim Yunanıstanda və Romada siyasi fıkir.
23. Qədim Şərqdə siyasi ideyaların formalaşması (Babilistan, Hindistan, İran)

24. Orta əsrlərdə Şərqdə siyasi fikrin inkişaf xüsusiyyətləri.
25. Avropada siyasətin təcrübi elm kimi formalaşması. N. Makiavelli, T. Hobbs, C. Lokk.
26. N.Makiavelli:siyasətin təcrübi elm kimi əsaslandırılması.
27. İntibah və maarifçilk dövrünün siyasi konsepsiyaları.
28. T.Hobbs və Con Lokkun ictimai müqavilə haqqında nəzəriyyələri.
29. Klassik alman filosiflarının siyasi təlimi.(İ.Kant,F.Hegel və b.)
30. Orta əsr ərəb mütəfəkkirlərinin siyasi görüşləri (İbn Xaldun, Əl–Fərabi, İbn Rüşd və b.)
31. XVIII əsr fransız maarifçiliyi: Volter, Monteskye.
32. Müasir siyasi təlimlər.
33. Siyasi hakimiyyət və onun əsas əlamətləri.
34. Hakimiyyət və onun resursları.
35. Legitim hakimiyyət,onun başlıca mexanizmləri və çökmə səbəbləri.
36. Hakimiyyətin həyata keçirilməsi mexanizmləri.
37. Hakimiyyətin əsas tipləri. (ənənəvi, harizmatik və rasional-leqal)
38. Konstitusiyanın mahiyyəti,xüsusiyyətləri və funksiyaları.
39. Hakimiyyətin bölünməsi: qanunverici, icraedici və məhkəmə hakimiyyəti.
40. Siyasi elitanın mövcudluğunu şərtləndirən amillər.
41. Elita anlayışının mahiyyəti.
42. Elitanın təsnifatı və seçilməsi sistemi.
43. Azərbaycanda elitanın formalaşması mərhələləri.
44. Liderin xarakterik xüsusiyyətləri və keyfiyyətləri.
45. Liderin fəaliyyətinin nəticələrinə təsir edən amillər.

46. Siyasi liderin funksiyaları: inteqrativ, sosial arbitraj, analitik, fəaliyyət proqramı hazırlamaq, kommunikativ, əlaqələndirmə və s.
47. Siyasi sistem cəmiyyətin siyasi təşkili kimi.
48. Siyasi sistemin formalaşmasına təsir göstərən amillər: sosial-iqtisadi,coğrafi, tarixi, demoqrafik, milli və s.
49. Siyasi sistemlərin tarixi təsnifatı. (imperiya, müasir milli dövlət və konfederasiya).
50. Cəmiyyətin siyasi sistemi anlayışı, onun strukturu və fəaliyyət mexanizmi.
51. Siyasi sistemlərin təsnifatı.
52. Müasir siyasi sistemlərin müqayisəli təhlili (ABŞ-ın, B. Britaniyanın, Fransanın,Türkiyənin və s. ölkələrin siyasi sistemləri)
53. 1995-ci il 12 noyabr Konstitusiyası və Azərbaycan Respublikası siyasi sisteminin struktur formalaşması.
54. Müstəqil Azərbaycan Respulikasının modernləşməsi mərhələləri.
55. Dövlət və onun əsas təşəkkül mərhələləri.
56. Dövlət, onun əlamətləri, mahiyyəti və idarə formaları.
57. Dövlətin yaranmasının müxtəlif səbəbləri.
58. Dövlətin ərazi quruluşuna görə formaları: unitar, federativ və konfederativ.
59. Dünyəvi, teokratik və klerikal dövlət.
60. Respublikanın dövlət quruluşu kimi mahiyyəti və başlıca formaları.
61. Federasiya və onun əsas əlamətləri. Müasir dünyada mövcud olan federativ dövlətlər.
62. Monarxiya və onun başlıca formaları.
63. Dövlətin böhranlı situasiyadan çıxış yolları.
64. Hüquqi dövlət və onun əsas əlamətləri.

65. Mülki cəmiyyət və hüquqi dövlətin qarşılıqlı əlaqəsi.
66. Azərbaycan Respublikasında vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesi.
67. Siyasi rejim və onun əsas tipləri.
68. Avtoritarizm və onun əsas əlamətləri.
69. Totalitarizm və onun tarixi formaları.
70. Avtoritarizmi totalitarizmdən fərqləndirən amillər.
71. Azərbaycan Respublikasında demokratik rejimə keçidin əsas xüsusiyyətləri.
72. Demokratiya dövlət quruluşu forması kimi.
73. Demokratiyanın əsas növləri.
74. Demokratiya formalarının tarixi təkamülü.
75. Siyasi rejimin sabitliyini şərtləndirən amillər.
76. Siyasi plüralizm.
77. Dövlət və cəmiyyət anlayışlarının bir-birindən ayrılması. (N.Makiavelli )
78. Vətəndaş cəmiyyəti və dövlət arasındakı oxşar və fərqli cəhətlər.
79. İnsan və vətəndaş hüquq və azadlıqlarının təsnifatı.
80. Qeyri-demokratik rejimlərdən demokratik rejimlərə keçid və onun yolları
81. İctimai təşkilatlar:funksiyaları,əlamətləri və tipologiyası.
82. Təzyiq qrupları və onların əsas funksiyaları.
83. Lobbizm və onun müxtəlif metodları.
84. Siyasi sistemdə partiyaların yeri və rolu.
85. Siyasi partiyaların müəyyən edilməsinin əsas kriteriyaları.
86. Demokratik cəmiyyətdə müxalifətin yeri və rolu.
87. Partiya sistemləri və onların təsnifatı.
88. Partiya sistemlərinin formalaşmasına təsir göstərən amillər.

89. Partiyaların fəaliyyətinin hüquqi tənzimləməsini şərtləndirən amillər.
90. İctimai təşkilatların və siyasi partiyaların oxşar və fərqli cəhətləri.
91. Müstəqil Azərbaycan Respublikasında partiya sisteminin xarakterik xüsusiyyətləri.
92. Sosial siyasət və onun əsas funksiyaları. Sosial qruplar və onların qarşılıqlı əlaqəsi.
93. Sosial struktur və sosial stratifıkasiya.
94. Milli siyasət və onun koseptual müddəaları.
95. Milli siyasətin elmi əsasları. Millətlərin suverenliyi.
96. Milli siyasətin mahiyyəti və prinsipləri.
97. Milli azlıqlar problemi.
98. Milli münasibətlər və milli məsələ.
99. Azərbaycan Respublikasının milli siyasətinin əsas prinsipləri.
100. Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikasının Prezidenti H.Ə. Əliyevin 26 mart 1998-ci il fərmanı və onun tarixi əhəmiyyəti.
101. Azərbaycanda etno-siyasi proseslərin səciyyəvi cəhətləri.
102. Azərbaycanda siyasi iştirakın hüquqi təminatları
103. Siyasi şüur və siyasi ideologiya.
104. Siyasi şüur: səviyyələri və funksiyaları.
105. Azərbaycanda siyasi şüurun özünəməxsus xüsusiyyətləri.
106. Siyasi mədəniyyət və onun funksiyaları.
107. Siyasi mədəniyyət anlayışı, onun strukturu və funksiyaları.
108. Siyasi mədəniyyətin tipologiyası.
109. Siyasi mədəniyyətin formalaşmasına təsir göstərən subyektlər və amillər.

110. Azərbaycan cəmiyyətinin siyasi mədəniyyətinin səciyyəvi xüsusiyyətləri.
111. Müasir dövrün başlıca ideolji cərəyanları.
112. Azərbaycançılıq ideologiyasının siyasi və iqtisadi əsasları.
113. Qərb və Şərq siyasi mədəniyyətləri arasında oxşar və fərqli cəhətlər.
114. İnsanın siyasi sosiallaşması mərhələləri və vasitələri.
115. Şəxsiyyətin siyasi fəallığının səviyyələri.
116. Siyasi proses və onun məzmununu müəyyənləşdirən amillər.
117. "Parlament" anlayışının mahiyyəti və genezisi.
118. Parlamentarizm və onun əsas əlamətləri.
119. Müasir parlament sistemlərinin müqayisəli təhlili.
120. Azərbaycan parlamenti: təşəkkülü və müasir dövrü. Azərbaycan Respublikasının Konstitusiyası və Milli Məclisin işinin təşkili və səlahiyyətləri.
121. Seçkilər: normalar, prinsiplər və senzlər.
122. Aktiv və passiv seçki hüququ.
123. Seçki huququnun başlıca prinpipləri: bərabərlik, ümumilik, gizlilik, sərbəstlik, aşkarlıq, şəxsən və birbaşa olması və s.
124. Seçkilərin demokratikliyini şərtləndirən amillər: nümayəndəlik, qətilik, dövrilik, rəqabət, şəffaflıq, ədalətlilik və s.
125. Azərbaycan Respublikasının seçki sistemi.
126. Majoritar seçki sisteminin pozitiv və neqativ tərəfləri.
127. Proporsional seçki sisteminin pozitiv və neqativ tərəfləri.
128. Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasının xarici siyasət konsepsiyası.
129. Referundum və onun mahiyyəti.

130.2016-cı il 26 sentyabr referendumunun Azərbaycan Respublikasının siyasi sisteminə təsiri.
131.Siyasi mədəniyyətin tipləri. Patriarxal, təbəəçi və fəal siyasi mədəniyyət.
132.İdeologiyanın xüsusiyyətləri: siyasi rejimə bağlılıq, inam, kollektiv düşüncə, ideyaların rasionallığı və yeniliyi.
133. Müasir dövrün başlıca ideoloji nəzəriyyələri və cərəyanları: liberalizm, konservatizm, radikalizm, elmi sosializm, anarxizm, siyasi ekstremizm, millətçi, dini ideologiyalar və s.
134. Multikulturalizm Azərbaycanda həyat tərzi kimi.
135. Xarici siyasətin metod və vasitələri.
136. Xarici siyasətin mahiyyəti, məzmunu və formaları.
137. Azərbaycan Respublikasının xarici siyasətinin əsas prinsipləri və istiqamətləri.
138. "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ" münaqişəsi (tarixi və müasir durumu). Münaqişənin həlli yolları və vasitələri.
139. Müasir dünya inkişafının vəhdəti və ziddiyyətli xarakteri.
140. Dövlətin xüsusi və milli mənafeyi.
141. Qlobalaşmanın müsbət və mənfi tərəfləri.
142. Müasir dövrün əsas qlobal problemləri.
143. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Heydər Əliyevin Azərbaycan xalqına müraciəti.
144. "Beynəlxalq münasibətlər" anlayışının mahiyyəti.
145. Beynəlxalq münasibətlər və onun əsas formaları.
146. Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsinin ölkəmizin beynəlxalq imicinin artmasındakı rolu.
147. Beynəlxalq münaqişələr və onların həlli yolları.

148. Siyasi münaqişələrin mahiyyəti və tipologiyası.
149. Azərbaycan dünyada mədəniyyətlərarası dialoqon fəal təşəbbüskarı kimi.
150. “Siyasi sosiallaşma” anlayışı və onun mahiyyəti.

## *Terminlər lüğəti*

ABSENTEİZM
(lat.absentia-iştirak etməmək) -nümayəndəli hakimiyyət orqanlarının, yaxud vəzifəli şəxslərin seçkiləri zamanı seçicilərin səsvermədən imtina etməsi.
ABSOLYUTİZM
(lat.absolutus-şərtsiz)-siyasi hakimiyyətin bir adamın – monarxın əlində cəmləşməsi.
ABSURD
-boş söz, mənasız fikir, cəfəngiyyat.
ABORİGENLƏR
(lat.aborigines-başlanğıcdan) – sonradan məskunlaşan insanlardan fərqli olaraq, ölkənin qədim, yerli sakinləri.
ADAPTASİYA
(lat.adaptatio-uyğunlaşma)
ADEKVAT
(lat.adekuatus-tam uyğun, eyni, bərabər)
AGİTASİYA
(lat.dilində agitatio-hərəkətə gətirmə)-ayrı-ayrı qrupları və xalq kütlələrini siyasi fəallığa cəlb etmək məqsədi ilə aparılan təbliğat forması.
AXİLLES DABANI
-ən zəif cəhət, tez zədələnən yer. Qədim yunan əsatirinə görə, qəhrəman Axillesin yeganə zədələnən yeri onun dabanı idi və Parisin oxu onu dabanından ölümcül yaralamışdır.
AKSİOLOGİYA
(yun. aksia-dəyər +loqos təlim) - dəyərlər haqqında təlim.

AQRESSİYA
(lat.aqressio-təcavüz) –bir dövlətin digər dövlətə və ya millətə qarşı qeyri-qanuni surətdə güc tətbiq etməsi.
ALYANS
(fr.allianse-ittifaq)-ayrı-ayrı şəxslərin, siyasi partiya və dövlətlərin ümumi məqsədə çatmaq üçün yaratdıqları birlik.
ALTRUİZM
(lat. başqa) – öz mənafeyini unudaraq  başqalarının qeydinə qalmaq, başqalarına təmənnasız yardım etmək.
AMBİSİYA
(fr.– lovğalıq, təkəbbür, təşəxxüs, iddia etmə)
ANALOGİYA
(yun. – oxşarlıq, uyğunluq)
ANARXİZM
(yun.anarchia-hakimiyyətsizlik)– hər cür dövlət hakimiyyətini inkar etmək, şəxsiyyətin qeyri-məhdud azadlığını təbliğ etmək.
ANNEKSİYA
(lat.annexio-birləşmə) – ilhaq, qəsbkarlıq, zəbt etmə. Bir ölkə torpağının zorla başqa ölkə torpağına qatılması.
ANKLAV
(ing. bağlı, qapalı) – bir dövlətin ərazisinin başqa bir və ya bir neçə dövlətin quru ərazisi ilə əhatə edilməsinə deyilir. Məsələn, San-Marino və Vatikan İtaliyanın, Lesoto isə CAR-ın anklavıdır. Dənizə çıxışı olanlara isə yarımanklav deyilir. Lakin sahib olduğu dövlətə münasibətdə bu eksklav adlandırılır. Naxçıvan MR Azərbaycan Respublikasının eksklavıdır.
ANOMALİYA
(yun.ümumi normadan kənara çıxmaq)

ANTAQONİZM

(yun.antaqonisma-mübarizə)-barışmaz ziddiyyət.

ANTİMONİYA

(yun.anti–əleyhinə, qarşı+ monos–bir) boş-boş danışmaq, çərənləmək

ANTİSEMİTİZM

-millətçilik, irqçilik ideologiyasının bir növü. “Öz” xalqını tərifləyən və bütün “özgələrə” kin-küdurət bəsləyən millətçiliyin digər formalarından antisemitizmin fərqi təkcə bir “özgəyə”, semit xalqına - yəhudilərə nifrət bəsləməsidir.

APARTEİD

(afrika.aparteid-ayrı yaşama)-CAR-da qeyri-avropalı əhaliyə qarşı həyata keçirilən irqi ayrı-seçkilik siyasəti.

APATRİD

(yunanca, a-inkar + patris-vətən) dünya dövlətlərindən hec birində vətəndaşlığa malik olmayan şəxs.

APOGEY

(lat.ən yüksək zirvə)

APOLİTİK

(yunanca, a – inkar +politike - siyasət) – ictimai-siyasi həyatda iştirakdan imtina etmək.

APOLOGET

(yun.-məddah) –nəyisə, kimisə əsəbi müdafiə etmək.

ARREQASIYA

-siyasi qərarları qəbul edənlərin qarşılıqlı bərabərliyinin qorunması.

ARBİTRAJ

(fr.arbitrage)-münsiflər məhkəməsi. İdarələr, müəssisələr arasındakı mübahisəni həll edən orqan.

ASPEKT
(lat.aspektus - növ) – nöqteyi-nəzər, baxış.
ASSİMİLYASİYA
(lat.oxşatma,uyğunlaşdırma) – hər hansı bir xalqın digər xalqın dilini, adət-ənənələrini, mədəniyyətini və s. qəbul edərək ona qarışması.
ATROFİYA
(yun.aclıq)- fəaliyyətdən qalma, həyat qabiliyyətini itirmə, kütləşmə, duyğunu itirmə
AYRI-SEÇKİLİK
(lat. discrimination–ayırmaq, fərqləndirmək) – irqi və milli mənsubiyyətinə, dininə, cinsinə görə müəyyən qrup vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması və ya ləğv edilməsi.
AVANTÜRİZM
(fransızca – avantüre macəra, risk) – təsadüfi uğura ümid edilən, gözlənilməz hadisələrlə müşaiyət olunan təhlükəli və fırıldaqçı fəaliyyət. Siyasi avantürizm dedikdə siyasi liderlərin obyektiv gerçəkliyə əsaslanmayan fəaliyyəti başa düşülür.
AVTARKİYA –
(yun. – özündən razı qalma, özünə güvənmə).
AVTONOMİYA
(yun.auto-özü, nomia-qanun) – vahid dövlət çərçivəsində milli azlıqların yerli özünüidarəetməsi.
BAZAR İQTİSADİYYATI
- azad sahibkarlığa, rəqabətə və xüsusi mülkiyyətə əsaslanan cəmiyyət.

BƏYANNAMƏ

-beynəlxalq siyasətin mühüm bir məsələsi haqqında bir və ya bir neçə dövlətin rəsmi bəyənatı; ictimai təşkilat və ya bir qrup partiya adından əsas ideoloji və siyasi prinsiplərin təntənəli surətdə elan edilməsi.

BİLL

(ing. bill, lat. dilində bulla - möhürlənmiş sənəd)-ABŞ, Böyük Britaniya və anqlosaks hüquq sistemini tətbiq edildiyi digər ölkələrdə parlament üzvünün təklif etdiyi qanun layihəsi.

BİPATRİD

(lat.bi-ikili +patris-vətən) - ikili vətəndaşlıq.

BLOK

(ing. block)-ümumi məqsədə nail olmaq üçün dövlətlər və siyasi partiyalar arasında, o cümlədən parlamentlərdə yaradılan birləşmə.

BOYKOT

(ing.boycott) – başqa şəxslərlə, təşkilatlarla və ya dövlətlərlə əlaqə saxlamaqdan tamamilə və ya qismən imtina etmək; hər hansı bir vəzifəni yerinə yetirməkdən və ya hər hansı bir hüquqdan istifadə etməkdən imtina etmək.

BONAPARTİZM

-orduya arxalanmaq və ondan siyasi qüvvə kimi istifadə etmək; sosial-siyasi problemlərin tez bir zamanda həlli haqqında demaqoq bəyənatlar vermək.

BUFER DÖVLƏT

-iqtisadi, siyasi və hərbi cəhətdən zəif olub, iki iri dövlət arasında yerləşən və bunların arasındakı münasibətlərdə aralıq vəsilə kimi istifadə edilən dövlət.

BÜROKRATİZM
-dəftərxanaçılıq, süründürməçilik və işin mahiyyəti zərərinə olaraq, məsələlərin formal həlli, onların məzmuna deyil, formasına fikir vermək.
DAMOKL QILINCI
-qədim yunan rəvayətinə görə Sirakuz müstəbidi Dionisi tərəfindən ona həsəd aparan Damoklın başı üzərində at qılından asılmış iti qılıncdır; Dionisi Damoklu ziyafət zamanı öz yerinə əyləşdirərək, ona öz mövqeyinin möhkəm olmadığını göstərmək istəyirmiş; zahiri əmin-amanlığa baxmayaraq, daimi hədə doğuran bir təhlükə.
DEGENERAT
(lat.degeneratus-pozulmuş, pisləşmiş) –ruhi pozğunluğu olan adam.
DELİKT
(lat.xəta, hüquq pozğunluğu) – qeyri-hüquqi hərəkət (hərəkətsizlik), yaxud səhv nəticəsində beynəlxalq hüquq normalarının və ya beynəlxalq öhdəliklərin pozulması.
DEMAQOGİYA
(yun.demos xalq+aqo xəbərlər) – qərəzli məqsədlərə çatmaq üçün yalançı vədlər, faktları təhrif etmək yolu ilə insanların hisslərinə təsir göstərilməsi.
DEMİURQ
(yun.demiurqe-yaradıcı fəal qüvvə)
DEPOLİTİZASİYA
(lat. de + yunanca politse - siyasi, siyasətdən kənar olma, siyasətə qarışmamaq)

DESPOTİZM
(yun.despoteia-məhdudlaşdırılmayan hakimiyyət)-istibdad, heç bir qanunla məhdudlaşdırılmayan mütləq hakimiyyət forması.
DEMOQRAFİYA
(yun.demos-xalq, qrafiya-çəkirəm) – insanların təkrar istehsalı qanunauyğunluqlarınının öyrənilməsi
DETERMİNİZM
(ərəbcə - səbəbiyyət, bir-birini şərtləndirən)
DE-FAKTO
-faktiki surətdə, həqiqətən mövcud olan, lakin hüquqi cəhətdən rəsmiyyətə salınmayan.
DEFİNİSİYA
(lat.definitio-məhdudlaşdırma) – müəyyən anlayışın əsas məzmununun qısa tərifi.
DE-YURE
-hüquqi cəhətdən tanınma.
DİVİDEND
(lat.dividendus-qazanc payı)
DİKTATOR
(lat.dictator-öz idarəsini diktə edən)-hədsiz hakimiyyətə malik olan və təkbaşına idarə edən şəxs.
DİLEMMA
-bir-birini inkar edən iki müddəadan ibarət mühakimə və ya əqli nəticə.
DİVERSİYA
(lat.diversio-rəddetmə) – təxribatçılıq; düşmənin diqqətini azdırmaq üçün hərbi manevr.

DOTASİYA
(lat.-mal) – artıq xərcləri, zərəri və ya başqa ehtiyacları ödəmək üçün idarələrə, müəssisələrə və ya təşkilatlara dövlət tərəfindən verilən və əvəzi ödənilməyən pul yardımı.
DRAKON QANUNLARI
- ağır və amansız qanunlar.
EKSPANSİYA
(lat.expansio-yayılma, genişlənmə) – hər hansı sahəyə fəal müdaxilə.
EKSPERT
- hər hansı bir sahənin ixtisaslı mütəxəssisi.
EKSPROMT
-irəlicədən hazırlaşmadan söylənilən qısa nitq.
EKSTREMİZM
(lat.extremus-ifrat, son dərəcə)-siyasətdə və ideyalarda ifrat tədbirlərə və baxışlara meyl.
EQALİTARİZM
(fr.eqalite-bərabərlik)-təsərrüfatın təşkilində əmək bərabərliyinin zəruriliyini təbliğ edən, sosial həyatın təşkilində kollektivizmə əsaslanan utopik nəzəriyyə.
EQOİZM
(lat.eqo-mən)- öz mənafeyini ictimai mənafedən üstün tutmaq.
EQOSENTRİZM
(lat.eqo-mən+centrum-mərkəz)-adamın özünü, öz mənafeyini hər şeyin mərkəzi hesab etməsi.
EQOTİZM
-özünə vurulmaq; öz şəxsiyyəti, mənliyi və rolu haqqında üstün fikirdə olmaq.

EMANSİPASİYA

(lat. emancipatio - asılılıqdan azad olunma) - məhdudiyyətin olmaması, hüquqların bərabərləşdirilməsi.

EMİSSAR

-dövlətin yaxud siyasi təşkilatın, adətən, məxfi tapşırıqla digər dövlətə göndərdiyi şəxs.

ETATİZASİYA

(fr.etat-dövlət)-cəmiyyətin həyatının bütün sahələrində, xüsusilə də iqtisadiyyatda dövlətin rolunun gücləndirilməsi.

EZOP DİLİ

İrticaçı senzura və polis təqibləri şəraitində dinləyicilər və ya oxuyucular arasında müəyyən fikir və ideyalar yaymaq üçün kinayəli və eyhamlı sözlərlə dolu olan nitq və ya yazı.

FÖVQƏLADƏ VƏZİYYƏT

–Hərbi müdaxilə, dövlət çevrilişi cəhdi, siyasi böhranlar, təbii fəlakətlər və epidemiyalar dövründə elan edilən xüsusi hüquqi dövlət rejimi.

FRAKSİYA

(lat.fractio-sındırma,parçalama) – parlamentdə və siyasi partiyalarda öz rəhbər orqanlarının siyasi maraqlarını həyata keçirən bir qrup partiya üzvü.

FRUSTRASİYA

(lat.frustratio)-aldatma, iflas, əbəs ümid.

FUTUROLOGİYA

(lat.futurum-gələcək+yun.nəzəriyyə) –social-siaysi proseslərin perspektivinin proqnozlaşdırılması.

GENOSİD

(yun.genos qəbilə,tayfa+lat.caeder-öldürmək)-bir millətin və ya ayrı-ayrı əhali qruplarının milli, irqi və ya dini mənsubiyyətə görə  kütləvi şəkildə və xüsusi qəddarlıqla məhv edilməsi.

GERONTOKRATİYA

(yun.geron-qoca+kratos-hakimiyyət)-hakimiyyətin yaşlılar tərəfindən idarə  olunduğu idarəetmə sistemi.

HARİZMA

(yun.charizma-nemət, Allah vergisi) – şəxsiyyətin qeyri-adi keyfiyyətlərinə inama əsaslanma; fövqəladə istedad.

HƏYAT SƏVİYYƏSİ

-cəmiyyətdə maddi istehlak səviyyəsini xarakterizə edən meyarların məcmusu.

HEGEMONİZM

(yun.hegemonia-ağalıq)-bir şəxsin öz baxışlarını digərilərinə zorla qəbul etdirməsi.

XAOS

-dövlətin zəifləməsi və dağılması, dünyanın anarxiya içində olması.

XARTİYA

(yun.chartes-kağız, fərman)-müxtəlif sosial təbəqələrin və siniflərin siyasi tələblərini əks etdirən sənədlərin adları.

XUNTA

(isp.yunta-toplanış,birlik)-hərbi çevriliş dövründə müvəqqəti hökumət funksiyasını yerinə yetirən yüksək vəzifəli hərbçilərin idarəçilik mexanizmi.

İERARXİYA
(yun.hieros-müqəddəs,ali+arche hakimiyyət)-aşağıdan yuxarıya doğru tabelik prinsipi üzrə vəzifələr və rütbələr sistemi.
İMPİÇMENT
(ing.impeachement-ittiham)-vəzifədən uzaqlaşdırmaq və ya hər hansı fəxri, rəsmi və ya gəlir gətirən vəzifə tutmaq hüququndan məhrum etmək.
İNFLYASİYA
(lat.–süni yüksəlmə) pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi.
İNFROSTRUKTUR
(lat.aşağı, altında struktur, vəziyyət, mövqe, yer) – sənaye və kənd təsərrüfatı istehsalına xidmət edən təsərrüfat sahələri sistemi (kanal, anbar və s. tikilməsi, enerji təsərrüfatı, ümumi və peşə təhsili, elmə və səhiyyəyə çəkilən xərclər və s.)
İNTEQRASİYA
(lat.inteqratio-yaxınlaşma, qarşılıqlı təsir, sıx əməkdaşlıq)
İNTERPRETASİYA
(lat.interpellate-izah etmə,öyrətmə)
İNQİLAB
–dövlətin və cəmiyyətin inkişafında keyfiyyətcə yeni mərhələ açan, hakimiyyət strukturlarının, bütün siyasi sistemin kökündən və tamamilə dəyişdirilməsidir.
İRENOLOGİYA
(yun.eirhnh-dünya)-dünya haqqında elm.
İRTİCA
-inqilaba və tərəqqiyə müqavimət göstərilməsi
KAZUS BELLİ
(lat. müharibəyə başlamaq üçün əsassız bəhanə)

KOALİSİYA

(ing.coalition, lat.soalescere-ittifaq, birləşmə)-birgə fəaliyyət göstərmək üçün partiyalar və ya ictimai təşkilatlar arasında əldə edilən razılıq, saziş.

KOLLİZİYA

-bir-birinə əks baxışların və səylərin kəskin surətdə toqquşması.

KOLONİYA

-qədim dünyada müəyyən bir ölkə vətəndaşlarının istila edilmiş ölkədə saldıqları məskən; müəyyən bir millətə mənsub olub, başqa bir ölkədə və ya xarici bir şəhərdə yaşayan şəxslərin məcmusu.

KOMPRADOR

(ispan.-satın alınmaq) – iqtisadi cəhətdən geridə qalan burjuaziyanın bir hissəsi, xarici kapital və müstəmləkələrlə əlaqədar olub onlardan asılı olmaq və bu səbəbdən də imperialist siyasətini müdafiə edən.

KOMPROMİS

(lat.comprossium-qarşılıqlı güzəşt əsasında razılığa gəlmək)

KONDOMİNİUM

(lat.con birgə+dominium idarəetmə)-müəyyən ərazinin iki və ya bir neçə dövlət tərəfindən birgə idarə edilməsi.

KOMMUNİKASİYA

(lat.communicatio əlaqə) - insanlar arasında informasiya mübadiləsinin həyata keçirilməsi.

KONFİDENSİAL

(lat.konfidentia-etibar,inam)-gizli, məxfi.

KONFORMİZM
(lat.con.-birlikdə və forma-görünüş, forma) – ümumi əhval-ruhiyyəyə, hakim ideologiyaya və çoxluğun fikirlərinə uyğunlaşmaq və onunla razılaşmaq mövqeyi.
KONYUNKTURA
(lat.conjunctura-birləşdirmək)-hər hansı bir zamanda müəyyən fəaliyyət sahəsində yaranmış şərait.
KONSENSUS
(lat.consensus-razılıq,həmrəylik, yekdillik) – bu və ya digər məsələ ilə bağlı qarşılıqlı anlaşma.
KONSERVATİZM
(lat.conservare-qoruyub saxlamaq) – cəmiyyət həyatının əsaslarını təşkil edən adət-ənənələrin qorunmasına, dəyərlərin sarsılmazlığına inam.
KONSPİRASİYA
(lat.conspiratio-razılıq,eynifikrlilik) – müəyyən bir fəaliyyət sahəsində sirrin saxlanılması, qeyri-leqal işin gizli xarakterini təmin edən üsul.
KONSTİTUSİYA
(lat.constitutio-quruluş, təsisat) – dövlətin ali hüquqi qüvvəyə malik olan əsas qanunlar məcəlləsi.
KONSTRUKTİV
(lat.constructio tikilmə, konstruksiya) – fəaliyyətin düzgün və rasional planlaşdırılması, qabaqcıl, mütərəqqi.
KONFEDERASİYA
(lat.confoederatio-ittifaq, birlik)-müstəqil dövlətlərin ümumi maraqlar (xüsusilə siyasi və ya hərbi) naminə yaratdıqları ittifaq.

KOOPTASİYA

(lat.cooptatio-əlavə seçki) – seçkili kollegial orqana əlavə seçki keçirilmədən, özünün qərarı ilə yeni üzvlərinin daxil edilməsi.

KORİFEY

(yun-koryphaios-rəhbər, başçı) – elmin,texnikanın hər hansı bir sahəsində aparıcı yer tutan, böyük nailiyytlər əldə edən şəxs.

KOSMOPOLİTİZM

(yun.kosmopolites-dünya vətəndaşı) – bütün dünyanı özü üçün vətən hesab edən, milli-mənəvi dəyərlərə xor baxan və onu inkar edən, "insan dünya vətəndaşıdır"şüarını rəhbər tutan ideya.

KRATOLOGIYA

(yun.kratos hakimiyyət+logos təlim)

KSENEFOBİYA

(yun.xenos-yad+phobos qorxu)- kimdənsə və ya nədənsə qorxmaq.

KVİSLİNQLƏR

-millətin düşmənləri ilə əməkdaşlıq edən vətən xainləri. Bu ad 1940-cı ildə Norveçin alman qoşunları tərəfindən tutulmasına və işğal olunmasına fəal yardım etmiş və oyuncaq hökumətə rəhbərlik etmiş Kvislinqin adından götürülmüşdür.

QİYAM

-kiçik bir qrup sui-qəsdçinin təşkil etdiyi dövlət çevrilişi cəhdi.

QLOBAL

(lat. globus-kürə)-ən ümumi,bütün yer kürəsini əhatə edən.

QORDİ DÜYÜNÜ

- dolaşıq və mürəkkəb düyün. Əfsanəyə görə, çar Qordi belə bir düyünlə boyunduruğu arabanın dişləsinə bağlamışdı. Kahin əvvəlcədən xəbər vermişdi ki, bu düyünü açan insan Asiyanın hökmdarı olacaqdır. Makedoniyalı İsgəndər bu düyünü açmaq

yerinə, onu qılıncla parçalamışdır. Buradan da belə bir ifadə yaranmışdır: “Qordi düyününü parçalamaq”, yəni dolaşıq və mürəkkəb məsələ barəsində  sadə, lakin cəsrətli  bir qərar qəbul etmək.

LATENT

(lat.latens-gizli)-gizli fəaliyyət.

LEGİTİMLƏŞDİRİLMƏ

(lat. legitimus-qanuni) – hər hansı bir hərəkətin, şəxsin və ya hadisənin ictimaiyyət tərəfindən tanınması mexanizmi.

LİBERALİZM

-şəxsiyyətin azadlığının,müstəqilliyinin və qanun çərçivəsində hüquqlarının tanınması.

LOBBİ

(ing.lobby-örtülü gəzinti meydançası, dəhliz) – bu anlayışdan 1553-cü ildə monastırdakı gəzinti meydançasını ifadə etmək üçün istifadə olunurdu. XVII əsrdə İngiltərənin Nümayəndələr Palatasında gəzinti otağı bu cür adlanırdı. 1864-cü ildən etibarən ABŞ Konqresinin dəhlizlərində ruşvətlə səs almağı bu anlayışla ifadə etməyə başladılar. Lobbizm obyektə kənardan, lakin onun daxili imkanlarından istifadə etməklə məqsədyönlü təsiri nəzərdə tutur.

LOYALLIQ

(ing.loyal-vəzifə borcuna sadiqlik)–hakimiyyət orqanlarına və qüvvədə olan qanunlara hörmət və sadiqlik.

MAKİAVELLİZM

- Nikkolo Makiavellinin (1469-1527) adı ilə bağlı olub, qarşıya qoyulmuş məqsədə çatmaq üçün hər vasitədən (ölüm, yalan və s.) istifadəni məqbul sayan siyasi fəaliyyət obrazı.

MANDAT
(lat. mandatum-səlahiyyət)-hər hansı bir rəsmi şəxsin səlahiyyətini təsdiq edən sənəd.
MANİPULYASİYA
(fr.manirulation, lat.manirulus–ovuc) –kələk, hiylə və fırıldaq.
MENTALİTET
(ing.mentality-ağıllı, düşüncəli) –bir millətə xas olan milli-mənəvi dəyərlərin məcmusu.
MERİTOKRATİYA
(lat.meritus-layiqli+yun.kratos-hakimiyyət) – fərdi qabiliyyətlər prinsipinə əsaslanan idarəçilik forması. Burada idarəçiliyə daha layiqli, səriştəli və istedadlı adamlar gəlirlər. “Meritokratiya” anlayışını ilk dəfə ingilis sosioloqu M. Yanq işlətmişdir.
MESSİANİZM
(qədim yəhudi dilində “maşnax”- padşah sözündən)-dünyanın xilaskarı haqqında dini təlim; hər hansı xalqın, dövlətin və ya ayrılıqda götürülmüş şəxsin dünya inkişafının, ictimai qaydaların böhranlı vəziyyətini yaxşılığa doğru dəyişdirməsinə inanan təlim.
METROPOLİYA
(yun.metrorolis;meter-ana+rolis-şəhər) - dövlətlər öz müstəmləkələrinə münasibətdə belə adlanırlar.
MİLİTARİZM
(fr.militarisime; lat.militaris-hərbi) - xarici və daxili problemlərin hərbi vasitələrlə həllinə yönəldilmiş siyasət.
MİLLİ ŞÜUR
-milli-etnik birliyin üzvlərinin öz keçmişi, hazırki vəziyyəti və gələcək inkişafı haqqında təsəvvürləri.

MİLLİ XARAKTER

-ətraf aləmin dərk edilməsi və ona münasibətin müəyyən milli birliyə xas olan sabit və davamlı xüsusiyyətlərinin toplusu.

MİLLİ MƏNLİK ŞÜURU

-hər hansı millətin öz tarixi, hazırki vəziyyəti və inkişaf perspektivləri haqqında, həmçinin digər millətlərlə qarşılıqlı münasibətdə özünün yeri haqqında təsəvvürlərinin məzmununu, səviyyəsini və xüsusiyyətlərini əks etdirən baxış və təsəvvürlərin məcmusu. Rasional (milli mənsubluğun dərki) və emosional (milli-etnik birliyin digər nümayəndələri ilə birgə vəhdətin dərkolunmazlığı) komponentlərə malikdir.

MİLLİ TƏHLÜKƏSİZLİK

-İlk dəfə 1904-cü ildə ABŞ prezidenti T.Ruzveltin Konqresə məktubunda işlədilmişdir. Təhlükəsiziliyin və sabitliyin millətlə əlaqəsini əks etdirir.

MİLLƏTÇİLİK

bir millətin digər millətləri özünə tabe etməsinə əsaslanan dünyagörüşü.

MİSSİONERLİK

-bu və ya digər xalqa, birliyə aid olan milli-mənəvi dəyərlərin başqa millət və birliklər arasında yayılmasına yönələn fəaliyyət.

MONARXİYA

(yun.monarchia-təkhakimiyyətlilik) – ali hakimiyyətin bir nəfərin əlində cəmləşdiyi və nəsildən-nəsilə keçdiyi hakimiyyət forması.

MONDİALİZM

(fr.monde-sülh)-dünyanın və onun ayrı-ayrı bölgələrinin (Avropa, Asiya və s.) ümumdünya hökuməti olmaqla federasiya əsasında birləşdirilməsinə çalışmaq.

MORATORİUM

(lat.motarorius-ləngidici, təxirəsalıcı)-hökumətin öz öhdəliklərinin icrasını müəyyən müddətə və ya hər hansı fövqəladə hadisə (məsələn, təbii fəlakət) qurtaranadək müvəqqəti təxirə salması.

MÜNASİBƏTLƏR

-iqtisadi münasibətlər-istehsal, maddi və mənəvi nemətlərin bölgüsü və mübadiləsi prosesində meydana gələn münasibətlər. sosial münasibətlər - sosial subyektlər arasında onların bərabərliyinin, eləcə də maddi nemətlərin ədalətli şəkildə bölünməsinin və şəxsi inkafının təmin edilməsi, sosial və mənəvi tələbatların ödənilməsindən irəli gələn fəaliyyət; siyasi münasibətlər - insanlar, millətlər və müxtəlif qruplar arasında hakimiyyətlə əlaqədar, yəni dövlət hakimiyyətini ələ keçirmək və ondan istifadə etməklə bağlı fəaliyyət.

MÜXALİFƏT

(lat.oppositio-qarşı qoyma) – qanunverici orqanlarda, partiya strukturlarında və s.-də iqtidarın mövqeyinə qarşı çıxış etmək.

MÜTLƏQİYYƏT

-dövlət hakimiyyətinin bir adamin əlində ifrat dərəcədə mərkəzləşdirilməsi.

NİHİLİZM

(lat.heç nə,heç şey)–əxlaq və davranış normalarının inkar edilməsi.

NOMENKLATURA
-hakim sinif, istehsal vasitələri üzərində kollektiv mülkiyyət, cəmiyyətdə öz diktaturasını tətbiq edən istismarçı sinif.
NUVORİŞ
(fr.nouweau riche-yeni varlı) – əmək qabiliyyəti olmadan kinayəli şəkildə sürətlə varlanan və sabit sosial əlaqələri olmayan insan.
OBSKURANTİZM
(lat. obscurans-tündləşdirən) – yeni və qabacıl hər nə varsa, hamısına ifrat mürtəce, düşmən münasibəti bəsləmək, cəhalətpərəstliyin sinonimi.
OBSTRUKSİYA
(lat. obstrucito-maneə, əngəl)-etiraz bildirmək üsulu; müxalifət qrupu üçün məqbul sayılmayan qanun layihəsinin parlamentdə müzakirəsinə və qəbul edilməsinə qarşı yönəldilmiş parlament mübarizəsi metodlarından biri; ümumən hər hansı təklifin, tədbirin pozulmasına yönəldilmiş nümayişkaranə hərəkət.
OLİQARXİYA
(yun. oligos-bəziləri+arche-hakimiyyət) - hakimiyyətin sayca məhdud varlı, istismarçı və maliyyəçi qrupa məxsus olduğu rejim.
ORİENTASİYA
-fəaliyyət yönümü, istiqamətlənmə.
OXLOKRATİYA
(yun.ochlos-kütlə+kratos-hakimiyyət) – populist əhval-ruhiyyəyə əsaslanan kütlə hakimiyyəti.
ÖZƏLLƏŞDİRMƏ
(lat. privatus-şəxsi)-dövlət əmlakının müəyyən hissəsinin şəxsi mülkiyyətə verilməsi və ya satılması.

PARTOKRATİYA
-siyasi hakimiyyətin birbaşa partiya aparatı tərəfindən həyata keçirilməsi.
PARTİKULYARİZM
(lat.rartikula-zərrə+rars-hissə) – xüsusi və dar qrup mənafelə-rinin müdafiəsinə istiqamətləndirilmiş sosial və siyasi fəallıq prinsipi.
PASİFİZM
(lat.pacificus-sakitləşdirici, barışdırıcı) – hər cür müharibəyə qarşı çıxan və sülhü təbliğ edən cərəyan və hərakat.
PATERNALİZM
(lat.- atalıq) –cəmiyyətin elita tərəfindən "atalıq qayğısında" idarə olunmasına inam
PAUPERİZM
(lat.raurer-yoxsul) – əhalinin böyük əksəriyyətinin dilənçi və-ziyyəti
PERSONALİZM
(lat.persona-şəxsiyyət ) – şəxsiyyətin ali mənəvi sərvət hesab olunması.
PLEBİSSİT
(lat. plebs- sadə xalq+scitum-qərar)-ümumxalq səsverməsi.
PLUTOKRATİYA
(yun.rlutokratia, rlutos-sərvət+kratos hakimiyyət)-varlıların hakimiyyəti, pulun hökmranlığı
PLÜRALİZM
-rəylərin və baxışların müxtəlifliyinə, siyasi partiya və təşkilatların sərbəst fəaliyyətinə əsaslanan hakimiyyət sistemi.

POLEMOLOGİYA
(yun.olemos-müharibə) – müharibələr və hərbi münaqişələr haqqında elm.
POPULİZM
(lat.populus-xalq, xalqın hüquqları və maraqları uğrunda mübarizə)- əsassız vədlər vermək yolu ilə kütlələr arasında hörmət qazanmağa istiqamətlənmiş fəaliyyət.
PRESEDENT
(lat.rraecedens-qabaqca olan) – oxşar şəraitdə, vəziyyətdə hərəkət və ya qərarlar üçün nümunə sayılan qərarın qəbul edilməsi.
PREVENTİV
(lat.rraeventus-xəbərdarlıq etmək) – hadisələrin təhlükəli inkişafının qarşısını alan fəaliyyət.
PROTEKSİONİZM
- milli iqtisadiyyatı müdafiə etmək məqsədilə xarici ölkələrdən gətirilən malların məhdudlaşdırılması və onlara yüksək gömrük haqqının qoyulması.
RADİKALİZM
(lat.radix-kök)-siyasətdə qəti tədbirlərin tətbiq edilməsi və sərt ad-dımların atılması.
RASİZM
-irqlərin bioloji və psixolji bərabərsizliyinə əsaslanan nəzəriyyələr sistemi
REQRUTASİYA
(lat. cəmiyyət üzvlərinin siyasi fəaliyyətə cəlb olunması)
REKONVERSİYA
(lat.re-ön şəkilçisi, conversia-çevirmə)-müharibə qurtardıqdan sonra iqtisadiyyatın mülki istehsal sahəsinə keçirilməsi.

REYTİNQ
(ing.rating-qymət;rütbə)-təşkilatın və ya şəxsiyyətin sosioloji sorğu və anketlər vasitəsi ilə fəaliyyət səviyyəsinin müəyyən edilmiş göstəricisi.
REZONYOR
-uzun-uzadı mülahizələr yeritməyi, nəsihət nitqləri söyləməyi, öyüd-nəsihət verməyi sevən insan.
RENEQAT
-öz əqidəsinə, öz partiyasına xəyanət edərək, əleyhdarların cəbhəsinə keçən ictimai-siyasi xadim, dönük.
REPRESSİYA
(lat. rerressio-yatırtmaq)-dövlət strukturlarının cəza tədbirləri.
RESPUBLİKA
(lat. respublica-dövlət işləri,siyasət)-bütün əhalinin və ya onun böyük əksəriyyətinin ölkənin idarə edilməsində iştirak etmək hüququna malik olduğu hakimiyyət forması.
SAĞLAR-SOLLAR
-siyasi cəbhədə iki ifrat zonanın–mühafizəkar (qoruyucu) və dəyişdirici-radikal meylli zonaların fərqləndirilməsi. Böyük Fransa inqilabı (XVIII əsr) dövründə Müəssisələr Məclisi üzvlərinin iclas salonunda oturduqları yerlərlə bağlı idi; mühafizəkarlar sədrdən sağ tərəfdə, radikallar isə sol tərəfdə otururdular. Hazırda siyasi partiyaların, ictimai hərəkatların, bu və ya digər şəxsiyyətin siyasi mövqeyini səciyyələndirərkən işlədilir.
SEQREQASİYA
(lat.seqreqatio-ayrılma)–insanları irqi və milli mənsubiyyətlərinə görə bir-birindən ayırmaq və onların hüquqlarını məhdudlaşdırmaq siyasəti.

SENZURA
(lat.sensura-siyahıya alıram) – mətbuat azadlığını məhdudlaşdıran tədbirlər.
SEPARATİZM
(lat.separatus-ayrı)-azlıqda qalan etnik birliklərin, yaxud bir əyalətin müstəqil dövlət qurmaq və ya muxtariyyət əldə etmək məqsədilə ayrılmağa cəhd göstərməsi.
SİVİLİZASİYA
(lat.civilis-vətəndaş, dövlət) – ictimai inkişafın mərhələsi, səviyyəsi; cəmiyyətin barbarlıqdan sonrakı inkişaf mərhələsi.
SİYASİ AKTOR
-mövcud siyasi sistemdə qərarların qəbul edilməsi və həyata keçirilməsi prosesinə təsir göstərə bilən dövlət,şəxs və ya qrup
SİYASİ DƏYƏRLƏR
-siyasi əhəmiyyətli hadisə və proseslərin mahiyyətini bildirmək üçün istifadə olunan anlayış.
SİYASİ GÜRUH
-dövlət hakimiyyətini ələ keçirməyə, yaxud qeyri-leqal və ya kriminal vasitələrdən istifadə etmək yolu ilə onun üzərində nəzarətə nail olmağa çalışan dövlət və yaxud siyasi xadimlərin qeyri-formal birliyi.
SİYASİ MÜHACİR
-siyasi səbəblər üzündən öz ölkəsini tərk edib başqa dövlətdə sığınacaq hüququndan istifadə edən şəxs. İlk vaxtlar “mühacirət” sözü sırf dini mənada şərh olunurdu.
SİYASİ PRAQMATİZM (yun.–iş, fəaliyyət) – bilavasitə üstünlüklərə nail olmaq barədə göstəriş; fəaliyyətin mənəvi məz-

mununu və uzaq nəticələrini nəzərə almır və qəti surətdə rədd edir.

SİYASİ PROQNOZLAŞDIRMA

(lat.– qabaqgörənlik, irəlicədən xəbər vermə) – siyasi şəraitin konkret perspektivlərinin elmi cəhətdən araşdırılması.

SUVERENLİK

–hər cür qüvvədən, şəraitdən və ya şəxsdən asılı olmayan müstəqillik hüququ.

TOTALİTARİZM

(lat. totalitas-tamlıq, bütövlük)-ictimai həyatın bütün sahələri üzərində ciddi və qanunla məhdudlaşdırılmayan nəzarətə əsaslanan hakimiyyət forması.

TRAYBALİZM

(lat.-tayfa,nəsil)-nəsil-tayfa bölgüsü əsasında siyasi ayrılmaya cəhd.

ULTİMATUM

(lat.-sonuncu,axırıncı) – sanksiyalar tətbiq ediləcəyi ilə hədələmək də daxil olmaqla qəti tələb.

ÜÇÜNCÜ DÜNYA

-əvvəllər müstəmləkə və yarımüstəmləkə olub sonralar siyasi müstəqillik qazanmış, dünya siyasətində xüsusi yer tutan dövlətlər.

VİTSE – mürəkkəb sözün başlanğıc hissəsi olub müavin, köməkçi deməkdir.

VETO

(lat.veto-qadağan edirəm)-qanunverici orqan tərəfindən qəbul olunan qanunun qüvvəyə minməsini dövlət başçısının qadağan etmək və ya müvəqqəti dayandırmaq hüququ.

VOLYUNTARİZM

(lat.voluntas-iradə) – ilk dəfə alman filosofu F.Tönnis işlətmişdir. İnsan iradəsini varlığın ali prinsipi hesab edən cərəyandır.

# *ƏDƏBİYYAT*

*a) Azərbaycan dilində*

1.Abdullayev, K. Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri /Kamal Abdullayev //Yeni Azərbaycan.- 2015.- 24 iyun.- S. 4.

2.Ağayev İ.Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər. Bakı: Min bir mahnı, 2006.

3.“Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri” adlı beynəlxalq konfransın materialları: Bakı,8-9 sentyabr 2016

4..Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2017.

5.Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) Bakı,2017

6.Azərbaycan Milli Ensiklopediyası. Bakı: AMEA Elm mərkəzi, 2008.

7.Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı: AR Mərkəzi Seçki Komissiyası, Bakı, 2016

8.Azərbaycan Respublikasında insan hüquqları: Tədris-metodiki vəsait. C.Y.Qaracayevin redaktəsi ilə. Bakı: Azərbaycan Universiteti, 2002.

9.Alışova N.Multikulturalizm Azərbaycanın həyat tərzidir. Bakı,2016

10.Vəliev.A., Həsənov Ə. Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı: Zərdabi LTD, 2013

11.Bitem D. Boyl K.Demokratiya (80 sual və cavab). Bakı: Azərnəşr, 2001.

12.Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı: Elm, 2000

13.Cəfərova V.M.Dünya dövlətlərinin siyasi sistemi. Bakı,2014

14.Davletşina N.V., Kimlika B.B. Demokratiya: dövlət və cəmiyyət. Bakı: Səda,1998

15.Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı. Bakı: Azərbaycan Ensiklopediyası, 1998.

16.Əfəndiyev M.Ə.Siyasi elmin problemləri Bakı: BDU-nun nəşriyyatı, 1998

17.Əfəndiyev M.Ə. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: BDU-nun nəşriyyatı, 2002.

18.Ələkbərova N. Siyasi elmin metolodogiyası. Bakı: DİA, 2005

19.Əliyev İ. İnkişaf məqsədimizdir, VIII cild, Bakı,2012

20.Əliyev İ.H. "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" Bakı,2017

21.Əliyev Q.C. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Qismət, 2001.

22.Əliyev H.Ə. Azərbaycan XXI əsrin və III minilliyin ayrıcında Bakı: Yeni nəşrlər evi, 2001.

23.Əliyev Ş.İ. İnsan hüquqları. Bakı: Şirvannəşr, 2005

24.Əliyev T., Əliyev Q. Politologiya. (dərs vəsaiti) Bakı: Təbib, 1994.

25.Əsgərov Z. Konstitusiya hüququ. Bakı: Bakı Universiteti, 2003

26.Fukuyama F. Demokratiyanın gələcəyi: mədəniyyətin üstünlüyü /III sektor jurnalı, 2003, № 2, c.11-15.

27.Qasımov M. Azərbaycanın xarici siyasəti. Bakı: 1997.

28.Qəndilov S.T. Müstəqillik illərinin düşüncələri. Bakı: Naksuana, 2006.

29.Qureviç P. Daxili siyasət və beynəlxalq əlaqələr. Bakı: Adiloğlu, 2002.

30.Hacızadə H.Demokratiya: gediləsi uzun bir yol.Bakı: Əbilov, Zeynalov və oğulları, 2001.

31.Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: Çaşıoğlu, 2002.

32.Həbibbəyli İ.Heydər Əliyev:dövlətçilk təlimi və müasir dövr. Bakı,2013

33.Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı,2011.

34.Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı: 2002.

35.Hüseynov Q.İ. Politologiya (dərs vəsaiti). Bakı: Az. MTU, 1991.

36.Hüseynov C.N.Politologiya məntiqi sxemlərdə.(Dərs vəsaiti), Gəncə, 2011

37. Hüseynov C.N. Politologiya ( metodik vəsait), Gəncə, 2011

38.Xəlilov S. Fəlsəfə, tarix və müasirlik. Bakı:2006

39.Xəlilov S.S. Lider.Dövlət. Cəmiyyət. Bakı:2001.

40.Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Bakı, 2006.

41.İbrahimli X.Politologiya: İnteraktiv dərs materialları. Bakı, 2012

42.İnsan hüquqlarının tədrisi: Müəllimlər üçün metodik vəsait. S.İ.Abdullayevanın redaktəsi ilə.Bakı: Adiloğlu, 2001.

43.İnsan hüquqları: Bəşər rifahının təməli. Tərt. Pərvizoğlu V. Bakı: Azərbaycan, 2001.

44.İsgəndərzadə M. Politologiyanın əsasları. Bakı, 2012

45.Mehdiyev R. Keçid dövründən modernləşmə mərhələsinə. Azərbaycan qəzeti, 26 noyabr 2009.

46.Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı:Yeni nəşrlər evi, 2003.

47.Mehdiyev R.Ə.Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: Yeni nəşrlər evi, 2005.

48.Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Bakı: Yeni nəşrlər evi, 2006.

49.Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşü- nərkən. Bakı: Yeni nəşrlər evi, 2008.

50.Mehdiyev R.Ə.Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Yeni nəşrlər evi, 2008.

51.Mehdiyev R.Ə. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. "Azərbaycan" qəz. Bakı, 2009, 8 dekabr.

52.Mehdiyev R.Azərbaycan diasporu: muasir cağırışlar və sistemli fəaliyyətin təşkili. -http://azertag.az/store/files

53.Məmmədyarov E. Uğurlu xarici siyasət strategiyasının Azərbaycan modeli: nailiyyətlər və perspektivlər /10.09.2013/ - http://www.azerbaijan-news.az/

54.Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.89

55.Mirzəzadə A.Heydər Əliyev siyasi irsinin politoloji aspektləri, Bakı:Azərbaycan,2016.

56.Musabəyov R. Demokratik seçkilər legitim hakimiyyətin əsasıdır. Bakı: Adiloğlu, 2002.

57.Mustafayev R. İnsan hüquqlarına dair milli təsisatlar. Bakı: Adiloğlu, 2000.

58.Nəsirəddin T.Əxlaqi-nasiri. Bakı: Elm, 1989.

59.Nizamülmülk. Siyasətnamə. Bakı: Azərnəşr, 1995.

60.Orucov H.X. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Qərb-Şərq, 2001.

61.Prezidentlik institutu. Bakı: BDU,2011

62.Rüstəmov Y.İ. Siyasi-hüquqi təlimlər tarixi. Bakı: Azərbaycan Universiteti, 2000.

63.Sanisteban L.S. Siyasət elminin əsasları. Bakı:1998.

64.Seçki texnologiyaları. Bakı: İnam Plüralizm Mərkəzi, 1998.

65.Seyidov D.Y. Demokratiyanın uzun yolu: II kitab. Bakı:Bakı Universiteti, 2002.

66.Seyyid M.L. İslam və qərb mədəniyyəti. Bakı: Şirvan-nəşr, 2002.

67.Sinkota H. Demokratiya nədir? İng. d. t.e. Aslanov V. M. Bakı:Adiloğlu, 1995.

68.Siyasi biliklərin əsasları. Tərt.edən Pərvizoğlu V., Musabəyov R. II cild. Bakı: 1999.

69.Stanovski K. Demokratik cəmiyyətdə III sektor.Gəncə: 2002.

70.Şəkərli Ə. Azərbaycan Respublikasında demokratikləşmə prosesi: yolları və ziddiyyətləri. Bakı: Elm 1998.

71.Şəmsizadə N. Azərbaycançılıq dünya azərbaycanlılarının milli ideologiyasıdır. “Xalq qəzeti”, Bakı, 2009, 5 may

72.Şirəliyev H.İ., Abbasov F.F. Politologiya. (Ali məktəblər üçün dərslik) Bakı: Bilik, 1993.

73.Şirəliyev H.İ.,Əhmədov Ə. Politologiya (Ali məktəblər üçün dərslik) Bakı: Təbib,1997.

74. Şükürov A. Qloballaşmış cəmiyyət: dünən, bü gün və sabah. Bakı: 2006.

75.Tağıyev Ə.M. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yoluda.Bakı:Adiloğlu, 2004.

76.Tağıyev M.A., Şükürov M.A. Etnopolitologiya. Bakı: Elm, 2000.

77.Vahidov F.Q. Politologiya: dərslik. Bakı: Min bir mahnı, 2008.

78.Vətəndaşların idarəetmədə iştirak formaları. Vətəndaş cəmiyyəti uğrunda məsləhət və yardım mərkəzinin redaktəsi ilə. Bakı: Adiloğlu, 1998.

79.Yadigar T.S. Demokratik cəmiyyətin milli-mənəvi problemləri. Bakı: Nurlan, 2002.

80.www.kitabxana .orq

81.www.meclis.qov.az

*b)Türk dilində*

82.Ahmed R.S. Demokrasi nedir? Ankara: Yetkin basımevi, 2012.

83.Ali Çetin. Siyasi liderin özellikləri home.arcor.de

84.Büyük Ansiklopedi. 3 cildde. Ankara: Milliyyət, 2013.

85.Can Aktan Demokrasi,liberalizm və sınırlı devlet. Yeni Türkiye dergisi, 1997.

86.E. Metin. İnsan hakları egitim kitabı. İstanbul, 2007.

87.Özbudun Ö. Çağdaş türk politikası. Ankara 2008.

88.Politik və siyasi sistemler. www.kitab elinizde. com/ siyasi sistemler-yönetim modelleri və türkiye htm.

89.Seçkiler/ politika dergisi. www. politika dergisi com.

90.Siyasi parti sistemləri –eski sözlük. sourtimes. org/ show.

91.Tanet Ahmet. Siyasi bilimler. Ankara, 2007.

92.Türkdoğan O. Niçin milletleşme? İstanbul: Türk dünyası araşdırmaları vaqfı, 1995.

93.tr/wikipedia/orq/wiki/siyaset bilmi

94.www.pdf.-searçh-engine.com/türkiye-p

95.www/tbmm/qov/tr/

*c)Rus dilində*

96.Агафонов Ю.А.,Визнер С.В.,Самыгин С.И. Основы политологии. Ростов-на Дону: Феникс, 2016.

97.Абашкина Е. Имидж лидера. М.: 2014.

98.Авцинова Г. Типология политического лидера. Государство и право, № 5,1993.

99.Арон Р. Демократия и тоталитаризм. М.: 2002

100.Асталов Г. Г. Основы политологии. М.: 2011.

101.Ашин Т.Политическое лидерство: Оптимальный стиль. Общественные науки и современность. 1993 №-2.

102.Ашин Г.К. Правящая элита и общество// Свободная мысль, № 3, 1993.

103.Белов К.А. Институционалъная система политической власти. Кентавр № 4, 1996.

104.Блондел Ж.Политическое лидерство. М.: 1992.

105.Борисюк В.И., Вайнштейн Г.И. Политические институты на рубеже тысячелетий. Дубна: Феникс, 2005.

106.Бэтти Э.Р. Толерантность-дорого к миру. М.:Бонфи, 2001.

107.Варывдин В.А. Политология в схемах. Москва: Социально-политический журнал, 1995.

108.Василик М.А. Основы политологии.Учебник для вузов. М.: ИТРК, 2002.

109.Вебер М. Политика как призвание и профессия. Из- бранные произведения. М.: 1990.

110.Вятр Е. Социология политических отношений.М.: 1999.

111.Гаджиев К.С., Примова Э.Н. Политология: учебник. М.: Инфра-М, 2014, 384 с.

112.Грачев М.Н. Актуальные проблемы политической науки. М.: 1996.

113.Даль Р. Смещающиеся границы демократических прав- лений. М.: 2004.

114.Даль Р. О демократии. М.: Аспект пресс 2000.

115.Даниленко В.И. Современный политический словарь. М.: 2000.

116.Дворцов А.А. Возникновение политической науки, ее становление и развитие http//www/ erudition/ru/ referat/ pre- download/id/

117.Демидов А., Федосеев А. Основы политологии. М.: 2001.

118.Зеркин Д.П. Основы политологии. Курс лекций, Ростов-на Дону: Феникс,2009.

119.Зинчер М.И.,Вилдавский А.М. Почему великие демок- ратии останутся демократичными// Демократия 1990-х. 1998, Специальный выпуск. с.16

120.История политических и правовых учений. Учебник. Под ред. О.Э.Лейста. М.: Зеркало, 2000.

121.Каменская Г.В. Политические системы современности. М.: Политиздат, 2014.

122.Канетти Э.Масса. Хрестоматия. Самара: 1998.

123.Конституции стран СНГ и Балтии: Учебное пособие. Сост. Андреева Г.Н. М.: Юристь, 2015.

124.Конституции зарубежных государств: Учебник. Под ред. В.В. Малакова. М.: Юристь, 2001.

125.Лавриненко В.Н. Политология. М.:2006.

126.Лебедева М.М. Мировая политика. М.: 2003.

127.Лысенко В.И. Выборы и представительные органы новой Европе: политический опыт и тенденции 80-х 90-х годов. М.: Наука, 1994.

128.Линч Х. Опасности президентства. М.: 2005.

129.Липсет С. М. Ролъ политической кулътуры. М.:2003.

130.Лукашева Е.А. Права человека: Учебник для вузов. М.: Норма, 2010.

131.Макиавелли Н. Государь. М.: Планета, 1995.

132.Малкин Е.Основы избирателных технологий. М.: Русская панорама, 2000.

133.Марченко М. Политология. Учебное пособие для сту- дентов вузов. М.: 2005

134.Матвеев П.А. Политика и мировоззрение. М.: Политиздат, 2003.

135.Меньшиков С. Наш капитализм: между олигархическим и бюрократическим. www.gumer.info.

136.Мирский Г.Еще раз о распаде СССР и этнических кон- фликтах // Мировая экономика и международные отношения, 1997, № 2, с. 14-18.

137.Мирский Г.Нация, этнос, религия в центрально-азиатском контексте // Мировая экономика и международные отно- шения, 1993, № 12, с. 5-10.

138.Мирский И.Демократическая политика и культура демократии//Демократия 1990-х, 1993, Специальный выпуск, с.7-15.

139.Михайлова А.И. Ценности гражданского общества и личность. М.: Гардарики, 2011.

140.Мусиенко Т. Демократические и религиозные ценнос- ти. М.: 2001

141.Мюллерсон Р.А. Права человека. Идеи, нормы, реальность. М.: Политиздат, 1991.

142.Панарин А.С. Политология. Общий курс. М.: 2003.

143.Политическая энциклопедия. Под ред. Семигина Г.Ю. М.: Мысль, 1999.

144.Политология. Учебное пособие. Под ред. Краснова Б.М. М.: 1995.

145.Политология. Краткая хрестоматия. Сост. Исаев Б. 1-е издание. М.: 2008.

146.Политология. Словарь-справочник. М.: Норма, 2000.

147.Политология в вопросах и ответах: Учебное пособие. Под ред. Ю.Г. Волкова. М.: 2001.

148.Политицеские партии в условиях демократии.М.: Фонд К.Аденаура, 1997.

149. Соловёв А.И. Введение в политологию. М.: Политиздат, 2014

150.Пушкарева Г.В. Партии и партийные системы: концепция М.Дюверже. Социально-политический журнал, 1993, № 9-10.

151.Ольшанский Д.В. Политическая психология. М.: 2000.

152.Робинсон М.А. Многоэтнические государства и защита прав меньшинств. Всемирная конференция по борьбе против расизма, расовой дискриминации, ксенофобии и связанной с ними нетерпимости. Специальный выпуск. Дубан: 2001.

153.Рыскова Т.М. Политический портрет лидера: вопросы типологии. Вестник МГУ, серия 12, № 3,1997.

154.Санистебан И. Политические системы и легитимность. Диалог,1993, № 4.

155.Сартори Д. Вертикальная демократия. Полис 1992, № 5-6.

156.Сванели Б.И. С точки зрения международных стандартов. http://www.bkhazeti.ru / 455-html 24/10/2004.

157.Сербинина Н.Г.Теории политического лидерства. М.:2004.

158.Сиделникова Т.Т., Теминков Д.А. Политология. Учебное пособие. М.:1999.

159.Смирнова С.В. Обьект национальной политики // Этносфера, 2001, № 9.

160.Справочник необходимых знаний /Под. Ред А.П. Кон- драшова. М.: Рипол классик, 2000.

161.Страшун Б.А. Конституционное право зарубежных стран. Учебник. М.: Бек, 1996.

162.Тавадов Г.Т. Политология. Учебное пособие для вузов. М.: 2006.

163.Тощенко Ж.Т. Социология: Учебное пособие. М.: Юрайт, 2001.

164.Тургаев А. Политология в схемах и комментариях. М.: Питер, 2008.

165.Унпелев А.Г.Политология: власть, демократия, личность. М.:1994.

166.Устав ООН. http://www.unic.ru./www/old/old/new page htm. 18/01/2001

167.Ушков А. Сравнительная политология. М.:1999.

168.Чиркин В. Конституционное право зарубежных стран. М.: Юрист, 2000.

169.Хрестоматия. Политология. М.:1998

170.Шафиев К.Р. Права и свободы человека в конституции Азербайджана. Баку: 1997.

171.Щевцова Л. Посткоммунистическая Россия: логика развития и перспективы. М.: 1995.

172.Этингер Я.Межнациональные конфликты в СНГ и международный опыт // Свободная мысль, 1993, № 4, с. 87-95.

173.ru.wikipedia.org./wik/ Политология

174.www/politnauka.org/

175.www/glassary.ru/cgi-bin/gl-schr

176.www.bankreferatov.ru

177.http://yanko.lib.ru/books/politologiya/politology-solovyev 2006-a.htm

*D ) İngilis dilində*

178.Alan B., Joyce A., James M. The American Journey. USA: Center for civics education, 2012, 721 p.

179.Alan B.The unfinished nation. A Conside history of the American people. USA: Columbia University, 2015, 1048 p.

180.Alexs de Toqueville. Democracy in America. Edited and abridjed by Richard H. USA: Richard D. Heffner, 2001, 317 p.

181.Civic learning in teacher education. International Perspectivec on education for democracy in the preparation of teachers. Edited by Gregory H.E., John P.J., Robert S.L. USA: Indiana University, 2004, 238 p.

182.Democracy in the 1990 s. A special issue of clobal issues in transition. USA: Information Agency, 1994, 170 p.

183.Fitzpatrick J.M. Human rights in crisis. Philadelphia.: Uni- versity at Pennsilvania press, 1991, 596 p.

184.Foundations of Democracy: Authority, Privacy, Responsibility and Justice/ USA: Center for civic education, 2002, 236 p.

185.Hiqley C., Pakulski J. Elite power games and democratic politics in central and Eastern Europe. London: 2000.

186.Humayun K.Science, democracy and islam and other essays. London: George Allen Unwin, 1955, 126 p.

187.Human rights and democratization in the newly independent states of the former Soviet Union. Washington DC, 1993, 137 p.

188.Human rights: A compilation of International Instruments Vol. I, second part. New-York: United Nations, 2002, 468 p.

189.Human rights: consept and standards. Edited by J. Symanides. Burlington: Aldershot Company, 2000, 373 p.

190.Huntington S.After twenty years: the future of the third wave // Journal of Democracy, 1997, №4, p. 3- 12.

191.Introduction to human rights/ Executiv editor George Clarck. USA: Center for civic education, 1998, 49 p.

192.Kathryn E., Adam S. The human rights handbook: A practical quide to manitorinq human rights.Gread Britain:Oxford UK, 1995,378 p.

193. Lively C., Lively A.Democracy in Britain. United Kingdom: Oxford, 1994, 305 p.

194.Modern politikal thories today. Edited by David Held. Stan- dford University Press, Kalifornia, 1991

195.National standards for civics and government. USA: Center for civic education, 2000, 187 p.

196.New direction in comparative politics. San Fransisco, Oxford 1991.

197.Political systems explained from kommunizm to kapitalizm. dispace dial pipex.com

198.Rosenbaum W.A.Political culture. Basic conseption political science .N.Y., 1975.

199.Searing D.Theory of political socialization institutional support and deradicalization in Britain//British Journal of political science, 1996, III part.

200. The state, political system and society. www/ hawaii. edu

201.Urofsky M.İ. Basic readings in U.S.Democracy: A teachers quide. USA: United States İnformation Agency, 1995, 55 p.

202.We the people: Student text. USA: Center for civic education, 2002, 168 p.

203.Varma S. Modern political theories. Dehli.: 1999

204.Zakaria F. The rise of liberal Democracy. Foreign Affaairs, November, № 6, 1997.